Səyyarə İbadullayeva, Ramiz Ələkbərov

# DƏRMAN BİTKİLƏRİ

*(Etnobotanika və Fitoterapiya)*

# Medicinal plants

*(Ethnobotany and Phytoterapya)*

*"Təhsil" EİM*

Bakı-2013

**Elmi redaktor:** **İ.M.Hüseynova,**
***Biologiya elmləri doktoru, professor,***
***AMEA müxbir üzvü***

**Rəyçilər:**
**T.H.Talıbov,**
***Biologiya elmləri doktoru, professor,***
***AMEA müxbir üzvü, Əməkdar elm xadimi***

**S.V.Sərkərov,**
***Kimya elmləri doktoru, professor,***
***Əməkdar elm xadimi***

**M.N.Vəliyeva,**
***Əczaçılıq elmləri doktoru, professor***

**İ M-0047543**
**700122** **Qrifli nəşr, 2013.**
© «Təhsil» EİM, «Borçalı» NPM, 2013,

# ÖN SÖZ

Bitkilərin müalicəvi xüsusiyyətləri insanlara qədim zamanlardan məlumdur. "Min dərd varsa, min bir də dərmanı var" deyən ulularımız bitki örtüyündəki minlərlə otlardan, gül-çiçəklərdən, bitki köklərindən, tərəvəz və meyvələrdən istifadə etmiş və öz azar-bezarlarını bitkilərdən hazırladıqları dərmanlarla müalicə etmişlər. Belə təbii dərmanları insanların tanımaları və onlardan istifadə etmələri zamanın sınağından uğurla çıxmış və bugünkü elmi-texniki tərəqqi əsrində də öz əhəmiyyətini itirməyib daha da artırmışdır. Hətta bir vaxt xalq təbabətinə - türkəçarəyə qısqanclıqla yanaşan elmi təbabət də bu gün onun əhəmiyyətini etiraf edir.

Yalnız XIX əsrin ikinci yarısından başlayaraq kimya elminin və yüngül sənayenin sürətlə inkişafı kimyəvi preparatların yüksək dərəcədə istehsalını və tətbiqini genişləndirdi. Nəticədə bəzi xəstəliklər, xüsusilə yoluxucu xəstəliklər keçmişdə kəskin formada keçirdisə, sonralar xroniki formalarda rast gəlinməyə başladı. Bunun da əsas səbəbi xəstəliklər zamanı kimyəvi dərman preparatlarının həddən çox və lüzumsuz yerə tətbiq olunması idi.

Bütün bunlar nəzərə alınaraq son 10 ildə dünyada etnobioloji üsulların effektivliyi öyrənilməyə başlanıldı. Belə qənaətə gəlindi ki, etnobiologiyanın bir qolu sayılan etnobotanikadan, başqa sözlə, xalq təbabətindən istifadə etmək daha effektiv və ziyansızdır.

Hal-hazırda dərman bitkilərindən istifadə o qədər təkminləşdirilmiş və dərin elmi məlumatlar əsasında aparılır ki, bu da hər bir xəstəliyin tezliklə aradan qaldırılmasına zəmin yaradır. Bu gün dərman bitkilərindən istifadə üsulları çoxcəhətlidir: dərman

bitkilərinin şirələrinin, çiy halda salatların, dəmləmə, bişirmə, məlhəm və s. istifadə olunması, onların bioloji fəal maddələrinin təsirinin birbaşa patoloji proses baş verən nahiyələrə çatdırılması xəstənin müalicəsi ilə yanaşı, orqanizmin müdafiə durumunun yüksəlməsinə də şərait yaranır. Qeyd etmək lazımdır ki, bitkilərdən hazırlanan dərmanlar heç vaxt fəsad törətmirlər.

Dərman bitkilərindən istifadə olunması, əhalinin bu müalicə üsuluna inamının yaranması ekoloji cəhətdən də az əhəmiyyətli deyil. Belə ki, bitkilərin insan həyatındakı əhəmiyyətini və onun müalicəvi təsirini öz üzərində sınaqdan keçirmiş şəxs, təbiətin bu cür zənginliyinə heç vaxt biganə qalmaz və onu ürəklə qoruyar.

Bu baxımdan geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitab bitki ilə müalicənin üstünlüklərini hamı üçün anlaşılan çox sadə dildə açıb göstərir, xalq təbabətinin tarixən məlum olan təcrübələrini müasir fitoterapiya və bitkilərin kimyəvi tərkibinin açıqlanması ilə bir daha təsdiq edir.

***İ.M.Hüseynova***

# GİRİŞ

*Dünya təbabətinin atası sayılan filosof və həkim Əbu Əli Ibn-Sina deyirdi: «Həkimin üç silahı vardır: söz, bitki və bıçaq».*

Dərman bitkilərinin öyrənilməsi və ondan istifadə olunması ən qədim tarixi dövrlərdən - ibtidai icma dövründən başlamışdır. Hələ ibtidai insan öz həyatını qorumaq və baş verən xəstəlikləri aradan qaldırmaq üçün bitkilərdən geniş istsfadə etməyə çalışmışdır. Yazı icad olunana qədər dərman bitkiləri haqqındakı məlumatlar nəsildən-nəsilə şifahi surətdə keçirdi. Bundan sonra isə dərman bitkiləri haqqında külliyyatlar yazılmışdır. Şumrilər üç fənn əsasında (astronomiya, din və riyaziyyat) dərman bitkilərinin təsirlərini də əlavə etməklə tibb elmləri yaradaraq, maraqlı məlumatlar vermişlər. Eramızdan 4 min il əvvəl şumriləri əvəz edən babillər daha sonra isə assoriyalılar şumrilərin tibb və əczaçılıq elmləri sahəsində qazandıqları nailiyyətləri ələ keçirib daha da inkişaf etdirdilər. Bitki tərkibli dərmanlarla müalicə işini nizamlı şəklə salmaq məqsədilə tibb təcrübəsində ölçü və çəki üsullarını tətbiq edir, yazı sistemini səliqəyə salır və dərman bitkilərinin daha geniş öyrənilməsinə zəmin yaradırdılar. Misirlilərin «Papirus-Ebersa» adlı 7 cilddən ibarət tibb külliyyatı dərman bitkilərinin öyrənilməsinə və istifadə olunmasına həsr edilmiş, olduqca dəyərli tarixi bir əsərdir. Bu əsərdə ayrı-ayrı dərman bitkilərinin elmi adları, müxtəlif xəstəliklərdə qəbul edilmə vaxtı və istifadə olunma qaydaları xüsusi səliqə ilə təsvir edilmişdir. Dərman bitkilərinin öyrənilməsi sahəsində qədim Hindistan, Çin, Yunanıstan, Misir, Iran və Romanın böyük rolu olmuşdur. Qədim Çin təbabətində insanın bir çox xəstəlikləri və onlara qarşı bitkilərdən istifadə etməklə müalicə qaydaları göstərilmişdir .

Hindistan təbabətinin ən qədim və məşhur külliyyatı «Ayur Veda» (Həyat elmi) eramızdan 2600 il əvvəl yazılmışdır. Bu əsərdə Hindistan həkimi Suşurta Asklipidanın işlərinə qədər olan

bütün tibb və əczaçılıq ədəbiyyatları ümumiləşdirmişdir. Burada ayrı-ayrı dərman bitkilərinin botaniki təsviri, coğrafi yayılmaları, toplanma vaxtı, müxtəlif xəstəliklərə qarşı işlədilməsi qaydaları göstərilmişdir. Dərman bitkilərindən olan rəvənd, darçın, zəncəfil, jen-şen, tiryək bu dövrlərdə artıq dünya bazarına məlum idi.

Dünyanın qədim kitabxanalarında Assuriya çarı Aşşurbanipalanın Ninevidəki (b.e.ə. 660 illər) gil lövhələr üzərində dərman bitkiləri haqqında məlumatları mövcuddur. Bu yazılarda dərman bitkilərindən ayrı-ayrı xəstəliklərdə necə istifadə olunması qaydaları göstərilmişdir.

Təəssüf ki, arxeoloji qazıntılar bizim üçün qədim dərman bitkilərini tam şəkildə açıqlaya bilmir. Hindistanda və Çində memarlıq abidələrinin üzərindəki ilk yazılar bizə bitkilərin müalicə məqsədilə istifadə olunmasından xəbər verir. Bitkilərdən xüsusi istifadə olunması haqqında maraqlı məlumatlara Sankrist, qədim yəhudi, Çin, Yunan, Roma mədəniyyət abidələrində rast gəlinmişdir.

Tibb və əczaçılıq elminin inkişafında qədim Yunanıstanın da böyük rolu olmuşdur. Tibb elmi öz inkişafına Hippokratın (b.e.ə. 460-377 illər) dövründə başlamışdır. O özünün həkimlik fəaliyyətində «Corpus Hippocraticum» küllıyyatını yazmış, bu külliyyat dərman bitkiləri və tibb elminin inkişafında mühüm rol oynamış, indiyə qədər də öz əhəmiyyətini itirməmişdir. Görünür ki, bu məlumatların bəziləri Misir tibbindən götürülmüşdür. Hippokrat qədim Yunan tibbində müalicəvi vasitə kimi istifadə olunan 236 bitki göstərmişdir.

Ilk tibb ensiklopediyası və ya müalicə ensiklopediyası Avlu Korneliyu Tselsuya (b.e.ə. I əsrin sonu və b.e. I əsrin başlanğıcı) məxsusdur. Bizim eranın I yüzilliyinın yarısında Roma ordusunun həkimi Azii Dioskorid o dövrdə məlum olan və geniş şəkildə istifadə olunan 500 qədər dərman bitkilərinin siyahısını vermişdir. Bu kitab təkcə botaniklər üçün deyil, həm də farmokoloqlar üçün də özünəməxsus klassik mənbə rolunu oynayır.

Yeni dərman bitkilərinin öyrənilməsində məşhur həkim və əczaçı qədim romalı Klavdius Qalenin (b.e.ə. 129 - 201 illər) böyük xidməti olmuşdur. O, dərman formaları texnologiyası elminin banisi kimi tibb sahəsində 200–ə qədər əsər yazmışdır. Bunlardan ən mühüm əhəmiyyət kəsb edən və tibbdə böyük rol oynayan iki əsəri nəbatat elminə aiddir. K.Qalenin əsərləri dəfələrlə ərəb, fars və qədim yəhudi dillərinə tərcümə olunmuşdur. O, ilk dəfə olaraq bitki xammalından preparatlar, məhlullar və ekstraktların alınmasının təşəbbüskarı olmuşdur. Hazırda tibbdə bu dərman preparatları «*Qalen preparatları*» adı ilə indiyə qədər də öz əhəmiyyətini itirməmişdir.

Əl-kimyaçıların hakimiyyəti dövründə tacik xalqının məşhur oğlu həkim və əczaçı Əbu-Əli İbn-Sinanın tibb və əczaçılıq elmləri sahəsində yaratdığı əsərlər bütün dünyada şöhrət qazanmışdır. Tibb məktəbinin görkəmli nümayəndəsi olan İbn-Sinanın anadan olmasının 1000 illiyini 1980 ildə bütün dünya qeyd etmişdir. Onun 5 cilddən ibarət «Tibb elminin qanunları» külliyyatı dəfələrlə dünyanın bir çox dillərinə tərcümə olunmuş və orta əsrlərdə Ərəb və Avropa alimlərinin stolüstü kitabına çevrilmişdir. İbn-Sina öz kitablarında 900 qədər dərman bitkisi haqqında geniş məlumat vermişdir.

Ərəblər ilk dəfə olaraq əczaçılıq elmini müstəqil şəklə salmış və bu sahədə ixtisas verən məktəblər açmışdır. «Qərabəddin Kəbir» adlı farmokopeya kitabı yazılmış, dərman bitkilərinin istifadə olunması və öyrənilməsinə aid bir sıra nəzəri və əməli işlər görmüşlər. IV əsrdə botanika - latın tərtibatçısı Arileem meydana çıxmışdır.

Qədim çin məktəbinin yetirməsi olan Li-Şi-Çjeniya (1522-1596) «Famokoqnoziyanın əsasları» kitabında çoxsaylı müalicə vasitələrinin xassələri haqqında ətraflı məlumat vermişdir.

Qədim Hindistan həkimləri bir çox xəstəlikləri qanalma və qançıxarma ilə yanaşı, bitki mənşəli dərmanlarla da müalicə etmişlər. Eyni zamanda Hindistanda olan bitkiləri (xüsusən, yeməli) Roma imperiyasına daşımışlar. Bu bitkilərdən bir çoxu -

çibibuxa, ilankölgəsi çoxdan Avropanın tibb praktikasına daxil edilmişdir. Əgər tibbi nöqteyi nəzərdən baxılsa, dərman bitkiləri haqqında bunu demək olar: «biz bitkilər aləmində yaşayırıq». Bu söz vaxtılə qədim budda tibb sirlərində də səslənmişdir.

IX-X əsrlərdə Dioskoridin, Qalenin və Arileemin nəbatat haqqındakı əsərləri ilk dəfə olaraq Avropa dillərinə (italiyan, fransız, ingilis və alman) tərcümə olunmuşdur. Lakin Avropa nəbatatı haqqındakı orijinal əsərlər bundan çox sonra XV-XVI əsrlərdə meydana gəldi. Buradakı məlumatlar müəyyən dərəcədə yunan və latın nəbatatçılarından götürülmüşdür.

XI əsrdə dərman bitkilərini öyrənmək və onlardan müalicə məqsədilə istifadə etmək işi ilə rus monarxları da məşğul olmuşdur.

XVII əsrin əvvəllərində Moskvada – Kremldə «Аптекарски приказ» adlı bir müəssisə təşkil olunmuşdur ki, bu müəssisə Rusiyada tibb və əczaçılıq işlərinə rəhbərlik etmişdir. XVIII əsrin əvvəllərində Rusiyada dərman bitkilərini öyrənmək məqsədilə məşhur lekar Messerşmid Sibirə ekspedisiyaya göndərilir.

Dərman bitkilərinin tətbiqi haqqında ən geniş məlumatlara XIX əsrdə alman – misirşünas tədqiqatçı Georgi Eberson papirusu araşdırarkən nail olmuşdur. Tədqiqatçı «Orqanizmin bütün hissələri üçün dərmanların hazırlanması» kitabını ayrı-ayrı hissələr şəklində bir yerə toplamışdır. Burada bir çox xəstəliklərin müalicəsi üçün qədim misirlilərin istifadə etdiyi çoxsaylı reseptlər vardır. Onlar çox mürəkkəb tərkibli müxtəlif məlhəmlər və miksturalardan ibarətdir. Artıq bu dövrdə Misirdə iyli yağlar, balzamlar, qətranlar geniş yayılmışdır. Bitkilərdən isə əzvay, bağayarpağı, gənəgərçək və s. kimi bitkilərin müalicəvi əhəmiyyəti məlum idi. XIX əsrin sonlarında Sibirin məşhur botaniki P.N.Krılov Sibir və Altayın yerli dərman bitkiləri haqqında müfəssəl məlumat verən bir külliyyat buraxmışdır. Bu illərdə Rusiyada 180-ə qədər müxtəlif dərman bitkisi tədarük olunurdu.

Azərbaycanda isə hələ 850 il bundan əvvəl Nizami Gəncəvi, sonralar isə Məhəmməd Füzulinin əsərlərində bir çox dərman

bitkilərinin adları və istifadə qaydaları göstərilmişdir. N.Gəncəvinin məşhur «Xəmsə»sində mumiyanın (orqanın zədələnməsində), zəfəranı (üşütmə və qızdırmada), balqabağı (qurd və ishala qarşı), yarpızın (mədə-bağırsaq xəstəliyində) müalicəvi əhəmiyyəti göstərilmişdir. XVI əsrdə yaşayan Azərbaycanın böyük şairi və mütəfəkkiri M.Füzuli «Səhhət və Mərəz», «Söhbətül əsmar» əsərlərində geniş tibbi məlumatlar vermişdir. «Söhbətül əsmar» əsərində meyvələrin müalicəvi əhəmiyyətindən, faydalı və zərərli cəhətlərindən bəhs edilir.

Azərbaycan Respublikasında tədqiq olunan dərman bitkiləri botaniklər, fitokimyaçılar, farmokoloq və klinistlər tərəfindən kompleks şəkildə öyrənilir, onlardan tibbi məqsədlər üçün istifadə etməyə zəmin yaradılır. Belə bitkilərdən oleandr, dağ turpu, pişikotu, adi zirinc, qatırquyruğu, qaraqınıq, gülümbahar, damotu, səhləb, yemişan, itburnu meyvəsi, qafqaz xanımotu və digər bitkiləri misal göstərmək olar.

Azərbaycan Respublikası Avrasiyanın Qafqaz regionunda ən böyük ölkədir. Cənubi Qafqazda, Avropa və Mərkəzi Asiyanın kəsişməsində olan Xəzər dənizi hövzəsində yerləşir. Sahəsi 86 600 $m^2$ olan respublika ərazisinin 11,5% meşələr, 1,6% su hövzələri, 50,0% becərilən torpaqlar, o cömlədən 27,0% otlaqlar, 36,9% təsərrüfatlardan ibarətdirdir.

Azərbaycanın təbiəti özünəməxsys rəngarəngliyi ilə fərqlənir, ərazidə zəngin flora və ahəngdar bitki örtüyü formalaşmışdır. By qədim ölkədə 1100-ə qədər cins, 200-dan çox fəsiləyə aid 5000 – ə qədər ali sporly, çılpaq və örtülü toxumlu - çiçəkli bitki növləri formalaşmışdır ki, o da Qafqaz florasının təqribən 70%-ni təşkil edir. Azərbaycanın flora biomüxtəlifliyində həlledici rol çoxillik otlara mənsubdur (66,4%), 2-ci yerdə birillik efemer və efemeroidlərdir (23,4%), qalanları isə digər bitkilərdir. Eləcə də Azərbaycan florası 435 növ olduqca zəngin ağac və kol bitkiləri ilə də fərqlənir. Bunların 5% -i xüsusi statuslu (370 növ) regional endemik və nadir bitkilərdir. Bu bitkilər xüsusi bitki örtüyü formalaşdırmışdır və ümumi Qafqaz regionunda olan bü-

tün areal tiplərinə rast gəlinir: qədim, meşə, səhra, yarımsəhra, boreal, qafqaz, bozqır, kserofil, adventiv və s.

Azərbaycan florasına dərman, efir yağlı, ümumiyyətlə desək, bioloji fəal maddələrlə zəngin bitkilər xammalı mənbəyi kimi baxmaq olar. Azərbaycanın bitki örtüyündən istifadə etməklə, effektiv tibbi yardım göstərmək üçün, yeni müalicəvi-profilaktik dərman vasitələrinin hazırlanması və istifadəsi günün ən vacib və aktual məsələsidir.

Azərbaycan florasında dərman bitkiləri və onların bir çox xəstəliklərin müalicəsində istifadəsi haqqında ta qədim dövrlərə aid məlumatlar olmasına baxmayaraq, daha geniş məlumatlar XIII-XVIII əsrlərə aiddir. Lakin Azərbaycanda dərman və aromatik bitkilərin müasir anlamda elmi tədqiqi ötən əsrin 20-ci illərindən başlanılmışdır. Ölkəmizdə botanika elminin inkişafında xüsusi xidmətləri olan R.Y.Rzazadə, A.A.Fyodrov, A.A. Qrosshyem, L.İ.Prilipko, İ.İ.Karyagin, İ.Y.Hacıyev, Y.M.İsayev, E.X.Xəlilov, Q.F.Axundov, İ.A.Dəmirov, V.C.Hacıyev, N.M.İsmayılov, F.Y.Qasımov, E.R.Əhmədova, hazırda AMEA Botanika İnstitutunun və Azərbaycan Tibb Universitetinin əməkdaşlarından S.V.Sərkərov, E.N.Novruzov, Y.B.Kərimov, M.Ə.Qasımov, M.N.Vəliyeva, S.C.İbadullayeva, T.S.Süleymanov, A.N.Ələsgərova, F.A.Rəsulov, A.Ş.Şixiyev, N.P.Mehdiyeva, S.Ə.Zeynalova, S.C.Mustafayeva, L.X.Mustafayeva və başqaları floramızda olan dərman bitkiləri üzrə elmi tədqiqat işləri aparmışlar. Mütəxəssislər uzun illərdən bəri Respublikanın regionlarına mütəmadi ekspedisiya səyahətləri etmiş, toplanılan bitkilərin kimyəvi tərkibi və farmaseptik xüsusiyyətləri öyrənilmiş, bir sıra preparatlar hazırlanmış və dəyərli nəticələr əldə edilmişdir. Floramızdan ilkin invertarizasiya zamanı 800 növ dərman, 850 növ efiryağlı bitkilər toplanılaraq təyin edilmişdir.

Hazırda Azərbaycan alimlərinin apardıqları elmi tədqiqatlar nəticəsində ölkədə 178 fəsilə və 740 cinsi təmsil edən1500-dan artıq dərman (o cümlədən 315 növ alkoloidli, 150 növ kumarinli, 1000 növ efiryağlı) bitkisi aşkar edilmişdir, onların 400-ə qədəri

təbabətdə sınaqdan keçirilmiş, 55 növün sənaye əhəmiyyəti aşkar edilmişdir. 100-dən çox alkoloid, kumarin, aromatik, terpen birləşmələri, seskviterpen laktonları və lekorin, salosodin, efedrin, melliktin, berberin, tauremizin, santonin, seslozid, radiotinin, radiotinol, plümbaqin, şafranol, koçotimol kimi qiymətli dərman maddələrinin yeni mənbələri aşkar edilmişdir. Alınan maddələr və dərman preparatları patentləşdirilmişdir.

Biokimyəvi tədqiqatlar dərman bitkilərində təsiredici maddələrin (alkoloid, kumarin, saponin, efir yağı və s.) toplanmasında olan qarşılıqlı münasibətin, xarici mühit amilləri təsirindən maddələr mübadiləsindən asılı olaraq hansı istiqamətdə dəyişilməsinin aşkar edilməsinə, efir yağlı bitkilərin qarşılıqlı seleksiyasına yönəldilmişdir. Azərbaycanın müxtəlif bölgələrində geniş yayılmış, ən qiymətli və hərtərəfli öyrənilən efir yağlı bitkilərdən pişiknanəsi, kəklikotu, mərzə, dağnanəsi, yovşan, birgöz, boymadərən və Kərəvüzkimilər fəsiləsinin nümayəndələrindən – qrammoskiadium, baldırqan, yalançı cirə, cacıq, zirə, cirə, dağ kişnişi və s. (83 növ) növlər hərtərəfli öyrənilmiş və onlardan nəinki qida qatqısı, həm də dərman məqsədilə istifadə edilmənin imkan və yolları aydınlaşdırılmışdır.

Aparılan sistematik tədqiqatlar zamanı məlum olmuşdur ki, faydalı bitkilərin 95% Magniofita şöbəsinə aiddir.

Dərman bitkilərindən Respublikada 5 min *t* biyan kökü, 50-60 *t* kitrə (astraqal), 15 *t* zirinc kökü, 27 *t* yemişan meyvəsi və 4 *t* çiçəyi, 400 *t* çaytikanı meyvəsi, 30 *t* andız kökü, 220 *t* baldırqan, 136 *t* dazı otu, 7 *t* murdarça meyvəsi, 6 *t* cökə çiçəyi, 23 *t* boyaqotu, 54 *t* sumax, 15 *t* vəlgə yarpağı, 500 *t* itburnu meyvəsi, 8*t* somazçiçək, 10 *t* boymadərən və s. digər qiymətli bitkilərin ehtiyatı müəyyən edilmiş, onların areal xəritələri tərtib olunmuşdur.

Bioloji və ekoloji tədqiqatlar nəticəsində 350 növ aromatik bitkinin introduksiya edilməsinin mümkünlüyü aşkar edilmişdir. Becərilən bitkilərdən zəfəran, nərgiz, ətirşah, qızılgül, kəkotu və s. efir yağının kimyəvi tərkibi və aromatik xassələri tədqiq edi-

lərək, istehsalata tövsiyyə olunmuşdur. Ölkəmizdə Qızılgülün məhsuldar növləri (Qazanlıq, Qırmızı, Krım, Raduqa) Botanika İnstitutunun Zaqatala efiryağlı bitkiçilik təsərrüfatında vaxılə 10 hektarlarla əkilmiş, onlardan qiymətli efir yağı alınaraq, xeyli iqtisadi səmərə əldə olunmuşdur.

Efir yağları uzun illərdən bəri bir cox məqsədlərlə qədim insanlar tərəfindən istifadə olunan, xüsusilə dünyada elmi və ticari olaraq bir çox istehsal müəssisələrində işlədilən təbii maddələr məcmusudur. Bunlar əsasən kosmetik, dərman, qida sanayesi, aromaterapiya və fitoterapevtik məqsədlər daşıyır. Hələ birinci dünya müharibəsində həkimlər dərman qıtlığı zamanı qonqrenaları, vərəmi efir yağları ilə müalicə etmişdirlər. Efir yağları geniş istifadə edildiyi üçün son zamanlar bir çox alimlərin maraq dairəsi olmuş və bu yağların kimyəvi tərkibi tədqiq edilməyə başlanılmış, onların tərkibində olan bioloji fəal maddələr geniş maraq doğurmuşdur.

Bizim aldığımız efir yağları Azərbaycanın ən böyük şirkətlərindən biri olan AZƏRSUN Holdinqin elmi araşdırmalar bölümündə maraq doğurmuş, çayların, ət konservlərinin ətirləndirilməsi üçün sınaqdan keçirilmiş, proflaktik məqsədlər üçün spirtli kolonyalar, lasyonlar hazırlanmış (sauna və digər məişət yerlərində antivirus, antibakterial və antiseptik vasitə) və hazırda şirkətin AR-GE (elmi araşdırmalar) bölümü bu təbii vasitələrin istehsalı yönümündə tədqiqatlar aparır. Digər tərəfdən efir yağları güclü antioksidant, antibakterial və antivirus xassələrə malikdir ki, bu da konservləşmədə əvəzedilməz təbii və ziyansız bir vasitə hesab olunur. AR-GE bölümündə dərman bitkiləri ilə hazırlanmış müxtəlif çeşidli çaylar və sərinləşdirici içkilər də sınaqdan keçirilmişdir.

AZERSUN bitki mənşəli məhsullarının çeşidləri elmi və praktiki cəhətdən ənənəvi xalq təbabəti təcrübəsinə əsaslanır, ən yeni texnalogiyaları, yüksək ixtisaslı kadırların vəhdətini özündə cəmləşdirir. Fitovasitələrin istehsalçılarının əsas məqsədi, beynəlxalq standartlara cavab verə biləcək ekoloji cəhətdən təmiz,

hazırlanmış yüksək keyfiyyətli məhsulları bütün dünya istifadəçilərinə əlverişli şərtlərlə realizə etməkdir.

Günümüzdə dərman bitkilərinin və bu bitkilərə aid efir yağlarının əldə edilib dəyərləndirilməsi həm elmi, həm də iqtisadi cəhətdən olduqca vacibdir. Azərbaycan alimləri tərəfindən əldə edilən nəticələr sübut edir ki, regiona məxsus efiryağlı bitkilərdən alınan efir yağlarının antimikrob, antivirus, antioksidant və antifunqal fəallığı, onlardan dərman preparatları hazırlanması üçün dəyərlidir. Bununla yanaşı efir yağlarının farmakoloji əhəmiyyəti də araşdırılaraq tibb, kosmetik və digər sahələrdə istifadə imkanlarının yararlı ola biləcəyi tərəfimizdən aşkar edilmişdir.

Azərbaycan florasında dərman əhəmiyyətli aşılayıcı xassəli bir çox bitkilərin böyük ehtiyatı vardır ki, bu da onlardan həm dərman kimi, həm də gön-dəri sənayesində istifadə edilməsinə imkan yaradır. Rəvənd, dəvəayağı və s. bitki ekstraktları istehsalata tövsiyyə olunmuş, nar qabığından alınan ekstrakt isə sənayedə istifadə olunur və eyni zamanda bu bitkilərin aşılayıcı xüsusiyyətləri əczaçılıqda tətbiq edilir.

Insan cəmiyyəti yarandığı vaxtdan yabanı floradan istifadə etməyə başlamışdır. Yeyilən yabanı bitkilərin böyük əksəriyyətini yabanı tərəvəz bitkiləri təşkil edir. Belə ki, dünyada 5000 yeyilən bitki növü yayılmışdır ki, bunun da 78 fəsiləyə mənsub olan 1200 növü tərəvəz bitkiləridir, onlardan 59 fəsilə (861 növ) ikiləpəlilər sinfinə, 19 fəsilə (336 növ) isə birləpəlilər sinfinə aidir. Bu tərəvəz bitkilərinin 700 növü yabanı, 500 növü isə mədəni floradadır. Azərbaycan florasında 600-dən cox yabanı qida bitkisi vardır ki, bunun da 300 növü yabanı tərəvəzlərdir. Son illərdə təkcə Naxçıvan MR florasından etnobotaniki sorğularla 200-ə qədər tərəvəz bitkisi toplanılmışdır.

Deyilənlərdən aydin olur ki Azərbaycan florası təkcə dərman və aromatik bitkilər kimi deyil, eyni zamanda digər faydalı xüsusiyyətləri özündə cəmləşdirən bitkilərlə də zəngindir.

Lakin ərazilərimizə, yer adlarımıza, musiqimizə və s. əl uzadan ermənilər indi də tez-tez tarixən Azərbaycana məxsus olan bitkilərimizə də şərik çıxmaq istəyirlər. Nar bitkisi Azərbaycan torpaqlarının relikt bitkisi olmasına rəğmən son zamanlar internet səhifələrində onu da "erməniləşdirməyə" başlamışdırlar. Belə məsələlər yolverilməzdir və bunun qarşısının alınması üçün öz floramızı, relikt, endemik bitkilərimizi dünyaya tanıtmaq biz alimlərin üzərinə düşür.

Dünya ticarətində istifadə edilən bitkilərin 50%-i qida, 25% kosmetik, 25% isə dərman məqsədi daşıyır. Azərbaycan florasında yayılan 5000 bitkinin 1000-ə qədəri ətirli, yəni efiryağlı, bir o qədəri də dərman bitkiləri olduğu halda dövlət bundan ixrac məqsədli gəlir əldə edə bilmir. Ixrac məqsədilə bu bitkilərdən istifadə edilərsə ölkəmizə xeyli miqdarda gəlir gətirmək olar.

Elmi-mədəni tərəqqinin yalnız intellektual nailtyyətlərinin inkişafından aslı olması, cəmiyyətdə yalnış fikir doğurar. Minillər ərzində ulu əcdadlarımızın yaratdığı yaşayış təpzi və təbii amillərə əsaslanan qanunauyğunluqların nə qədər düzgün olması hamıya bəllidir. Qədim əlyazmalarda öz əksini tapmış Azərbaycan xalqının çoxəsrlik-tibb, fəlsəfə, tarix, filologiya, hüquq, riyaziyyat, astronomiya və s. sahələri əhatə edən elmi-mədəni tarixi sübüt edir ki, ölkəmizdə elmi araşdırmalar çox qədim köklərə malikdir. Dünya sivilizasiyasında Azərbaycan alimləri və təbibləri öz dünyəvi baxışları və tədqiqatları ilə dəyərli izlər qoymuşlar. Bütün bunlardan və əhalidən toplanılan etnobioloji fikirlərdən istifadə edilmiş, o cümldən Azərbaycan alimləri tərəfindən təklif edilən «Sağlam həyat tərzi» konsepsiyasına əsaslanaraq bu kitab hazırlanmışdır.

## INNAB – *ZIZİPHUS JUJUBA* MILL.

**Bitkinin istifadə orqanı:** Meyvə, yarpaq və gövdəsi. **(Şək.1.)**
**Kimyəvi tərkibi**: Meyvəsinin tərkibi -şəkərlər (30% qədər), üzvi turşular (0,2-3,0%), aşı maddələri (1,5%), C vitamini (400-800mq%), karotin, rutin və kumarin törəmələrindən (2,35%) ibarətdir. Yarpaqlarında alkaloidlər (0,06%), qlükozidlər, saponinlər, aşı maddələri- pirkatexin qrupu (4,6%), qətranlı maddələr (4,0%), üzvi turşular (alma turşusu 1,13%), C vitamini (59mq% quru maddədə), kverçitrin flavanoidı, hiperozid, rutin və kumarin törəmələri (0,3%) vardır. Köklərində 12-15% aşı maddəsi tapılmışdır.

**Xalq təbabətində:** təzyiqin normallaşdırılması üçün geniş istifadəedilir. Innabın ununun balla (qarışığı) (1:2) böyrək və sidik kisəsinin ağrısında, stomatitdə, yuxusuzluqda olduqca faydalıdır.

**Fitoterapevtik göstəriş**: Meyvələrinin dəmləməsi müxtəlif səbəblərdən yaranan öskürəklərdə, hipertoniyada, qan dövranının fəallaşdırılmasında, qan damarlarından xolesterinin və duzların təmizlənməsində effektiv müalicəvi təsir göstərir.

## ƏRIK – *ARMENIACA VULGARIS* LAM.

**Bitkinin istifadə orqanı**: Meyvə və toxumları (şək.2).

**Kimyəvi tərkibi**: Tərkibi saxaroza (27%), qalaktoza (44%), arabinoza (41% qədər), qlükon turşusu (16% qədər), zülali maddələr (0,6%), kitrə və mineral maddələrdən (2,5% qədər) ibarətdir. Bundan başqa bitkidə C vitamini 12-20mq%, P vitamini 20-450mq%, mikroelementlrdən Na-30 mq%, K-305 mq%, Ca-28 mq%, P-26 mq%, Fe-2,1 mq% vardır. Bitkiyə xüsusi rəng verən karotin maddəsi onun tərkibində 0,2-3,2 mq%-dir. Quru ərik meyvələrində (qaysı, kuraqa) 50% şəkər, 1,4-3,4% üzvü turşular, 1,3-2,1% pektin maddəsi, askorbin turşusu -4 *мq*%, PP vitamini -3 *мq*%, karotin - 3,5 *мг*%, vitaminlərdən- $B_1$, $B_2$, $B_{15}$; elementlərdən fosfor, kalsium, kalium tapılmışdır.

**Xalq təbabətində**: Meyvəsi həzm gücləndirici, hərarətsalıcı, öskürək zamanı bəlğəmgətirici, zəif işlədici kimi tətbiq edilir. Quru meyvələrində ürək aritmiyasını nizama salan çoxlu miqdarda kalium vardır.

Pakistan tədqiqatçılarına görə əriyi çox qəbul etmək insan ömrünü uzadır. Onların son rəyinə görə 100 q əriyin qanyaranmadakı rolu 40 q dəmir və ya 250 q təzə qaraciyərə bərabərdir. Pakistan xalq təbabəti göstərir ki, uşaqların qida rasionunda əriyin olması boy artımına və orqanizmin möhkəmləndirilmsinə kömək edir.

**Əks göstəriş:** Ishal halları.

## HEYVA - *CYDONIA OBLONGA* MILL.

**Bitkinin istifadə orqanı**: Meyvə, toxum və yarpaqları (şək.3).
**Kimyəvi tərkibi**: Toxumlarının tərkibində selik (22,8%), amiqdalin qlikozidi (0,530- 0,505%), aşı maddələri, fitonsidlər, piroqol (5,66%) şəkərlər, zülali maddələr, piyli maddələr, (16,92-20,0%) və s. vardır.
**Xalq təbabətində**: Ödqovucu və sidikqovucu, qanazlığı, vərəm xəstəliyində qanhayxırma zamanı müvəffəqiyyətlə işlədilir. Heyva yarpaqlarının və meyvənin daxilindəki toxumların dəmləməsi sinəyumşaldıcı dərman çayı kimi geniş istifadə olunur. Onun yarpaqlarından azərbaycanlıların milli yeməklərindən olan "dolma" bişirilir.
**Fitoterapevtik göstəriş**: Mədə-bağırsaq, uşaqlarda kolit, soyuqdəymə, zökəm, bronxit xəstəliklərində yumşaldıcı, təmizləyici vasitə kimi işlədilir.
**Hazırlanması:** Qalen preparatı kimi yarpaqlarının spirtli məhlulu (1:5), ekstrakt (1:1) kimi ürək-damar xəstəliklərində, hipotenziv xüsusiyyətinə görə işlədilir. Yarpağının sulu məhlulu (5:200,0) bronxial astma pristuplarını kəsir.

## ZEYTUN - *OLEA EUROPAEA* L.

**Bitkinin istifadə orqanı**: Meyvələri (şək.4).
**Kimyəvi tərkibi**: Tərkibində yağ (50-70%) - olein (80% qədər), linol, palmitin (10%), stearin (5-8%) qliseridləri vardır. Toxumlarının tərkibində 30% qədər piyli yağ vardır.
**Xalq təbabətində**: Zehnin aydınlaşdırılmasında, qanın şlaklardan və mədə-bağırsağın çöküntülərdən təmişlənməsində işlədilir.
**Fitoterapevtik göstəriş**: Təmiz rafinad olunmamış zeytun yağı mədə-bağırsaq xəstəliklərində mədə divarına yayılaraq bürüyücü, yumşaldıcı və zəif işlədici kimi istifadə edilir. Yarpaqlardan alınan ekstrakt orqanizmə hipotenziv təsir göstərir. Tərkibi həm də fitonsidlərlə zəngindir.

## BADAM – *AMYGDALUS COMMUNIS* L.

**Bitkinin istifadə orqanı**: Toxumları (şək.5).

**Kimyəvi tərkibi**: Əsasən tərkibində yağ (45-62%) - olein (83% qədər), linol (16%) qliseridləri vardır. Toxumlarının tərkibində selik, saxaroza (2,97%), pentoza (3,1-3,8%), aleyron (20% qədər), xolin, asparagin, $B_2$, və C vitaminləri, kül elementi (4,9%) və kalsium, kalium, maqnezium fosfatlar vardır. Toxumlarının tərkibi acı amiqdalin qlikozidi (3-4%), benzoy və sianid (C-amiqdalin) turşusundan ibarətdir. Ədəbiyyat mənbələrinə əsasən demək olar ki, yabanı badam qamma şüalanmanın mənbəyidir, tərkibindən bir neçə radioaktiv elementlərin izotopu tapılmışdır.

**Xalq təbabətində**: Badam yağı yumşaldıcı və işlədici maddə kimi mədə-bağırsaq xəstəliklərində istifadə edilir. Orqanizmin möhkəmləndirilməsi üçün şirin badamdan halva, müxtəlif çərəzlər və digər yeyinti məhsulları hazırlanır.

**Fitoterapevtik göstəriş**: Acı badam yağı bronxial astma, difteriya, ağ ciyər, burun-qulaq-boğaz xəstəliklərində və güclü öskürmələrdə tətbiq edilir.

## IYDƏ – *ELAEAGNUS ANGUSTIFOLIA* L.

**Bitkinin istifadə orqanı**: Yarpaq və meyvələri (şək.6).

**Kimyəvi tərkibi**: Tərkibində 40% karbohidrat, selik, zülal, fruktoza, glükoza, polisaxaridlər, aşı maddələri, C vitamini, üzvü turşular və rəngləyici maddələr vardır. Meyvələrinin tərkibində eyni zamanda kalium və fosforlu duzlar vardır. Kök və budaqlarında alkaloidlər tapılmışdır: eleaqnin (0,1%), tetrahidroqarmol (0,05%), N-tetrahidroqarmol (0,001%), aşılayıcı və rəngləyici maddələr və qətran.

**Fitoterapevtik göstəriş**: Ödqovucu, büzücü və iltihabi xəstəliklərdə işlədilir.

**Hazırlanması**: Birinci gün meyvə və yarpaqların məlhəmini 1 çay qaşığı gündə bir-iki dəfə, ikinci gündən sonra gündə 5 çay qaşığı qəbul etmək olar. Müalicə müddəti 1 aydır.

## AĞ TUT - *MORUS ALBA* L.

**Bitkinin istifadə orqanı**: Tibbi məqsədlərlə yetişmiş meyvələrindən, yarpaqlarından, gövdə və köklərinin qabığından istifadə olunur (şək.7).

**Kimyəvi tərkibi**: Ağ tutun yarpaqlarında üzvi maddələr, C vitamini, şəkərli maddələr, aşı maddələri və s., meyvələrində şəkər, üzvi turşular, pektin maddələri, C, $B_1$ vitaminləri, müxtəlif amin turşuları, flavonoidlər, efir yağları (izi), karotin, toxumlarında isə 24-35% piyli yağ vardır.

**Xalq təbabətində**: Ağ tut yarpaqlarının sulu dəmləməsindən, təzə meyvələrindən və onların qatılaşdırılmış şirələrindən (doşab və ya bəhməz) ürək-damar sisteminin xəstəliklərində, qanazlığında, skarlatinada, məxmərəkdə, mədə və onikibarmaq bağırsağın xora xəstəliyində, angina zamanı qarqara kimi işlədilir. Meyvələrinin vannasından revmatizmdə istifadə olunur.

Kökün qabığının sulu dəmləməsindən qurdqovucu kimi, yarpaqlarının sulu dəmləməsindən soyuqdəymələrdə qızdırmasalıcı kimi və epilepsiyada, yarpaq və qabığından hazırlanmış məlhəmdən isə qoturluq xəstəlyində istifadə olunur.

**Hazırlanması:** Dəmləməsi 1:2

Vannada qatı ekstraktı suya əlavə edilrir.

Meyvələr əzilərək oynaqlara yaxma kimi işlədilir. 1 saatdan sonra isti su ilə yumaq lazımdır.

## TURŞ ALBALI - *CERASUS AUSTERA* (L.) BORKH.

**Bitkinin istifadə orqanı**: Meyvələri. (şək.8).

**Kimyəvi tərkibi**: Təzə meyvələrinin tərkibində şəkər (8,8-13,7mq%), inozit, pektin maddələri, boyayıcı maddələrdən – kerasianin xlorid, mekazianin, xrizantemin, zülali maddələr (0,8%), yağlar (0,4%), üzvi turşular (1,0-1,21%, alma turşusu), aşı maddələr, karotin (1 q-da 3,-9,4 qamma), $B_2$ vitamini (150 qamma), C vitamini (15mq%) vardır. Toxumlarının tərkibində amiqdalin qlikozidi vardir ki, dıstillə zamanı bundan acı badam iyi verən sianid zəhərli maddəsi ayrılır. Gövdəsinində kitrə vardır. Bu maddə soyuq suda pis həll olur.

**Xalq təbabətində**: Meyvələri sidik yolları, böyrəkdaşı, mədə-bağırsaq xəstəliklərində tətbiq edilir. Şokundan şəkərli diabet, qara ciyər və maddələr mübadiləsi pozğunluğu xəstəliklərini müvəffəqiyyətlə müalicə etmək mümkündür.

**Fitoterapevtik göstəriş**: Meyvələrindən elmi təbabətdə siroplar və mayeli dərmanlar hazırlanmasında istifadə olunur.

**Əks göstəriş**: Hipotoniya.

## ŞƏRQ KÜKNARI - *PICEA ORİENTALİS* ( L) LİNK.

**Bitkinin istifadə orqanı:** Tumurcuqları və qozaları (şək.9).

**Kimyəvi tərkibi:** Qozalarında mürəkkəb tərkibli efir yağı, aşı maddələri, pinipikrin, gövdəsində isə askorbin turşusu (0,3%), efir yağı və aşı maddələri, nitrat turşusu (35%), dekstropimar (18% qədər), levopimar (36% qədər) tapılmışdır.

**Xalq təbabətində:** Sulu dəmləmələri dəri xəstəliklərində işlədilir. Psixoloji pozuntular zamanı müqəddəs ağac kimi dini inanclarla tətbiq edilir və yüksək effekt verir. Almanlar belə hesab edirdilər ki, küknar budaqlarında insanlara xeyir gətirən, ədalətin qoruyucusu olan "**meşə ruhu**" yaşayır.

**Fitoterapevtik göstəriş:** Bronxit pnevmoniya, bronxoektaziya, revmatizm, revmatodik artrit, xolesistit, xolangit, pielonefrit və sistit xəstəliklərində təyin edilir. Skipidar küknarın oduncağından alınır ki, antiseptik olmaqla, radikulit, miozit, oynaq xəstəliklərində, bronxoektaziya, bronxit və ağ ciyər vərəmində geniş tətbiq edilir. Küknardan alınan şirə məlhəmlərin tərkibində dəri xəstəliklərində xaricə yaxma kimi istifadə edilir.

**Hazırlanması:** 1 xörək qaşığı tumurcuqları 0,5 l qaynar suda dəmləyərək (termosda) gecə yatmazdan əvvəl gündə 1 dəfə 20-40 dəqiqə müddətində yavaş-yavaş isti halda içmək lazımdır (gündəlik doza).

Təmizlənmiş skipidar (Oleum Terebinthinae rectificatum)

Rp.: Ol. Terebinthinae rectificatum 10 ml

D.S.10-15 damcı isti suya əlavə edilərək içilir.

**Əks göstəriş:** Qlomerulonefrit, hepatit və hamiləlik.

## AĞ SÖYÜD - *SALIX ALBA* L.

**Bitkinin istifadə orqanı**: Kökləri (şək.10).
**Kimyəvi tərkibi**: Tərkibində salisin qlükozidi, qətranlı maddələr, ağır su, 200mq vitamin C və katexin vardır. Köklərində 21% aşı maddələri, 5% qədər salisin qlikozidi, salisil turşusu və flavonoidlər tapılmışdır.
**Xalq təbabəti**: Dəri xəstəliklərində, trofik yaralarda, burun-udlaq xəstəliklərində, eyni zamanda istiliksalıcı, büzücü, ağrıkəsici kimi tətbiq edilir. Bundan başqa dəmləməsi saçın uzanmasında işlədilir. Köklərinin dəmləməsi sınmış sümüklərin bərpa edilməsində olduqca vacibdir.
**Fitoterapevtik göstəriş**: Tibb elmi bu bitkini geniş şəkildə öyrənməmişdir. Bəzi ölkələrdə asteniya və iştahasızlıqda təyin edilir. Bolqar təbabətində infeksion xəstəliklərdə (malyariyada xininlə birlikdə), ishalda, oynaqların revmatik zədələnmələrində və podaqrada işlədilir. Kəskin revmatizmdə, qankəsici və qurdqovucu kimi də işlədilir. Podaqra, ishal, vərəm, diatez, ensefalit zamanı tonusu yüksəldir.
**Hazırlanması:** 2 xörək qaşığı bitki 2 stəkan qaynanmış suda dəmlənilir. Dəmlənmə zəif od üzərində 15-20 dəqiqə ərzində və ya soyuq suda 8 saat ərzində aparılmalıdır. Gündə 3-4 dəfə xaricə vanna şəklində verilir.
1 qram bitki kökünün tozunu gündə 3 dəfə yeməkdən əvvəl qəbul etməklə əzələ gərginliyini aradan qaldırmaq olar.

## SALLAQ TOZAĞACI - *BETULA PENDULA* ROTH.

**Bitkinin istifadə orqanı**: Çiçək qrupu, tumurcuq və yarpaqları (şək.11).

**Kimyəvi tərkibi**: Tumurcuqların tərkibində efir yağı, qətran, aşı maddələri, saponinlər, C vitamini, flavonoidlər vardır. Yarpaqlarının tərkibindən karotin və askorbin turşusu, tozağacı şirəsi – şəkər (pevulez), aşı maddələri, flavonoidlər, saponinlər, efir yağı, betuloretin turşusu alınmışdır.

**Xalq təbabətində**: Bişmə və dəmləməsindən sidik və ödqovucu kimi, hipo və avitaminozlarda istifadə edilir.

Spirtli dəmləməsindən yaraların müalicəsində, kəskin və xroniki ekzemalarda, revmatizmdə, qoturluqda, leyşmaniozlarda, mədə ağrılarında, mədə xoralarında, ödemlərdə, qurdqovucu kimi (askarida və bizquyruqda) istifadə edilir. Yaz vaxtı təzə şirəsindən revmatizmdə, podaqrada, sinqa xəstəliyində, ödemlər olduqda istifadə edilir.

**Fitoterapevtik göstəriş:** Yaraların müalicəsində işlədilən Vişnevski, qoturluqda işlədilən Velkinson məlhəmlərinin tərkibinə daxildir.

**Hazırlanması:** Spirtli dəmləməsi -1(90%-li spirt):5 (su) nisbətində.

## AĞ TOZAĞACI – *BETULA ALBA* L.

**Bitkinin istifadə orqanı:** Kök, yarpaq, tumurcuq və şirəsi (şək. 12).

**Kimyəvi tərkibi:** Tozağacının yarpaq və tumurcuqlarında saponin, aşı maddələri, smol, şəkər, vitaminlər, efir yağları, triterpen spirti, inozit, flavonoid və fitonsid tərkibli maddələr vardır.

**Xalq təbabətində**: Kök, yarpaq və tumurcuqlarından (iyli və acıdır) sidikqovucu və qantəmizləyici dərman kimi istifadə edilir. Yarpaqları həm də hərarətlə muşayət olunan xəstəliklərdə tətbiq edilir. Kök, yarpaq və tumurcuqları eyni zamanda podaqra, revmatizm, dəri səpgiləri, ekzema və yanıqlarda xaricə yaxma kimi tətbiq edilir. Qan patalogiyalarında, maddələr mübadiləsi pozğunluğunda, xroniki dispepsiya və meteorizm hallarında tozağacının şirəsindən müvəffəqiyyətlə istifadə edilir.

**Fitoterapevtik göstəriş**: Tozağacının yarpaq və tumurcuqları ürək və böyrək mənşəli ödemləri orqanizmdən xaric etmək üçün yüksək effektli sidikqovucudur. Eyni zamanda kəskin və xroniki hepatitlərdə tətbiq edilən zəif ödqovucudur. Yarpaq və tumurcuqlarından hazırlanmış preparatlardan nefrit, pielonefrit,sistit,böyrəkdaşı xəstəliklərləri müalicə olunur. Bitkinin şirəsi anemiyada, ümumi halsızlıqda, podaqrada, revmatizmdə, frunkulyozda, iltihabsorucu və yarasağaldıcı kimi tətbiq edilir. Dərinin yanıq və digər iltihabi xəstəliklərində işlədilən "Vişnevski", "Vilkison" məlhəmlərinin tərkibi də məhz bu bitkidən alınmış maddələrdən hazırlanmışdır. Tibbdə istifadə edilən aktivləşdirici kömür bitkinin gövdəsindən alınır. Karbolen adı ilə tanınan bu dərman meteorizm, zəhərlənmələr əməliyyatlardan əvvəlki hazırlanmalarda istifadə edilir.

**Hazırlanması**: 2 xörək qaşığı cavan yarpaqları 0,5 litr qaynanmış suda dəmlənilir. 1/2 stəkan gündə 3-4 dəfə 20-40 dəqiqə yeməkdən əvvəl qəbul edilməlidir. Termosda 2 çay qaşığı tumurcuq 1 stəkan qaynamış suda həll edilərək, gündə 2-3 dəfə; 2-3 həftə südlə-bitki qarışığı dəmlənərək qəbul edilməlidir. Tozağacı şirəsi ilə qoyunun piyi və ya donuzun salası bərabər miqdarda qarışdırılaraq dəri yaralanmalarında və yanıqlarında yaxma kimi işlədilir.

**Əks göstəriş**: Tətbiq edilən zaman sidiyin təhlilinə ciddi nəzarət etmək lazımdır.

## ADI PALID – *QUERCUS ROBUR* L.

**Bitkinin istifadə orqanı**: Cavan bitkinin kök, gövdə və budaqları (şək.13).

**Kimyəvi tərkibi**: Gövdəsində çoxlu miqdarda aşı maddələri, flavonoidlər, pektadon, pektin, kraxmal (40%), qal turşusu, şəkər, piy, selik və zülali maddələr vardır. Yarpaqlarının tərkibində kvarsetin, kversetrin, aşı maddələri və pentoza tapılmışdır.

**Fitoterapevtik göstəriş**: Tərkibində aşı və güclü iltihabsorucu maddələr olduğu üçün kəskin və xroniki enterkolit, uzunmüddətli ishal və müxtəlif tipli qanaxmalarda tətbiq edilir. Bitkinin gövdəsinin bişirilməsi - gingivit, stomatit, ağızda pis dad və qoxunun olması zamanı tətbiq edilir. Həm də yanıqlar, ekzema və tər ifrazını artırmaq üçün gecə vannaları qəbul edilir. Uşaqlığın eroziya və kolidləri zamanı irriqasiya etmək üçün palıd gövdəsindən istifadə edilir.

**Hazırlanması**: 1 çay qaşığı bitki kökü 0,5 stəkan qaynanmış suda zəif od üzərində 15-20 dəqiqə ərzində dəmlənələrək, gündə 3-4 dəfə 0,5 stəkan yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir. 4-5 xörək qaşığı bitki kökü 0,5 litr suda həll edərək, xaricə işlədilir.

*D.S. Qarqara üçün - Rp.: Dec. corticis Quercus 20,0 : 200,0*

## YUNAN QOZU – *JUGLANS REGIA* L.

**Bitkinin istifadə orqanı**: Yarpaq və meyvələri (şək.14).

**Kimyəvi tərkibi**: Yunan qozundan yuqlon adlı dərman alınır ki, bu dəri vərəminin və ekzemanın ağır formalarında, paradontozun müalicəsində tətbiq edilir.

**Xalq təbabətində**: Mədə-bağırsaq, ishal, raxit, eksudativ diatez, metabolik artrit, şəkərli diabet və yeni törəmələrin əmələ gəlməsində istifadə edilir. Yanıq zamanı xaricə tətbiqi yaraların sürətlə sağaldılmasına kömək edir. Yarpaqlarının qatı məhlulu ilə saçı yuduqda tükləri möhkəmləndirir. Oynaq xəstəlikləri və dəri səpkiləri zamanı xaricə tətbiq edilir.

**Fitoterapevtik göstəriş**: Qədim Yunan həkimi Hippokrat bu bitkinin yüksək müalicəvi xüsusiyyətlərini qeyd etmişdir. Yarpaqlarının kəskin iyinə görə həşaratların qovulmasında istifadə edilir. Ateroskleroz, bağırsaq, qaraciyər xəstəliklərində, fiziki yorğunluqlarda və əməliyyatdan sonrakı zəifliklərdə istifadəsi məsləhətdir. Maddələr mübadiləsini normallaşdırır, qanda qlükozanın miqdarını azaldır, büzücü və qurdqovucu təsir edir.

**Hazırlanması**: 2 xörək qaşığı bitkini 0,5 litr qaynar suda dəmləyərək (termosda) içmək lazımdır (gündəlik doza).

## AT ŞABALIDI – *AESCULUS HIPPOCASTANUM* L.

**Bitkinin istifadə orqanı**: Yarpaq, çiçək, toxum, kök, gövdə və budaqlar (şək.15).

**Kimyəvi tərkibi**: Tərkibində qlükozidlər, fraksin, eskulin, triterpen saponini, aşı maddələri və yağlar vardır. Yarpaqlarında flavonoidlərdən-kversitrin, izokversitrin, kversetin, rutin, spireozid, aspralqin və karotinoidlər tapılmışdır. At pıtrağının çiçəklərində flavonoidərdən - rutin və digər birləşmələr vardır. Toxumlarında bi- və triozidlər kversetin və kempferol, essin saponini, atressin, yağlar (6,45%), nişasta (49,5%) və aşı maddələr tapılmışdır.

**Xalq təbabətində**: Revmatizmada, qaraciyər xəstəlikləri, venaların varikoz genişlənməsində, hemorroy, tromboflebit, ginekoloji xəstəliklərin müalicəsində tətbiq edilir.

**Fitoterapevtik göstəriş**: Arterial hipertenziya, ürək-damar xəstəlikləri, ateroskleroz, tromboz və emboliyanın profilaktika və müalicəsində işlədilir.

**Hazırlanması**: 2 xörək qaşığı çiçək 2 hissə spirtdə həll edilərək, 1 çay qaşığı gündə 3-4 dəfə su ilə qarışdırılaraq qəbul edilir.

Preparat - *Quru çiçəklərin spirtdə məhlulu* (40 q çiçək 1 litrdə) revmatizmdə, artrit ağrılarında kompres kimi işlədilir.

*Eskuzan (Aescusan)* Vena damarlarının tonuslandırıcı və tromb əleyhinə dərman kimi hemorroy, tromboflebit və baldır venalarının genişlənməsində 10-20 damcı gündə 3 dəfə yeməkdən sonra qəbul edilir. Müalicə zamını qan laxtalanmasına nəzarət etmək lazımdır.

*Esflazid (Aesflazidum).* Flebit, hemorroy və tromboflebitin müalicəsində işlənir. 1 tabletka gündə 1-2 dəfə olmaqla qəbul edilir. Müalicə 2 gün edilir, sonra 3-4 gündən sonra təkrar edilir. Baldır venalarının genişlənməsində müalicə 2 həftədən 2-3 aya qədər, hemorroyda isə 1-4 həftə davam edir. Residiv zamanı müalicə kursu təkrar edilir.

## ÜRƏKŞƏKILLI ÇÖKƏ - *TILIA CORDATA* MILL.

**Bitkinin istifadə orqanı**: Çiçəkləri (çiçəkyanlığı) və yarpaqları (şək16).

**Kimyəvi tərkibi**: Çiçəklərinin tərkibində tiliasin qlükozidi, flavanoidlər, aşı maddələri, saponinlər, selik, vitaminlər və şəkər vardır. Bitkiyə özünəməxsus iy verən tərkibində efir yağlarının, seskviterpen laktonları, alifatik farnezol spirtinin olmasıdır.

**Xalq təbabətində**: Tərlədici, öskürəkkəsici, ağrıkəsici, mədə spazmlarında, böyrək daşında, sidikqovucu kimi, podaqra və nevrozlarda istifadə edilir.

**Fitoterapevtik göstəriş**: Nevroz, yuxarı tənəffüs yollarının iltihabı, angina və qrip xəstəliklərinin müalicəsində istifadə edilir. Sidikqovucu, ağrıkəsici və iltihabəleyhinə maddə kimi pielonefrit və sistit, revmatizma, podaqra, mədə və bağırsaq spazmları, böyrəkdaşı və öddaşı sancıları, qadın cinsiyyət orqanlarının iltihabı xəstəliklərinin müalicəsində təyin edilir. Xarici vasitə kimi saç tökülmələrində, ağız və badamcıqların iltihabı xəstəliklərində, aromatik vannaların qəbul edilməsində, mastit, xora, yanıq, hemorroy və oynaq ağrılarında tətbiq edilir. Bitkidən hazırlanmış aktivləşmiş kömür zəhərlənmələrdə, meteorizm (köp) və ishalda işlədilir. Bolqar həkimləri çökənin çiçəklərini tərlədici, temperatur salıcı, bakterisid, sidikqovucu və spazmolotik xüsusiyyətinə görə istifadə edirlər. Alman həkimləri çökənin çiçəyindən tərlədici, qarqara və xaricə vanna kimi istifadə edilməsini məsləhət görürlər. Polşa həkimləri çökənin çiçəyindən tənəffüs yolları, oynaq revmatizmi, angina, nevralgiya, baş ağrısı və tüklərin bərkidilməsində istifadə edirlər. Çökənin çiçəyindən likyor və konyakların hazırlanmasında istifadə edilir. Bütün türk dünyası ondan rahatlayıcı və sakitləşdirici çay kimi istifadə edir.

**Hazırlanması**: 2-3 xörək qaşığı bitki çiçəyi 2 stəkan qaynar suda dəmlənərək (termosda), qəbul edilməlidir. Xaricə qəbul etmək üçün 4-5 xörək qaşığı bitki çiçəyi 2 stəkan qaynar suda dəmlənərək müalicə aparılır.

## ADI ARDIC - *JUNIPERUS COMMUNIS* L.

**Bitkinin istifadə orqanı**: Meyvələri və budaqları (şək.17).

**Kimyəvi tərkibi**: Meyvələrinin tərkibində şəkər (40%-ə qədər), qətran (9,5%), efir yağı (2%), rəngləyici maddələr, piyli yağlar, üzvi turşular (alma, qarışqa və sirkə), köklərində aşı maddələri, efir yağları, askorbin turşusu (266 mq%) vardır. Oduncağının tərkibində diterpen spirti tapılmışdır.

**Xalq təbabətində və fitoterapevtik göstəriş**: Meyvələri tonuslandırıcı, ümumi möhkəmləndirici, iltihabsorucu, öskürəkkəsici, yumşaldıcı və güclü diuretik təsirə malikdir. Asteniya, qanazlığı, frunkulyoz, oynaq xəstəlikləri, dərinin xroniki xəstəlikləri, öddaşı və böyrəkdaşı xəstəlikləri, podaqrada istifadə edilir. Qara ciyər, böyrək və sidikyolu xəstəliklərinin (xroniki nefrit, pielonefrit, sistit, nefrolitiaz, kəskin və xroniki uretrit) və öd xəstəliklərinin müalicəsində geniş işlədilir. Yüksək keyfiyyətli diuretik maddə kimi müxtəlif etiologiyalı ödemlərin müalicəsində istifadə edilir. Müxtəlif oynaq xəstəliklərində meyvə və budaqlarının məhlulunun (200-300 q xammal 1 litr su) vanna şəklində qəbulu, budaqlarından müxtəlif yoluxucu xəstəliklərdə dizinfeksiya məqsədilə istifadə edilir. Efir yağlı olduğundan həzm sistemini qıcıqlandırır, peristaltikanı artırır, bəlğəmi dürülaşdırır və diurezi artırır. Antibakterial xüsusiyyəti vardır. Meyvələri keyfiyyətli sidikqovucu, dizinfeksiyaedici olduğundan, böyrək daşı, qaraciyər xəstəliklərində və bəlğəmgətimə üçün istifadə edilir. Lakin böyrək parenximinin xəstəliklərində (nefrit) qəbulu əks göstərişdir. Revmatizm, oynaq və əzələ xəstəliklərində mevələri istifadə edilir. Alman və fransız həkimləri mədə, dəri (leyşmaniya, qoturluq, dəri səpkiləri) qaraciyər, böyrək xəstəliklərində istifadə edirlər.

**Hazırlanması**: 2 xörək qaşığı bitki 1 stəkan qaynar suda 6 saat ərzində dəmləyərək (termosda) içilir (gündəlik doza). Gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl 1\3 stəkan qəbul etmək məsləhətdir. 100 qram meyvələri 400 ml həlməşik olana qədər dəmlənilməlidir. Gündə 3 dəfə hər dəfə 1 çay qaşığı yeməkdən əvvəl qəbul edilməlidir. Podaqra və revmatizmdə 200 qram quru meyvələri 2 litr suda həll edilərək qəbul edilir.

Rp.: Inf. baccarum Juniperi 10,0 : 200 ml

D.S. 1 xörək qaşığı gündə 3-4 dəfə qəbul etmək.

**Əks göstəriş**: Böyuk dozada uzunmüddət istifadə etmək böyrək parenximasını qıcıqlandırır, hematuriya (sidikdə qan) yaradır. Böyrəklərin parenxima (kəskin nefrit, nefrozonefrit) xəstəliklərində meyvələrinin dərman kimi qəbulu qadağandır.

## ŞƏRQ TUYASI - *THUJA OCCIDENTALIS* L.

**Bitkinin istifadə orqanı:** Gövdəsi (şək.18).

**Kimyəvi tərkibi**: Tərkibində efir yağı və aşı maddələri vardır. Şərq tuyasının kimyəvi tərkibi az öyrənilmişdir.

**Xalq təbabətində**: Yeni yaranan törəmələrin və şişlərin müalicəsində istifadə edilir. Böyrək, qaraciyər, allergik reaksiyalarda və maddələr mübadiləsi pozğunluğu zamanı işlədilir.

**Fitoterapevtik göstəriş:** Metobolik artrit, osteoxondroz, hepatoxolesistit, öddaşı xəstəliyi, sistit, uretrit, xroniki prostatit və prostatın adenomasında təyin edilir. Sidikqovucu olduğundan ödemlərdə və dəyirmi qurdların qovulmasında istifadə edilir.

**Hazırlanması:** 1 xörək qaşığı bitkini 200 ml qaynar suda dəmləmək (termosda) lazımdır (gündəlik doza). Gündə 3 dəfə yeməkdən 30 dəqiqə əvvəl qəbul etmək olar. Spirtli məhlulu 1: 10 nisbətində hazırlanır. 10-15 damcı gündə 3-4 dəfə xaricə işlədilir.

**Əks göstəriş**: Az zəhərli olduğundan hamiləlikdə tətbiq etmək olmaz.

## ŞƏRQ FISTIĞI - *FAGUS ORIENTALIS* LIPSKY.

**Bitkinin istifadə orqanı**: Oduncaq və fındıqçaları (şək.19).

**Kimyəvi tərkibi**: Fısdığın oduncağının quru destilləsindən qətran alınır. Qətranın tərkibində sirkə turşusu və müxtəlif fenollardan təşkil olunmuş kreozit vardır. Qabığı təmizlənmiş fındıqçalarının tərkibində piyli yağ, azotlu maddələr və s. vardır. Fındıqçalar yeməlidir.

**Xalq təbabətində**: Ağ ciyərin irinli-iltihablı xəstəliklərində, vərəmin ilk stadiyalarında, dərinin müxtəlif xəstəliklərində tətbiq olunur.

**Fitoterapevtik göstəriş:** Qətranın tərkibindəki kreozit güclü bakteriosid və antiparazitar təsirə malikdir. Ondan həb formasında yuxarı tənəffüs yollarının katarında istifadə edilir.

**Hazırlanması:** 1 xörək qaşığı bitkini 100 ml qaynar suda dəmləmək (termosda) lazımdır (gündəlik doza). Gündə 2 dəfə yeməkdən 30 dəqiqə əvvəl qəbul etmək olar.

## ÜZÜM – *VITIS VINIFERA* L.

**Bitkinin istifadə orqanı**: Meyvələri (şək.20).

**Kimyəvi tərkibi**: Tərkibində üzüm şəkəri (10-40%), saxaroza (5% qədər), pektin maddələri, üzvi turşular (2,5% qədər)- alma turşusu (60%), çaxır turşusu (40%), oksalat (izləri), salisil turşusu (metil efiri), azotlu maddələr (1% qədər), zülali maddələr, aminlər, amin turşuları, aşı maddələri (5% qədər), qal turşusu, antosian (enin, delfinidin), flavanoidlər (kversetrin), karotin, C (7,-12,5mq%), K və $B_1$ vitaminləri, fol turşusu, fermentlər (invertaza, enonidaza) və mineral maddələr vardır.

Toxumlarının tərkibində aşı maddələri (1,8-10%), selik, pentoza, piyli yağlar (15-20%) stearin, olein, linol qliseridləri, flobafen, lesitin, vanilin, sirkə turşusu, yod və azotlu maddələr vardır.

Yarpaqlarının tərkibində aşı maddələri (5% qədər), şəkər (2% qədər), inozit, kversetin, betain, alma və çaxır turşuları, karotin, C vitamini (103,8-403mq%) vardır.

Köklərinin tərkibində alkaloidlər (0,038%), qlikozid (0,12-18%), kumarin, saponin, aşı maddələri (1,86% qədər), qətran (1,33%), C vitamini (87,7mq%) vardır.

**Fitoterapevtik göstəriş**: Elmi və xalq təbabətində üzümün meyvələri, meyvələrindən hazırlanmış şirə və çaxır ürək-damar xəstəliklərinin müalicəsində əvəzsiz dərmandır. Üzüm ürək və damarların tonusunu artırır. Toxumaların oksigenə qarşı tələbatını azaldır. Diurezi artırır, qan təzyiqini yüksəldir və maddələr mübadiləsini yaxşılaşdırır. Təzə meyvələri, həm də kişmiş vərəm, bronxoektaziya, qaraciyər, öd yolları, xroniki bronxit, laringit, faringit, plevrit, ağciyər – ürək çatışmamazlığı xəstəliklərini müalicə edir. Qanda hemoqlobinin və eritrositlərin miqdarını artırır, eritrositlərin osmotik rezistentliyini yüksəldir, eritrositlərin çökmə reaksiyasını aşağı salır. Mədə-bağırsaq xəstəliklərində pəhriz kimi, mədə turşuluğunu azaldır. Babasil və qaraciyər xəstəliklərində faydalıdır. Şirəsi qanazlığında möhkəmləndirici, bronxial astma, vərəm, lipid və duz mübadiləsi, ateros-

kleroz, xroniki nefrit, podaqra, hipertoniyanın ilkin mərhələlərində tətbiq edilir.

**Hazırlanması və istifadəsi:** Şirəsinin müalicə müddəti 1-1,5 aydır. Üzümlə müalicə zamanı süd, digər meyvələr, alkoqol, kvas və mineral sular qadağan olunmalıdır.

**Əks göstəriş**: Şəkərli diabet, piylənmə, xora xəstəliyinin kəskinləşmə dövrü, ağciyərin xponiki xəstəlikləri, ürək çatışmamazlıqları, ödem, hipertoniya, bağırsaqların qıcqırma xəstəliklərinin kəskinləşməsində qəbul edilməməlidir.

## NAR – *PUNICA GRANATUM* L.

**Bitkinin istifadə orqanı**: Meyvə, meyvə qabığı, kökü və gövdəsi (şək.21).

**Kimyəvi tərkibi**: Yabanı narın toxumlarının tərkibində 5-6% limon və digər üzvi turşular vardır. Tibb praktikasında limon turşusunun natrium duzundan donor qanının konservləşdirilməsində istifadə edilir. Meyvə qabığında mədə-bağırsaq traktının bakterial xəstəliklərinə təsir edən aşı maddələri (25%) vardır. Kök və gövdəsində piridin törəmələri (pelleterin, izopelleterin, metilpelleterin, psevdopelleterin, metilizopelleterin), piperedin alkoloidi, aşı və digər maddələr vardır. Bu maddələr əsasən lentşəkilli qurdların qovulmasına çox yaxşı təsir edir.

**Xalq təbabətində**: Böyrək və mədə ağrılarında, şəkərli diabetdə müvəffəqiyyətlə işlədilir.

**Fitoterapevtik göstəriş**: Yabanı nar şirəsinin şəkərlə qarışığı «narşərab» kimi iştahasızlıqda, sinqa, babasil, yanıq, angina, ishal, hərarətsalıcı və qurd əleyhinə vasitə kimi geniş şəkildə işlədilir.

**Hazırlanması**: 2 xörək qaşığı meyvə qabığını 1 stəkan suda həll edərək, gündə 3 dəfə qəbul etmək lazımdır. Meyvə qabığının çay kimi dəmləməsi ishalda olduqca faydalıdır.

## LIMON - *CITRUS LIMON* BURM.

**Bitkinin istifadə orqanı**: Meyvə, meyvə qabığı və yarpaqları (şək.22).

**Kimyəvi tərkibi**: Yarpaqlarında efir yağı (0,24%), P və C vitamini (55-884mq%) vardır. Meyvələrində limon turşusu (6-8%), şəkər (2,06-3,78%), qlükoza (0,8%), fruktoza (0,61%), saxaroza (0,74%), $B_1$, $B_2$ və C vitamini (55-83mq%) vardır. Meyvə qabığında flavanoidlər (0,3%), diosmin, hesperidin, 7-ramnozid, eriodiktiol (P vitaminin analoqu), kumarin törəmələri: limettin, aurapten, biakanqelisin, berqamottin, efir yağı (0,4-0,5%), d limonen (90% qədər), heranilol spirti və onun aldehidi vardır. Limon şirəsinin əsas hissəsi limon turşusu, C və P vitaminlərindən ibarətdir.

**Xalq təbabətində**: Malyariya, sinqa, müxtəlif səbəblərdən yaranan yüksək hərarətdə, avitaminozda və qusmada, eyni zamanda qaraciyər xəstəliklərində işlədilir. Böyrək və öddaşı xəstəliklərində, şəkərli diabetdə, qanın təmizlənməsində, sidikqovucu, sarılıq, hipertoniya və hamiləlik zamanı yaranan ürəkbulanmalarda işlədilir.

**İtifadəsi**: İldə 150-200 limondan istifadə edilə bilər.

## MORUQ – *RUBUS IDAEUS* L.

**Bitkinin istifadə orqanı**: Yarpaq və meyvələri (şək.23).

**Kimyəvi tərkibi**: Yarpaqlarının tərkibində limon, kapron, qarışqa, alma, askorbin (45mq%) turşuları, az miqdarda vitamin (B qrup), saxaroza, fruktoza, sianid-xlorid, benzaldehid və aşı maddələri vardır.

**Xalq təbabətində**: Təzə meyvələri alkoqol zəhərlənmələrdə, hipermenorreyada, hemorroyda və dəri səpkilərində istifadə edilir. Yarpaqlarının dəmləməsi ağız və boğaz xəstəliklərində qarqara, dərinin qızartı və səpkilərində, konyuktivitdə olduqca səmərəlidir. Meyvələri tərlədici və istiliksalıcı kimi, yarpaqları isə büzücü dərman kimi ishal və qanaxmalarda tətbiq edilir. Yarpaqlarının dəmləmə və bişirməsi öskürək və anginada yumşaldıcı kimi, yarpaqlarının və çiçəklərinin dəmləməsi isə babasil və qadın xəstəliklərində istifadə edilir. Moruğun təzə yarpaqlarından dəri sızanaq və səpkilərində məlhəm hazırlanır. Çiçəklərinin dəmləməsi sızanaq, qızılyel iltihabında və konyuktivitdə tətbiq edilir. Moruğun çiçək, meyvə və yarpaqlarından antisklerotik, iltihabsalıcı, temperaturasalıcı və bol vitaminli maddə kimi hipertoniya və ateroskleroz xəstəliklərində müvəffəqiyyətlə tətbiq edilir.

**Fitoterapevtik göstəriş**: Moruq yaxşı tərqovucu olduğundan, bir çox yolxucu xəstəliklərin müalicəsində qəbul edilir. Yarpaq və meyvələrinin tərkibi vitaminlərlə zəngin və ətirli olduğundan qarışıqların tərkibinə daxil edilir. Nevrasteniya və nevrozlarda, ishalda qankəsici maddə kimi, maddələr mübadiləsinin pozğunluğunda, hipertoniya xəstəliyi və aterosklerozda istifadə edilir. Qurudulmuş meyvələrinin tərqovucu xüsusiyyəti vardır. Bolqar həkimləri moruğun yarpaqlarını iltihabsorucu maddə kimi mədə-bağırsaq xəstəliklərində, mədə qanaxmasında, diarreyada və tənəffüs orqanları xəstəliklərində istifadə edirlər. Tibet təbabətində yarpaq, meyvə və gövdəsi nevrasteniyada və qızdırmada istifadə edilir. Avstriya həkimləri yarpaq və meyvələrini vitaminli içki

kimi və öskürək əleyhinə istifadə edilməsini məsləhət görürlər. Alman həkimləri yarpaqlarını büzücü maddə kimi ishalda, boğaz xəstəliklərində istifadə edilməsini məsləhət bilirlər.

**Hazırlanması**: 2-3 xörək qaşığı meyvə və yarpaqları 2 stəkan qaynar suda dəmləyərək içilir (gündəlik doza). Bu tərkib həm də bitki xaricə tətbiq edilə bilər. 1 xörək qaşığı kökü 2 stəkan suda həll edərək qəbul edilməsi bronxitin müalicəsində yaxşı səmərə verir. Angina və dəri xəstəliklərində 6q bitki kökünü 250 ml suda dəmləməsi qarqara kimi istifadə edilir və yuyulur.

**Əks göstəriş:** Bitkiyə hassaslıq halları.

## BOZUMTUL BÖYÜRTKƏN- *RUBUS CAESİUS* L.

**Bitkinin istifadə orqanı**: Kök, meyvə və cavan budaqları (şək.24).

**Kimyəvi tərkibi**: Meyvələrinin tərkibində qlükoza (3,6 % qədər), fruktoza (3,2 % qədər), saxaroza (0,6 % qədər), askorbin turşusu (1,8mq%), karotin, K vitamini, üzvü turşular (2,2 % qədər), aşı və aromatik maddələr, yarpaqlarının tərkibində isə askorbin turşusu (8 - 272 mq%), toxumlarında alkoloidlər (12,9%) vardır.

**Xalq təbabətində**: Yarpaq və çiçəklərinin dəmləməsi nevroz, ishal, qastrit, öskürək, qaraciyər, mədə və onikibarmağın xora xəstəliyində istifadə olunur. Köklərinin dəmləməsi isə sidikqovucu təsirə malikdir. Bolqar xalq təbabətində mədə qanaxmalarında təyin olunur. Fransa xalq təbabətində isə qankəsici dərman kimi XII əsrdən istifadə olunur.

**Fitoterapevtik göstəriş**: İbn-Sina yazırdı ki, böyürtkən güclü qankəsici (xüsusən babasil) təsirə malikdir. Lakin müasir fitoterapiyada işlədilmir.

**Əks göstəriş**: Şəkərli diabetdə istifadəsi məhdudlaşdırılır.

## GƏNƏGƏRÇƏK - *RICINUS COMMUNIS* L.

**Bitkinin istifadə orqanı**: Toxumları (şək.25).

**Kimyəvi tərkibi**: Toxumlarının tərkibində 40-60% rəngsiz, xoşa gəlməyən iyə və dada malik yağ vardır. Başlıca tərkibi 80-85% qliseridlərdən, stearin, olein, linol, dioksistearin turşularından, lipaza fermentindən, zülali (14-17%) və azotsuz maddələrdən (10-12%) ibarətdir. Zülali maddələrin tərkibindəki zəhərli alkoloidrisin (0,1%) maddəsi vardır.

**Fitoterapevtik göstəriş**: Gənəgərçək yağı yoğun bağırsağın peristaltikasını artırır. Belə ki, kəskin qəbizlik və zəhərlənmələrdə qəbulundan 5-6 saat sonra işlədici təsir göstərir. Xoşagəlməz dadı olduğundan jelatin kapsullarda qəbul edilir. Dərinin yanıq, yara və xoralarında işlədilir, Vişnevski məlhəminin tərkibinə daxil edilir.

**Əks göstəriş:** İshal, qusma.

## QAFQAZ QUŞARMUDU - *SORBUS CAUCASIGENA* KOM.

**Bitkinin istifadə orqanı**: Meyvələri (Şək.26).

**Kimyəvi tərkibi**: Tərkibi acı və aşı maddələri, şəkər (qlükoza 2,33-3,76%, fruktoza 3,14-4,28%, saxaroza 0,68-4,3%), efir yağı, parasorbit turşusu, üzvü türşular (alma, limon və çaxır), karotin (18%), C (40-200 mq%) və P vitaminindən ibarətdir.

**Xalq təbabətində**: Mədə xəstəliklərində tətbiq etmək məqsədəuyğun sayılır.

**Fitoterapevtik göstəriş:** Təzə meyvələrinin şirəsi və bişirməsi mədə-bağırsaq dizinteriya, səkərli diabet, babasil, xəstəliklərində, maye ekstraktı isə yumşaldıcı və qanyaradıcı dərman kimi istifadə edilir. Dəmləməsi isə tərqovucu və iştahartırıcı xüsusiyyətə malikdir. Tərkibində polivitaminlər olduğundan sinqa və avitaminozlarda istifadə edilir.

**Hazırlanması:** 120q püresinin üzərinə azacıq su əlavə edərək, od üzərində yüngülcə qızdıraraq, bərabər miqdarda şəkər əlavə etmək və 200ml ağ çaxırla qarışdırmaq lazımdır.

1 xörək qaşığı meyvəni 250ml qaynar suda 8-10 dəqiqə qapalı qabda dəmləmək lazımdır. İshal zamanı gündə 2 dəfə hər dəfə 1 fincan qəbul etmək lazımdır.

**Əks göstəriş**: Qəbizliyə meyillik halları.

## ADI QUŞARMUDU – *SORBUS AUCUPARIA* L.

**Bitkinin istifadə orqanı**: Meyvələri (şək.27).

**Kimyəvi tərkibi**: Tərkibində vitaminlər (askorbin turşusu 200 mq%, P vitamini, karotin), spirt (sorbit və idit), üzvü turşular, flavanoidlər (izokversitrin, kversitrin), aşı maddələri, parasorbosid qlükozidi, epikatexin, epiqallokatexin, lakton və digər fizioloji fəal maddələr vardır.

**Fitoterapevtik göstəriş**: Meyvələri kifayət qədər vitaminlərlə zəngin olduğu üçün asteniya, qanazlığı və avitaminozlarda işlədilir. Qankəsici və maddələr mübadiləsini normallaşdıran xüsusiyyəti də vardır. Arterial hipertenziya, ateroskleroz, podaqra, revmatizm, hemorroy, dismenorreya xəstəliklərində müvəffəqiyyətlə işlədilir. Yüngül işlədici və sidikqovucu xüsusiyyətinə görə böyrək, sidikyolu, böyrəkdaşı və hepasid qastritlərdə təyin edilir.

**Hazırlanması**: 1 xörək qaşığı quru meyvələri 1,5 stəkan qaynar suda dəmlənərək (termosda), gündə 3 dəfə içilir. Şəkərlə qarışdırılmış (1 kq meyvə 1,5 kq şəkər) meyvəni, 1 xörək qaşığı gündə 3 -5 dəfə içmək lazımdır.

## QARAMEYVƏ – *ARONIA MELANOCARPA* (MINCH.)

**Bitkinin istifadə orqanı**: Meyvələri (şək.28).

**Kimyəvi tərkibi**:Tərkibində 4,6-10,2 % şəkər (qlükoza, fruktoza, saxaroza), aşı maddələri, P vitamini, karotin, askorbin turşusu, flavanoidlər, antosian və yod vardır.

**Fitoterapevtik göstəriş**: Tərkibində çoxlu miqdarda P vitamini olduğundan asteniya, qanazlığı və avitaminozlarda təyin edilir. Hipotenziv və orqanizm möhkəmləndirici olduğundan hipertoniya və ateroskleroz xəstəliklərində işlədilir.

**Hazırlanması:** 2-4 xörək qaşığı quru meyvələri 2 stəkan qaynar suda dəmlənərək (termosda), gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl içilir. Təzə meyvələri (Fructus *Aronia nigra*) 100 q gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul etmək lazımdır. Payızda meyvələrin mürəbbəsini (1 kq meyvə, 1,5 kq şəkər) hazırlayaraq il boyu qəbul etmək olar.

**Əks göstəriş**: Hepasid qastrit, mədə və onikibarmaq bağırsaq xorası və hipotenziya.

## ADI YASƏMƏN – *SYRINGA VULGARIS* L.

**Bitkinin istifadə orqanı:** Yarpaq, çiçək və tumurcuqları (şək. 29).

**Kimyəvi tərkibi** az öyrənilmişdir. Çiçəklərində efir yağları, sirinqin fenoqlikozidi, sirinqopikrin, farnezol, kök, gövdə və yarpaqlarında isə sirinqin qlikozidi vardır. Yasəmənin 1 kq yarpaqlarında 126 mq sianid turşusu vardır.

**Xalq təbabətində**: Yarpaq və çiçəklərindən qızdırma xəstəliklərində tərqovucu və iltihabsorucu kimi işlədilir. Xüsusən qrip və malyariyada təyin edilir. Epilepsiya xəstəliyinin müalicəsində cox yaxşı təsir edir. Yasəmənin tumurcuqlarının dəmləməsini qəbul etmək (yazda toplamaq) şəkərli diabetdə olduqca səmərəlidir. Eyni zamanda böyrəklərdən qum və daşların parcalanaraq tökülməsinə kömək edir.

**Fitoterapevtik göstəriş**: Şəkərli diabet, malyariya, böyrəyin iltihabi (böyrəkdaşı) xəstəlikləri, astma, ishal, bronxit, bronxial astma, pnevmoniya, yuxarı tənəffüs yollarının iltihabı xəstəlikləri, ağciyər vərəmi, revmatizm, radikulit, qrip, soyuqdəymə, aybaşı pozğunluqları, epilepsiya, xora, irinli yaralar, dəri səpkiləri, mədə yarası, difteriya, təngnəfəslik, nevralgiya, oturaq sinirin iltihabı, artrit, osteoxondroz, podaqra və oynaqların duzlaşması zamanı istifadə edilir.

**Hazırlanması**: Şəkərli diabetdə 1 xörək qaşığı yarpaq, çiçək və tumurcuqları 1 litr qaynar suda 20 dəqiqə dəmlənərək, gündə 3 dəfə yeməkdən 30 dəqiqə əvvəl 1 xörək qaşığı qəbul edilir (gündəlik doza). Digər xəstəliklərdə 1 çay qaşığı tumurcuqlarını 0,5 litr qaynanmış suda 20 dəqiqə dəmləyərək, 1/3 stəkan səhər, yeməkdən 15 dəqiqə əvvəl qəbul edilməlidir.

**Əks göstəriş:** Zəhərli bitki olduğundan, dozadan artıq istifadə etmək olmaz.

## QARA QARAĞAT – *RİBES NIGRUM* L.

**Bitkinin istifadə orqanı:** Yarpaq və meyvələri (şək.30).

**Kimyəvi tərkibi:** Qara qarağatın meyvələrindən çoxlu miqdarda askorbin turşusu (120 mq%), aşı maddələri, üzvi turşular (limon və alma), şəkər (6,2%), vitaminlər ($B_2$, $B_6$, D, E, P, K), pektin, qlikozid və mikroelementlər (yod, dəmir, sink, kobalt, mis, manqan, barium) alınmışdır. Yarpaqlarında askorbin turşusu (0,25 %), P vitamini, fitonsidlər və az miqdarda efir yağı vardır.

**Xalq təbabətində**: Revmatizm, xroniki dəri xəstəliyi, qızılyel, ödem, difteriya, podaqra, limfa vərəmi, mədə, bağırsaq, qaraciyər və böyrək xəstəliklərinin müalicəsində istifadə edilir.

**Fitoterapevtik göstəriş**: Yarpaq və meyvələri ümumi möhkəmləndirici, sidikqovucu, büzücü, iltihab əleyhinə və tərqovucu kimi istifadə edilir. Vitaminlərlə zəngin olduğundan hipo və avitaminoz, asteniya, qanazlığı və iştahlandırıcı təsir göstərir. Eyni zamanda yarpaq və meyvələri vitaminli bitkilərin siyahısına daxildir. Şirəsini qəbul etmək müalicəvidir.

**Hazırlanması:** 1-2 xörək qaşığı yarpağı 250ml suda tədricən qızdıraraq dəmləmək lazımdır (gündəlik doza).

Meyvələrindən şəkərlə birlikdə (1 kq meyvə 1,5-2 kq şəkər) mürəbbə hazırlanır.

## MEŞƏ GILASI - *PRUNUS PADUS* L.

**Bitkinin istifadə orqanı:** Meyvələri və bəzən kökü (şək.31).

**Kimyəvi tərkibi:** Meşə gilasının çiçək və yarpaqlarında acı badam yağı, askorbin turşusu (200 mq% qədər), meyvələrində üzvi turşular (alma və limon), flovanoidlər, antosian və prulaurazin qlikozidi vardır. Kök, yarpaq, çiçək və toxumlarında amiqdalin qlikozidi tapılmışdır. Bu qlikozid parçalandıqda benzaldehid, sianid turşusu və qlükozaya çevrilir.

**Fitoterapevtik göstəriş:** Başlıca olaraq büzücü xüsusiyyətindən elmi tibbdə istifadə edilir. Istənilən etiologiyalı ishal xəstəliklərində məhlul şəklində, meyvələrindən təzə hazırlanmış kisel kimi istifadə edilməsi olduqca faydalıdır. Meyvələri eyni zamanda konyuktivitdə, kök, yarpaq, çiçəkləri dəmləmə şəklində tərqovucu və sidikqovucu dərman kimi istifadə edilir.

**Hazırlanması:** Daxilə 2 xörək qaşığı meyvəsi 0,5 litr qaynar suda 6 saat ərzində dəmlənilərək (termosda) məhlul şəklində qəbul edilir (gündəlik doza).

Təzə meyvələri 0,5 stəkan gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilir.

## ÇILPAQ BIYAN – *GLYCYRRHIZA GLABRA* L.

**Bitkinin istifadə orqanı:** Kökü və gövdələri (şək.32).

**Kimyəvi tərkibi:** Şirin dadlı biyan köklərndə saponinlər – qlisirrazin (şəkərdən dəfələrlə şirin, 23% qədər), flavanoidlər (4% qədər) (likviratin, likviritigenin, izolikviritin), qlserritin turşusu, askorbin turşusu, steroidlər, efir yağı, şəkər, piqment, kamed, aspargin və selik maddələri vardır. Bitkinin yerüstü hissəsində aşı maddələri, flavanoidlər, efir yağı, şəkər, piqmentləri tapılmışdır.

**Xalq təbabətində:** Öskürəklə müşayət olunan soyuqdəymələrdə 0,5 çay qaşığı biyan kökü 1 çay qaşığı bal ilə qarışdırılaraq gündə 3 dəfə qəbul edilir. Mədə yarası və müxtəlif öd xəstəliklərində kökünü gün ərzində 5-7 dəfə çeynəmək lazımdır.

**Fitoterapevtik göstəriş:** Qlisirrizin və qlisirritin turşusu dezoksikortikosteronun tənzimlənməsində iştirak edir. Bitkinin tərkibində olan flavanoidlər iltihab əleyhinə və spazmolotik, selik, kamed isə işlədici və öskürəkkəsici təsir göstərir. Kökləri güclü bürüyücü, öskürəkkəsici, yumşaldıcı, iltihab əleyhinə, sidikqovucu, desensiblizasiyaedici və spazmolotikdir. Yuxarı tənəffüs yollarının iltihabı, allergik rinit, faringit, difteriya və bronxial astma xəstəliklərində istifadə edilir. Eyni zamanda qəbizliklə müşayət olunan qastrit və mədə xorasında və qida zəhərlənmələrində, uşaq xəstəlikləri praktikasında yüngül işlədici kimi, böyrək və sidik yolları, hətta böyrəkdaşı xəstəliyində təyin edilir. Bundan başqa diatezlərdə, allergik dermatit və ekzemalarda işlədilir. Tərkibində olan qlisirrazin turşusu steroid hormonlarının yaranmasında iştirak edir.

**Hazırlanması:** 2-çay qaşığı xammal 1,5 stəkan qaynar suda dəmlənərək (termosda) içilir (gündəlik doza). Müalicə müddəti 3-4 həftədir. 1-1,5 aydan sonra müalicə təkrar edilə bilər.

**Əks göstəriş:** Hamiləlik. Ishal yarandıqda ehtiyatla işlətmək lazımdır. Xöşagəlməz təsirləri – uzun müddət qəbulu zamanı orqanizmdə, xüsusən üzdə və oynaqlarda şişkinlik əmələ gətirir. Biyan kökünü uzun müddət orqanizmdən kalium ionunu itirən diuretiklərlə birlikdə işlətmək məsləhət görülmür. Belə bir hal yarandıqda ürək qlikozidlərinin təsiri güclənə bilər. Belə olduqda xəstə kaliumla bol olan qidalar (banan, kişmiş, ərik) qəbul etməlidir.

## BEŞYUVALI YEMIŞAN -*CRATAEGUS PENTAGYNA* W. ET KİT.

**Bitkinin istifadə orqanı:** Çiçəkləri və meyvələri (şək.33).

**Kimyəvi tərkibi**: Yemişanın meyvə, yarpaq və çiçəklərində üzvi turşular (ursol, olein, kofein), flavonoidlər, qlikozidlər, saponinlər, xolin, aşı maddələri və yağlar vardır. Tərkibi sedativ, kardiotonik, hipotenziv maddələrlə zəngindir.

**Xalq təbabətində:** Ta qədim zamanlardan ürək xəstələri və qan təzyiqi yüksək olan şəxslər dəmləmə şəklində çiçəklərindən istifadə edir. Meyvələri 10-20 ədəddən çox olmayaraq yeyildikdə təzyiqlə bağlı baş-beyin spazmalarını aradan qaldırır.

**Fitoterapevtik göstəriş**: Qanda xolesterinin miqdarını aşağı saldığı üçün ateroskleroзda müvəffəqiyyətlə tətbiq edilir. Yemişan koronar damarlarda qan dövranını nizamlayır, hipertoniyada, stenokardiyada, miokarditlərdə, I-II dərəcəli ürək-damar çatmamazlığında, klimakterik hallarda işlədilir. Çiçək və meyvələri vena və kapilliyarlarda yaranan spazmanı aradan qaldırır. Zəif sidikqovucu xüsusiyyəti də vardır.

**Hazırlanması**: Ev şəraitində çiçək və quru meyvələrindən istifadə olunur. Gündəlik doza – 1 xörək qaşığı çiçək və ya 20-25 ədəd meyvə 1,5 stəkan qaynar suda dəmlənilir, gündə 3 dəfə yeməkdən 30 dəqiqə əvvəl qəbul edilir. Təzə meyvələri (15-20 ədəd) adi qaydada yeyilə bilər
*Preparat* – Aptekdə yemişan tinkturası satılır: (T-ae Crataegi) 30-50 damcı gündə 3-4 dəfə yeməkdən əvvəl qəbul edilir. Yemişanın sulu məhlulu: (*Extr. Crataegi fluıdı*) 20-30 damcı gündə 3 dəfə yeməkdən əvvəl qəbul edilir. Asteniya, ürək nevrozu, angionevroz və nevrogen xarakterli ürək artmiyalarında işlədilir.
**Əks göstəriş**: Arterial hipotenziya.

## QAFQAZ YEMIŞANI – *CRATAEGUS CAUCASICA* C.KOCH.

**Bitkinin istifadə orqanı**: Çiçək, yarpaq və meyvələri (şək.34).

**Kimyəvi tərkibi:** Tərkibində flavanoidlər (hiperozid, kversetin, viteksin), terpenli saponinlər, ursol və olein turşuları, aşı maddələri, oksiakantin, xolin, asetilxolin, antosian, sorbit, şəkərli və zülali maddələr, karotin, C vitamini (200mq%), β sitosterin vardır. Yumşaq meyvələrinin tərkibində çaxırdaşı və limon turşusu, meyvələrinin tərkibində isə yağ və amiqdalin qlikozidi tapılmışdır. Meyvələrinin tərkibi əsasən flavanoid və terpenli saponinlərdən ibarətdir. Çiçəklərinin tərkibində hiperozid və kversetin flavanoidləri, efir yağı (0,15%), xolin, asetilxolin və trimetilamin maddələri vardır. Bitkinin meyvələri polisaxaridlərlə zəngindir.

**Xalq təbabətində**: Sulu məhlulu ishal əleyhinə və mədə-bağırsağı qüvvətləndirən dərmandır. Cavan yarpaqlarının dəmləməsi ürək ağrılarında, meyvələrinin şirəsi isə hərarətsalıcı dərman kimi işlədilir. Ürək nevrozunda əzələ möhkəmləndirici vasitə kimi tətbiq edilir.

**Fitoterapevtik göstəriş**: Spirtli məhlulu laktosion (qadınlarda süd ifrazının çoxalması) maddədir. Əsasən ürək-damar xəstəliklərində istifadə edilir. Qədim preparat olub, möhkəmləndirici və sağaldıcı təsir vasitəsidir. Degenerasiya etmiş və skelerotik koronar damarları yeniləşdirir, aritmiya və hipertoniyanın sağalmasına kömək edir. Infarktdan sonra koronar damarları normallaşdırır, hüceyrələrin oksigenə olan tələbatını azaldır. Terpenli saponinlər fraksiyaları qanda xolesterinin miqdarını aşağı salır, flavanoidlər isə qan dövranını nizama salır və ürəyin işini normallaşdırır. Farmokoloji təsirinə görə yemişan antiaterogen və kardiotonik dərman kimi tətbiq edilir. Yemişanın çiçək və meyvələri sulu dəmləmə, spirtli məhlul və ekstraktı stenokardiya, səyridici aritmiya, hipertoniya, ürək nevrozu, angina, revmatizm və qrip xəstəliklərində işlədilir.

**Hazırlanması**: 2 çay qaşığı yarpaq və çiçəkləri 250 ml qaynanmış suda 20 dəqiqə ərzində dəmlənərək gündə 2-3 dəfə, hər dəfə 1 fincan bal və çaytikanı şirəsi ilə qəbul edilməlidir.

**Əks göstəriş:** Bradikardiya.

## ÇAYTIKANI – *HIPPOPHAE RHAMNOIDES* L.

**Bitkinin istifadə orqanı:** Yarpaq, meyvə və toxumları. Meyvələrini şaxta vurduqdan sonra toplamaq daha sərfəlidir (şək.35).

**Kimyəvi tərkibi:** Meyvələrinin tərkibində flavanoidlər, mineral və üzvi maddələr, polivitaminlər, antosian, karotinoid (60 mq%), karotin (10,9mq%), kriptoksantin, fizalein, $B_1$ (0,035 mq%), $B_2$ (0,056mq%), C (200-900mq%), E, F, P vitaminləri, fol turşusu (0,79mq%), aşı maddələri (0,12-0,6%), şəkər (2,9-6,8%), qlükoza (1,96%), fruktoza (1,0%), alma və çaxır turşusu (2,94%), toxumlarının tərkibində isə yağ turşuları (olein, stearin, linol və palmitin 8-9%) vardır. Toxumlarının tərkibindən yağ turşusu (12,5mq%), $B_1$ (28mq%), $B_2$ (0,38 mq%), E vitaminləri (14,3mq%), karotin (0,3mq%) alınmışdır. Meyvələrinin ətli hissəsində karotin (40-100mq%), karotinoidlər (180-250mq%), E (110-165mq%) və A vitamini vardır.

Yarpaqlarından aşı maddələri (8-10%), C vitamini (230-262mq%), ursol və olein turşuları alınmışdır. Köklərində hippofain alkaloidi (0,3-0,4%) və aşı maddələri (10%) vardir.

**Xalq təbabətində**: Meyvəsinin ətli hissəsindən alınan çaytikanı yağı dərinin yara, travma, ekzema, qurdeşənəyi xəstəliklərində olduqca dəyərlidir. Soyuqdəymələrdə yaranan temperaturalarda meyvələrindən hazırlanmış şirəsindən və püresindən 1 xörək qaşığı gündə 3 dəfə olmaqla qəbul etmək məqsədəuyğundar. Yağı iltihaba qarşı, yarasağaldıcı və ağrıkəsici olmaqla, epitel toxumalarının təzələnməsində iştirak edir. Xüsusilə yanıqların tez sağalmasında effektiv təsir göstəriri.

**Fitoterapevtik göstəriş**: Yarpaqlarında çox vitamin olduğundan sinqa, hipo və avitaminozlarda, dərinin yanıq, donvurma, səpgi və yaralanma hallarında işlədilir.

Xərçəng xəstəliyinin (mədə xərçəngi) şüa ilə profilaktika və müalicəsində çaytikanı yağından müvəffəqiyyətlə istifadə edilir. Bundan başqa mədə və onikibarmaq bağırsağın xora xəstəliyində, mamalıq praktikasında uşaqlıq boynunun eroziya və kolpitlərində təyin edilir.

## ARMUD - *PYRUS COMMUNIS* L.

**Bitkinin istifadə orqanı:** Meyvə və yarpaqları (şək.36).

**Kimyəvi tərkibi:** Meyvələrinin tərkibində 87% su, 0,4% zülal, 11% karbohidrat, 0,3-1,3% üzvü turşular, 5-20mq% C vitamini, az miqdarda $B_1$, $B_2$, PP vitaminləri, karotin və çoxlu miqdarda mineral duzlar vardır. Bunlar əsasən natrium (155mq%), kalsium (14 mq%), fosfor (19 mq%), maqnezium (16 mq%) və dəmirdir (2,4 mq% ).

**Xalq təbabətində:** Mədə-bağırsaq xəstəliklərində büzücü xüsusiyyətinə görə qəbul edilir. Şirəsi və dəmləməsi böyrək, qızdırma və ürək xəstəlikləri zamanı orqanizmdə duz itkisi zamanı qəbul edilir. Qurudulmuş meyvələri yulafla birlikdə dəmlənərək, uşaqlarda ishal zamanı olduqca faydalıdır. Şəkərli diabetdə pəhriz qidalandırıcı hesab olunur. Təzə meyvələrindən povidla, cem, mürəbbə və kompotlar, bundan başqa çaxır, sirkə və kvas da hazırlanır.

**Fitoterapevtik göstəriş:** Vitamin və mineral duz ehtiyatı kimi istifadə edilir. Böyrəkdaşı, böyrək və sidik yollarının irinli (piupiya, pielonefrit) xəstəliklərində çox yaxşı təsir edir.

**Əks göstəriş:** Qəbizlik halları.

## QARA GƏNDƏLAŞ - *SAMBUCUS NIGRA* L.

**Bitkinin istifadə orqanı:** Çiçəkləri və toxumları (şək.42).

**Kimyəvi tərkibi:** Çiçəklərində efir yağları, qlükozid, selik, tanin və xolin vardır. Meyvələrində üzvi turşular və rəngləyici maddələr aşkar edilmişdir. Tərkibində tərlədici, sidikqovucu və iltihabsorucu maddələr də vardır.

**Xalq təbabətində:** Şəkərli diabetdə, revmatizm, podaqra, yanıq, frunkulyoz və trofik yaralarda tətbiq edilir.

**Fitoterapevtik göstəriş:** Soyuqdəymədə və bronxial astmada istifadə edilir. Toxumları ödqovucu olduğundan qaraciyər və ödyolu xəstəliklərində işlədilir. Çiçəklərinin dəmləməsi böyrək, sidikyolunun iltihabi xəstəliklərində sidikqovucu və spamolitik vasitə kimi tətbiq edilir. Pediatriyada meyvələrinin dəmləmə və kiselindən işlədici dərman kimi istifadə edilir.

**Hazırlanması:** 2 çay qaşığı çiçəkləri 1,5 stəkan suda 15 dəqiqə dəmlənilir, gündə 5-6 dəfə 2 xörək qaşığı qəbul edilir.

## ƏNCIR- *FICUS CARICA* L.

**Bitkinin istifadə orqanı**: Meyvə və yarpaqları (şək.37).

**Kimyəvi tərkibi**: Meyvələrinin tərkibində 40% şəkər, 0,7q zülal, 0,16q yağ, karotin, C və B qrup vitaminləri, kumarin, mineral duzlar (1000mq%), ürək–damar sistemini nizama salan kalium (220mq%), kalsium (115mq%), maqnezium (263mq%), fosfor (43 mq%), dəmir (0,5 mq%) və üzvü turşular vardır.

**Xalq təbabətində**: Əncir ürək - damar sisteminə olduqca müsbət təsir edir. Tərkibində olan bolluca kalium fitinin miqdarını nizamlayır ki, bu da trombozun, dəmir isə anemiyanın qarşısını alır. Meyvələrindən mürəbbə və konservlər hazırlanır.

**Fitoterapevtik göstəriş**: Böyrəkdaşı xəstəliyində, meteorizmdə, mədə-bağırsaq xəstəliklərində, diabet və podaqrada şəkəri və oksalat turşusunu nizama salır. Elmi təbabətdə meyvə və yarpaqlarından istsfadə edilir.

**Əks göstəriş**: Şəkərli diabet.

## ZOĞAL – *CORNUS MAS* L.

**Bitkinin istifadə orqanı:** Meyvə və yarpaqları (şək.38).

**Kimyəvi tərkibi:** Meyvələrin tərkibini aşı maddələri (10,0%), kornin qlikozidi, acı və rəngləyici maddələr, şəkərli maddələr (9,21%), qlükoza və fruktoza, pektinli maddələr (5,0% qədər), alma turşusu (2,28%), C vitamini (55 mq%) təşkil edir. Yarpaqlarında (7-17,6%) və gövdəsində (5,84%) aşı maddələri vardır.

**Xalq təbabətində**: Yarpaqlarının dəmləməsi ishal xəstəliyində işlədilir. Qızdırılmış günəbaxan yağını bal ilə qarışdırıb, üzərinə zoğal meyvəsini (tumsuz) və təzə yumurtanın sarısını əlavə edib, ishal əleyhinə qarşı işlətmək olar. Bundan başqa ishal zamanı zoğalın mürəbbə və ya kiseli (kartof unu ilə) qəbul edilir. Təzə meyvəsindən soyuq suda hazırlanan şirəsi malyariya xəstəliyində olduqca səmərəlidir. Şəkər xəstəliyində meyvə və yarpaqlarının dəmləməsi, həm də şirə, lavaş, mürəbbəsi işlədilir. Eyni zamanda meyvəsindən «zoğal turşusu» hazırlanır. Bişirməsi orqanizmin möhkəmləndirici kimi və frunkulda çox səmərəlidir.

**Əks göstəriş**: Qəbizlik.

## ADI ZIRINC – *BERBERIS VULGARIS* L.

**Bitkinin istifadə orqanı**: Kökü və yarpaqları (şək.39).

**Kimyəvi tərkibi:** Meyvələrində askorbin, alma, limon və çaxır turşuları vardır. Eyni zamanda kök və yarpaqlarının tərkibində efir yağları, katexin, alkoloidlərdən berberin, berbamin və aşı maddələri tapılmışdır.

**Xalq təbabəti**: Köklərindən podaqra, revmatizm, böyrək və qaraciyər xəstəliklərindən- sarılıq, böyrəkdaşı, böyrək iltihabı və sidikyolu xəstəliklərində tətbiq edilir. Yüksək qan təzyiqinə qarşı, şəkərki diabet və qadın xəstəliklərində işlədilir. Bolqar xalq təbabətində istiliksalıcı, sedativ və mikrob əleyhinə vasitə kimi istifadə edilir.

**Fitoterpevtik göstəriş**: Su-duz mübadiləsində, metabolik artritlərdə, osteoxondrozda, öddaşı və böyrəkdaşı xəstəliklərində tətbiq edilir. İltihabəleyhinə, ağrıkəsici və ödqovucu xüsusiyyətinin yüksək effektinə görə qaraciyər və öd xəstəliklərinin, hepatit (A, B, C), xolesistit, xolangit və hətta xolesistoektomik sindromda və xroniki pankreatitdə istifadə olunur. Mamalıq və genekoloji xəstəliklərdə uşaqlıq qanaxmalarında, mədə-bağırsaq qanaxmalarında, xroniki ishal xəstəliklərində müvəffəqiyyətlə tətbiq edilir.

**Hazırlanması**: 1-2 xörək qaşığı zirinc kökü 0,5 litr qaynanmış suda həll edilir. 1/2 stəkan gündə 3 dəfə 20-40 dəqiqə yeməkdən sonra qəbul edilməlir.

Preparat – Berberin bisulfat tabletkalar 0,005q dozalarda buraxılır. Müalicəvi doza 5-20mq gündə 2-3 dəfə aparılır. Təkrar kursu 5-10 gündən sonra aparmaq olar.

## ADI QARAGILƏ – *VACCINUM MYRTILLUS* L.

**Bitkinin istifadə orqanı:** Yarpaq və meyvələri (şək.40).

**Kimyəvi tərkibi:** Meyvələrinin tərkibində antosian, mirtillin qlikozidləri, definidin, malvidin, aşı maddələri (7-12%), pirokatexin qrupu, üzvü turşular (alma 0,6 - 0,8%, limon 1,0%, kəhraba, xinin, oksalat, süd turşuları 20,0% qədər), şəkər, karotin (0,75-1,6 mq%), B (0,04 mq %), C (6 mq%) vitaminləri vardır. Toxumları 31% yağ və 18% proteindən ibarətdir. Yarpaqlarında arbutin qlikozidi (1,6% qədər), hidroxinon (1% qədər), amorf, mirtillin qlikozidi (1%), flavanoidlər (kversetin qlikozidi, kversetin 3 arabinozid, kversitrin), aşı maddələri (20%), efir yağının izləri, triterpen spirti, olein, ursol, xinin turşuları, C vitamini (250 mq%) vardır.

**Xalq təbabətində**: Kəskin görmə zəifliyində, mədə və bağırsaq xəstəliklərində, ishal və əksinə xroniki qəbizliklərdə müvəffəqiyyətlə istifadə edilir. Meyvələri hemorroyda məlhəm, təpitmə kimi işlədilir. Yarpaq və meyvələrinin dəmləməsi ağız və boğaz, angina və dəri xəstəliklərində çox səmərəlidir. Ekzemada isti suya salınmış meyvələri tənzifin arasında müvafiq xəstə dəri üzərinə qoyulur.

**Fitoterapevtik göstəriş**: Yarpaq və meyvələri möhkəmləndirici, duz mübadiləsini normallaşdıran, büzücü, iltihabsorucu, sidikqovucu, ödqovucu, qankəsici və zəif spazmolotik təsirə malik dərman maddəsidir. Dəmləmə və bişirməsindən kəskin və xroniki mədə-bağırsaq xəstəlikləri, qastrit, dizinteriya və büzücü dərmanların hazırlanmasında işlədilir. Meyvələri (təzə və quru) uşaq və yeniyetmələrdə kəskin və xroniki ishal, hipoqastritdə, mədə və onikibarmaq bağırsağın xora xəstəliyində, enterkolit, spesifik olmayan yaralı kolit, anemiya, sistit, böyrəkdaşı xəstəliyi və psariozun (dərinin ala xəstəliyi) müalicəsində təyin edilir. Qaragilə şəkər xəstəliyinin yüngül formalarında qanda şəkərin miqdarını aşağı salır və onu tənzimləyir.

**Hazırlanması :** Təzə meyvələri 2-3 stəkan suda həll edilərək (0,5 stəkan gündə 4-5 dəfə yeməkdən əvvəl) qəbul edilir. 3 xörək qaşığı quru meyvələri 1,2 litr soyuq suda saxlandıqdan sonra 10 dəqiqə qaynama temperaturuna qədər qızdıraraq qəbul edilməlidir. Xaricə tətbiq etmək üçün 5-6 xörək qaşığı bitki xammalı 2 stəkan suda həll edilməlidir. 1-2 çay qaşığı yarpaqlarını 250ml qaynanmış suda 10 dəqiqə dəmlədikdən sonra gündə 2-3 dəfə çay kimi hər dəfə 1 fincan qəbul etmək və ya psariozuda (dərinin ala xəstəliyi) kompress qoymaq lazımdır.

## MƏRCANGILƏ – *VACCINUM VITIS IDAEA* L.

**Bitkinin istifadə orqanı**: Yarpaq və meyvələri (şək.41).

**Kimyəvi tərkibi:** Yarpaqlarının tərkibində arbutin qlükozidi, turşulardan -xinna, ursol, çaxırdaşı, askorbin, hiperozid flavonoidi, aşı maddələri vardır. Meyvələrinin tərkibindən vitaminlər (askorbin turşusu), üzvi turşu, şəkərlər, qlükozidlər (arbutin və vaksinin) tapılmışdır.

**Xalq təbabətində**: Yarpaqlarının dəmləməsi gecə yuxuda sidiyi saxlaya bilmədikdə və eyni zamanda qankəsici maddə kimi işlədilir.

**Fitoterapevtik göstəriş**: Şirəsi zəif sedativ təsirə malik maddə olduğundan arterial hipotenziv, sidikqovucu, hərarətsalıcı və bağırsaqların peristatikasını artırıcı kimi işlədilir.

Təzə meyvələri - sidikqovucu vasitə kimi, podaqra və revmatizm, duz mübadiləsi pozğunluğu, öddaşı və böyrəkdaşı xəstəliklərində, ateroskelerozun müalicəsində istifadə edilir.

Yarpaqları əsasən böyrək və sidikyolu xəstəliklərində işlədilir, sidikdə turşuluğun artmasına kömək edir. Şəkərli diabet, osteoxondroz, podaqra, revmatizm, böyrəkdaşı xəstəliyi, ishal və qastritdə turşuluq azlığında tətbiq edilir.

**Hazırlanması**: 1 xörək qaşığı meyvələri 1,5 stəkan suda tədricən qaynadılır, gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilir. Termosda da dəmlənə bilər.

***Sidiyin saxlana bilməməsi zamanı mərcangilə yarpaqlarının üzərinə 2 hissə dazıotu yarpaqları əlavə edərək, 3 stəkan suda 10 dəqiqə müddətində dəmləmək və gün ərzində axşam yuxusuna qədər 3 stəkan 4 saatdan bir olmaqla qəbul etmək müalicəvi təsir vasitəsidir.***

## AĞACŞƏKILLI ALOE (YÜZILLIK, ƏZVAY) - *ALOE ARBORESCENS* MILL.

**Bitkinin istifadə orqanı:** Yarpağı. Əzvayın təzə dərilmiş yarpaqlarından hazırlanmış şirə "sabur" adlanır (Şək.43).

**Kimyəvi tərkibi:** Tərkibində qlikozidlər, aqlikon, qətran, efir yağları, fermentlər və vitaminlər vardır.

**Xalq təbabəti:** Nevrozda, etiologiyası məlum olmayan baş ağrılarında istifadə edilir. Sokunun bal və çaxırla qarışığı xroniki bronxit, pnevmoniya, patoloji klimaksda, amonoreyada, iltihabı xəstəliklərdə və ağciyər vərəmində işlədilir. Şirə kimi qəbulundan 8-10 saat sonra bağırsaqları yumşaldır və zəif işlədici təsir göstərir.

**Fitoterapevtik göstəriş:** Aloe bitkisi geniş şəkildə göz (miopatiya, blefarit, konyuktivit, keratit, irit) və burun-boğaz xəstəliklərində, yanıqlarda, infiltrativ yaralarda, dərinin infeksiya, şüa və qurdeşənəyi xəstəliklərinin müalicəsində istifadə edilir. Çox geniş şəkildə mədə-bağırsaq xəstəliklərində (xroniki qastrit, kolit, onikibarmaq bağırsağın xora xəstəliyində, spazmda), qəbizlikdə müvəffəqiyyətlə tətbiq edilir.

**Hazırlanması və istifadəsi**: Bitkinin şirəsi, bal və çaxırla (kaqor) birlikdə (200q şirə, 300q bal, 350q çaxır) hazırlanır. Qarışıq 5-7 gün otaq temperaturunda qaranlıq yerdə saxlanılır. Sonra 1-2 çay qaşığı gündə 3 dəfə yeməkdən əvvəl qəbul edilir. Müalicə kursunun müddəti 3-4 həftədir.

*Preparat* – tibb praktikasında məhlul, şirə və sirop səklində işlədilir. Məhlul aloe (sabur) – 10-20 damcı gündə 3 dəfə, şirə səklində 1 çay qaşığı gündə 2-3 dəfə yeməkdən əvvəl; aloe şirəsi dəmirlə ekstraksiya olunaraq gündə 2-3 dəfə 30 damcı; quru ekstrakt şəklində 1tabletka gündə 2 dəfə qəbul edilir.

**Əks göstəriş:** Qara ciyər, öd, böyrək və sidik yolları xəstəlikləri, ishal, qanaxma, hamiləlik və ağır ürək-damar xəstəlikləri olanlara istifadəsi məhduddur.

## IŞLƏDICI MURDARÇA - *RHAMNUS CATHARTICA* L.

**Bitkinin istifadə orqanı**: Bitkinin meyvələri (şək.44).

**Kimyəvi tərkibi**: Təkibində selik, üzvi turşular, şəkərlər, flavonoidlər, qlikozidlər, pektin maddələri, kitrə vardır. Kökündə ramnikozid, xrizofan turşusu, çoxlu aşı maddələri, yarpaqlarından 31% askorbin turşusu tapılmışdır.

**Xalq təbabətində:** Ödem, podaqra, dəri səpgilərində tətbiq edilir. Meyvələri şiş əleyhinə dərman kimi bir sıra ölkələrin xalq təbabətində işlədilir.

**Fitoterapevtik göstəriş**: Murdarça yaxşı işlədicidir. Yoğun bağırsağın peristaltikasını artırır və qida qəbulundan 10-14 saat sonra stul yaranır. Məhlulu, dəmləməsi və təzə meyvələri spastik və atonik qəbizliklərdə, hemorroy, düz bağırsağın bayıra çıxmasında işlədilir. Sidikqovucu təsiri də vardır. Dəmləməsi və quru halda yüngül işlədici dərman kimi atonik və spastik qəbizliklərdə 8-10 saata təsir göstərir. Babasil və anus çatlarında işlədilməsi daha faydalıdır. Bu zaman 1 xörək qaşığı meyvəsi (15-20 ədəd) 10-15 dəqiqə 1 stəkan suda qaynadılıraq, axşamlar yarım stəkan qəbul edilir. Tibb praktikasında «*ramnil*» adı ilə işlədilir.

**Hazırlanması**: Məhlulunu hazırlamaq üçün 1 xörək qaşığı bitki 1 stəkan qaynanmış suda 2 saat ərzində dəmlənilir. Gecə 0,5 stəkan qəbul edilməlidir.

*Ramnil (Rhamnilum)* murdarçanın standart tabletkasıdır. Gecələr 1-2 tabletka qəbul edilməlidir.

**Əks göstəriş**: Ishal və buna meyillik.

## MEŞƏ ÇIYƏLƏYI - *FRAGARIA VESCA* L.

**Bitkinin istifadə orqanı**: Yarpaq və meyvələri (şək.45).

**Kimyəvi tərkibi:** Meyvələrinin tərkibində aşı maddələri (0,2-0,4%), antosian, efir yağının izləri, şəkər (qlükoza-2,79%, fruktoza-3,29%, saxaroza-0,41%), pentoza (0,87-0,91%), pektin maddələri (0,68-1,5%) piyli yağ (0,53%), üzvi turşular (1,42%, alma, limon, xinin, salisil), karotin (0,3-0,5mq%), $B_1$, C, (54 mq%) vitaminləri vardır. Təzə yarpaqlarında aşı maddələri, C (250-280mq%) vitamini, kök və kökümsovlarında aromatik, mineral (kalium, fosfor, kalsium, dəmir, maqnezium) və aşı maddələri, nişasta və qətran, provitamin A, toxumlarında yağlar (16-19%) və yod (192 mq%) vardır.

**Xalq təbabətində:** Ödqovucu və sidikqovucu xüsusiyyətinə görə müxtəlif bitkilərlə qarışığından qaraciyər, böyrək və dalaq (splenit) xəstəliklərində istifadə edilir. Kompres və qarqara formasında qanayan yara, ağızda olan iltihabi xəstəliklər zamanı xaricə tətbiq edilir. Yarpaqlarının tərkibində vitamin olduğu üçün çay kimi qəbul edilir. Təzə meyvələrinin şirəsi, yarpağının dəmləməsi, ətli meyvələri kosmetik vasitə kimi piqmentin və dərinin yeniləşdirilməsində maska kimi işlədilir. Bu proseduradan sonra yağlı krem sürtmək məsləhətdir.

**Fitoterapevtik göstəriş**: Yarpaq və meyvələri maddələr mübadiləsini normallaşdırır, böyrəkdaşı və öddaşı xəstəliyində, podaqra, ekzema, arterial hipertenziya, ateroskleroz və bronxial astma xəstəliklərində istifadə edilir. Sinir xəstəliklərində, digər bitkilərlə qarışıq halında nevroz, isteriya, halsızlıq, kardionevroz, stenokardiya, qanazlığı, sinqa və avitaminozlarda işlədilir. Meyvə və yarpaqlarından qastritlərdə iştahartırıcı vasitə kimi, enterkolit, ishal və qəbizliklərdə tətbiq edilir.

**Hazırlanması:** 2 xörək qaşığı bitki yarpağı 2 stəkan qaynanmış suda dəmlənilir. Giləmeyvələri çiy və bişmiş halda yeyildikdə belə müalicəvi təsir göstərir. 2 xörək qaşığı meyvə və ya yarpaqlarını 1 stəkan

suda həll edərək, gündə 3 dəfə ciddi dietada (qanazlığı, vərəm, avitaminoz) qəbul etmək lazımdır. Meyvələrinin çay kimi dəmləməsi şəkərli diabetdə olduqca faydalıdır.

**Əks göstəriş:** Hamiləlik, allergik reaksiyalar.

## ADI BAŞINAĞACI – *VIBURNUM OPULUS* L.

**Bitkinin istifadə orqanı**: Yarpaq, çiçək, meyvə və kökləri (Şək.46).

**Kimyəvi tərkibi**: Kökündə kalin, qlükozidlər və viburnin, eyni zamanda üzvi turşulardan - sirkə, linolin, izovalerian, valerian, qarışqa, kapril, palmitin, askorbin və s., K vitamini, acı maddələr, qətran, aşı maddələri tapılmışdır. Meyvələrində çoxlu pektin maddələri, şəkər (32%), aşı maddələri və vitaminlər vardır.

**Xalq təbabətində**: Meyvələri qanda şəkərin miqdarını aşağı salır, mürəbbəsi isə öskürək, angina, ishal, sarılıq və diatezlərdə tətbiq edilir. Kökü güclü qankəsici təsirə malik olduğundan spirtli ekstraktlar şəklində mamalıqda, uşaqlıq qanaxmalarında, isteriya, epilepsiya, nevroz, kardial tipli neyrosirkulyar distoniyalarda işlədilir.

**Fitoterapevtik göstəriş**: Kökün tərkibində olan kalin qlükozidi və viburnin uşaqlığın tonusunu artırır, damarbüzücü və qankəsici təsir edir. Meyvələrinin tərkibində keyfiyyətli hərarətsalıcı, tər ifrazını yüksəldici, vitaminli və zəif işlədici maddələr vardır. Meyvələri mədə-bağırsaq xorası, polipi və hiposekresiyasında spazmolotik məqsədlə istifadə edilir.

**Hazırlanması**: Meyvə şirəsi şəkərlə birlikdə (1kq şirəyə 2kq şəkər əlavə edilir) qarışdırılır. 2-3 xörək qaşığı gündə 3-4 dəfə su ilə qəbul edilir. Quru meyvələri 3-4 xörək qaşığı 0,5 litr qaynanmış su ilə termosda dəmlənilərək içilir (gündəlik doza).

Rp.: Extr. Viburni fluidi 2 . Gündə 3-4 dəfə 20-30 damcı.

## QƏHVƏYI ITBURNU - *ROSA CINNAMOMEAE* L.

**Bitkinin istifadə orqanı**: Yalançı meyvələri (Şək.47).

**Kimyəvi tərkibi:** Meyvələrinin tərkibində bolluca vitaminlər, askorbin turşusu, filloxinon, piqment (rubiksantin, likopin), dəmir, kalsium, manqan, maqnezium, fosfor, mikroelementləri, riboflavin, provitamin A, vitamin K, P, E vardır. Bundan başqa, 2,46-5,520% C vitamini, 9,75mq% karotin, 14,1% pektin maddələri, 1,58% limon turşusu, 23,97% ümumi şəkər, 18,56% invert şəkər, 5,09% saxaroza, 8,92% pentoza vardır. Kök və yarpaqlarında aşı maddələri (80% qədər), toxumunda vanilin tapılmışdır.

**Xalq təbabətində:** Kökünün dəmləməsi orqanizmdən bütün daş və duzları təmizləyir, malyariya plazmodiumlarının zəifləddilərək məhv edilməsində tətbiq edilir. Meyvə və toxumları lentşəkilli qurdların, sidik yolunda olan daşların qovulmasında, sidikqovucu, revmatizm və podaqra əleyhinə qiymətli dərmandır.

**Fitoterapevtik göstəriş**: Tərkibində olan bolluca C vitamini antitelin yaranmasını stimullaşdırır və orqanizmin infeksiyaya qarşı müdafiə qabiliyyətini gücləndirir, yaraların sağalmasını sürətləndirir. Əsasən sedativ, antimikrob, büzücü, iltihabəleyhinə, qankəsici, sidikqovucu və mədə-bağırsaq xəstəliklərində işlədilir. Nevroz, asteniya, qanazlığı, mübadilə, hipertoniya xəstəliyi və ateroskleroz xəstəliklərinin müalicəsində təyin edilir. Yaralanma və sınıqlarda, yoluxucu xəstəliklərdə orqanizmin müqavimətini artırır. Istənilən qarışıqların tərkibinə daxil edilə bilər.

**Hazırlanması:** 2 xörək qaşığı meyvəsini 2 stəkan qaynanmış suda 25 dəqiqə ərzində dəmləmək (termosda dəmləmək daha yaxşıdır) və gündə 3 dəfə, yeməkdən 20-40 dəqiqə əvvəl içmək lazımdır. Itburnu meyvəsi (toxumlarla birlikdə) 2 çay qaşığı

250ml soyuq suda qaynayana qədər qızdıraraq 5-10 dəqiqə gözləmək lazımdır. Isti haldal çay qaşığı bal və ya limon soku ilə gündə 2-3 dəfə qəbul etmək olar. 2 xörək qaşığı narın doğranmış kökünü 200 qram qaynanmış suda 15 dəqiqə dəmləmək və günaşırı 3 dəfə hər dəfə 1 ştəkan qəbul etmək lazımdır.

## QIZILGÜL - *ROSA DAMASCENA* MILL.

**Bitkinin istifadə orqanı:** Çiçəkləri səhər və axşam tam çiçəkləyən zaman toplanılır (şək.48).

**Kimyəvi tərkibi:** Xüsusi aromat iyli, tərkibində əsasən heranilol (50% qədər), herol, sitronemol və feniletilen spirti (1%) vardır. Ləçəklərinin tərkibində şəkər, kversetin, acı maddə, antosian, efir yağı və üzvi turşular toplanılır.

**Xalq təbabətində:** Qızılgül yağından xaricə iltihabəleyhinə və antiseptik kimi təyin edilir. Bolqar təbabətində yağından bronxial astma xəstəliyində işlədilir.

**Fitoterapevtik göstəriş:** Ləçəklərində çoxlu miqdarda vitaminlər, ümumi möhkəmləndirici və tonuslandırıcı maddələr vardır. Əsasən iltihabəleyhinə, yumşaldıcı, qurd əleyhinə, antiseptik, yarasağaldıcı və büzücü təsiri vardır. Xaricə konyuktivit, stomatit və angina xəstəliklərinin müalicəsində qızılgül dəmləməsindən (Aqua Rosae) istifadə edilir.

**Hazırlanması:** 2-3 xörək qaşığı ləçəkləri 2 stəkan qaynar suda dəmləyərək (termosda), gündə 3 dəfə 20-40 dəqiqə yeməkdən əvvəl isti halda içmək lazımdır.

## BATAQLIQ MƏRCANI - *OXYCOCCUS QUADRIPETALUS* GALIB.

**Bitkinin istifadə orqanı:** Meyvələri payızda soyuq düşdükdən sonra və ya erkən yazda yığılmalıdır (şək.49).

**Kimyəvi tərkibi**: Meyvələrinin tərkibində turşular (xinin, limon, benzoy, olein, ursol), şəkər, C vitamini (22mq % qədər), vaksinin qlükozidi, pektin maddələri və piqmentlər vardır.

**Xalq təbabətində**: Əsasən böyrək və sidik yolları xəstəliklərində istifadə edilir. Böyrək xəstəliklərində duzsuz dieta tətbiq edilməlidir. Qidaya natrium xloridi əvəz edə biləcək bataqlıq mərcanı bitkisi əlavə edilərsə, duz balansı ödənəcəkdir. Çünki bu bitkinin tərkibində kifayat qədər xörək duzu vardır.

**Fitoterapevtik göstəriş:** Qızdırma xəstəliklərində keyfiyyətli hərarət salıcı, vitaminli, susuzluğu aradan qaldıran, angina, qrip, revmatizm, malyariya və stenokardiyada istifadə edilir.

**Hazırlanması:** Meyvələrinə şəkər və ya bal qarışdırılaraq sirop, çirə və turş içkilər hazırlanır.

## OVALŞƏKILLI MURDARÇA - *FRANGULA ALNUS* MILL.

**Bitkinin istifadə orqanı:** Kökləri (şək.50).

**Kimyəvi tərkibi:** Kökünün tərkibində triterpen qlükozidləri, antranol, qətran, aşı maddələri, xrizofan turşusu, efir yağları, antraxinon (8% qədər) və rəngləyici maddələr vardır.

**Xalq təbabətində:** İşlədici kimi istifadə edilir. Artıq çəkidən azad olmaq üçün də tətbiq edilir.

**Fitoterapevtik göstəriş:** Səna və rəvənd bitkisi kimi bu bitkinin də tərkibində zəif işlədici maddələr vardır. Qəbul etdikdən 8-12 saat sonra təsir edir. Qəbizlikdə, spastik kolitdə, hemarroyda, düz bağırsaq çatlarında, hamiləlik qəbizliklərində istifadə edilir. İltihabsorucu və tərlədici xüsusiyyəti vardır.

**Hazırlanması:** 1 xörək qaşığı bitki kökünü, 1 stəkan qaynar suda 10-15 dəqiqə ərzində zəif odda dəmləyərək, 1/2 stəkan gündə 2 dəfə səhər və axşam içmək olar. Ovalşəkilli murdarçanın mayeli ekstraktını (Extr. Frangulae fluidum) gündə 20-40 damcı qəbul etmək lazımdır. Ovalşəkilli murdarçanın quru ekstraktı (Extr. Frangulae siccum) tablet şəklində gecələr 0,2 dozada qəbul edilir.

**Əks göstəriş:** Hamiləlik.

# ADI AYIQULAĞI – *ARCTOSTAPHYLOS UVA-URSI* (L.) SPRENG.

**Bitkinin istifadə orqanı**: Yarpaqları (şək.51).

**Kimyəvi tərkibi:** Ayıqulağının yarpaqlarında 35%-ə qədər aşı maddələri, piroqal qrupu, turşu (qal, ellaqa, qarışqa və ursol), arbutin, metilarbutin, flavanoidlər, hidroxinin, ellaqotanin, rəngləyici maddələr, uvaol, hiperozid, kversetin, izokversetin, C vitamini və az miqdarda efir yağları vardır.
**Xalq təbabətində**: Büzücü xüsusiyyətinə görə ishalda, bundan başqa xolesistit və podaqrada təyin edilir.

**Fitoterapevtik göstəriş**: Böyrək və sidikyolu xəstəliklərində keyfiyyətli və effektli sidikqovucu, dizinfeksiyaedici və iltihabsorucu dərmandır. Kəskin və xroniki pielonefrit, sistit, böyrək vərəmi və uretrit xəstəlikləri zamanı müvəffəqiyyətlə istifadə edilir. Qəbul zamanı sidiyi turşlaşdırır.

Yarpaqlarının dəmləməsi antiseptik, sidikqovucu və büzücü təsirə malikdir. Tərkibində arbutin qlikozidi vardır. Dəmləməsi və ekstraktı dizinfeksiyaedici, sistit, pielit, uretrit və iltihabi proseslərdə sidikqovucu təsir göstərir.

Bolqar həkimləri yarpaqlarının dəmləməsindən sidikqovucu, büzücü təsir vasitəsi kimi istifadə edir. Əsasən podaqrada işlədilir.

**Hazırlanması:** 1 xörək qaşığı bitkini 250 ml soyuq suda 12-24 saat dəmləmək (termosda) lazımdır (gündəlik doza). Gündə 2-3 dəfə, hər dəfə 1 fincan qəbul edilməlidir.

**Əks göstəriş**: Hamiləlik. Gicitkanla birlikdə təyini də yolverilməzdir.

## QARA QUŞÜZÜMÜ - *SOLANUM NIGRUM* L.

**Bitkinin istifadə orqanı**: Cavan budaqları və meyvələri (şək.52).

**Kimyəvi tərkibi**: Tərkibində kifayət qədər askorbin turşusu (353,2 mq%), zəhərli qlıkoalkoloid solanin, yarpaqlarında askorbin turşusu (815 mq%), saponinlər, steroalkoloidlər, qlikozidlər, acı, aşı maddələri, karotin və limon turşusu vardır.

**Xalq təbabətində**: Bolqar xalq təbabətində qara quşüzümü difteriya, spastik öskürəklərdə və bronxial astmada işlədilir. Təzə yarpaq və meyvələrinin bitki yağları ilə qarışığı irinli yaraların sağaldılmasında tətbiq edilir. Dəmləməsi ağız və boğaz xəstəliklərini müalicə edir.

**Fitoterapevtik göstəriş**: Elmi təbabətdə tam tətbiq edilməsə də həkimlər tərəfindən - sinir sisteminə xolinergik, hipotenziv və yerli agrıkəsici kimi təyin edilir. Hipertoniya, ateroskelkroz, baş ağrıları, nevroz, epilepsiya, bronxit, astma, revmatizm, assit, ekzema, isteriya, podaqra və revmatik agrılarda, öd və böyrək sancılarında da təyin edilir. Maddələr mübadiləsinin nizamlanmasında olduqca əhəmiyyətlidir.

**Hazırlanması**: 3 q bitkini 1 stəkan qaynar suda 10-15 dəqiqə aşağı temperaturda dəmləyərək, 1 çay qaşığı gündə 3 dəfə içmək lazımdır (gündəlik doza). Islatma şəklində istifadə etdikdə 4 xörək qaşığı bitkini 0,5 litr qaynar suda dəmləmək lazımdır. Hipertoniya və ateroskeloroz zamanı meyvələrini həkim nəzarəti ilə sutqada 5-6 q qəbul etmək səmərəlidir.

**Əks göstəriş:** Zəhərli bitkidir. Uşaqlara tətbiq edilə bilməz. Yarpaq və meyvələri az və ehtiyatla işlədilməlidir. Düzgün doza qəbul etmədikdə çətinləşmiş udma, təngənəfəslik, başgicəllənməsi törədir. Xüsusən yetişməmiş meyvələri olduqca zəhərlidir.

## ÇIN CIRLIMONU - *SCHISANDRA CHINENSIS* (TURCZ.) BAILL.

**Bitkinin istifadə orqanı**: Kök, gövdə və meyvəsi (şək.53).

**Kimyəvi tərkibi**: Toxumlarının tərkibində piyli yağ (26,9%), efir yağları (1,6%), sxizandrin (0,12%), sxizandrol, linoleyin qliseridi və olein turşusu vardır. Bioloji fəallığı sxizandrin və sxizandrol maddələrinin təsiri ilə baş verir.

**Fitoterapevtik göstəriş**: Ürək və tənəffüsü stimulə edərək, mərkəzi sinir sistemini tonuslandırır, zehni və fiziki gərginliyi azaldır, impontensiyanı tədricən aradan qaldırır. Periferik və mərkəzi sinir sisteminin fəallığını yüksəldir. Əksər kəskin və xroniki xəstəliklərin - mədə-bağırsağın, tənəffüs sisteminin, böyrək və qan xəstəliklərinin sağalmasına kömək edir.

**Hazırlanması**: Uzaq Şərqdə yaşayan yerli əhali bitkinin meyvələrini çay kimi dəmləyərək içirlər.
Aptek preparatı – Cırlimon məhlulu – 10-30 damcı gündə 2-3 dəfə yeməkdən əvvəl su ilə qəbul edilir. Şüşə flakonlarda 25-50 ml buraxılır.
Cırlimonu meyvələrinin paroşoku – 0,5 q gündə 2 dəfə qəbul edilir.
Cırlimonu meyvələrinin tabletkası - 0,5 q gündə 1-2 dəfə qəbul edilir.

**Əks göstəriş:** Hipertoniya xəstəliyi

# BÖYÜK PITRAQ – *ARCTIUM LAPPA* L.

**Bitkinin istifadə orqanı:** Kök, bəzən yarpaq və meyvələri (şək.54).

**Kimyəvi tərkibi:** Tərkibində polisaxarid inulin (45%), protein (12,3 %), efir yağları (0,17%), stearin və palmitin turşuları, zülal, selik, aşı maddələri və qətran, çox miqdarda askorbin turşusu vardır.

**Xalq təbabətində:** Böyrəkdaşı və öddaşı xəstəliklərində, oynaq xəstəlikləri və osteoxondroz, ödem (istisqa), qəbizliklə müşayət olunan entterkolit, şəkərli diabet xəstəliklərində istifadə edilir. Xoşxassəli və bədxassəli yeni törəmələrdə şiş əleyhinə maddə kimi tətbiq edilir. Oynaq ağrılarında və mastiopatiyada, travmalarda yarpaqlarını əzərək müvafiq nahiyyəyə qoyulur. Ekzema və tüklərin uzanmasında da müvəffəqiyyətlə tətbiq edilir. Böyrəkdaşında, diabetdə, podaqra, revmatizm, ödem, babasil, raxit, xənazir, frunkulyoz, xroniki ekzema, qəbizlik, civə preparatları ilə zəhərlənmələr, ilan sancması, zöhrəvi xəstəliklər, oynaq ağrılarında müvəffəqiyyətlə istifadə edilir. Bolqar təbibləri sidikqovucu xüsusiyyətinə görə maddələr mübadiləsi pozğunluqlarında, böyrək və sidik yolları daşlarında, qastrit və mədə xorasında məsləhət görürlər. Bundan başqa dermatitdə və dəri qaşınmalarında kompres kimi istifadə edilir. Badam yağı ilə qarışdırdıqda «ayıpəncəsi yağı» adında tüklərin bərkidilməsində işlədilir. Yaponiyada kulturada «qobo» adı ilə əkilir.

**Fitoterapevtik göstəriş:** Kəskin hərarərdə, intoksikasiyalarda, ilan, əqrəb sancmalarda istifadə edilir. Kökünün dəmləməsi və həlimi sidik və tərqovucu xüsusiyyətə malikdir. Podaqra (duz mübadiləsinin pozulması) xəstəliyində olduqca səmərəlidir. Cavan yarpaqları antibakterial aktivliyə malikdir. Köklərindəki maddələr qaraciyərdə qlikogenin miqdarını artırır. Polşa və Alman həkimləri kökünün şirəsindən sidikqovucu və tərqovucu vasitə kimi istifadə edirlər. Eyni zamanda dəri xəstəliklərində və tüklərin bərkidilməsində işlədilir. Avstriya təbibləri ikiillik köklərindən yumşaldıcı və ödqovucu dərman kimi istifadə edirlər. Həlim, ekstrakt, tinktura və paroşok şəklində istifadə etməyi məsləhət görürlər. Çin təbibləri cavan bitkinin yarpaq və toxumlarını ödemlərdə sidikqovucu kimi istifadə edirlər. Eyni zamanda digər bitkilərlə birlikdə siflisin müalicəsində və ilanvurmalarda geniş şəkildə istifadə edilir. Xaricə ekzema, frunkul, skrofulodermada və cinsiyyət orqanlarının müxtəlif xəstəliklərinin sağaldılmasında tətbiq edilir.

## ADI KASNI - *CICHORIUM INTYBUS* L.

**Bitkinin istifadə orqanı:** Kökü və çiçəkləri (şək.55).

**Kimyəvi tərkibi:** Acı maddələr-intibin (0,20%), lavuleza (10-20%), fruktoza (4,5-9,5%), pentoza, inulin (20% qədər) və xolindən ibarətdir.

**Xalq təbabətində:** Başlıca olaraq «böyrək çayı» kimi işlədilir. Qara ciyər, xolesistit və öd yollarının diskeneziyasının müalicəsində tətbiq edilir. Bu zaman kasnı solmazçiçək, dazıotu, çoban yastığı, qarğıdalı saçağı ilə birlikdə təyin edilməlidir. Kasnının kökləri iştahı artırır, dispepsiyalarda, xüsusən mədə ağrılarında, qaraciyər, ödqovucu, bağırsaq, böyrək, isteriya, diabet və qanın tərkibinin təmzlənməsində istifadə edilir. Əbu Əli İbn Sina ekzema, dəri səpkiləri, mədə-bağırsaq xəstəlikləri, təngənəfəslik və göz ağrılarında istifadə edilməsini, köklərinin dəmləməsi oynaq revmatizmi, podaqra xəsliklərində və xərçəng, arı, kərtənkələ və ilan sancmalarında olduqca faydalı olduğu haqqında məlumat vermişdir. Bitkinin kökləri spirt alınmasında xammal sayılır.

**Fitoterapevtik göstəriş:** Maddələr mübadiləsini normallaşdırır. Qanda xolesterin mübadiləsini azaldır, mədəaltı vəzinin işini stimullaşdırır, ödqovucu, iltihab sorucu, desensiblizasiyaedici, büzücü, sedativ və kardiotonik təsir edir. Aterosklerozda, piylənmədə, maddələr mübadiləsi pozğunluğunda, böyrək və öddaşı xəstəliyində, podaqra, osteoxondroz və oynaq xəstəliklərində tətbiq edilir. Mədə-bağırsaq, nevroz, isteriya, asteniya, mədəaltı vəzi və iştahasızlıq zamanı işlədilir. Diabet zamanı tətbiqi qanda şəkərin miqdarını aşağı salır. Dəmləməsi mikrob əleyhinə və büzücü dərmandır. Sinir sistemini sakitləşdirir, ürəyin işini gücləndirir və ürək ritmini seyrəldir. Bolqar təbabətində qaraciyər və sarılıqda istifadə edilir. Ödqovucu kimi öd yollarındaki daş və qumun parçalanaraq tökülməsinə səbəb olur. Avstriya təbabətində sidikqovucu, mədədə həzmi asanlaşdıran dərman kimi istifadə edilir. Almaniya təbabətində maddələr mübadiləsi pozğunluqlarında (meteorizm, iştah azalması, kəskin baş ağrılarında) işlədilir.

**Hazırlanması**: 1 çay qaşığı bitkini 250ml qaynanmış soyuq suda qaynanma dərəcəsinə qədər qızdırmaq lazımdır.

Kasnı 20q, zəncirotu 20q və nanə 10q qarışdırılır. 2 çay qaşığı qarışığı 250 ml soyuq suda qaynamaya qədər qızdırmaq lazımdır. Gündə 1-2 dəfə hər dəfə 1 fincan qəbul etmək məsləhətdir. Müalicə müddəti 3-6 həftədir.

Xaricə işlətmək üçün: 3-4 xörək qaşığı bitkini 2 stəkan qaynar suda dəmləmək lazımdır.

## ŞƏRQ KÜNCÜTÜ - *SESAMUM İNDİCUM* L. (=*S. ORIENTALE* L.)

**Bitkinin istifadə orqanı:** Meyvələri –toxumları (şək.56).

**Kimyəvi tərkibi**: Küncütün toxumlarında piyli yağ, üzvi maddələr, az miqdarda C və E vitamini, T faktoru, kül elementləri, fenola oxşar maddələr - sezamol, izamin, izamolin və s. vardır.

**Fitoterapevtik göstəriş**: T - faktoru qanda trombositlərin miqdarını artırmaqla qanın laxtalanmasını sürətləndirir.

Küncüt Dövlət Farmakopiyasına daxil edilmişdir. Bundan uşaqlarda Verlhov xəstəliyinin, trombopenik purpuranın, essensial trombopeniyanın, hemorrargik diatezin müalicəsində effektli vasitə kimi istifadə olunur.

Küncütdən alınan yağ açıq sarı rəngdə olub, yarımquruyan yağlardandır, tərkibində olein və linal turşularının triqliseridləri vardır ki, bunlar da təbabətdə məlhəmlərin tərkibində verilir.

## ZAQAFQAZİYA KƏKOTUSU - *THYMUS TRANSCAUCASICUS* RONN.

**Bitkinin istifadə orqanı:** Tibbi məqsədlə yerüstü hissəsindən istifadə olunur (şək.57).

**Kimyəvi tərkibi**: Bitkinin tərkibində timolla zəngin olan efir yağı, flavonoidlər, acı maddə, aşı maddələri, qətran, piyli yağlar, külündə mis birləşmələri, yeraltı cavan hissələrində C vitamini vardır.

**Xalq təbabətində**: Kəkotunun sulu dəmləməsindən daxilə meteorizmdə, qarın sancılarında, şəkərlə qarışığından dizenteriyada, həzmi yaxşılaşdıran, sidikqovucu, qurdqovucu vasitə kimi, ürək döyünmələrində (əsasən yeniyetmə dövrdə), yuxusuzluqda, anginada (qarqara kimi), təpitmələrindən əzələ və oynaq ağrılarında istifadə edilir.

**Fitoterapevtik göstəriş:** Sulu dəmləməsindən və qarışıqların tərkibində bəlğəmgətirici və öskürək əleyhinə, soyuqdəymələrdə tərqovucu kimi, göy öskürəkdə, bronxitdə istifadə olunur. Bitkidən alınmış efir yağının tərkibindəki timol güclü antiseptik və bakteriosid təsirə malikdir, bundan elmi təbabətdə preparatlar hazırlanmasında geniş istifadə edilir. Kəkotu uşaqlarda öskürək əleyhinə çox istifadə olunan pertussinin tərkibinə də daxildir.

## KƏKLIKOTU - *THYMUS SERPYLLUM* L.

**Bitkinin istifadə orqanı**: Çiçək və yarpaqları (şək.58).

**Kimyəvi tərkibi**: Tərkibində efir yağı, timol (50% qədər), karvakrol, α terpinin, α terpineol, singiberin və borneol maddələri vardır. Bundan əlavə bitkinin yerüstü hissəsindən aşı maddələri, flavanoidlər, qətran, ursol və olein turşuları tapılmışdır.

**Xalq təbabətində**: Güclü iltihabsorucu (tərkibində timol vardır), qıcolma əleyhinə, sedativ, öskürəkkəsici, ağrıkəsici, yarasağaldıcı və qurdqovucu təsiri vardır. Hipertoniya xəstəliyi, ateroskleroz, nevralgiya, radikulit, tireotoksikoz (zob), nevroz və isteriya xəstəliklərində işlədilir. Qurdqovucu, tərlədici, maddə kimi nevralgiya, mədə bağırsaq sancısında tətbiq edilir.

Azərbaycan təbabətində yarpaqlarının dəmləmə və məhlulu ürək xəstəliklərində, qəbizlik də, qaraciyər xəstəliklərində iltihabsorucu vasitə kimi olduqca çox işlədilir. Bundan başqa hipertoniya və ateroskleroz xəstəliklərində tətbiq edilir.

**Şəxsi təcrübə** – Mədə narahatlığı və tutmaşəkilli öskürək hallarında aşağıdakı qarışıqlardan birini qəbul etmək olduqca səmərəlidir.

- 20 q kəklikotu çiçəkləri, 10 q bibər, 10 q boymadərən.
- 20 q kəklikotu çiçəkləri, 10 q bahar xoruzgülü, 10 q zirə toxumu, 10 q lansetşəkilli bağayarpağı, 10 q şehçiçəyi.

Hər iki qarışıq 2 çay qaşığı 250ml suda 10 dəqiqə dəmlənərək, günaşırı 3 dəfə (150q) yeməkdən sonra qəbul edilir.

**Fitoterapevtik göstəriş**: Tərkibində acı maddələr olduğundan iştahgətirici, mədə-bağırsaq, qaraciyər, mədəaltı vəzi xəstəlikləri zamanı sağaldıcı xüsusiyyətə malikdir. Dəmləmə, bişirmə və ekstrakt kimi yuxarı tənəffüs yollarının iltihabi xəstəliklərində, vərəm, difteriya və bronxial astma xəstəliyində müvəffəqiyyətlə işlədilir. «Pertussin» adlı dərman preparatının əsas komponenti kəklikotundan alınır. Xaricə tətbiq kimi oynaq, əzələ və periferik sinir sistemi xəstəliklərində aromatik vanna kimi qəbul edilir. Dəmləmə və ekstraktları kəskin və xroniki tənəffüs yolları xəstə-

liklərində, bronxial astma və vərəmdə tətbiq edilir. Bakterisid xüsusiyyətlidir, qıcolma əleyhinə, möhkəmləndirici, ağrıkəsici, yarasağaldıcı, qurdəleyhinə dərman bitkisidir. Yaxşı balverən bitkidir. Eyni zamanda parfümepiyada işlədilir.

Bolqar təbabətində bronxial astma, xora xəstəliyində, iştahasızlıqda, meteorizm və diareyada bişirilməsindən istifadə edilir. Revmatizm, angina, sinir və dəri xəstəliklərində vanna şəklində qəbul edilməsi məsləhət görülür.

Alman təbabətində çiçəklərindən tənəffüs orqanları, öskürmədə, aromatik vannaların qəbul edilməsi göstərişdir.

Fransız təbabətində spazmolotik, qurd əleyhinə, epitel toxumalarını yeniləşdirici, turşulardan yaranan yanıqlarda, (10q- 1 litr hesabı ilə) məsləhət görülür.

Avstriya təbabətində dəmləmə və tinkturaları qastrit, meteorizm, qıcolma və qurdəleyhinə dizinfeksiyaedici kimi istifadə edilir.

Polşa təbabətində bakterisid, iltihabəleyhinə, böyrək, qaraciyər, nevralgiya, oynaq revmatizmi, bronxit və brqnxial astmada istifadə edilir.

**Hazırlanması**: Uşaqların revmatizmində: bitkinin cövhəri 2q, rozmarin 1q, lavanda1q, çay sodası 350,0 vanna şəklində qəbul edilir. Xaricə işlətmək üçün: 1-2 xörək qaşığı bitkini 2 stəkan qaynar suda dəmlənərək istifadə edilir.

Qatı dəmləməsi 5q bitki 250ml –də dəmlənir. Gündəlik dozası 500 qramdır.

**Əks göstəriş**: Qaraciyər, böyrək, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi, miksedema və hamiləlik.

## ACI YOVŞAN – *ARTEMISIA ABSINTHIUM* L.

**Bitkinin istifadə orqanı:** Zirvə yarpaqları və çiçəkləri (şək.59).

**Kimyəvi tərkibi:** Acı yovşanın xüsusi iyi onun tərkibindəki efir yağı (əsas tərkibi - tuyon, pinen, kadinen, fellandren, bizabolen, β kariofillin, γ sepinen), tuyol spirti, hidrogen peroksid 10-dan çox seskviterpen laktonları (absintin, anabsintin, artabsin və s.) və digər mürəkkəb kimyəvi maddələr vardır. Bitkinin tərkibində aşı maddələri, artemitin flavanoidi, üzvi turşular, karotin və askorbin turşusu vardır. Kökünün tərkibindən inulin alınmışdır.

**Fitoterapevtik göstəriş**: Yovşan mərkəzi sinir və qanyaradıcı sistemin fəaliyyətini artırır, asteniya, zəiflik, anemiya və epilepsiya kimi xəstəliklərin tam müalicəsinə zəmanət verir. Tərkibində hərarətsalıcı və öskürəkkəsici maddələr olduğundan temperatura ilə müşayət olunan – malyariya, qrip və kəskin respirator xəstəliklərin profilaktika və müalicəsində istifadə edilir. Qastrit - xüsusən hipersekresiya ilə müşayət olunan mədə xəstəliklərində müvəffəqiyyətlə təyin edilir. Eyni zamanda kəskin və xroniki hepatit, xolesistit, öddaşı xəstəliklərinin müalicəsində də tətbiq edilir. Yovşan həm də müxtəlif qaraciyər və ödyolu xəstəliklərini müalicə etmək üçün qarışıqların tərkiblərinə daxildir. Diuretik və iltihabəleyhinə maddələrlə zəngindir. Preparat meteorizm, dismenorreya, böyrək, böyrəkdaşı və qurdqovucu xəstəliklərin profilaktika və müalicəsində istifadə edilir. Son illərdə yovşan yüngül işlədici kimi bağırsaq xəstəliklərində tətbiq edilir. Yovşan dəmləməsindən xaricə işlədilən preparat kimi kompres və islatmalar, bağırsaqlardan isə askarid və bizquyruq helmintlərinin qovulmasında imalə formasında istifadə edilir.

**Hazırlanması**: 1 çay qaşığı bitkini 250ml qaynar suda dəmləyərək, 10 dəqiqə soyudaraq gündə 3 dəfə yeməkdən 1,5 saat əvvəl və ya sonra içmək lazımdır (gündəlik doza). Müalicə kursu 2-3 həftədir. Preparat - Yovşanın məhlulu (T-ae Absinthii). 1:5 nisbətində 70% spirtli məhlulu:

Rp.: Herbae Absinthii 100,0

D.S. 1 çay qaşığı bitkini 2 stəkan qaynar suda 20 dəqiqə dəmləyərək, 3 dəfə 1\4 stəkan yeməkdən əvvəl içmək lazımdır.

Rp.: T-ae Absinthii 25ml D.S. 15-20 damcı gündə 3 dəfə yeməkdən 15-20 dəqiqə əvvəl içmək lazımdır.

**Əks göstəriş**: Hamiləlik, enterkolit. Yüksək dozası sinir sisteminin yüksək oyanmasına səbəb olur. Bəzən, hətta yüksək olmayan dozası belə anemiya, təngənəfəslik və qusma yaradır.

## ADI YOVŞAN - *ARTEMISIA VULGARIS* L.

**Bitkinin istifadə orqanı:** Dərman kimi çiçəkləyən zaman zirvə yarpaqları, payızda isə kökləri toplanılır (şək.60).

**Kimyəvi tərkibi:** Acı dadlı absintin və anabsintin, antiseptik və iltihab əleyhinə maddələrlə zəngindir.

**Fitoterapevtik göstəriş:** Başlıca olaraq möhkəmləndirici, antiseptik, iltihab əleyhinə və hərarətsalıcı xüsusiyyəti vardır. Yarpaqlarının məhlulu nevroz, epilepsiya, tireotoksikoz, miqren və meningit xəstəliklərində təyin edilir.

Möhkəmləndirici və iştahartırıcı xüsusiyyətinə görə ağ ciyər, xroniki bronxit və bronxoektaziya xəstəliklərində tətbiq edilməsi daha çox vacibdir. Mədə-bağırsaq, qaraciyər və öddaşı xəstəliklərində işlənən qarışıqların tərkibinə verilir. Şiş əleyhinə bitkidir. Təzə yarpaqları dəri zədələnmələrində və yanıqlarda istifadə edilir.

**Hazırlanması:** 2 xörək qaşığı bitkini 0,5 l qaynar suda dəmləyərək, gündə 3 dəfə içmək lazımdır (gündəlik doza).

**Əks göstəriş**: Hamiləlik

## ÜZƏRLIK - *PEGANUM HARMALA* L.

**Bitkinin istifadə orqanı**: Gövdə, yarpaq və toxum (şək. 61).

**Kimyəvi tərkibi:** Bütün orqanlarında harmin, harmalin, harmalol, peqanin (vazisin) alkaloidləri vardır. Yerüstü orqanlarında harmin və peqanin, köklərində harmin, çiçək və gövdəsində peqanin alkaloidləri tapılmışdır. Toxumlarının tərkibində 3-4% alkaloidlər – başlıca olaraq harmin vardır. Bundan başqa rəngləyici piqmentlər və 14,25% piyli yağ alınmışdır.

**Xalq təbabətində**: Kök və əsəb xəstəliklərində - parkinsonizm (əsmə, iflic) və ensefalitdə müvəffəqiyyətlə istifadə edilir. Harmin alkoloidi mərkəzi sinir sisteminə oyandırıcı təsir edir. Toxumu diş ağrılarında effektiv təsirə malikdir. İnsanlar bu bitkini müqəddəs hesab etdiyi üçün bir sıra baş ağrılarında və gözdəyməyə qarşı dini inaclarla istifadə edirlər.

## KÜSTÜŞAM - *BRYONIA ALBA* L.

**Bitkinin istifadə orqanı:** Kökləri (şək.62).

**Kimyəvi tərkibi**: Köklərinin tərkibində iki amorf zəhərli – brionin və brionidin qlükozidləri vardır. Brionin qlikozidi parçalandıqda qlükoza və amorf brionidin maddələri əmələ gəlir. Köklərində azacıq miqdarda aşı maddələri, nişasta və qətran, həm də – L brionisin, brioamirid, briodulkozid, briodulkozid alkaloidəbənzər maddələr vardır. Brioamirid fermentativ parçalanma zamanı acı maddə olan kukurbitasin və qlikoza əmələ gəlir. Kukurbitasin tərkibinə görə acı dadlı, zəhərli triterpen törəmələrinə yaxındır. Tərkibi briopolioza və sterin polisaxaridlərdən ibarətdir.

**Fitoterapevtik göstəriş**: Eksperimental tədqiqatlarla sübut edilmişdir ki, tərkibində olan qlikozidlər ürək əzələsini möhkəmlədir və damarların tonusunu zəiflədərək qan təzyiqini azaldır. Brioninin spirtli ekstraktı zəif işlədici təsir edir.

**Əks göstəriş**: Tərkibində alkoloidlər (zəhərli) olduğundan qəbul edilməsi həkim məsləhəti ilə olmalıdır.

# ÇAQA (AĞAC GÖBƏLƏYI )- *INONOTUS OBLIQUUS* (PERS.) PIL.

**Bitkinin istifadə orqanı**: Göbələyin meyvə cismi (şək.63).

**Kimyəvi tərkibi**: Tərkibində üzvi turşular (vanil, paraoksibenzol, sirkə, qarışqa, turşəng və s.) polisaxaridlər (liqnin, pterin), sərbəst fenol, sterin, silikat, dəmir, alüminium, kalsium, maqnezium, natrium, kalium, sink, mis və manqan vardır.

**Fitoterapevtik göstəriş**: Tozağacı göbələyi mədə və onikibarmaq bağırsağın bədxassəli şişlərində, hiposekresiya ilə gedən qastritlərdə, mədə və digər orqanların bədxassəli şişlərinin şüa ilə müalicəsindən sonra da istifadə edilir. Bu göbələyin tətbiqi zamanı ağrı xeyli azalir, onun inkişafı ləngiyir. Göbələyin tətbiqi zamanı ət və yağların, konserv və kolbasanın qəbulu dayandırılır, əksinə südlü və tərəvəzli qidalar artırılır.

**Hazırlanması**: Ev şəraitində soyuq suda qaşovla xırdalayaraq 4 saat ərzində hazırlanır. Digər tələbə görə 1 hissə göbələk və 5 hissə temperaturu 50 $C^0$ yüksək olmayan suda 48 saatdan çox olmayaraq hazırlanır və süzülür. Saxlanılma müddəti 4 gündür. 0,5 -1 stəkan hazırlanmış məhlulu gündə 3-4 dəfə yeməkdən 30 dəqiqə əvvəl içmək lazımdır. Apteklərdə «Befungin» adlı ekstrakt kimi satılır.

Rp.: Befungini 100,0

D.S. 3 çay qaşığı ekstrakt 150 ml suda həll edilərək, 1 xörək qaşığı gündə 3-4 dəfə yeməkdən 30 dəqiqə əvvəl içmək lazımdır.

## ACILIQOTU- *EPHEDRA VULGARIS* (RICH.)

**Bitkinin istifadə orqanı:** Yerüstü orqanı (şək.64).

**Kimyəvi tərkibi**: Tərkibində efedrin, onun izomerlərinin alkoloidi və aşı maddələri vardır.

**Xalq təbabətində**: Revmatizm, malyariya, astma, hipertoniya, mədə-bağırsaq və assit yaradan xəstəliklərdə işlədilir.

**Fitoterapevtik göstəriş**: Tərkibində təbii büzücü maddə vardır. Qan təzyiqini normallaşdırır. Yolxucu xəstəliklər zamanı istifadə edilir. Astma tutmalarını nomallaşdırır, bahar qızdırması, övrə və digər allergik xəstəliklərdə tətbiq edilir. Bundan başqa Avropada revmatizm, malyariya, astma və hipertoniyada tətbiq edilir.

**Hazırlanması**: 1 çay qaşığı bitkini 250ml stəkan suda 10 dəqiqə ərzində həll edərək, gündə 3 dəfə qəbul etmək və eyni zamanda həftədə 2 dəfə hər dəfə 1 fincan olmaqla istifadə etmək lazımdır.

**Əks göstəriş**: Miopatiya, hipotoniya.

## ŞƏRQ ALMASI - *MALUS ORIENTALIS* UGLITZK.

**Bitkinin istifadə orqanı**: Tibbi məqsədlə meyvə və toxumlarından istifadə olunur.

**Kimyəvi tərkibi**: Meyvələrinin tərkibində, aşı, pektin maddələri, dəmir və fosforun üzvi birləşmələri, efir yağı, qarışqa, kapron turşuları, 13%-ə qədər şəkər (qlükoza, fruktoza, saxaroza), alma, limon, çaxır, xlorogen, ərabin turşuları, karotin, $B_1$, C vitaminləri, kül elementləri vardır. Kül elementlərində isə kalium, natrium, kalsium, maqnezium, dəmir, fosfor və s. vardır. Qabığında isə flavonoidlər vardır.

Toxumlarında amiqdalin qlükozidi, 15%-ə qədər yodlu piy yağı, yarpaqlarında isə C vitamini və amiqdalin qlükozidi vardır.

**Xalq təbabətində**: Meyvələri çiy və ya əzilmiş halda kəskin və xroniki ishallarda, kolitlərdə, enterokolitlərdə, həzmin yaxşılaşmasında, qanazlığında, revmatizmada işlənilir. Bir neçə meyvəsinin şirəsindən dizenteriyada, enteritdə, müxtəlif mədə-bağırsaq xəstəliklərinin müalicəsində, şəkərli diabetdə, tam yetişmiş meyvələrinin şirəsindən isə ürək xəstəliklərində, sedativ vasitə kimi, piylənmədə, bronxitdə və s.-də işlədilir. Almanın qurudulmuş qabığından isə sidikqovucu vasitə kimi, dəmləməsindən – qulaq ağrılarında istifadə olunur.

**Fitoteraevtik göstəriş** – Azərbaycanın bir çox rayonlarında uşaqlarda dispepsiyanın müalicəsində alma suyu istifadə olunur.

**Hazırlanması:** 1 stəkan alma şirəsi + 1 yumurta sarısı + 2 q əkilən nanə yarpaqlarının tozu + 1 çay qaşığı şəkər tozu + 1 çay qaşığı konyak - gündə 1 çay qaşığı 2-3 dəfə qəbul olunur.

## JENŞEN – *PANAX GINSENG* C.A. MEY

**Bitkinin istifadə orqanı**: Yalnız kökündən istifadə edilir (şək.65).

**Kimyəvi tərkibi:** Bitki daim öyrənilməkdədir hələlik müalicəvi tərəfləri hələ tam aydın deyil. Kökündə triterpen saponinləri – panaks, panakvisin, efir yağları, panasen, panaks turşusu (yağ turşularının qarışığı: palmitin, stearin, olein, linol), fitosterin, selik, kraxmal, şəkər, alkoloid, mikroelementlər (fosfor, dəmir, manqan, alüminium və s.), qətran, estrogen və vitaminlər ($B_1$,) vardır.

**Xalq təbabətində:** Qədim şərq əfsanəsində jenşeni «bitki-adam», «yeradamı» adlandırırdılar. Əfsanələrdə deyilirdi ki, qocalığı geri qaytararaq cavanlaşdırır, xəstələri sağlamlaşdırır, müdrikləşdirir, bir çox epidemiyaları: taun, çiçək və vəba mikroblarını məhv edir.

**Fitoterapevtik göstəriş**: Sinir sistemini stimullaşdırır, sinir və psixi narahatçılığı götürür, hipotenziv təsir göstərir, nevroz və impotensiyaların müalicəsində olduqca müsbət təsir göstərir, səbəbi məlum olmayan narahatlıqlarda, orqanizmin müdafiə qabiliyyətinin zəifləməsində, stres şəraitdə, infeksion xəstəliklərdə istifadə edilir. Orqanizmi ümumi tonuslandırır, mərkəzi sinir sistemini stimullaşdırır və yüngül depressiyanı aradan götürür. Xroniki ağ ciyər xəstəliklərində, qanazlığı, şəkərli diabet, hipo və hiper qastritlərdə olduqca yaxşı təsir göstərir. Mədə yarasını olduqca tez sağaldır, iştahanı artırır, bağırsağın fəaliyyətini normallaşdırır, qan dövranını nizama salır. Lakin yerli-yersiz bu preparatı işlətmək yolverilməzdir. Bu preparatı vitaminlərlə birlikdə işlətmək onun səmərəsini xeyli artırır. Jenşen toksiki deyil və uzun müddət tətbiq edilə bilər. Xəstəyə bu preparatı zəif dozalarla təyin etmək məsləhətdir.

**Hazırlanması:** Köklərindən hazırlanan məhlul, dəmləmə, paraşok, məlhəm, çay və ekstraktları müalicədə işlədilir. İlk dəfə

zəif doza ilə başlayaraq, tədricən artırılması məsləhət görülür. Müalicə müddəti 1-3 aydır.

Rp.: T-ae Ginsengi 30,0
D.S. 15-20 damcı gündə 3 dəfə yeməkdən 30 dəq. əvvəl
Rp.: Tabul. rad Ginsengi 0,15
D.S. 1-2 tabletka gündə 3 dəfə yeməkdən 30 dəqiqə əvvəl

**Əks göstəriş:** Hipertoniya xəstəliyi, taxikardiya, simpatika-drenal krizlərdə, yay vaxtı təyini məsləhət deyil.

*16 yaşına qədər uşaqlara verilməsi qəti qadağandır.*

## ELEUTEROKOKK - *ELEUTHEROCOCCUS SENTICOCUS* MAXIM.

**Bitkinin istifadə orqanı:** Yarpaq, gövdə və meyvələri (şək.66).

**Kimyəvi tərkibi:** Az öyrənilmişdir. Kök və gövdələrinin tərkibində eleuterozid, kumarin və flavanoid törəmələri vardır.

**Fitoterapevtik göstəriş:** Eksperimental təcrübələrdə eleuterokokk mərkəzi sinir sistemini oyadır, hərəkət aktivliyini artırır, şərti refleks, zehni, görmə qabiliyyətini, qanda şəkəri və maddələr mübadiləsini gücləndirir. Jenşen kimi psixoloji yorğunluq zamanı tonuslandırıcı, nevrasteniyanın ağır formalarında tətbiq edilir.

**Hazırlanması:** Rp.: Extr. Eleuterococci 50,0
D.S. 25-30 damcı yeməkdən 30 dəqiqə əvvəl qəbul etməli.

**Əks göstəriş:** Arterial hipertenziya və halsızlıq.

## DƏRMAN GÜLXƏTMI - *ALTHAEA OFFICINALIS* L.

**Bitkinin istifadə orqanı**: Kökü, yarpaq və çiçəkləri (şək.67).

**Kimyəvi tərkibi:** Yarpaqlarında 35% selik, qalaktoza, qlükoza, arabinoza, ramnoza, nişasta, pektin, yağ turşuları və digər maddələr vardır.

**Xalq təbabətində:** Böyrək və sidik axarları daşlarının təmizlənməsində, sistitdə, sidik kanalındakı şişlərdə, xroniki prostatitdə, oynaq ağrılarında tətbiq edilir.

**Fitoterapevtik göstəriş:** Bu bitki başlıca olaraq yuxarı tənəffüs yollarının iltihabında, öskürək əleyhinə, sinə yumşaldıcı vasitə kimi istifadə edilir. Gülxətminin kökü mədə-bağırsaq traktı, mədə və onikibarmaq bağırsağın xorasında, qastrit, kolit və ishalda istifadə edilir.

**Hazırlanması və istifadəsi**: Termosda 2-3 xörək qaşığı doğranmış bitki kökünü 0,5 l qaynanmış suda 10-12 saat ərzində dəmləmək lazımdır. 1/2 stəkan gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir.

Aptekdə sirop, məhlul və ekstrakt şəklində satılır.

## GECƏVƏR – *ACORUS CALAMUS* L.

**Bitkinin istifadə orqanı**: Kökümsovu (şək.68).
**Kimyəvi tərkibi:** Kökümsovunda aşı maddələri, qətran, nişasta, qlikozidlər, vitaminlər və efir yağları vardır.
**Xalq təbabətində:** Qaraciyər, öd yolları, böyrək, podaqra, revmatizm, angina, diş ağrısı, saçın uzadılmasında, raxit, mamalıq, görmə və eşitmə xəstəliklərinin pozğunluqlarında geniş istifadə edilir.
**Fitoterapevtik göstəriş:** Mədə-bağırsaq sisteminin funksiyasını artırır, iştahı yaxşılaşdırır, xoralarda, sinir və ağciyər xəstəliklərində istifadə olunur. Spirtli ekstraktı iltihab əleyhinə, ağrıkəsici kimi işlədilir. Kökümsovları üyüdülmüş şəkildə hipersekresiyada (mədə turşuluğunda), qusma refleksini artırdığından siqaretin tərgidilməsində istifadə edilir. Yağlı məhlulunda olan enatinin (olimetin, rovatin, rovaxol) tərkibində öddaşı və böyrəkdaşı xəstəliklərində müvəffəqiyyətlə tətbiq edilir.
**Hazırlanması:** Dəmləmə: 1 xörək qaşığı üyüdülmüş kökünü 2 stəkan qaynar suda (termosda) 10-12 saat ərzində dəmləyərək, gündə 3 dəfə, hər dəfə 1/2 stəkan yeməkdən 20-40 dəqiqə əvvəl qəbul etmək lazımdır.
Bişirmə: 10 q kökü 200 ml suda bişirmək lazımdır. Bu məlhəm xaricə qəbul edilir.
**Əks göstəriş** – Hamiləlik.

## DAĞ ÖKÜZOTU – *ARNICA MONTANA* L.

**Bitkinin istifadə orqanı:** Çiçəkləri və çiçək səbəti (şək.69).

**Kimyəvi tərkibi**: Bitkinin çiçək səbətində bioloji fəal birləşmələrdən arnisin, arnifolin, karotinoidlər, efir yağları, sterin, aşı maddələri, qətran və mineral maddələr vardır.

**Xalq təbabətində:** Qızdırma zamanı və yanıqların bütün formalarında istifadə edilir.

**Fitoterpevtik göstəriş**: Öküzotunun tərkibində qankəsici, iltihabəleyhinə, damargenişləndirici, qantəzyiqi salıcı, ödqovucu və qanda xolesterinin miqdarını azaldan bioloji fəal maddələr vardır. Bitkidən hazırlanmış məhlul mamalıq və genekologiya praktikasında qankəsici, doğuşdan sonrakı dövrdə yaranan iltihab əleyhinə, ödqovucu vasitə kimi istifadə edilir. Eyni zamanda miokard infarktının bərpa dövründə və beyin qan dövranının normallaşmasında istifadə edilir.

**Hazırlanması**: 2 xörək qaşığı dağ öküzotu çiçəyini 0,5 litr qaynanmış suda dəmləyərək, qarışığı 6-8 saat saxlamaqla, 1/2 stəkan gündə 3 dəfə yeməkdən 30 dəqiqə əvvəl qəbul etmək lazımdır.

## SOLMAZÇIÇƏK - *HELYCHRYSUM ARENARIUM* (L.) MOENCH.

**Bitkinin istifadə orqanı:** Çiçək səbəti (şək.70).
**Kimyəvi tərkibi**: Çiçəklərinin tərkibində rəngləyici və aşı madələri, qətran, piy, efir yagları, vitaminlər, flavonoidlər (qlükozidlər və sərbəst aqlikon) tapılmışdır. Yerüstü hissəsində flavonoidlər, efir yağı (0,04%), sitosterin, sterolin, yağ və üzvü turşular, karotinoid, selik, vitaminlər, aşı maddələri, kalium sulfat, kalium xlorid, kalsium, dəmir və manqan ionları vardır.
**Xalq təbabətində:** İltihaba qarşı, spazmolitik vasitə kimi, öd ifrazının artırılmasında işlədilir. Metobolik funksiyanı nizama salaraq, qanda bilrubin və xolesterinin miqdarını aşağı salır. Öd yollarında olan kalsium tərkibli qumları kənar edir.
**Fitoterpevtik göstəriş**: Maddələr mübadiləsi pozğunluğu olan ateroskleroz xəstəliyində, zəif sedativ təsiri olduğundan sinir xəstəliklərinin müalicəsində, mədə və onikibarmaq bağırsaq, mədəaltı vəzi, hipertoniya, bağirsaq xəstəliklərində stimullaşdırıcı vasitə kimi tətbiq edilir. Bundan başqa qastrit, pankreatit, kolit, bağırsaq atoniyası xəstəliklərində işlədilir. Həm də solmazçiçək çox yaxşı ödqovucu olduğundan kəskin və xroniki qaraciyər və öd xəstəliklərində təyin edilir. Əgər hər hansı bir adamda təngnəfəslik, qusma, sağ qabırğa altında qaraciyər nahiyyəsində ağrılar və böyümə, meteroizm, göz sklerasında saralma, dəri örtüyünün saralması müşahidə edilirsə (sarılıq əlamətləri), dərhal bu bitkinin dəmləməsini uzunmüddətli qəbul etməlidir.

Solmazçiçək zəif toksikidir. Öd ifrazını artırır, onun tərkibindəki öd turşusunu, bilrubinin qatılığını azaldaraq, mədə, mədəaltı vəzi və diurezi (sidik ifrazı) nizama salır. Solmazçiçəyin sidik ifrazından başqa, qankəsici xüsusiyyəti də vardır.

Kəskin və xroniki qaraciyər xəstəliklərində, öd yolları, xolesistit, xolangitdə çiçəkləri dəmləmə (Decoctum florum Helichrysi arenarii) və ekstrakt şəklində qəbul edilir.

**Hazırlanması**: 3 xörək qaşığı bitki çiçəklərini 1 stəkan qaynanmış su ilə termosda 30 dəqiqə dəmləmək lazımdır. Gündə 2-3 dəfə 15 dəqiqə yeməkdən əvvəl qəbul edilməlir. Solmazçiçəyin quru ekstraktı (*Extr. Florum Helichrysis arenarii siccum*) və meyvələrinin qranulaşəkilli paroşoku 10 q olmaqla apteklərdə satılır. Müalicənin orta davametmə müddəti - gündə 3 dəfə 1 q olmaqla, 2-3 həftədir.

## DƏRMAN VALERIANI – *VALERIANA OFFICINALIS* L.

**Bitkinin istifadə orqanı:** Kök və kökümsovları (şək.71).

**Kimyəvi tərkibi**: Kökündə 0,2% efir yağı vardır. Efir yağının əsas komponentləri pinen, borneol, kamfen, izovalerian turşusudur. Bundan başqa valerian turşusu, xatinin alkaloidi, valerin qlikozidi, aşı maddələri, üzvi turşular, şəkər tapılmışdır.

**Xalq təbabətində**: Nevrozda və sinir sistemi ilə bağlı halsızlıqlarda daha çox istifadə edilir. Valerian eyni zamanda spastik kolitlərdə, xroniki ishal, mədə-bağırsaq nevrozunda da müvəffəqiyyətlə tətbiq edilir.

**Fitoterpevtik göstəriş:** Hipotenziv və spazmolitik xüsusiyyətinə görə hipertoniya xəstəliyində, kardionevroz və stenokardiya zamanı gözəl təsir vasitəsidir. Qalxanvari vəzinin hiperfunksiyası, bədənin əsməsi (xoreya), epilepsiya və erkən klimakterik şikayətlər zamanı valerian qəbul etmək olduqca yaxşı təsir edir. Eyni zamanda iştahsızlıqda, orqanizmin möhkəmləndirilməsində, öd, mədə və mədəaltı vəzi sisteminin xəstəliklərində də tətbiqi çox yaxşı təsir edir. Sinir sistemini sakitləşdirir və spazmolotik təsir göstərir. Sinir mənşəli halsızlıqlarda, ürək-damar

nevrozunda, ürəkdöyünmədə, ekstrasistolada, meteorizm və qəbizliklərdə tətbiq edilir.

**Hazırlanması:** Termosda 1 xörək qaşığı köklərindən 1 stəkan qaynanmış suda dəmlənilir, gündə 3-4 dəfə hər dəfə 1/3 stəkan qəbul edilir. Paroşok şəklində kökləri 1-2 q olmaqla, gündə 3-4 dəfə yeməkdən əvvəl qəbul edilə bilər. Adi dəm çaynikində 1 xörək qaşığı bitkinin üzərinə 2 stəkan qaynanmış su əlavə etməklə dəmlənib, gündə 2-3 dəfə qəbul edilir.

Aptekdə bu bitki bir neçə formada satılır. *Tinktura valeriani* (*T-ae Valeriane*) yeniyetmə və gənclər 20-30 damcı gündə 2-3 dəfə; uşaqlar isə yaşdan asılı olaraq qəbul edə bilərlər. *Efir valerian məhlulu* 15-30 damcı gündə 2-3 dəfə; *Quru valerian ekstraktı* 1-3 tabletka gündə 2-3 dəfə; *İnciçiçəyi – valerian – adonizid* damcısı 15-20 damcı gündə 2-3 dəfə; *Möhkəmləndirici çay* (1 hissə valerian kökü, 2 hissə yarpız yarpaqları, 2 hissə üçyarpaq yonca və 1 hissə mayaotu).

Qarışıqların tərkibində karvolol (valokardin), zelenin damcısı, mədə çayı və s. vardir.

**Əks göstəriş:** Bu preparatın uzunmüddətli qəbul edilməsi həssaslıq və adətetmə halı törədir. Enterkolitin kəskinləşməsi, qlomerulonefrit zamanı preparatı qəbul etmək məsləhət görülmür. Preparatı 1,5 -2 ay qəbul etmək insanda diskomfort, baş ağrısı, halsızlıq, mədə-bağırsaq traktında xoşagəlməz hallar törədir.

## DƏRMAN QULANÇARI (MƏLƏÇÜYÜD) - *ASPARAGUS OFFICINALIS* L.

**Bitkinin istifadə orqanı:** Kökümsovları, kökləri və cavan zoğları (şək.72).

**Kimyəvi tərkibi:** Kökümsov və köklərində asparagin və arqinin amin turşuları (0,04% qədər), steroid saponinlər, efir yağı, A vitamini, karbohidrat və kumarinlər vardır.

**Xalq təbabətində**: Çin xalq təbabətində qulançar mədə-bağırsaq traktı və qara ciyər xəstəliklərində iltihabsorucu, ağ ciyər, difteriya, şəkərli diabet, podaqra, revmatizm və vərəm xəstəliklərində isə iştahlandırıcı kimi istifadə edilir. Böyrək, sidik yolu, qalxanabənzər vəzi, ürək-damar və böyrək çatmamazlığı zamanı yaranan ödemlərdə sidikqovucu və iltihabsorucu kimi tətbiq edilir. Dəri xəstəliklərində xaricə təyin edilir.

**Fitoterapevtik göstəriş:** Güclü diuretik, hipotenziv, sedativ, antispastik və ödqovucu xüsusiyyətə malikdir. Dərman qulançarı ürək ritmini azaldır. Buna görə də bu bitkini nevroz, isteriya, impotensiya, taxikardiya, hipertoniya və ateroskleroz xəstəliklərində təyin edirlər.

**Hazırlanması:** 1 xörək qaşığı xammalı 1 stəkan qaynar suda dəmləyərək (termosda) içmək lazımdır (gündəlik doza).

## YONCAYARPAQ MENYANTA - *MENYANTHES TRIFOLIATA* L.

**Bitkinin istifadə orqanı:** Yarpqları (şək.73).

**Kimyəvi tərkibi:** Tərkibində acı maddələr vardır. Bitkidən meliantin və meniantin qlükozidləri tapılmışdır.

**Xalq təbabətində:** Sinir sistemini möhkəmləndirilməsində, taxikardiya əleyhinə, hərarət salıcı, qurdqovucu, qanazlığı, malyariya, oynaq və dərinin iltihabı xəstəliklərində istifadə edilir.

**Fitoterpevtik göstəriş:** Mədə-bağırsaq sistemi zəifliyində, xüsusən xroniki qastritlərdə, mədənin sekrktor funksiyasının hipofunksiyasında, iştahasızlıqda, ödqovucu və sidikqovucu, ümumi halsızlıq zamanı islədilir. Xüsusilə öddaşı xəstəliyində yaxşı nəticə verir. Vərəm əleyhinə orqanizmin möhkəmləndirilməsində müalicəvi təsir vasitəsidir.

**Hazırlanması:** 2 xörək qaşığı quru yarpaqları (termosda) 0.5 l qaynanmış suda (gündəlik doza) dəmlənib, gündə 2-3 dəfə yeməkdək 20-40 dəqiqə əvvəl qəbul edilir.

## DƏNIZ KƏLƏMI - *LAMINARIA SACHARINA* (L.) LAMOUR.

**Bitkinin istifadə orqanı:** Bütün hissələri (şək.74).

**Kimyəvi tərkibi:** Tərkibində çoxlu miqdarda yod (3%-ə qədər), vitamin, algin turşusu, mannit, laminarin və mikroelementlər (Na, K, Ca, Mn, Cu, Co, As) vardır.

**Fitoterapevtik göstəriş:** Tərkibində çoxlu miqdarda yod və vitaminlər olduğundan, bir çox illərdir ki, Çində və Yaponiyada orqanizm möhkəmləndirici, bazedov və avitaminoz xəstəliklərində əvəzsiz bitki kimi işlədilir. Ateroskleroz, podaqra və tireotoksikoz xəstəliklərinin profilaktika və müalicəsində istifadə edilir.

**Hazırlanması:** 1/2 çay qaşığı bitki paroşoku axşam dəmləyərək içmək lazımdır (gündəlik doza). Salat və tərəvəz yeməklərinə (gündə 1/2 çay qaşığı) əlavə edilir.

**Əks göstəriş:** Hamiləlik, nefrit, hemorragik diatez, qızılyel, xroniki dəri xəstəlikləri və xroniki rinit.

## MINAÇIÇƏYI - *VERONICA OFFICINALIS* L.

**Bitkinin istifadə orqanı:** Əsasən bitkinin zirvə yarpaqları istifadə edilir (şək.75).

**Kimyəvi tərkibi**: Kifayət qədər öyrənilməmişdir. Tərkibində acı maddələr, tanin, aukubin qlükozidi, efir yağları, vitaminlər və saponinlər vardır.

**Xalq təbabətində**: Ağrıkəsici, iltihabsorucu, qankəsici, öskürəkkəsici və yarasağaldıcı xüsusiyyətlərə malikdir. Iştahasızlıqda, mədə turşuluğunun azalmasında və ishal zamanı istifadə edilir. Qaraciyər, böyrək, bağırsaq, qadın xəstəlikləri, vərəm, podaqra, şəkərli diabet və bədxassəli şişlərdə bölgələrdə geniş şəkildə işlədilir. Yanıqlarda, frunkulyoz, dəri xəstəliklərində və yaralanmalar zamanı xaricə təpitmə və yaxma kimi çəkilir.

**Fitoterpevtik göstəriş:** Müasir dövrdə tibbdə soyuqdəymədə, yuxarı tənəffüs yollarının iltihabi xəstəliklərində və bronxial astmada işlədilir.

**Hazırlanması**: 2 xörək qaşığı 0,5 l (termosda) qaynanmış suda dəmlənib, gündə 3-4 dəfə yeməkdək 20-40 dəqiqə əvvəl qəbul edilir.

## QIRXBUĞUM - *POLYGONUM BISTORTA* L.

**Bitkinin istifadə orqanı:** Yarpaqları və ya yerüstü hissəsi (şək.76).

**Kimyəvi tərkibi**: Tərkibində aşı maddələri və piroqal törəmələri, bundan başqa qall turşusu, flobafen, nişasta və zulal vardır.

**Xalq təbabətində**: Güclü qankəsici kimi müxtəlif qanaxmalarda, hətta sistit, xolesistit və öddaşı xəstəliklərində müvəffəqiyyətlə işlədilir.

**Fitoterpevtik göstəriş**: Tərkibində iltihabsorucu maddələr olduğundan, kəskin və xroniki koloit və enterkolit xəstəliklərində istifadə edilir.

**Hazırlanması**: 2 çay qaşığı üyüdülmüş bitki 1 stəkan qaynanmış suda 10-15 dəqiqə dəmlənərək, gündə 3-4 dəfə yeməkdək 20-40 dəqiqə əvvəl 1-2 xörək qaşığı qəbul edilir.

## SUBIBƏRI - *POLYGONUM HYDROPIPER* L.

**Bitkinin istifadə orqanı:** Bitkinin bütün yerüstü hissəsi (şək.77).

**Kimyəvi tərkibi:** Yarpaqlarının tərkibində poliqopiperin qlikozidi, flavanoidlər (2,0-2,5%) (kversetin, kversitrin, kempferol, rutin, ramnazin), kalium duzu,ˬaşı maddələri, pirokatexin qrupu (3,8%), efir yağı (0,005%), qarışqa, fitoserin, filloxinon, tokofepol, valerian, sirkə turşuları, K vitamini (0,78%), karotin (42,35 mq%), C vitamini (200,0 mq%) və kül (13,0%) vardır. Tərkibində flavonoidlər, qlükozidlər (rutin, izoramnetin) poliqopiperin qlükozidi, aşı maddələri, efir yağları, askorbin və üzvi turşular, uşaqlıq əzələsini stimullaşdıran maddələr, fitosterin, filloxinon, tokoferol və mikroelementlər vardır.

**Xalq təbabətində**: Mamalıq xəstəlikləri. Qədim Yunan təbabətində şişlərin müalicəsində tətbiq edilir. Parasels bu bitkini xaricə ağrikəsici məqsədilə qoyulmasını (xardalın əvəzedicisi) məsləhət görürdü.

**Fitoterapevtik göstəriş**: Subibəri olduqca güclü qankəsici xüsusiyyətə malikdir. Hemorragik qaşınmalarda və qanaxmalarda istifadə olunmaqla yanaşı, «Anestozol» şamının əsas tərkib hissəsinə qatılır. Uşaqlıq qanaxmalarında və ağrıkəsici vasitə kimi istifadə edilir.

**Hazırlanması**: 1 xörək qaşığı bitki 0,5 l qaynanmış suda dəmləyib, gündə 2-3 dəfə qəbul edilir. Maye ekstraktını 30-40 damcı gündə bir neçə dəfə, dəmləməsini (12:200) xörək qaşığı ilə günə 3 dəfə uşaqlıq və hemorragik qanaxmalarda, qadınlarda aybaşı ağrılarında işlədilir. Dəmləməsi 12:200 nisbətində hazırlanaraq, xörək qaşığı ilə gündə 3 dəfə qəbul edilir.

Əczaxanalarda aşağıdakı preparat formasında satılır: Preparat - Rp: Extr. *Plygonii hydropiperis fluidi* 25ml. D.S. 30-40 damcı gündə 3-4 dəfə yeməkdən 30 dəq. əvvəl qəbul edilir.

**Əks göstəriş:** Qaraciyər xəstəlikləri.

## İRAN QIRXBUĞUMU- *POLYGONUM PERSICARIA* L. *(=PERSİCARİA MASCULATA)*

**Bitkinin istifadə orqanı**: Bitkini çiçəkləyən zaman kökünü toplamaq lazımdır (şək. 78).

**Kimyəvi tərkibi**: Köklərində tanin, qal turşusu, flobafen, flavonoidlər və efir yağları vardır.

**Xalq təbabətində**: Hemorroyda, mədə-bağırsaq və uşaqlıq qanaxmalarında tətbiqi yaxşı səmərə verir. Bitki həm də zəif işlədici və sidikqovucu təsirə malikdir. Dəmləməsi enterkolit, spastik və ya atonik qəbizliklərdə işlədilir. Sistematik olaraq xroniki qəbizliyin müalicəsində tətbiq edilir. Ekzemada və yaralarda xaricə məlhəm kimi işlənilir.

**Fitoterapevtik göstəriş:** Xüsusən uşaqlıq qanaxmasında, uşaqlığın iltihabında, atoniyada və menstruasiya halının pozuntularında tətbiq edilir.

**Hazırlanması**: 1 xörək qaşığı bitki 0,5 l qaynanmış suda dəmənib, gündə 2-3 dəfə qəbul edilir. Qanaxma hallarında məhlulu (10,0:200,0) - 1 xörək qaşığı gündə 3 dəfə qəbul edilməlidir.

**Əks göstəriş:** Hamiləlik.

## QUŞDILI - *POLYGONUM AVICULARE* L.

**Bitkinin istifadə orqanı**: Bitkinin yerüstü hissələri (şək.79).

**Kimyəvi tərkibi**: Tərkibində silikatlar (1,2% həll olmayan və 0,25% həll olan), aşı maddələri (4% qədər), selik, qətran, flavanoidlər, saponinlər, piy və şəkər vardır.

**Xalq təbabətində**: Maddələr mübadiləsini normallaşdıran bitki kimi böyrək və öddaşı xəstəliyində istifadə edilən yığıntıların tərkibinə daxildir. Bitkidən hazırlanmış təzə şirədən əsasən yanıqların müalicəsində istifadə edilir.

**Fitoterapevtik göstəriş**: Sidikqovucu, iltihabsorcu, büzücü, möhkəmləndirici, qankəsici və ödqovucu təsir göstərir. Ishalla müşayət olunan enterkolitdə təyin edilir. Quşdili xüsusilə böyrək və sidikyolu, nefrit, pielonefrit, sistit xəstəliklərində qastrit, qaraciyər, ödyolu (öddaşı) xəstəliklərində, iltihab etiologiyalı genekoloji xəstəliklərdə, sonsuzluqda, podaqra, vərəm, malyariya, difteriya, raxit və uşaqlarda diatez zamanı tətbiq edilir.
**Hazırlanması**: 2-3 xörək qaşığı bitkini 2 stəkan soyuq suda qaynayana qədər qızdırmaq və dəmləmək lazımdır (gündəlik doza). Yaz və payızda profilaktik məqsədlə hər gün 2-3 dəfə hər dəfə 1 fincan qəbul etmək lazımdır. Müalicə kursu bir neçə həftədir. Ishal zamanı gündə 3 fincan qəbul etmək lazımdır. Bundan başqa revmatizm, podaqra, sidik yolu və böyrək xəstəliklərində, sidik tutulmalarında və babasildə istifadə edilir. Xaricə dəri səpkilərində, çətin sağalan yaralarda (trofik yara) tətbiq olunur.

**Əks göstəriş**: Hamiləlik.

## HÜNDÜR ANDIZ - *INULA HELENIUM* L.

**Bitkinin istifadə orqanı:** Kökümsov və kökləri (şək.80).

**Kimyəvi tərkibi:** Bitkinin kökümsov və köklərində efir yağı, mürəkkəb tərkibli qalenin, lakton, alantol və proazulen maddələri vardır. Bundan başqa tərkibində inulin (44%), inulenin, psevdoinulin, efir yağı (1-3%), alontolakton, alontol turşusu, izoalontolakton, dihidroalontolakton, proazulen, az miqdarda alkaloidlər, qatran, sirkə və benzoy turşuları vardır.

**Xalq təbabətində:** Baş ağrıları, epilepsiya, ürəkdöyünmələrdə və menstruasiya pozulmasında işlədilir. Andızın kökü podaqra, qeyri-spesifik artritlərdə, qankəsici, yarasağaldıcı və eksudativ diatezlərdə müvəffəqiyyətlə işlədilir. Ekzemada, neyrodermitdə, çətin sağalan yara və iltihabı xəstəliklərdə xaricə təyin edilir.

Mədə xəstəliklərindən - qastrit, xora, sinir xəstəlikləri, radikulit, endemik ur və onikibarmaq bağırsağın xora xəstəliyində 1 xörək qaşığı dəmləməsi gündə 2-3 dəfə qəbul edilir. Bundan başqa ürək xəstəliklərində, hipertoniyada, diş ağrılarında, təngənəfəslik və arıqlamalarda, kolit, qaraciyər öd, sidikyolu xəstəlikləri və şişkinliklərdə olduqca səmərəlidir.

Andız Tibet təbabətində qiymətli hesab olunur. Bolqar təbabətində köklərinin dəmləməsi ürəkdöyünmə, baş ağrıları, epilepsiya və difteriyada dərman kimi işlədilir.

**Fitoterapevtik göstəriş:** Hippokrat andızı yüksək qiymətləndirirdi. Kökümsov və kökləri bronxit, traxeit, ağciyər vərəmi, astma xəstəliklərində işlədilir. Andızın öskürəkkəsici və iltihabsorucu xüsusiyyətinə görə bronxit, pnevmoniya, bronxial astma və difteriya xəstəliklərində istifadə edilir. Qastrit, kolit, qaraciyər və öd yolları, sidikyolu xəstəliklərində tətbiq edilir. Andız ishalda, xroniki enterkolit, qəbizlik, iştahasızlıq hallarında da işlədilir. Keyfiyyətli öskürəkkəsici və dizinfeksiyaedici dərman bitkisidir.

**Hazırlanması**: 2 çay qaşığı 1 stəkan qaynanmış suya əlavə edərək termosda saxlanılır. 1/3 stəkan gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir.

Dəmləmə: 1 xörək qaşığı bitki kökü 2 stəkan suda 10-15 dəqiqə zəif odda dəmlənilir. Hər saatdan bir 1-2 xörək qaşığı qəbul etmək məqsədəuyğundur.

Dəri xəstəliklərində (leyşmaniyoz, ekzema, dəri səpkiləri) əzilmiş kökləri süzgəcdən keçirilərək məlhəmi isti halda dərinin üzərinə qoyulur.

Öskürmə zamanı aşağıdakı resepdən istifadə etmək lazımdır:

Rp.: Dec. rad. *Inulae* 20,0 : 200,0 *Liquiritiae* 10,0
M.D.S. 1 xörək qaşığı gündə 3-4 dəfə qəbul etmək
Rp.: Dec. rad. *Inulae* 20,0 : 200,0 *Natrii benzoatis* 4,0
M.D.S. 1 xörək qaşığı gündə 3-5 dəfə qəbul etmək

Dəri xəstəliklərində işlədilən qədim reseptin (məlhəm) tərkibi aşağıdakı kimidir:

- 180 q andız kökü 360 q suda qaynadılır və 120 q donuz salası və kərə yağı ilə qarışdırılır.

Revmatizmdə aşağıdakı kimi istifadə edilir:

- 2 xörək qaşığı bitki kökləri 1 stəkan suda 30 dəqiqə dəmlənilir, 10 dəqiqə soyudulur, 0,5 stəkan gündə 2-3 dəfə yeməkdən 1 saat əvvəl qəbul edilir.
- 2 çay qaşığı xırdalanmış andız kökü qaynanmış soyuq suda 8 saat saxlanılır 0,5 stəkan gündə 4 dəfə yeməkdən 30 dəq əvvəl qəbul edilir.
- 20q andız kökü 100q 70%-li spirtdə 8-10 gün saxlanılır. 20 damcı gündə 3 dəfə yeməkdən 20 dəqiqə əvvəl qəbul edilir.

**Əks göstəriş**: Böyrək xəstəliklərində və hamiləlik dövründə qətiyyən işlətmək olmaz, çünki vaxtından əvvəl döğus baş verə bilər.

## DƏRMAN XOŞƏMBÜLÜ - *MELILOTUS OFFICINALIS* (L.) PALL.

**Bitkinin istifadə orqanı**: Bitkinin zirvə yarpaqları və çiçəkləri istifadə edilir.

**Kimyəvi tərkibi**: Tərkibində kumarin (0,4%), melilotin, melilotozid, purin, piy və efir yağları vardır. Çiçəklərində kumarin, tannin, xolin, selik və özünəməxsus aromat vardır.

**Xalq təbabətində**: Dəridə çil və ləkələrin təmizlənməsində əvəzedilməzdir. Çiçəklərinin *məhlul* və dəmləmsi frunkulyoz və irinli iltihablarda, brusit, mastit, otit zamanı istifadə edilir.

**Fitoterpevtik göstəriş:** Hipotenziv, antikaqulyant və fibrinolitik hallarda işlədilir. Şüa xəstəliyində leykopeniya zamanı tətbiq edilir. Eyni zamanda sinir sisteminin zəifliyində (nevrasteniya), kardiospazm, isteriya, miqren, halsızlıq, hipertoniya, stenokardiya, ateroskleroz və klimakterik hallarda tətbiq edilir. Öskürəkkəsici dərman kimi ağ ciyər iltihabında, işlədici, qadın xəstəliklərində və mentruasiya hallarının pozğunluğunda istifadə edilir.

**Hazırlanması**: 2 çay qaşığı bitki 1,5 stəkan qaynanmış suda dəmlənələrək, gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir. Xaricə qəbulu 2 xörək qaşığı 2 stəkan suda dəmlənələrək istifadə edilməlidir.

Miokard infarktında, tromboflebitdə, tromboemboliyanın profilaktikasında müvəffəqiyyətlə istifadə edilir.

**Əks göstəriş:** Hamiləlik və böyrək xəstəlikləri.

## TIKANLI PITRAQ - *XANTHIUM SPINOSUM* L.

**Bitkinin istifadə orqanı**: Bitki çiçəkləyən zaman payızda kökü, yetişdikdə isə toxumları istifadə edilir. (şək. 81a).

**Kimyəvi tərkibi**: Zəif öyrənilmişdir. Bitkinin bütün orqanlarında bolluca yod vardır. Eyni zamanda piqmentlər, alkaloid, askorbin turşusu, piy, yağ, qətran və qlükozidlər (ksantostrumarin) vardır.

**Xalq təbabətində**: Qalxanabənzər vəzi (zob, hiperparatireoz) xəstəliklərində istifadə edilir.

**Fitoterpevtik göstəriş:** Bitkidən alınmış məhlul mədə-bağırsaq, ishal və dizinteriya xəstəliklərində uşaqlarda 2-10 damcı, yeniyetmələrdə isə 15-20 damcı gündə 5-6 dəfə qəbul edilir. Dəri xəstəlikləri, ekzema, leyşmaniyoz (ilyarası), göbələk xəstəliklərində tətbiq edilir.

**Hazırlanması**: 1-2 xörək qaşığı bitki 0,5 stəkan qaynanmış suda dəmlənələrək, qəbul edilməlidir. 3-4 xörək qaşığı bitki kökü 0,5 litr suda həll edərək, xaricə işlədilir.

**Əks göstəriş:** Xaricə tətbiq edilməsi yanıq törədə bilər. Tətbiqi zamanı ehtiyatlı olmaq lazımdır.

## ADI QARAQINIQ – *ORIGANUM VULGARE* L.

**Bitkinin istifadə orqanı**: Müalicə məqsədilə bitkinin kökü, qida qatqısı kimi yerstü hissəsi və çiçəkləri istifadə edilir (şək.82).

**Kimyəvi tərkibi:** Tərkibində efir yağları (fenol, timol və onun izomerləri), acı maddələr, və çoxlu miqdarda askorbin turşusu və piqmentlər vardır.

**Xalq təbabətində**: Revmatizm zamanı oynaqların şişkinliklərində, podaqrada, amonoreyyada, ekzema, dəri səpgiləri və müxtəlif yaralanmalarda istifadə edilir.

**Fitoterpevtik göstəriş:** Mərkəzi sinir sistemini möhkəmləndirir: nevroz, halsızlıq, isteriya, epilepsiya, hipertoniya xəstəliyi, ateroskleroz, klimaksla bağlı nevrotik şikayətlər zamanı tətbiq edilir. Bronxial vəzinin sekresiyasının artırır, spazmolotik, öskürəkkəsicidir, güclü tər ifrazına səbəb olur. Bronxit, pnevmoniya, bronxoektaziya, bronxial astma və difteriya xəstəliklərinin müalicəsində istifadə edilir. Bundan başqa iştahasızlıq, qastrit, bağırsaq peristaltikasının artırılmasında, mədə-bağırsaq spazmında, mədə və onikibarmaq bağırsaq xorasında, atonik qəbizliklərdə, ödqovucu, iltihab əleyhinə tətbiq edilir.

**Hazırlanması**: Məhlulunu hazırlamaq üçün 2 xörək qaşığı bitki 2 stəkan qaynanmış suda dəmlənələrək (termosda), 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir.

Spirtli məhlulunu hazırlamaq üçün 10 q bitki 150 ml 70%- li etil spirtində həll edilməlidir. 7-10 gün qaranlıq otaqda saxlanılmalıdır. Gündə 3-4 dəfə 30-40 damcı qəbul edilməlidir. N.Q.Kovalev məsləhət görür ki, epilersiya zamanı 2 xörək qaşığı bitki 1,5 stəkan qaynanmış suda dəmlənələrək (termosda), qəbul edilməlidir (gündəlik doza). Müalicə müddəti 3 ildir.

**Əks göstəriş:** Hamiləlяik.

## DAZIOTU - *HYPERICUM PERFORATUM* L.

**Bitkinin istifadə orqanı**: Bitkinin yerüstü hissəsi -gövdə, çiçək və yarpaqları (şək.83).

**Kimyəvi tərkibi**: Tərkibində aşı maddələr, efir yağları, flavonoidlər (hiperozid, rutin, kversitrin, izokversitrin, kversetin), vitaminlər (C, PP, karotin, nikotin turşusu), antosian, spirt, alkoloid, qətran və piqmentlər vardır.

**Xalq təbabətində**: Oynağın mübadilə, infeksion və revmatik etiologiyalı xəstəliklərində, yara, xora və müxtəlif travmalar, kəskin yoluxucu xəstəliklər, vərəm, qızdırma, xoşxassəli törəmələrdə işlədilir. Dazıotu mastopatiyalarda – mastit, qadın cinsiyyət orqanlarının iltihabi xəstəliklərində müalicə üçün yararlıdır. Bitkinin fotosensiblizasiyaedici xüsusiyyətinə görə *vitiliqo* xəstəliyinin müalicəsində işlədilir. Ağız və boğaz xəstəliklərinin müalicəsində qarqara üçün, yanıq və yaralanmalarda effektiv təsir vasitəsidir.

**Fitoterpevtik göstəriş:** Çox istifadə edilən dərman bitkisidir. Orqanizmi möhkəmləndirən, iltihab əleyhinə, qankəsici xüsusiyyəti vardır. Miokardit və endokarditdə stumiləedici və spazmolotik maddə kimi işlədilir. Astenik hallarda, nevroz, nevrasteniya, baş ağrısı, halsızlıq zamanı istifadə edilir. Iltihabsorucu və ağrıkəsici vasitə kimi tətbiq edilir. Dazıotu mədə-bağırsaq traktı xəstəlikləri (qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi, enterkolit, ishal, hemarroy, xoralı kolit), qaraciyər və öd yolları (xolesistit, öd daşı, sarılıq, xroniki hepatit vegetativ distoniya) xəstəliklərində də işlədilir. Qlomerulonefrit, pielonefrit, sistit, revmatizm, lümbaqo və prostatitdə diuretik, antidepressant, iltihabsorucu dərman maddəsi kimi tətbiq edilir.

**Hazırlanması:** Məhlulunu hazırlamaq üçün 1 xörək qaşığı bitki 1,5 stəkan qaynanmış suda dəmlənilir (termosda). 1/3 stəkan gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir.

2 çay qaşığı bitki 250ml qaynanmış suda dəmlənilir. Gündə 2-3 fincan qəbul edilir. Bir neçə həftə ardıcıl qəbul edilməlidir.

Xaricə istifadə üçün məhlul hazırlanır (2-3 xörək qaşığı bitki 2 stəkan qaynanmış suda dəmlənilir). Spirtli məhlulunu hazırlamaq üçün 1:10 nisbətində 70-96%-li etil spirtində 10 gün ərzində həll edilməlidir. 30-50 damcı 1/3 stəkan su ilə qarışdırılır və qarqara edilir.

Yağ (*Oleum Hyperici*): 2-3 stəkan dazıotu çiçəkləri 200 q günəbaxan yağında həll edilir. Saxlama müddəti-qaranlıq yerdə, otaq temperaturunda 2 həftədir.

**Əks göstəriş**: Qaraciyər nahiyyəsində xoşagəlməz duyğular, ağızda acılıq hıssi, qəbizlik, iştahanın pozulması. Qan təzyiqini qaldırdığından hipertoniyaya meyillikdə qəbul edilməsi məsləhət deyil.

## GÖYÇIÇƏK ISITMƏOTU - *CENTAUREA CYANUS* L.

**Bitkinin istifadə orqanı**: Yalnız kənar çiçəkləri dərman kimi istifadə edilir (şək.84).

**Kimyəvi tərkibi**: Çiçəklrinin tərkibində antosian qlükozidi (sianin) və sentaurin maddələri vardır. Bitkinin yerüstü hissəsində sentauren glikozidi, sianin antosian glikozidi, efir yağı, acı, aşı maddələri, saponinlər, mineral duzlar və digər maddələr vardır. Kimyəvi tərkibi tam öyrənilməmişdir.

**Fitoterpevtik göstəriş:** Sidik yolları xəstəliklərində, xüsusən qlomerulonefrit (böyrək parenximasını qıcıqlandırmır) xəstəliyinin müalicəsində tətbiq edilir. Göyçiçəyin tərkibində acı qlükozidlər vardır ki, bu qaraciyər xəstəliklərinə ödqovucu və spazmolotik təsir göstərir. Tibb praktikasında dəmləməsi və ekstraktı nefrit, sistit, uretrit xəstəliklərində sidikqovucu, qaraciyər və ödyolları xəstəliklərində ödqovucu, difteriyada öskürəyə qarşı, əsəb və mədə xəstəliklərində, uşaqlarda ishal və uşaqlıq qanaxmalarında tətbiq edilir. Qaraciyər və ürək xəstəliklərində yaranan ödemlərdə sidikqovucu kimi istifadə edilir.

**Xalq təbabətində**: Göyçiçəyin çiçəkləri və ya yarpaqları digər bitkilərlə qarışıq şəklində uşaqlıq qanaxmalarında, xroniki dəri xəstəliklərində – frunkulyoz, ekzema, trofik yaralarda müvəffəqiyyətlə istifadə edilir. Malyariya, istisqa (ödem), konyuktivit zamanı və dəri yaralanmalarında təzə yarpaqları işlədilir.

Bolqar xalq təbabətində dəmləməsi bədənin tonuslandırıcı və iştah artırıcı kimi istifadə edilir.

**Hazırlanması**: 1 xörək qaşığı çiçəklərini 0,5 l qaynanmış suda (gündəlik doza) dəmləyib, gündə 2-3 dəfə yeməkdək 30 dəqiqə sonra qəbul etmək lazımdır.

Bitkinin çiçəkləri sidikqovucu çayın tərkibinə daxil edilə bilər.

**Əks göstəriş**: Çiçəkləri zəif zəhərləyici olduğu üçün hamiləlikdə istifadəsi məsləhət görülmür.

## KIÇIK ISITMƏOTU - *CENTAURIUM MINUS* MOENCH.

**Bitkinin istifadə orqanı**: Yerüstü hissə çiçəkləyən zaman toplanılır (şək.85).

**Kimyəvi tərkibi**: Bitkinin tərkibində selik, qensianin (qurdqovucu), flavon qlükozidi, acı qlükozidlər, efir yağları, üzvi turşular və C vitamini vardır. Mavi rəngli çiçəklərinin tərkibində sianin qlikozidi vardır ki, hidroliz zamanı sianidin xlorid və 2 molekul qlikoza əmələ gəlir. Bundan başqa çiçəklərinin tərkibində antosian, pelarqonidin xlorid, sentaurin qlikozidi və sikorinin maddələri vardır.

**Xalq təbabətində**: Qurdqovucu və alkoqolizm əleyhinə vasitə kimi işlədilir.

**Fitoterpevtik göstəriş:** Mədə-bağırsaq xəstəlikləri üçün olduqca qiymətli bitkidir. Tərkibində acı maddələr olduğu üçün iştahartırıcı və mədə-bağırsaq sekresiyasının stimullaşdırıcı kimi tətbiq edilir. Hiposekresiya ilə gedən öd, qaraciyər və ödyolu xəstəliklərində, pankreatit, anemiya və şəkərli diabetdə geniş istifadə edilir. Eksperimental olaraq öyrənilmişdir ki, mavi rəngli isitməotu çiçəkləri sidikqovucu və ödqovucu təsir edir.

**Hazırlanması**: 2 xörək qaşığı bitki 0,5 l qaynanmış suda (6 saat termosda) dəmlənilir (gündəlik doza). Gündə 3 dəfə 20-30 dəqiqə yeməkdən əvvəl isti halda qəbul edilməlidir.

# DƏRMAN GÜLÜMBAHARI – *CALENDULA OFFICINALIS* L.

**Bitkinin istifadə orqanı**: Çiçək səbəti və dilşəkilli çiçəkləri (şək. 86).

**Kimyəvi tərkibi**: Tərkibində triterpen saponinləri, acı və aşı maddələri, selik, efir yağları, fitonsidlər, çox miqdarda karotin və karotinoidlər, flavonoidlər və alkaloidlər vardır. Bundan başqa qlikozidlər, fermentlər və üzvi turşular da tapılmışdır. Buna görə də elmi və xalq təbabətində geniş istifadə edilir.

**Xalq təbabətində**: Şişəleyhinə dərman kimi istifadə edilir. Gülümbahar eyni zamanda ağız və boğaz xəstəliklərində, zədələnmələrdə və trofik yaralarda, genekologiyada-eroziyalarda, trixomonad kolpidlərdə işləlilir. Mensturasiyadan sonra bir həftə ərzində hər gün 1 fincan bu bitkinin çayını içmək məsləhətdir. Iltihab əleyhinə olduğundan göz praktikasında da istifadə edilir.

**Fitoterpevtik göstəriş:** Sinir sistemini möhkəmləndirir, arterial qan təzyiqini aşağı salır, ürəyin iş qabiliyyətini artırır, ürək ritmini yavaşıdır. Nevrozda, hipertoniyada, stenokardiyada, ateroskleroz və klimaksda müvəffəqiyyətlə istifadə edilir. Gülümbahar bakterisiddir. Xüsusən stafilakok və streptokok infeksiyalarına qarşı yüksək fəallıq göstərdiyi üçün çiban əleyhinə yaxşı təsir vasitəsidir. Dərinin şişləri, xərçəngi və ziyillərin müalicəsində tətbiq edilir. Qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi, böyrək və ödyolları xəstəlikləri xüsusən sarılıq, bağırsaq xəstəlikləri, mensturasiya pozulmalarında, böyrək və sidikyollarının daş xəstəlikləri və xoralı kolitdə istifadə edilir.

**Hazırlanması**: Məhlulunu hazırlamaq üçün 2 xörək qaşığı çiçək 2 stəkan qaynanmış suda dəmlənilir (termosda). 1/2 stəkan gündə 3 dəfə yeməkdən əvvəl qəbul edilməlidir.

Qarışıq şəklində gülümbahar, gicitkan, bulaqotu və dəmrovotu ilə birlikdə dəmləməsi mədə yarasının müalicəsində olduqca

effektli təsir göstərir. Xarici vasitə üçün məhlul - 4 xörək qaşığı bitki 2 stəkan qaynanmış suda dəmlənilir.

Preparat - Tinkturasını və spirtli məhlulunu hazırlamaq üçün 1:10 nisbətində çiçəkləri 70%-li etil spirtində həll edilməlidir. İrinli yaralar, yanıqlar, boğaz xəstəliklərində, anginada qarqara, yuxarı tənəffüs xəstəliklərində 1 çay qaşığı 1 stəkan suda həll edilərək, ödqovucu dərman kimi isə 10-20 damcı qəbul edilir.

Məlhəm «Gülümbahar» (Ung. «Calendula»).
Tərkibi: Gülümbahar məhlulu 20 q, vazelin 90 q. Məlhəm sarımtıl rəngli olur. Yanıqlarda xaricə qəbul edilir.

**Əks göstəriş:** Bəzi hallarda allergik reaksiya yaradır.

## YAĞIOTU - *CHAMAENERIUM ANGUSTIFOLIUM* L.

**Bitkinin istifadə orqanı**: Bitkinin yuxarı yarpaqları, çiçəkləmə dövründə çiçək və yarpaqları işlədilir (şək.87).

**Kimyəvi tərkibi**: Çiçəklərinin tərkibində çoxlu miqdarda tanin (10% qədər), piroqal qrupu, çoxlu selik, alkaloid, askorbin turşusu, şəkər və pektin vardır.

**Xalq təbabətində**: Şiş əleyhinə bitki kimi dünya xalq təbabətində işlədilir. Tibet təbabətində yuxugətirici və ağrıkəsici xüsusiyyətinə görə tətbiq edilir.

**Fitoterpevtik göstəriş:** Sinir sistemini möhkəmləndirir. Tərkibindəki trankvilizatorlar valeriandan geri qalmır. Enterkolit, ishalla gedən bağırsaq xəstəlikləri, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi və xroniki qastritlərdə işlədilir.

**Hazırlanması**: 2 xörək qaşığı bitki 2 stəkan suda dəmlənərək 6 saat ərzində qəbul edilməlidir (gündəlik doza).

## ÜÇYARPAQ YONCA (QIRMIZI) - *TRIFOLIUM PRATENSE* L.

**Bitkinin istifadə orqanı**: Çiçəkləmə başladıqda çiçək başcıqları ilə birlikdə zirvə yarpaqları toplanılır (şək.88).

**Kimyəvi tərkibi**: Bitkinin çiçək və yarpaqlarlarının tərkibində qlükozidlər, trifolin izotrifolin, kversetin, asparagin, tirozin, kumarinlər, salisil turşusu, sitosterol və ramnetin, vitaminlər (askorbin turşusu, E, karotin, B qrup), efir yağı, az miqdarda alkaloidlər, qətran, piyli yağ, üzvi turşular (salisil) və piqmentlər vardır.

**Xalq təbabətində**: Dünya xalq təbabətində asteniya, avitaminoz, qanazlığı və aterosklerozda işlənir. Qankəsici, öskürəkkəsici, büzücü, sidikqovucu və antiseptik təsiri vardır. Yuxarı tənəffüs yollarının iltihabı, ishal, böyrək, uşaqlıq qanaxmaları, baş ağrısı və malyariya xəstəliklərində dəmləmə, eyni zamanda şirə şəklində istifadə edilir.

**Hazırlanması:** 3 xörək qaşığı quru bitki 2 stəkan qaynar suda 6-8 saat ərzində dəmlənərək gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir (gündəlik doza).

Sistitlərdə 1 xörək qaşığı 2-4 saatdan bir, anemiya və hipovitaminozlarda 2 xörək qaşığı gündə 2-3 dəfə qəbul edilir.

Aterosklerozda, qulaqlardan küyü yox etmək və qan təzyiqini normallaşdırmaq üçün 40 q bitki 50 ml 40% -li spirtdə 10 gün müddətində həll edərək, axşam yatmazdan əvvəl 20 ml qəbul edilməlidir. Kurs müddəti 3 ay.

## DƏVƏDABANI – *TUSSILAGO FARFARA* L.

**Bitkinin istifadə orqanı**: Yarpaq və çiçəkləri (şək.89).

**Kimyəvi tərkibi**: Yarpaqlarının tərkibində acı qlükozidlər (2,63 %-ə qədər), sitosterin, aşı maddələri, pirrolizidin alkaloidi, qal, çaxır və alma turşuları, askorbin turşusu (5mq%), saponinlər, inulin və dekstrin maddələri vardır.

**Xalq təbabətində**: Yanıq əleyhinə maddə kimi geniş istifadə edilir.

**Fitoterapevtik göstəriş:** Tərkibində iltihabsorucu, öskürəkkəsici, büzücü, sidik və tərqovucu maddələr vardır. Dəvədabanı bronxit, plevrit, pnevmoniya, difteriya, bronxial astma, bronxoektaziya və qrip xəstəliklərinin müalicəsində tətbiq edilir. Keyfiyyətli öskürəkkəsici və ödqovucu dərman olduğu üçün vərəmdə, iltihabsorucu xüsusiyyətinə görə mədə-bağırsaq traktı, qara ciyər və öd xəstəlikləri, malyariya, ekzema, böyrək xəstəlikləri və sistitin müalicəsində səmərəlidir. Yanıqlarda, frunkulyoz, tromboflebit, angina və stomatitlərdə xaricə işlədilir.

**Hazırlanması**: 3 xörək qaşığı çiçək və ya yarpaqları 2 stəkan qaynar suda dəmlənərək (termosda) gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl içmək lazımdır (gündəlik doza). Bu tərkib həm də xaricə tətbiq edilə bilər.

**Əks göstəriş**: Uzunmüddətli qəbulu kanserogen təsir edir.

## SIĞIRQUYRUĞU – *VERBASCUM THAPSIFORME* SCHRAD. (=*V.DENSİFLORUM)*

**Bitkinin istifadə orqanı:** Çiçək qönçələri. Ləçəkləri ilə birlikdə kasacıqları da işlədilir. Yağışlı havada toplamaq olmaz (şək. 90).

**Kimyəvi tərkibi**: Bitkinin yerüstü hissəsinin tərkibində saponinlər, efir yağları (izi), şəkər (ümumi miqdarı 11% qədər, qlikoza 3,5%), digər karbohidratlar (11-12%), rəngləyici maddələr: a kroçetin, kumarin, b karotin və flavanoidlər vardır. Çiçəklərinin tərkibində şəkər (11%), selik, qlükozid, saponin, flavanoid, az miqdarda yağlar, qatran, kumarin, rəngləyici maddələr və aukutin qlükozidi vardır. Müalicəvi təsirə malik olan bitkinin tərkibində olan selik, saponin və efir yağlarıdır.

**Xalq təbabətində**: Çiçək qönçələrinin məhlulu bronxit, ağciyər və bronxial astma, mədə-bağırsaq traktı və ödyolu xəstəliklərinin müalicəsində tətbiq edilir. Xaricə (dəri) təmizləyici dərman və kompres şəklində işlədilir. Digər bitkilərlə birlikdə qarqara, imalə, irriqasiya, eksudativ diatezdə vanna kimi qəbul edilir. Saçın kəpək verməsində (seboreya) istifadə edilir. Yumşaldıcı, bürüyücü, öskürəkkəsici xüsusiyyətləri olduğundan, ağciyər, mədə-bağırsaq və böyrək xəstəliklərində işlədilir.

**Fitoterapevtik göstəriş:** Elmi təbabətdə çiçəklərindən istifadə edilir. Tərkibində öskürəkkəsici və yumşaldıcı (saponin, selik) maddələr vardır.

**Hazırlanması:** 2-3 xörək qaşığı bitki gecə 0,5 l qaynar suda (termosda) dəmlənərək gündə 3 dəfə yeməkdən 20-30 dəqiqə əvvəl qəbul edilməlidir (gündəlik doza).

**Əks göstəriş:** Yüksək həssaslıq.

## IKIEVLI GICITKAN - *URTICA DIOICA* L.

**Bitkinin istifadə orqanı:** Çiçəkləyən zaman yarpaqları yığılır.
**Kimyəvi tərkibi**: Yarpaqlarında askorbin turşusu (269 mq%), karotin və karotinoidlər (50 mq%), üzvi turşular (qarışqa, pantoten), B və K vitaminləri vardır. Bitkidə aşı maddələri, mikroelementlər, fitonsidlər, protoporfirin, koproporfirin, urtisin qlükozidi, kofein, p-kumarin, ferulin – asetilxolin, histamin və 5-hidroksitriptamin maddələri aşkar edilmişdir.
**Xalq təbabətində**: Podaqra, revmatizm, diatez, ekzema, hipoqalaktiya (süd ifrazının azlığı), şəkərli diabet, hemorroy, malyariya və piylənmələrdə tətbiq edilir. Cavan bitkinin şirəsi öd və böyrək daşlarının əridilməsinə kömək edir. Gicitkanın kökü öd və böyrəklərdə «ilişib qalan» daşların xırdalanaraq xaric edilməsi üçün olduqca yaxşı dərmandır. Bunun üçün ən yaxşı gicitkanın toxumu hesab olunur. Dəmləməsi yanıq, yara və zədələnmələrdə dərinin regenerasiya prosesini normallaşdırır. Xaricə tətbiqində yanıqlarda, yaraların müalicəsində, ekzemada, dəri qaşınmalarında, oynaq revmatizmində (zəif isladıcı) əvəzedilməz hesab olunur.
**Fitoterapevtik göstəriş:** Asteniya, qanazlığı, arterial hipotenziyada və maddələr mübadiləsinin tənzimlənəsində istifadə edilir. Nevroz, isteriya, bronxit, pnevmoniya, bronxial astma, vərəm, difteriya, iştahasızlıq, ishal, qəbizlik, qastrit, enterkolit epilepsiya və ateroskleroz xəstəliklərində işlədilir. Qaraciyər və öd yolları, sidikqovucu və iltihabəleyhinə dərman kimi nefrit, pielonefrit və sistitin müalicəsində istifadə edilir. Sidikqovucu və orqanizm möhkəmləndirici dərman kimi, I-II dərəcəli ürək-damar xəstəliklərində istifadə edilir. Uşaqlığın tonusunu yüksəldərək qankəsici təsir edir, klimakterik qanaxmalarda, uşaqlıq fibromasında, doğuşdan və abortdan sonrakı qanaxmalarda, iltihabı proseslərdə istifadə edilir.
**Hazırlanması**: Məhlul: 3 xörək qaşığı bitki 2 stəkan qaynar suda (termosda) dəmlənərək gündə 3 dəfə yeməkdən 20-30 dəqiqə əvvəl qəbul edilməlidir (gündəlik doza).

Xaricə yüksək konsentrasiyada gündə 2 dəfə qəbul edilir.

## SINCANOTU - *SANGUISORBA OFFICINALIS* L.

**Bitkinin istifadə orqanı:** Kökümsov və kökləri (şək.91).

**Kimyəvi tərkibi**: Kökümsov və köklərində aşı maddələri (20% qədər), piroqal qrupu – qall turşusu, rəngləyici maddələr, saponinlər, nişasta və efir yağı vardır.

**Xalq təbabətində**: Güclü büzücü, ağrıkəsici, iltihabsorucu və qankəsicidir. Mədə-bağırsaq xəstəliklərində, müxtəlif etiologiyalı ishalda, spesifik olmayan xoralı kolitlərdə, xroniki enterkolitdə, ağ ciyər qanaxmalarinda, öd, bağırsaq, hemorroy, böyrək və uşaqlıq qanaxmalarında, menstruasiyada və aşağı ətrafların tromboflebitində istifadə edilir.

**Fitoterapevtik göstəriş:** Dəmləməsi (daxilə) bağırsaq çöpləri ilə əlaqə yaradaraq, dizinteriya və paratifoz qrup mikroblarının məhv edilməsinə kömək edir.
Gec sağalan yanıq və yaralarda, stomatit, gingivit, angina, trixomonad kolpit və vaginitdə xaricə tətbiq edilir.

**Hazırlanması:** Büzücü və qankəsici dərman kimi ishalda, qanhayxırmada, uşaqlıq qanaxmalarında 30-50 damcı gündə 3-5 dəfə qəbul etmək olar.
Kökünü 1 xörək qaşığı 1 stəkan qaynar suda dəmləyərək, gündə 1 xörək qaşığı 5-6 dəfə olmaqla, içmək olar.

**Əks göstəriş**: Hamiləlik.

## DƏRMAN ZƏNCIROTU – *TARAXACUM OFFICINALE* WIGG.

**Bitkinin istifadə orqanı**: Kökü və yerüstü hissələri (şək.92).

**Kimyəvi tərkibi:** Zəncirotunun köklərində vitaminlər, karotin, sterol, karotin, flavanoidlər, aşı və mineral maddələr (bollucu kalsium), mikroelementlər, efir yağı, triterpenlər, inulin (24%-ə qədər), kaucuk (3%-ə qədər), β sitositerin, yağ, turşu qliseridləri (palmitin, olein, linol və serotin) maddələri vardır.

**Xalq təbabətində:** Bu bitki xalq təbabətində ümumi öhkəmləndirici, qan azlığı, asteniya, sinir sistemi xəstəlikləri, qanda xolesterinin miqdarını azaldan preparat kimi tətbiq edilir. Nevroz, qaraciyər, öd yolları, sarılıq, mədə və bağırsaq, zəiflik və ateroskleroz, revmatizm, podaqra, allergik və böyrək daşı xəstəliyi, hemorroy, frunkulyoz və s. zamanı istifadə edilir. Laktaisya prosesini normallaşdırır. Müxtəlif dəri xəstəliklərində istifadə edilir.

Alman xalq təbabtində böyrək və sidik yolları, bağırsaq, böyrəkdaşı xəstəliyi, ağır infeksiyalarda, qanazlığında, revmatizm, podaqra və avtaminozlarda məsləhət görürlər.

Əbu-Əli Ibn-Sina bitkinin təzə şirəsinin qan-damar durğunluqlarında və əqrəb sancmalarında istifadəsini təklif edir.

Rus xalq təbabətində bu bitki «həyat eleksiri» adlanır.

Orta Asiyada qanazlığında, ümumi halsızlıqda, «döş inağında», qaraciyər, aterosklerozda istifadə edilir. Kökləri və yarpaqları salat kimi yeyilir və kofe ilə qəbul edilir.

**Fitoterapevtik göstəriş:** Xroniki mədə-bağırsaq traktı, xüsusilə qəbizlik müşayət olunan hallarda işlədici kimi,qaraciyər, öddaşı, sarılıq zamanı istifadə olunur. Kök və yarpaqları sidikqovucudur, iltihabı proseslərdə, hepatit, nevroz, ateroskleroz, qanazlığında işlədilir və tonuslandırıcı təsirə malikdir. Bundan baş-

qa podaqra, revmatizm, babasil, frunkulyoz xəstəliklərində tez-sağaldıcı təsir edir. Acı olduğu üçün iştahlandırıcı, ödqovucu, diuretik, qurdqovucu xüsusiyyətə də malikdir.

Fransız elmi təbabətində zəncirotundan xroniki qaraciyər, xəstəliklərinə təsir edərək qanda xolesterinin miqdarını aşağı salırlar. Cavan yarpaqlarının dəmləməsi qanın tərkibini yaxşılışdırır. Fransada kulturada becərilir.

Bolqar elmi təbabətində cavan yarpaqlarını ateroskleroz, anemiya, C avitaminozu, dəri xəstəliklərində qəbul edilməsi məsləhət görülür. Yaz və payız aylarında qaraciyər və böyrək xəstəlikləri zamanı qəbul etdikdə orqanizmdəki şlakları çıxarır. 4-6 həftədən çox qəbul edilməlidir.

**Hazırlanması:** 1 xörək qaşığı kökü və ya bütöv bitkini 2 stəkan qaynar suda dəmləyərək (termosda) içmək lazımdır (gündəlik doza). Gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul etmək məsləhətdir. Spirtli məhlulu 1:10 nisbətində hazırlanmalıdır. 5-10 (15) damcı yatmazdan 2-3 saat əvvəl yuxusuzluq və temperatura hallarında qəbul edilməlidir.

Miksturası: zəncirotu köku 100q, spirt $90^0$ -15ml, qliserin - 15ml, su 17 ml. Gündə 3 dəfə hər dəfə 1-2 xörək qaşığı qəbul edilməlidir.

Hər gün bitkinin 50-100 qram şirəsini qantəmizləyici maddə kimi qəbul etmək məsləhətdir.

**Əks göstəriş** – Ishal.

## ADI QUŞƏPPƏYI - *CAPSELLA BURSA - PASTORIS* (L.) MEDIC.

**Bitkinin istifadə orqanı:** Bütün yerüstü hissəsi (şək.93).

**Kimyəvi tərkibi:** Yarpaqlarının tərkibində alkaloidlər (0,033-0,66%), aminlər (triamin, xolin, asetilxolin, tiramin), inozit, qlikozidlər (0,059%), qissopin ramnoqlikozidi, saponinlər, aşı maddələri, pirokatexin qrupu (3,3%), C vitamini (120-198mq%), K vitamini (0,27mq%) və kül (6,46%) elementi tapılmışdır. Toxumlarında piyli yağ (28%) və xardal yağı vardır. Tərkibində K vitamini, bor, qissopin, çaxır, fumarin, askorbin və alma turşuları, flavanoidlər, çoxlu kalium, peptid, inozit, saponinlər, fitonsidlər vardır.

**Xalq təbabətində**: Təzə yarpaqları diabet xəstəliyinin müalicəsində istifadə edilir. Ekstraktı uşaqlıq qanaxmalarını kəsir.

**Fitoterapevtik göstəriş:** Eksperimental olaraq öyrənilmişdir ki, quşəppəyi uşaqlıq əzələsini möhkəmləndirir və periferik sistemi oyadır. Yarpaqları fitonsid təsirə malikdir.

Hipotenziv, hərarətsalıcı, büzücü və sidikqovucu xüsusiyyətə malikdir. Təzə bitkidən hazırlanmış şirə güclü qankəsicidir. Hipertoniya və ateroskleroz xəstəliyində təyin edilir. Yazda cavan yarpaqları salat kimi yeyilir. Dəmləməsi başlıca olaraq mədə-bağırsaq traktı, ishal, öd və böyrəkdaşı, maddələr mübadiləsi pozğunluğu ilə gedən podaqra və revmatizm xəstəliklərində işlədilir. Quşəppəyi əsasən yaxşı qankəsici maddə kimi uşaqlıq, mədə və böyrək qanaxmalarında tətbiq edilir.

**Hazırlanması**: 2 çay qaşığı bitkini 2 stəkan qaynar suda 10 dəqiqə dəmləyərək, gün ərzində 2 fincan içmək lazımdır (gündəlik doza).

Qarışıq kimi ürək və qan dövranı pozğunluqlarında quşəppəyi 10q, yemişan 10q, valerian 5q, bədrənc 5q olmaqla hazırlanaraq, 2 çay qaşığı 250ml suda 10 saat ərzində dəmlənərək isti halda qəbul edilməlidir. Eyni dozada qatırquyruğu ilə birlikdə ağciyər, revmatizm, qaraciyər, podaqra, burun-qulaq və boğaz infeksiyalarında qəbul edilə bilər.

Preparat – Quşəppəyi ekstraktı (Extr. Bursae pastoris fluidum). Ekstrakt (1:1) nisbətində 70% spirtli məhluludur. 20-25 damcı gündə 2-3 dəfə içmək olar.

**Əks göstəriş**: Hamiləlik, tromboflebit. Bitkiyə qarşı sinir sisteminin həssaslığının artması.

## BAHAR XORUZGÜLÜ - *PRIMULA VERIS* L.

**Bitkinin istifadə orqanı**: Yerüstü hissələri və çiçəkləri (şək. 94).

**Kimyəvi tərkibi**: Zəhərlidir! Tərkibi saponinlər (5-10%), efir yağı, flavanoidlər, silikat turşusu, aşı maddələri və fenol qlükozidlərindən (primulaverozid və primverozid) ibarətdir. Biokimyəvi tərkibi tamamilə öyrənilməmişdir.

**Xalq təbabətində:** Miqren, nevralgiya, podaqra, revmatizm və halsızlıq hallarında işlədilir.

**Fitoterapevtik göstəriş**: Tərkibi çoxlu miqdarda askorbin turşusundan ibarət olduğu üçün yazda salat kimi qəbul edilir. Qurumuş bitkidən qrip, angina, bronxit, pollinoz və rinosinusitlərin müalicəsində istifadə edilir. Bahar xoruzgülünün zəif sedativ və yuxugətirici xüsusiyyətinə görə miqren, nevroz və zəiflik hallarında istifadə edilir. Kökləri yaxşı öskürəkkəsici maddədir. Tərkibindəki saponinlər xüsusən quru öskürəyi kəsmək üçün çox faydalıdır. Ürək döyünməni azaldaraq, ürək və ağciyərin qanla təchizini yaxşılaşdırır. Tərkibinə bu bitkidən başqa əməköməci daxil etdikdə soyuqdəymə və öskürək hallarında işlətmək məqsədəuyğun sayılır. Ürək qan dövranının təhcizini yaxşılaşdırır və ürəkdöyünməni azaldır. Qalxanabənzər vəzinin hiperfunksiyasını normallaşdırır. Böyrək və sidik yollarının daş və qumlarını (konkriment) təmizləyir. Gündə 2-3 dəfə hər dəfə 5-10 damcı, güclü tutmalarda isə 20 damcı qəbul etmək olar. Yüksək dozada və ya uzun müddət qəbulu təngnəfəslik və qusma verir. Qalen preparatlarına daxildir.

**Hazırlanması**: 2-3 xörək qaşığı bitkini 0,5 l qaynar suda dəmləyərək (termosda), içmək lazımdır (gündəlik doza). Xoruzgülü kökümsovu 30, cirə 10, əməköməci 10, razyana 10 qram qarışdırılır, 2 çay qaşığı 250q qaynanmış suda 10 dəqiqə həll edərək isti halda bal ilə qəbul etmək lazımdır.

## QAZ QAYTARMA - *POTENTILLA ANSERINA* L.

**Bitkinin istifadə orqanı**: Bitkinin yürüstü hissəsi və toxumları (şək. 95).

**Kimyəvi tərkibi**: Demək olar ki, öyrənilməmişdir. Tərkibində çoxlu miqdarda aşı maddələri və qlükozidlər (tormentol, tormentillin) vardır.

**Xalq təbabətində:** Gənc qadınların menstruasiya pozğunluqlarında, erkən başlayan klimaks zamanı tətbiq edilir.

**Fitoterapevtik göstəriş**: Ağrıkəsici, tonuslandırıcı, büzücü və antiseptik təsirə malikdir. Astenik vəziyyətlərdə, enterkolit, ishal, qara ciyər və ödyolu xəstəliklərində işlədilir. Şirə kimi xaricə yara, primoçka və kompress şəklində tətbiq edilir.

**Hazırlanması:** 2 xörək qaşığı bitkini 2 stəkan qaynar suda dəmləyərək (termosda), içmək lazımdır (gündəlik doza). Cavan bitkinin şirəsini gündə 3 xörək qaşığı olmaqla, öd və böyrəkdaşı xəstəliklərində qəbul etmək məsləhət görülür.

## DÜZ QAYTARMA - *POTENTILLA ERECTA* (L.) RAEUSCH.

**Bitkinin istifadə orqanı**: Kökümsovları (şək.96).

**Kimyəvi tərkibi**: Tərkibində çoxlu miqdarda aşı maddələri (14% -ə qədər) və qlükozidlər, tormentillin, tormentol efiri, xinin turşusu, qətran, flobafen, nişasta, kamed vardır.

**Xalq təbabəti və fitoterapevtik göstəriş:** Xalq və elmi təbabətdə büzücü, iltihab əleyhinə, bakterisid, qan laxtalandırıcı xüsusiyyətlərinə görə tətbiq edilir. İltihabsorucu xüsusiyyətinə görə mədə-bağırsaq, kəskin və xroniki ishal, ağ ciyər, podaqra, revmatizm, kəskin və xroniki qara ciyər, öd xəstəliklərində və ginekoloji qanaxmalarda istifadə edilir. Öskürəkkəsici və ödqovucu təsiri də vardır. Dəridə yaralanma, səpgi və ekzemalarda, hemorroyda, qızartılarda istifadə edilir. Ağız və boğaz xəstəliklərində qarqara etmək məqsədəuyğundur. Qarışıq bitki çaylarının tərkibinə büzücü kimi əlavə edilir.

**Hazırlanması:** 2 çay qaşığı kökümsovu 1 stəkan qaynar suda 15-20 dəqiqə dəmləyərək (termosda), 1-2 xörək qaşığı gündə 3-4 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl içmək lazımdır (gündəlik doza).

## MAY INCIÇIÇƏYI – *CONVALLARIA MAJALIS* L.

**Bitkinin istifadə orqanı:** Yarpaq, çiçək, toxum və bütöv bitki (şək.97).

**Kimyəvi tərkibi**: Tərkibində ürək qlükozidləri – konvallotoksin, dezqlükoxeyrotoksin, konvallozid vardır.

**Xalq təbabətində**: Ürək xəstəliklərində, müxtəlif etiologiyalı ödemlərdə sidikqovucu kimi, nevroz, epilepsiya, yüksək hərarət zamanı istifadə edilir.

**Fitoterapevtik göstəriş**: Bitki Qərbi Avropada orta əsrlərdən elmi təbabətdə tətbiq edilir. Kardial tipli neyrosirkulyar distoniyada, isteriya, yüngül formalı toksiki zobun müalicəsində işlədilir. Müalicəni valerian və yemişanla birlikdə apardıqda daha səmərəli olur.

**Hazırlanması**: 1 xörək qaşığı bitki 200 ml qaynar suda dəmlənərək gündə 1-2 xörək qaşığı 3-4 dəfə olmaqla, yeməkdən əvvəl qəbul edilməlidir.

Preparat – *Inciçiçəyi məhlulu (T-ae Convallariae).* 1:10 nisbətində spirt (70%). Böyüklər 15-20 damcı, uşaqlar isə 1-12 damcı gündə 2-3 dəfə qəbul edə bilər.

**Əks göstəriş**: Olduqca zəhərləyici bitki olduğundan həkim məsləhəti ilə tətbiq edilməlidir. Tərkibində qlikozid çoxdur, qlükozidlər tez, lakin kumlyativ təsir edirlər. Yəni orqanizmdə çöküntü əmələ gətirirlər. Ona görə də qlükozidlərlə uzun müddət müalicə aparmaq olmaz, orqanizm zəhərlənə bilər.

## GƏVƏN - *ASTRAGALUS DASYANTHUS* PALL.

**Bitkinin istifadə orqanı:** Kökü və yarpaqlarıdır (şək.98).
**Kimyəvi tərkibi**: Tərkibində qətran, polisaxarid (bassorin və arabin), nişasta, şəkər, selik və üzvü turşular vardır.
**Xalq təbabətində**: Müalicəvi cəhətləri olduqca az öyrənilmişdir. Bəzi kəndlərdə gəvənin gövdə zoğlarının içərisindən toplanmış yağlar zəif heyvanlara yedizdirilir.
**Fitoterapevtik göstəriş**: Sedativ, hipoterziv və damargenişləndirici xüsusiyyətə malik oldugundan, nevroz, hipertoniya, I-II dərəcəli xroniki ürək-damar çatmamazlığı, kəskin və xroniki nefrit xəstəliklərinin müalicəsində istifadə edilir. Tərkibində güclü diuretik maddə vardır.
**Hazırlanması**: 1 xörək qaşığı bitki 250 ml qaynanmış suda dəmlənərək, 1/2 stəkan gündə 3 dəfə 20-40 dəqiqə yeməkdən sonra qəbul edilməlidir.

## DƏRMAN ÇATILOTU- *EUPHRASIA OFFICINALIS* L.

**Bitkinin istifadə orqanı**: Bütün orqanları (şək.99).
**Kimyəvi tərkibi**: Tərkibində efir yağları (0,17%), piyli yağ, acı maddələr, qətran, mavi rəngləyici maddə, hallotonin və aukubin qlükozidi vardır.
**Xalq təbabətində və fitoterapevtik göstəriş**: Göz xəstəlikləri üçün olduqca əvəzolunmaz bitkidir. Bu məqsədlə daxilə dəmləmə, xaricə isə isladıcı şəklində istifadə edilir. Bundan başqa digər bitkilərlə ürək xəstəlikləri, qastrit, enterkolit və diskenziyada qarışıq şəklində istifadə edilir.
**Hazırlanması:** 2 xörək qaşığı bitkini 0,5 l qaynar suda dəmləyərək (termosda) içmək lazımdır (gündəlik doza). Islatma şəklində istifadə etdikdə 4 xörək qaşığı bitkini 0,5 l qaynar suda dəmləmək lazımdır.

## ADI TOPPUZTIKAN - *ECHINOPS RITRO* L.

**Bitkinin istifadə orqanı**: Meyvələri (şək.100).

**Kimyəvi tərkibi**: Toxumlarının tərkibində 1,5-2,0% exinopsin alkaloidi vardır, gövdə və yarpaqlarınında isə bu alkaloid olduqca azdır. Meyvələrinin tərkibində 28% -ə qədər piyli yağlar vardır.

**Xalq təbabətində**: Çin xalq təbabətində toppuztikan qankəsici, kardiotonik və iltihabsorucu maddə kimi tətbiq edilir. Meyvələri kardiotonik dərman kimi hipertoniya xəstəliyi və aterosklerozda faydalıdır.

**Fitoterapevtik göstəriş**: Tərkibində tonuslandırıcı və orqanizm möhkəmləndirici maddələr vardır. Buna görə də sinir sisteminin zəifliyində və iflic xəstəliklərində tətbiq edilir. Effektli sinir-əzələ stimulyatorudur. Arterial hipotenziya, miopatiya, periferik iflic və parezlərdə, pleksitdə, radikulit, xroniki şüa xəstəliyi, polimielit xəstəliklərini müvəffəqiyyətlə müalicə edir. Klinik tədqiqatlara görə exinopsin maddəsi bel-oma radikuliti, üz sinirinin iflici və amiotrofik sklerozun müalicəsində istifadə edilir. Eyni zamanda görmə sinirinin atrofiyasında və oftalmoplegiyada da tətbiq edilir. Az toksikidir, zəif dozaları əkscinslər arasında cinsi fəaliyyəti artıran, qızışdıran rol lynayır. Yüksək dozaları orqanizmdə qıcolmalar yaradır. Medinal preparatının antaqonistidir. Bu bitkini az dozada qəbul etdikdə qan təzyiqini artırır, yüksək dozalarda isə aşağı salır. Exinopsin alkoloidi iflic və parezlərdə, pleksit, radikulit, hipotoniya, miopatiya, xroniki şüa xəstəliklərində və polimielitdə olduqca səmərəlidir.

**Hazırlanması:** 2-3 çay qaşığı meyvələri 1 stəkan qaynar suda dəmləyərək (termosda) içmək lazımdır (gündəlik doza).

Exinopsin-nitrat 0,4% ampullarda (Sol. Exinopsini-nitratis 0,4%-1,0) 1 ml dərialtına sutqada 1-3 dəfə vurmaq lazımdır. Müalicə kursu 3-4 həftədir.

1%-li 20 ml exinopsin-nitrat məhlulu adı ilə buraxılır. Yeməkdən 30 dəqiqə əvvəl, gündə 2 dəfə 10-20 damcı qəbul etmək lazımdır. Müalicə kursu 3-4 həftədir.

2 xörək qaşığı adi toppuztikanı 500 ml qaynar suda dəmləmək lazımdır. Başqa üsulla 3q nazik doğranmış köklərini 250ml soyuq suda 5 saat saxlayıb, süzərək gündə 3 dəfə hər dəfə 1 xörək qaşığı qəbul etmək olar.

Xırdalanmış kökləri 20q 250ml suda dəmlənərək gündə 3 dəfə diabetdə qəbul edilir.

**Əks göstəriş**: Zəhərli bitkidir. Hamiləlik.

## DAĞTƏRXUNU – *TANACETUM VULGARE* L.

**Bitkinin istifadə orqanı**: Çiçək səbəti. Bitkini çiçəkləyən zaman toplamaq lazımdır (şək.101).

**Kimyəvi tərkibi:** Tərkibində efir yağları (0,3%), çoxlu miqdarda β tuyon, aşı maddələri, qlikozid, vitaminlər, kamfora, bornela, pinen, α tuyon və tuyol vardır. Çiçəkləyən zaman tərkibində efir yağları, acı, aşı maddələr, flavanoidlər (lütenoliin, kvarsetin), üzvü turşular, C vitamini (8 mq%), az miqdarda alkaloidlər, terpenlər isə daha çox toplanılır.

**Xalq təbabətində**: Sinir xəstəlikləri, epilepsiya, miqren, kəskin infeksion respirator xəstəliklər, ağciyər vərəmi, öd, hepaxolesistit və xolangit xəstəliklərində geniş şəkildə tətbiq edilir. Qan təzyiqini yüksəldir. Dağtərxunu yaxşı qurdqovucu təsirə malikdir. Əsasən askarid və bizquyruq qurdları salır. Bitkinin həm də insektisid xüsusiyyəti olduğundan müxtəlif həşəratların qovulmasına təsir edir. Ödqovucu bitki kimi hepatit, xolesistitdə və spazməleyhinə dərman kimi istifadə edilir. Bundan başqa nevroz, epilepsiya, tənəffüs yollarının iltihabı, baş ağrısı, öd xəstəliklərində istifadə edilir. Zəhərli olduğundan hamiləlikdə istifadə etmək olmaz. Antihelment, insektisid maddədir.

**Fitoterapevtik göstəriş**: Bitkinin efir yağı ən yaxşı qurdqovucudur. Bizquyruq və askarid helmintlərinin qovulmasında effekli dərman sayılır.

İngilis təbabətində miqrenin profilaktikasında istifadə edilir. Eksperimental hepatitlərdə dağtərxunu sekresiyanı artırır, seliyiyin və ödün miqdarını azaldır. Mədə-bağırsaq əzələsinin tonusunu normallaşdırır, dəmləməsi ürək ritmini azaldır, arterial təzyiqi və öd ifrazını artırır. Efir yağı qurdqovucu və antimikrob olmaqla, son dərəcə zəhərlidir. Bolqar təbabətində antiseptik, spazmalitik və qurd əleyhinə dərman kimi az dozaları mədə-bağırsaq xəstəliklərində işlədilir.

Əsəb, mədə spazmında, sidik yollarının iltihabında, böyrəkdaşı xəstəliklərində, baş ağrısı, podaqra, malyariya xəstəliklərində tətbiq edilir.

Fransa təbabətində çiçəkləri qurdəleyhinə, temperaturasalıcı, tonuslandırıcı, və antiseptik kimi işlədilir.

**Hazırlanması:** 1 xörək qaşığı bitkini 0,5 l qaynar suda dəmləyərək (termosda) içmək lazımdır (gündəlik doza). 5%-li məhlulu (70-105 ml) gündə 2-3 dəfə mədə və onikibarmaq bağırsaq xorasında qəbul edilir. 5q çiçəkləri 1l qaynanmış suda dəmlənib, gündə 1-2 dəfə qəbul edilir. Revmatizmdə 50q çiçəklərini 1 litr çaxırda 8 gün saxlamaq lazımdır. Hər dəfə 30-40q günorta və axşam qəbul etmək lazımdır. Qurd əleyhinə hər birindən 8q yovşan, çobanyastığı və dağtərxunu 250 ml qaynanmış suda dəmləyib, imalə edirlər.

Amerikada dağtərxunu və qozdan birlikdə likyor hazırlanır və ətin konservləşdirilməsində istifadə edilir.

**Əks göstəriş**: Hamiləlik. Bitki zəif zəhərləyici xüsusiyyətə malikdir.

## BÖYÜK BAĞAYARPAĞI - *PLANTAGO MAJOR* L.

**Bitkinin istifadə orqanı**: Yarpaq, kök və toxumları.

**Kimyəvi tərkibi:** Yarpaqlarının tərkibində aşı və acı maddələr, karotin, indekan qlükozidi, aukubin, askorbin turşusu (42,2 mq%), K vitamini, alkoloidlər, flavanoidlər, mannit, sorbit, üzvi turşular (limon və olein) vardır. Toxumlarının tərkibində çoxlu miqdarda selik (16% qədər), yağ (20%) və planteoza karbohidratı (0,17%) vardır.

**Xalq təbabətində**: Bədxassəli şişlərin, mədə, bağırsaq, qaraciyər, böyrək, şəkər, sonsuzluq, xroniki xora, qanaxma və ağciyər xəstəliklərinin müalicəsində məsləhət görülür. Bağayarpağının dəmləməsi temperatura və öskürəklə müşayət olunan ağ ciyər vərəmində ağrıkəsici, müxtəlif həşarat və ilan zəhərinin orqanizmdən təmizlənməsində əvəzsiz bitkidir. Xroniki ishalda bitki və toxumundan istifadə edilir. Yarpaqları elmi təbabətdə dəri xəstəliklərində yaralanma, frunkulyoz və döyənəkli xoralarda, islatma şəklində isə əsasən irinli dəri xəstəliklərində işlədilir.

**Fitoterapevtik göstəriş**: Bitki iltihabsorucu, bakterisid, yarasağaldıcı, öskürək və qankəsici, sidikqovucu və hipotenziv təsirə malikdir. Hipertoniya və aterosklerozda daha çox tətbiq edilir. Yarpaqlarının şirə və dəmləməsi yaxşı öskürəkkəsici maddə olduğundan kəskin və xroniki tənəffüs yolu xəstəliklərində müvəffəqiyyətlə işlədilir. Bundan başqa mədə-bağırsaq traktı, qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyində, kəskin və xroniki enteritdə, xoralı kolitdə işlədilir. Bağayarpağı ishal, dizinteriya və vərəm xəstəliyinin müalicəsində olduqca effektlidir.

**Hazırlanması:** 1-3 çay qaşığı (5-15q) bitkini 2 stəkan qaynar suda dəmlənərək, gündə 3 dəfə yeməkdən 30 dəqiqə əvvəl içmək lazımdır (gündəlik doza).

Bikinin ovuntusunu (paroşok) gündə 3-4 dəfə 1 qramdan artıq olmayaraq yeməkdən 30-40 dəqiqə əvvəl qəbul etmək lazımdır.

Ağciyər və mədə xərçəngi zamanı-bitkinin təzə yarpaqlarını əzərək üzərinə doyana qədər şəkər tozu əlavə etmək və isti yerdə 2 həftə saxlamaq lazımdır. 1 xörək qaşığı gündə 3-4 dəfə yeməkdən 20 dəqiqə əvvəl qəbul edilməlidir. Qanaxmalarda 2 xörək qaşığı quru bitki, 2 xörək qaşığı gicitkan 2 stəkan qaynar suda dəmlənərək qəbul edilməlidir (gündəlik doza).

**Əks göstəriş**: Mədə turşuluğu ilə müşayət olunan qastritlər.

## BÖYRƏK ÇAYI (Ortosifon) – *ORTHOSIPHON STAMINEUS* BENTH.

**Bitkinin istifadə orqanı**: Zirvə yarpaqları (şək.102).

**Kimyəvi tərkibi:** Tərkibində efir yağı, ortosifonin qlükozidi, saponinlər və aşı maddələri vardır.

**Fitoterapevtik göstəriş**: Hipotenziv təsir göstərir, maddələr mübadiləsini normallaşdırır. Güclü sidikqovucu təsir etməklə, sidik turşusu və xlorid ionlarını orqanizmdən kənar edir. Bitkinin dəmləməsi arterial hipertenziya, ateroskleroz, sidik turşusu diatezi və podaqra xəstəliklərində təyin edilir. Ürək-damar sisteminin çatmamazlığı zamanı ödemin əmələ gəlməsində, kəskin və xroniki böyrək və sidik yolları xəstəliklərində qlomerulonefritdə, pielonefritdə, böyrəkdaşı xəstəliyində, sistit və uretritdə, hipoqastritdə, xolesistit və qaraciyər xəstəliklərində tətbiq edilir.

**Hazırlanması**: 3-3,5 q bitki yarpaqlarını 1 stəkan qaynanmış suda 30 dəqiqə dəmləmək lazımdır. Böyrək çatmamazlığı ilə müşayət olunan ödemlərdə gündə 2 dəfə 1\2 stəkan yeməkdən 20-30 dəqiqə sonra içmək lazımdır.

Xolesistit zamanı da belə tərkiblə müalicə edilməlidir.

Rp.: Inf. fol. Orthosiphoni 3,5 : 200 ml

D.S. 1\2 stəkan gündə 2 dəfə qəbul etməli.

## TÜKCÜKLÜ DAMOTU - *LEONURUS QUINQUELOBATUS* GILIB.

**Bitkinin istifadə orqanı**: Zirvə yarpaqları (şək.103)

**Kimyəvi tərkibi**: Tərkibində alkaloid, şəkər, acı və aşı maddələr, efir yağı (0,66%), p- kumarov turşusu, askorbin turşusu və karotin, flavanoidlər (kversetin, rutin, kvinkvelozid) və qlükozidlər vardır. Kimyəvi tərkibi tamamilə öyrənilməmişdir.

**Xalq təbabətində**: Möhkəmləndirici, iltihab əleyhinə, ağciyər ödemində sidikqovucu, vərəm, anemiya və xlorozda istifadə edilir.

**Fitoterapevtik göstəriş:** Hipertoniya xəstəliyinin I-II dərəcələrində yaxşı hipotenziv təsirə malik olur. Mərkəzi sinir sisteminə sedativ təsir göstərməklə, ürəyin ritmini azaldaraq onun gücünü artırır. İsteriya, nevroz, stenokardiya, kardioskleroz, miokardit və tireotoksikoz xəstəliklərini müvəffəqiyyətlə müalicə edir. Bundan başqa xoreya (revmatik əsmə), klimakterik şikayətlərdə və normal olmayan menstruasiyalarda təyin edilir.

**Hazırlanması:** 1-2 xörək qaşığı bitkini 1,5-2,5 stəkan qaynar suda dəmləyərək, gündə 3 dəfə içmək lazımdır (gündəlik doza). Preparat – Şirquyruğu məhlulu (T-ae Leonuri). 70% spirtdə (1:5) nisbətində məhlulu. 30-50 damcı gündə 3-4 dəfə qəbul etməli. Flakonlarda 25ml buraxılır.
**Əks göstəriş**: Arterial hipotenziya, bradikardiya.

## ÜRƏK DAMOTU - *LEONURUS CARDIATA* L.

***Bitkinin istifadə orqanı:*** Gövdə, çiçək və yarpaqları (şək. 104).

**Kimyəvi tərkibi**: Gövdə və yarpaqlarında flavanoidlərdən rutin, kvikvelozid, alkaloidlərdən staxidrin (leonuridin), xolin, efir yağı (0,03-0,05%), acı və aşı maddələri (2,14%), saponinlər, C vitamini, kül (11%), alkaloidlər, sedativ və spazmolotik maddələr vardır.

**Xalq təbabətində**: Yarpaqlarının dəmləməsi, spirtli məhlulu, ekstraktı ürək və əsəb xəstəliklərində, psixi zəiflikdə, klimaks zamanı, bərk qorxu keçirdikdə, meteorizmdə müvəffəqiyyətlə tətbiq edilir. Yemişan və valerianla birlikdə dəmləməsi ürək nevrozunun müalicəsində tətbiq edilir. Möhkəmləndirici, oyandıran, qorxu zamanı sakitləşdirici, qurd qovucu, mədə ağrıları və zob əleyhinə işlədilir.

**Fitoterapevtik göstəriş**: Valerianla birlikdə tətbiqi əsəb və hipertoniya xəstəliyində işlədilir. Məhlulundan 30-40 damcı, ekstraktından 15-20 damcı gündə 3-4 dəfə qəbul edilir.

**Hazırlanması:** 15,0:250,0 nisbətində qaynanmış su ilə bitkinin qurudulmuş yuxarı yarpaqlarını 10 dəqiqə ərzində dəmlənərək, gündə 3-5 dəfə (2-4 həftə ərzində) hər dəfə 1 fincan qəbul edilir.

Ateroskelerozda və yuxusuzluqda aşağıdakı kimi istifadə edilir: ürək damotu 20q, dazıotu 15q, yemişan 10q, bədrənc yarpağı 10q, valerian kökü 5q. 250 ml qaynanmış suda 2 çay qaşığı qarışıq 10 dəqiqə ərzində dəmlənərək, gündə 3-5 dəfə (2-4 həftə ərzində) hər dəfə 1 fincan yeməkdən 5 dəqiqə sonra qəbul edilir.

**Əks göstəriş**: Yüksək həssaslıq və uzun müddətli müalicə.

## AYRIQOTU – *AGROPYRON REPENS* (L.) PAL.-BEAUV.

**Bitkinin istifadə orqanı**: Yerüstü hissə və kökümsovları (şək.105).

**Kimyəvi tərkibi**: Gövdə və kökümsovlarının tərkibində efir yağları (0,05%), aqropiren karbohidratı, selik (10% qədər), polisaxaridlərdən – tritiçin, inulin, inqzit, fruktoza, levuleza, saponin, azot saxlayan rezinəbənzər maddələr (1% qədər) və vanilin vardır.

**Xalq təbabətində**: Yarpaqlarından və kökümsovlarından çıxarılmış şirə yuxarı tənəffüs yollarının iltihabi xəstəliklərində – bronxit və pnevmoniyada müsbət nəticə verir. Tumurcuqları maddələr mübadiləsi (mineral mübadilə) – sidik, öddaşı xəstəliklərində, assit, uretrit, sistit, hepatit, metabolik artrit və osteoxondrozda yaxşı səmərə verir. Dəri xəstəliklərində, diatezdə, raxit və hemorroyda da səmərəli olduğu təsdiq edilmişdir (müalicə kursu 10-15 vanna).

**Fitoterapevtik göstəriş**: Tərkibində öskürəkkəsici, tərqovucu və sidikqovucu maddələr olduğu üçün bir sıra preparatlara qatılır. Tumurcuqları eyni zamanda frunkulyozda, "*acne vulgaris*" və digər dəri xəstəliklərində çox yaxşı təsir vasitəsidir.

**Hazırlanması**: 2 xörək qaşığı kökünü axşam 0,5 l qaynar suda dəmləyərək (termos), gündə 3 dəfə 20-40 dəqiqə yeməkdən əvvəl isti halda içmək lazımdır.

Təzə hazırlanmış şirəsi: 0,5-1 stəkan gündə 3-4 dəfə 20-40 dəqiqə yeməkdən əvvəl 3-4 ay içmək məsləhətdir.

Vanna üçün dəmləməsi: 50 q kökümsovlarını 5 l suda qaynadaraq üzərinə soyuq su əlavə edərək vanna qəbul etmək lazımdır.

## RƏVƏND (UŞQUN) – *RHEUM RIBES* L.

**Bitkinin istifadə orqanı:** Kök və kökümsovları (şək.106).

**Kimyəvi tərkibi:** Kök və kökümsovlarının tərkibində antraxinon, antraqlükozidlər (6% qədər), sərbəst aqlükon (reumemodin, xrizofenol, rein), aşı maddələri, qətran, tannoqlükozidlər (10% qədər), rutin, üzvi turşular və katexin maddələri vardır.

**Fitoterapevtik göstəriş**: Başlıca olaraq güclü sakitləşdirici təsir göstərir. İltihabsorucu, antiseptik, ödqovucu, yelqovucu, möhkəmləndirici və büzücü təsir edir. Adətən spastik qəbizlikdə, bağırsaq atoniyasında, menstruasiya və hamiləlkdə, düz bağırsağın çat və hemorroyunda tətbiq edilir.
Tərkibində antraqlükozidlər olduğundan qəbul olunduqdan 8-10 saat sonra yoğun bağırsağın peristaltikasını artıraraq işlədici təsir göstərir. Tannoqlükozidlər büzücü və antiseptik təsir göstərir. Rəvəndı az dozada tətbiq etdikdə büzücü, yüksək dozada isə işlədici təsir edir.

**Hazırlanması**: Yalnız əczaxanalar tərəfindən aparılır. Rəvənd tabletkası (Tabul. radicis Rhei) 0,3-0,5 q olub, gündə 2-3 dəfə qəbul edilir.

Quru rəvənd ekstraktı (Extr. rhei siccum). 0,1 –1,0 dozada qəbul edilir.

Rəvənd paraşoku (Pulv. radicis Rhei). Böyük adamlar üçün 0,5 – 2 q, uşaqlar isə 0,1 q dozada qəbul edir.

**Əks göstəriş**: Yoxdur. Uzun müddət bu bitki ilə müalicə apardıqda bitkiyə qarşı adaptasiya yaranır və müalicəvi təsiri aşağı düşür.
Xroniki qəbizlik və hemorroyda qəbul edilməsi əks göstəriş sayılır.

## QAYA RƏVƏNDI - *RHEUM RUPESTRE* LITV.

**Bitkinin istifadə orqanı**: Dərman məqsədilə yay aylarında, 3-4 illik bitkinin köklərindən və kökümsovlarından istifadə edilir (şək.107).

**Kimyəvi tərkibi:** Tərkibində antraqlikozid, tanoqlikozid, qlüko-reum-emodin, reoxrizin, aşı maddələr vardır. Yarpaqlarında və çiçəklərində C vitamini, rutin, üzvi turşular və çoxlu kalium duzları vardır.

**Xalq təbabətində**: Qaya rəvəndinin tozu böyük dozalarda zəif işlədici, kiçik dozalarda iştahartırıcı, büzücü dərman kimi, dəri xəstəliklərində, ödqovucu kimi və meteorizmdə işlədilir.

**Fitoterapevtik göstəriş**: Rəvəndin kökü toz şəklində, quru ekstrakt formasında, sulu dəmləmə şəklində, sirop şəklində, həb şəklində istifadə edilir.

## SƏDO - *RUTA GRAVEOLENS* L.

**Bitkinin istifadə orqanı**: Bitkinin yerüstü hissələri (Şək.109).

**Kimyəvi tərkibi:** Çiçəkləyən zaman tərkibindən efir yağı (0,136%), rutin, furokumarinlər (berqanten, ksantoksin), alkaloidlər alınmışdır.

**Xalq təbabətində**: Bitkidən hazırlanmış təzə şirə ilan və digər həşəratların sancmasında, zəif görmə zamanı tətbiq edilir. Xaricə yara və yanıqlar, konyuktivit, yerli sızanaq zamanı işlədilir.

**Fitoterapevtik göstəriş**: Ümummöhkəmləndirici antispazmatik, antiseptik, qıcolma əleyhinə, qankəsici və antitoksikdir. Nevroz, ateroskleroz, klimaks, asteniya, isteriya, epilepsiya, revmatizm, podaqra, impotensiya, raxit, mədə-bağırsağın spastik sancılarında, damar spazmı və xoreya xəstəliklərində təyin edilir. Xaricə əsasən dəri yanıqlarında təyin edilir.

**Əks göstəriş**: Hamiləlik. Zəhərli bitki olduğundan, müalicə zamanı həkim nəzarəti olmalıdır.

## APTEK ÇOBANYASTIĞI – *MATRICARIA CHAMOMILLA* L.

**Bitkinin istifadə orqanı**: Bitki çiçəkləyən zaman çiçək səbəti toplanılır (şək. 108).

**Kimyəvi tərkibi:** Çiçəklərinin tərkibində efir yağı, ramazulen, flavanoidlər, üzvi turşular, lakton, kumarin, terpenlər, seskviterpenlər, spirt, vitamin, acı maddələr və kamed vardır.

**Xalq təbabətində:** Çobanyastığı (mollabaşı) həssas dönəmlərdə, yorğunluq zamanı sakitləşdirici çay kimi istifadə edilir. Başağrısında və bir çox narahatçılıqlardan sonra da dəmləmə şəklində işlədilir.

**Fitoterapevtik göstəriş**: Sinir sisteminə sedativ təsir göstərir. Iltihabəleyhinə, antiseptik, qankəsici, ağrıkəsici, yelqovucu, tərqovucu, ödqovucu, büzücü, yumşaldıcı və antiallergik xüsusiyyəti vardır. Sinir sistemi xəstəliklərində – nevroz, isteriya, xoreya, epilepsiya, nevralgiya, üçlü sinirin iltihabı, olqo və dismenorreyada təyin edilir. Çobanyastığı zəif işlədici öskürəkkəsici maddə kimi tənəffüs orqanlarının xəstəliklərində istifadə edilir. Mədə-bağırsaq traktında – qastrit, xora xəstəlikləri, enterkolit, qeyri spesifik xoralı kolit, xolesistit, hepatit, bağırsaq diskenziyası və meteorizm xəstəliklərində istifadə edilir. Böyrək, sidikyolu və diatezdə bir çox qarışıqların tərkibinə verilir. Angina, stomatit və peridontit, ekzema, frunkulyoz və yanıqlarda təyin edilir.

**Hazırlanması:** 2-3 xörək qaşığı çiçəkləri 2 stəkan qaynar suda dəmləyərək (termosda), gündə 3 dəfə içmək lazımdır.

Xaricə tətbiqi zamanı 4-6 xörək qaşığı çiçəkləri 2 stəkan qaynar suda dəmləmək lazımdır.

**Əks göstəriş**: Hamiləlikdə həkim məsləhətiylə işlədilməlidir.

## ADI ZIRƏ - *CARUM CARVI* L.

**Bitkinin istifadə orqanı:** Toxumları.

**Kimyəvi tərkibi:** Toxumunda 3-7% efir yağı (tərkibi başlıca olaraq karvon və limonendən ibarətdir), aşı maddələri və piyli yağlar (22% qədər) vardır. Bitki və çiçəklərində flavanoidlər (kversetin, kempferol və izoramnetin) və asetil tərkibli polin maddələri vardır.

**Xalq təbabətində**: Bronx mənşəli öskürəklərdə, yumşaldıcı və tərqovucu dərman kimi qastrit, enterkolit, uşaqlarda bağırsaq sancılarında, meteorizm, xroniki atonik qəbizlikdə yaxşı nəticə verir. Zirədən hazırlanmış məhlul bağırsaq peristaltikasını artıraraq mədə bağırsaq sistemini qazlardan təmizləyir. Meyvələri sidikqovucu və ltihabsorucu kimi işlədilir. Laktasiya xüsusiyyətli olduğu üçün əsasən sudverən analar istifadə edirlər. Ana südünün artmasına güclü təsir göstərir.

**Fitoterapevtik göstəriş**: Iştahlandırıcı, spazmolitik (bağırsaq əzələləri, uşaqlıq, sidik yolu), bronxlardakı seliyi artıran, qadınlarda laktasiyanı gücləndirən xüsusiyyətləri vardır. Hərarətsalıcı və öskürəklə müşayət olunan xəstəliklər zamanı bronxit, pnevmoniya, bronxial astma və ağciyər vərəmində istifadə edilir.

**Hazırlanması:** 2-3 çay qaşığı bitkini 200 ml qaynar suda dəmləmək (termosda) və hər gün içmək lazımdır (gündəlik doza).

Xalq resepti: 1 xörək qaşığı meyvəni 1 stəkan süd1ə qarışdıraraq 3 dəqiqə qaynatmaq lazımdır. 1 xörək qaşığı gündə 3 dəfə içməklə, laktasiyanı gücləndirmək olar.

Termosda 1 xörək qaşıq bitki 0,5 l qaynanmış suda dəmləmək lazımdır. 1/2 stəkan gündə 3 dəfə yeməkdən 20-30 dəqiqə əvvəl isti halda qəbul edilməlidir.

Meyvələrindən nişatır-zirə damcısı (10-15 damcı gündə 3-4 dəfə) hazırlanır. Zirə yağını öskürəkkəsici vasitə kimi 1-5 damcı gündə 3-4 dəfə qəbul etmək lazımdır.

## ADI BOYMADƏRƏN - *ACHILLEA MILLEFOLIUM L.*

**Bitkinin istifadə orqanı**: Yerüstü hissəsi və çiçəkləri.

**Kimyəvi tərkibi**: Çiçəkləyən zaman bitkinin tərkibində efir yağı (mürəkkəb efirlər, azulen, tuyol, sineol, kamfora, kariofillen), qarışqa və izovalerian turşuları olur. Tərkibində eyni zamanda qətran, aromatik, acı və aşı maddələr, vitaminlər, fitonsidlər və digər maddələr də tapılmışdır.

**Xalq təbabətində**: Qankəsici və yara sağaldıcı dərman kimi tətbiqi xalqa yaxşı məlumdur. Qara ciyər, podaqra, revmatizm, limfa vəzilərinin vərəmində və eyni zamanda qurdqovucu, ayaqların qıcolmasında, irinli yaralarda, anemiya və ağciyər vərəmi xəstəliklərində müvəffəqiyyətlə tətbiq edilir. Yaraların sağaldılmasında istifadə edilir. Qədim tarixdə Axill, Patrokl, Xiron, Telef və Dioskorid kimi loğmanlar bu bitkini «ecazkar bitki» adlandırmışlar.

**Fitoterapevtik göstəriş**: Bitkinin tərkibində ümummöhkəmləndirici, iltihabəleyhinə, antispastik, büzücü və zəif yerli keyləşdirici maddələr vardır. Boymadərən uşaqlıq, ağ ciyər, mədə-bağırsaq, burun qanaxmalarında, yanıq, trofik yara, xronik furunkulyoz və dəri xəstəliklərinin müalicəsində istifadə edilir. Bitki və çiçəkləri müvəffəqiyyətlə qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyində, enterkolit, nefrit, spesifik olmayan kolit, mədə və bağırsağın spastik ağrılarında işlədilir. Boymadərən maddələr mübadiləsini aktivləşdirir və normallaşdırır. Hipertoniya, ateroskleroz və piylənmədə qarışıqların tərkibinə daxildir. Bu bitkinin qəbulu zamanı qanda trombositlər artır. Xüsusilə trombozda boymadərənin qəbulu yolverilməzdir. Qanın laxtalanmasını artırır. Antiallergik xüsusiyyətinə görə diatez, ekzema, qızılyel və bronxial astma xəstəliklərində müvəffəqiyyətlə istifadə edilir. Qanaxmalarda xüsusən ağciyər, bağırsaq, burun,

uşaqlıq və böyrək qanaxmalarında əvəzedilməzdir. Qadın və qızların kiçik tazında olan orqanların nevrozunda (spastik parametropatiya), süd vəzinin iltihabında, mensturasiyada, qıcolma və qusma hallarında çox effektlidir. Ümummöhkəmləndirici, kimi astenik vəziyyət, nevroz və isteriya xəstəliklərində istifadə olunan qarışıqların tərkibinə daxildir.

**Hazırlanması:** 2 çay qaşığı bitkini 250 ml qaynar suda 15 dəqəqə dəmləmək (termosda) lazımdır (gündəlik doza). Gündə 2-3 fincan qəbul etmək məqsədəuyğyndur.

Xaricə tətbiqi zamanı 3 xörək qaşığı bitkini 1,5-2 stəkan qaynar suda dəmləmək lazımdır.

Öd, mədə və bağırsaq xəstəliklərində boymadərən 30q, çobanyastığı 50q, nanə 50q dəmləyərək qəbul etmək lazımdır.

Boymadərənin vannası zamanı 50-75q bitki 1 litr qaynar suda 20 dəqiqə dəmlənilir və süzülür. Bu qədər məhlul 1 vanna üçün yetərlidir.

Yağ və ət məhsullarının (kolbasa) hazırlanmasında boymadərəndən istifadə edilir.

**Əks göstəriş:** Hamiləlik.

## ÜÇRƏNG BƏNÖVŞƏ – *VIOLA TRICOLOR* L.

**Bitkinin istifadə orqanı**: Yerüstü hissəsi (şək.110).

**Kimyəvi tərkibi**: Tərkibində askorbin turşusu, salisil turşusu (0,087%), selik (9,5%), ursol turşusu, karotinoidlər, saponinlər, acı maddələr, flavanoidlər (viteksin, izoviteksin, orientin, izoorientin, vionaltin, visetin-2 və rutin) vardır. Çiçəklərində efir yağı və antosian qlikozidləri (vionaltin, delfidinin 3- qlikozid, peonidin 3- qlikozid), köklərində isə az miqdarda alkoloidlər vardır.

**Xalq təbabətində**: Nevroz, ürəkdöyünmə və halsızlıqda istifadə olunur.

**Fitoterapevtik göstəriş**: Ağciyər və yuxarı tənəffüs yollarının iltihabı xəstəliklərində, burun-udlaq xəstəlikləri, xüsusən difteriyada öskürəkkəsici dərman kimi istifadə olunur. Böyrək və sidik yollarının xəstəliklərində, sidikqovucu və iltihabsorucu dərman kimi müvəffəqiyyətlə tətbiq olunur. Tərqovucu və «qan təmizləyici», oynaq, dəri xəstəliklərində, frunkulyoz, səpki, diatez və ekzema xəstəliklərində istifadə edilir. Oynaq və dəri xəstəliklərində vanna kimi xaricə qəbul edilir.

**Hazırlanması:** 1-2 xörək qaşığı bitkini 500 ml qaynar suda dəmləyərək (termosda) qəbul etmək lazımdır (gündəlik doza). Məhlulu (10,0 : 200,0) 1 xörək qaşığı gündə 3 dəfə qəbul edilməlidir.

2 çay qaşığı bitkini 250ml suda 5 dəqiqə ərzində dəmləmək lazımdır. Fincanla gündə 2-3 dəfə (öskürək olarsa tərkibinə bal qarışdırmaq) qəbul etmək lazımdır. 24 saatdan çox müddətə içmək məsləhət deyil.

**Əks göstəriş**: Qlomerulonefrit və hepatit.

## ƏTIRLI BƏNÖVŞƏ - *VIOLA ODORATA* L.

**Bitkinin istifadə orqanı**: Çiçək və kökümsovları (şək.111).
**Kimyəvi tərkibi:** Köklərində saponinlər, efir yağları, karotin (120 qamma), C vitamini (140-396mq%), violaemetin alkoloidi, çiçəklərində 0,15-0,2% efir yağı vardır. Efir yağının tərkibində keton və müxtəlif terpenlər olur. Tərkibində salisil turşusunun metil efiri, rutin və violakversitrin, antosian, delfinidin və pionidin qlikozidi vardır.
**Xalq təbabətində**: Dəmləməsi və bişirməsindən dizinteriya, sarılıq zamanı ödqovusu, tutmalar zamanı epilepsiyada, astmada, uşaqların qızılca, çiçək xəstəliyi zamanı istifadə edilir. Çiçəklərinin dəmləməsi soyuqdəymələrdə tərlədisi, böyrəkdaşı xəstəliyində sidikqovucu kimi işlədilir.
**Hazırlanması:** Məhlulu (20,0-200,0) Qalen preraratı (triviol) olub, 1 xörək qaşığı gündə 3 dəfə bronxitdə qəbul (tərkibində saponinlər və salisil turşusu vardır) edilir. Uşaqlarda qızılca xəstəliyinin müalicəsində Averin çayı kimi (10-20:200) içilir. Eyni zamanda çiçəkləri vərəm xəstəliyində 1 xörək qaşığı gündə 2-3 dəfə olmaqla qəbul edilir.

## ƏMƏKÖMƏCI - *MALVA SYLVESTRIS* L.

**Bitkinin istifadə orqanı:** Zoğları, yarpaq və çiçəkləri.
**Kimyəvi tərkibi**: Tərkibində selik, malvin qlikozidi, malvidin və xlorid maddələri vardır.
**Fitoterapevtik göstəriş**: Tərkibində çoxlu miqdarda selik və bürüyücü maddələr olduğundan bronxit, bronxial astma, qəbizlik və mədə-bağırsağın xroniki xəstəliklərində tətbiq edilir. Böyrək daşlarının salınmasında effektiv təsir vasitəsidir.
**Hazırlanması:** 30 yarpaq zəif odda qaynadılaraq şəkər əlavə edilir. İçilir və ya 25-30 dəqiqə vanna qəbul edilir.

## ÜÇBARMAQ – *BIDENS TRIPARTITA* L.

**Bitkinin istifadə orqanı:** Zirvə çiçəkləri (şək.112).

**Kimyəvi tərkibi**: Tərkibində aşı (4,46% qədər) və acı maddələr, selik, flavanoidlər, kumarin, γ lakton, aminlər, efir yağları və askorbin turşusu (60-70%) vardır.

**Xalq təbabətində**: Yaxşı qantəmizləyici və antiallergik dərmandır. Uşaq və yeniyetmələrin dəri, ekzema, diatez və qızılyel xəstəliklərində tətbiq edilir. Üçbarmağın uşaq xəstəlikləri praktikasında xaricə tətbiqi olduqca səmərəlidir. Diatez, raxit və ekzema xəstəliklərinin müalicəsi zamanı yaxşı səmərə verir. Yarpaqları ilan sancması zamanı dəriyə qoyulur.

**Fitoterapevtik göstəriş**: Zəif sedativ, ödqovucu, tərlədici, sidikqovucu, yarasağaldıcı, antiallergik və hipotenziv xüsusiyyəti vardir. Iştahasızlıq, qara ciyər, öd yolları, raxit, podaqra, yanıq, çətin sağalan yara, müxtəlif etiologiyalı xora və yolxucu xəstəliklərin müalicəsində işlədilir.

**Hazırlanması:** Bitki xüsusi dairəvi paketlərdə (*Bricetus herbae Bidentis*) 7,5q buraxılır. Bir paket 1 stəkan qaynar suda 10 dəqiqə müddətində dəmlənilir və 1 xörək qaşığı qəbul edilir.

Qanın təmizlənməsi, dəri xəstəlikləri və raxitdə üçbarmaq – 10q, yunan qozu – 5q, üçrəng bənövşə – 20q, pıtraq kökü – 15q, gicitkan çiçəyi – 10q, qara qarağat – 10q və çiyələk yarpağı – 15q olmaqla qarışıq hazırlanır. Bu qarışığın 20 qramını 1 l suda zəif od üzərində 10 dəqiqə qaynatmaq lazımdır. Gün ərzində hər saatda 30q, uşaqlar isə 1 xörək qaşığı qəbul edə bilərlər. Xroniki böyrək xəstəliklərində bu tərkibə ayıqulağı 30q, tozağacı qozası 15q əlavə edilməlidir.

## ÇÖL QATIRQUYRUĞU – *EQUISETUM ARVENSE* L.

**Bitkinin istifadə orqanı:** Vegetativ gövdə və budaqları (şək.113).

**Kimyəvi tərkibi**: Bitkinin tərkibində aşılayıcı maddələr, flavonoidlər, acı maddə, qatran, akonit, quzuqulağı və alma turşuları, saponin (ekvizetrin, lyutenol 7-qlikozid, izokverçitrin, lyuteolin, silikat turşusu (10%), kempferol 7- diqlikozid), karotin, askorbin turşusu (190 mq%), az miqdarda alkoloidlər, sitosterin və dimetil sulfat vardır.

**Xalq təbabətində**: Böyrək və sidikyolu xəstəliklərində sidikqovucu, müxtəlif etiologiyalı ödemlərdə, podaqra, müxtəlif yaralarda, ağciyər (plevrit, vərəm) xəstəliklərinin müalicəsində işlədilir.

**Fitoterapevtik göstəriş**: Iltihabsorucu, dizinfeksiyaedici, sidikqovucu, qankəsici, kardiotonik, orqanizmi möhkəmləndirici, yara sağaldıcı və büzücü xüsusiyyətləri vardır. Qatırquyruğu su-duz mübadiləsini normallaşdırır, xolesterini azaldır və orqanizmdən toksiki şlakları (xüsusən qurğuşun zəhərlənmələri) kənar edir. Qarışıqların tərkibində hipertoniya xəstəliyi, ateroskleroz, podaqra və çətin sağalan yaraların müalicəsində, revmatizm, göz, öddaşı və böyrəkdaşı xəstəliklərində, mədə və bağırsağın şişində, daxili və xarici qanaxmalarda, aşağı ətrafların ödemlərində, istifadə edilir. Xaricə təyini dərinin xroniki çətin sağalan xora və şaçın kəpək verməsində (seboreya) aparılır. Sidikqovucu çayların tərkibinə daxildir. Orqanizmin çoxlu ödemli hallarında (plevrit, ürək, böyrək, vərəm, qurğuşun zəhərlənmələri), podaqrada istifadə edilir. Traskova və Zdrenkonun tədqiqatlarına görə bu bitkidən hazırlanan mikistura astma və xərçəng əleyhinə ən yaxşı vasitədir.

**Hazırlanması:** Qatırquyryğu 10q, lansetşəkilli bağayarpağı 10q, razyana 5q, gəndalaş çiçəkləri 5q və kəklikotu 5q. 2 çay qaşığı qarışıq 250ml suda 15 dəqiqə ərzində dəmlənərək hər gün 2-3 fincan içilir.

Xaricə tətbiq etmək üçün məhlul: 4-5 xörək qaşığı bitki 2 stəkan qaynar suda dəmlənilir.

15q qatırquyruğu bitkisi suya əlavə edilərək qaynadılır (30 dəqiqə) sonra isə soyudulur və 1 xörək qaşığı gündə 3-4 dəfə qəbul edilir.

Qatırquyruğunun qranulası: 10 q qranul (1 xörək qaşığı) qaynar suya əlavə edilərək zəif od üzərində 15 dəqiqə ərzində qızdırılır. 1 xörək qaşığı gündə 3-4 dəfə qəbul edilir.

1-2 xörək qaşığı bitkini 2 stəkan qaynar suda dəmləyərək (termosda) qəbul etmək lazımdır (gündəlik doza).

**Əks göstəriş:** Böyrək parenximasının zədələnməsi (nefroz, nefrit) ilə gedən böyrək xəstəlikləri.

## ADI MAYAOTU – *HUMULUS LUPULUS* L.

**Bitkinin istifadə orqanı:** Yetişmiş şişkin tumurcuqları (şək.114).

**Kimyəvi tərkibi**: Tumurcuqlarının tərkibində efir yağı (1-3%), humulon, lyuparon, lyuparenol, izovalerian turşusu, alifatik terpenlər, dipenten (30-50%), alifatik spirtli terpenlər (heranilol, linalool), mürəkkəb efirlərdən mirsenol (30-40%), qətran, mineral maddələr və fitonsidlər vardır.

**Xalq təbabətində**: Yüksək effektinə və keyfiyyətinə görə ağrıkəsici və iltihabsorucu xüsusiyyətinə görə podaqra, revmatizm, menstruasiya pozğunluqları, klimaks, dartılma və burxulmalarda istifadə edilir. Sacın kəpək verməsinin (seboreyya) qarşısını alır. Təzə şişkin tumurcuqlar zəifliyin götürilməsinə çox yaxşı təsir edir.

**Ftoterapevtik göstəriş**: Nevroz, zəiflik, isteriya, klimakterik şikayətlər, hipertonik tipli neyrosirkulyar distoniya zamanı istifadə edilir. Asteniya və qastritdə möhkəmləndirici və iştahartırıcı kimi işlədilir. Qarışıqların tərkibində maddələr mübadiləsi, qara ciyər, menstruasiya, pollusiya (gecə sidiyini saxlaya bilməmək), sidik orqanları, sidik yolu və böyrək xəstəliklərində, yüngül depressiyalarda, müxtəlif səbəblərdən törənən qorxu və yuxusuzluqlarda təyin edilir. Ağrıkəsici, iltihabsorucu spazmolitik effektinə görə sistit və uretrit xəstəliklərində istifadə edilir. Bu bitki ilə birlikdə yemişan, valerian və sarımsağı da daxil etdikdə qan təmizləyici, mədə ağrıları, yuxu tənzimləyici təsir göstərir.

**Hazırlanması:** 2 çay qaşığı mayaotunun şişkin tumurcuqları 250 ml qaynar suda 15 dəqiqə ərzində dəmlənərək (termosda) gündə 2 dəfə (hər dəfə 1 fincan) qəbul edilir (sutalıq doza). Qəbul zamanı 1 çay qaşığı valerian da qəbul etmək məsləhət görülür.

Şişkin tumurcuqların paroşoku: 0,5 çay qaşığı gündə 3 dəfə olmaqla yeməkdən 20-40 dəqiqə əvvəl qəbul etmək lazımdır.

**Əks göstəriş:** Mayaotu zəhərli bitkidir. Müalicə zamanı ehtiyatlı olmaq lazımdır. Istifadə zamanı baş ağrısı, təngnəfəslik, qusma, ürək nahiyyəsində ağrılar və ürəkdöyünmə yarana bilər.

## BÖYÜK DƏMROVOTU – *CHELIDONIUM MAJUS* L.

**Bitkinin istifadə orqanı:** Bitki, kökü və təzə hazırlanmış soku (şək.115).

**Kimyəvi tərkibi:** Tərkibində alkaloidlər vardır. Bundan başqa efir yağları, vitaminlər (askorbin turşusu, karotin), flavanoidlər, saponinlər və turşular (alma, limon) alınmışdır.

**Xalq təbabətində:** Kökündən hazırlanmış təzə şirəsindən dərinin xora, yara, şiş, döyənək və ağ ciyər vərəmində tətbiq edilir. Sinir sistemini sakitləşdirərək hipotenziv və spazmolitik təsir göstərir. Bu xüsusiyyətinə görə nevroz, kardial və hipertonik tipli neyrosirkulyar distoniya, tireotoksikoz və epilepsiyada işlədilir. Bronxit və difteriyada təzə hazırlanmış sarımsaq əzməsinin verilməsi və ya süd və bal ilə qatılaraq qəbul edilməsi olduqca faydalıdır.

**Ftoterapevtik göstəriş**: Ödqovucu, iltihabsorucu, ağrıkəsici, şişəleyhinə və sidikqovucu dərmandır. Hepatit, xolesistit, xolangit, pankreatit, mədə və onikibarmaq bağırsagın xora xəstəliyi, mədə və bağırsaq polipi, və spesifik olmayan yaralı kolit xəstəliyində təyin edilir. Bədxassəli şişlərin müalicəsində, göbələk və bakteriya əleyhinə vasitə kimi, vərəm çöplərinə qarşı mübarizədə müvəffəqiyyətlə istifadə edilir. Hemoxelidonin isə iflic yaradan zəhərdir. Bu xüsusiyyətindən yerli anesteziya vasitəsi kimi istifadə edilir. Bu bitki ürək döyüntüsünü azaldır ki, bu da qan təzyiqinin düşməsinə səbəb olur. Eyni zamanda ödqovucu təsir etməklə, stenokardiya, hipertoniya xəstəliyi, mədə xərçəngi, qaraciyər və öd xəstəliklərində müvəffəqiyyətlə tətbiq edilir. Tərkibindəki xelidonin maddəsi morfinəbənzər olub, sinir sistemini iflic edə bilir.

Alman və Bolqar təbabətində ağrıkəsici dərman kimi qastrit, kolit, sifiis, malyariya, sarılıq, qaraciyər və ödyolu daşlarında

spazmolotik vasitə kimi istifadə edilir. Polşa və Avstriya təbabətində bitkinin köklərindən iltihabsorucu, qıcolma əleyhinə, ağrıkəsici, qurdqovucu, böyrək sancısı, babasil və menstruasiya pozğunluqlarında tətbiq edilir. Fransa təbabətində oyandırıcı və sidikqovucu kimi istifadə edilir. Bitkini böyük dozada qəbul etmək hallunasiya, başgicəllənmə və özündəngetmə hallarını yaradır. Qədim təbabətdə bu bitkidən vərəm, podaqra və revmatizm xəstəliklərində istifadə edilirdi. Dərinin ziyil, ekzema, döyənək və hətta xərçəngində işlədilir.

**Hazırlanması:** 1hissə bitki (15-60q) 10 hissə suda dəmlənərək 3 saat ərzində imalə edilir. 2-3 il ərzində hər dəfə 6-10 prosedurdan sonra polip sağalır. Bakterisid olduğundan dəri vərəmini olduqca tez sağaldır.
Xaricə işlətmək üçün: 2 xörək qaşığı bitkini 500 ml qaynar suda dəmləmək lazımdır (vanna üçün).

**Əks göstəriş:** Zəhərli bitki olduğundan həkim nəzarəti altında təyin etmək lazımdır.

## DƏRMAN SÜRVƏSI - *SALVIA OFFICINALIS* L.

**Bitkinin istifadə orqanı**: Yarpaqları (şək. 116).

**Kimyəvi tərkibi:** Sürvənin (şalfey) yarpaqlarında efir yağı, alkoloidlər – salven, tuyon, sineol, acı və aşı maddələr, qətran, turşu (ursol və olein), fitonsidlər, Kox çöplərinə (vərəm) qarşı aktiv təsir edən maddələr və fitonsidlər vardır.

**Xalq təbabətində**: Qaraciyər, böyrək, qastrit, xora xəstəliyi, enterkolit, ishal və bronxit xəstəliklərində daxilə qəbul edilir. Şalfey cinsi vəziləri normallaşdırır. Sonsuzluqda və klimakterik vəziyyətlərdə olduqca səmərəlidir. Dəmləməsi tər ifrazını azaldaraq sinir sistemini möhkəmləndirir. Aromatik və kulinariya bitkisi olduğundan sup və tərəvəzli yeməklərin tərkibinə qatılır. Südverən qadınların südünü artırmaq üçün istifadə edilə bilər. Balla qarışdıraraq fiziki cəhətdən zəif uşaqların orqanizmini möhkəmləndirmək olar.

Xalq təbabəti praktikasında sürvə dəri xəstəliklərində iltihab sorucu və dizinfeksiyaedici maddə kimi ən çox xaricə işlədilir.

**Fitoterapevtik göstəriş**: Angina, qripp, stomatit, gingivit və imalə şəklində işlədilir. Tər azaldıcı xüsusiyyəti vardır. Tərkibindəki efir yağı dizinfeksiyaedici və qıcolma əleyhinə, aşı maddələri isə bağırsaq problemlərində işlədilir.

**Hazırlanması**: Məhlul şəklində daxilə 1-2 xörək qaşığı 2 stəkan qaynar suda 10 dəqiqə dəmlənilərək (termosda) qəbul edilir (gündəlik doza) və ya xaricə tətbiq edilir. Bizim qənaətimizə görə sürvə ağız və boğazın iltihabi xəstəliklərində qarqara, xaricə isə bürüyücü, kompres və sarğı qoyulmasında çox yaxşı təsir edir.

Tərləmələr zamanı sürvə ilə çoban yastığının hər birindən 2 çay qaşığı 250ml suda 15 dəqiqə dəmlənərək qəbul edilir.

**Əks göstəriş**: Kəskin nefrit və hamiləlik.

## AT ƏVƏLIYI - *RUMEX CONFERTUS* WILLD.

**Bitkinin istifadə orqanı**: Kökü və zirvə yarpaqları (şək.117).

**Kimyəvi tərkibi**: Kökünün tərkibində antraxinon (4% qədər) emodin, xrizofan turşusu, dəmir, qətran, efir yağı, vitamin K, aşı maddələri, nepodin flavanoidi və kalsium oksalat duzu vardır. Meyvələrində aşı maddələr, antraxinin, yarpaqlarında karotin, askorbin turşusu, flavanoidlər və kalsium oksalat olur.

**Fitoterapevtik göstəriş**: Kökünün az dozası büzücü, yüksək dozası isə genişləndirici təsir edir. Genişləndirici xüsusiyyəti hətta kökünü qəbul etdikdən 8-12 saat sonra davam edir. Mədə-bağırsaq xəstəliklərinin əsas dərmanı hesab olunur və yoğun bağırsağın peristaltikasını gücləndirir. Uşaq və yeniyetmələrdə müxtəlif mənşəli ishallarda, dizinteriyada, çay kimi büzücü effekt göstərir. Əsasən kəskin və xroniki enterkolit, kolit, babasil və qanaxma ilə müsayət olunan uşaqlıq xəstəliklərində istifadə edilir. Dəri xəstəliklərində əsasən qaşınmalarda, hipertoniya və aterosklerozda təyin edilir.
**Hazırlanması**: Büzücü xüsusiyyətə malik dərman hazırlamaq üçün kökünün üyüdülmüş tozu 0,15-0,3 qram gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir. Ekstraktı işlədici kimi hətta hipertoniyada (I-II stadiya) işlədilir.
Rp.: Extr. Rad. Ruminis conferti fluidi 25,0
D.S. 1 çay qaşığı və ya 50-60 damcı gündə 3 dəfə axşam yeməkdən əvvəl qəbul etməli.

**Əks göstəriş:** Hamiləlik və böyrək xəstəlikləri.

## AĞ BALLIBABA ( DALAMAZ) – *LAMIUM AIBUM* L.

**Bitkinin istifadə orqanı:** Yerüstü hissələri, çiçəkləri və qönçələri (şək.118).

**Kimyəvi tərkibi:** Çiçək və yarpaqlarının tərkibində aşı maddələri (10% qədər), selik, saponinlər, efir yağı, alkaloidlər, flavanoidlər (izokversitrin, kversetrin, kempferol, astraqalin, kversimeritrin), qal, askorbin turşusu, xolin, histamin və tiramin, P kumarin və ferul turşusu vardır.

**Xalq təbabətində**: Çiçəkləri qara çayla olduqca dadlı olur. Qanazlığında, iştahasızlıqda, dəri və ağciyər xəstəliklərində işlədilir. Menstruasiya pozğunluqlarında xüsusilə faydalıdır. Eyni zamanda sakitləşdirici və yuxugətirici bitkidir. Öküzgözü ilə birlikdə bərabər nisbətdə xaricə çiban, səpki, dolama zamanı tətbiq edilir.

**Fitoterapevtik göstəriş:** Böyrək və sidik yollarının iltihabi xəstəlikləri (qlomerulonefrit), anemiya, genekoloji praktikada, müxtəlif dəri xəstəlikləri və allergik reaksiyalarda işlədilir. Uşaqlarda diatez və qızılyel xəstəliklərinin müalicəsində tətbiq edilir. Bu xəstəliklərdə həm daxilə və həm də xaricə işlədilir.

**Hazırlanması**: 1-2 çay qaşığı bitkini (boymadərənlə birlikdə olar də) 250ml qaynar suda (termosda) 5 dəqiqə dəmləyib sutqa ərzində içmək lazımdır. Iltihabi xəstəliklərdə uzun müddət qəbul etmək olar.

## ŞÜVƏRƏN - *SISYMBRIUM OFFICINALE* (L.) SCOP.

**Bitkinin istifadə orqanı:** Yarpaq, gövdə, çiçək və toxumları (şək.119).

**Kimyəvi tərkibi:** Toxumlarının tərkibində qlikozidlər və kükürd elementi vardır. Bitki kimyəvi cəhətdən tam öyrənilməmişdir.

**Xalq təbabətində**: Toxumlarının sulu bişirməsi qəbizlikdə işlədici və qurd əleyhinə olaraq tətbiq edilir. Dəmləməsi eyni zamanda malyariya və digər səbəblərdən yaranan temperaturlarda ürək döyünmələrində tətbiq edilir.

**Hazırlanması və istifadəsi**: Farmokoloji təsirinə görə sınaqdan keçirilmişdir. Spirtli ekstraktı 1:1 nisbətində $70^0$ çaxır spirtində həll edilir və zəif işlədici kimi istifadə edilir.

**Əks göstəriş**: Həssaslıq.

## BOYAQOTU - *RUBIA TINCTORUM* L.

**Bitkinin istifadə orqanı**: Kökümsovları (şək.120).

**Kimyəvi tərkibi**: Kökümsovlarında 5-6% antraxinol, ruberitrin turşusu, alizarin, ksiloza və qlikoza (0,1%), qalüozin, eritrin turşusu, psevdorurin, rubiadin, rubiadin qlikozid, alma, limon və çaxır turşuları, 15% şəkər, zülali və pektin maddələri tapılmışdır. Cavan zirvə yarpaqlarının tərkibində asperulozid qlikozidi vardır.

**Xalq təbabətində**: Kökünün bişirməsi və quru ekstraktı öddaşı və böyrəkdaşı xəstəliklərində daşların xaric olması üçün qəbul edilir. Ümumiyyətlə bu bitkinin qəbulu orqanizmdən fosfat, oksalat, urat və digər duzların xaric olunmasına kömək edir.

**Fitoterapevtik göstəriş**: Qalen preperatıdır. Hemopatik preparat olmaqla spazmolotik və sidikqovucu təsirinə görə sidik daşlarının təmizlənməsində istifadə edilir. 1993 cü ildən Almaniya səhiyyə təşkilatı tərəfindən qorunur.

**Hazırlanması**: 20q bitkinin 200ml suda dəmləməsi və ya bişirməsi məsləhət görülür.

**Əks göstəriş**: Davamlı olaraq 3 həftədən çox qəbul etmək olmaz.

## ACIYONCA – *CORONILLA VARIA* L.

**Bitkinin istifadə orqanı:** Yarpaq, kök və toxumları (şək.121).

**Kimyəvi tərkibi:** Tərkibində koronillin qlikozidi, aşı maddələri, C vitamini (270mq%), karotin (26-106mq%), çiçəklərində efir yağları (0,16%) vardır. Toxumlarında ürək qlikozidləri (koronizid, koronillin), steroid maddələri (kardenolid), kumarin, hipotenziv maddələr, şəkər, yağ və zülali maddələr tapılmışdır. Öyrənilmişdir ki, tərkibindəki koronizid qlikozidi xarakterinə görə strofantin K qlikozidinə çox yaxındır.

**Xalq təbabətində**: Orqanizmin ümumi zəifliyi və avitaminozlar.

**Əks göstəriş**: Qanın qatılaşması

## ÜSKÜKOTU – *DIGITALIS FERRUGINEA* L.

**Bitkinin istifadə orqanı:** Bütün orqanları (şək.122).

**Kimyəvi tərkibi:** Üskükotunun bütün orqanlarında ürək qlikozidləri vardır. Yarpaqlarında purpurea A qlikozidi, digilanid A, digilanid B, a və b asetildigitoksin, digitoksin, lantozid, gitozid, gitorin, qlikoza, aqlikon, yarpaq və toxumlarından steroid saponinlər (digitonin, digitonin, tigonin), flavanoidlər (lyuteolin və onun qlikozidi), kofein, xolin maddələri tapılmışdır.

**Xalq təbabətində**: II və III dərəcəli qan dövranı pozğunluqlarında və hipertoniya xəstəliyində işlədilir. Ödemlərdə diurezi artırır, ürək əzələsini möhkəmləndirir.

**Əks göstəriş**: Zəhərli bitkidir. Artıq qəbul etdikdə qusma, ürəkdöyünmə (aritmiya) və kumlyasiya törədir. Hətta ürək dayanmasına və ölümə səbəb ola bilər.

## ÖKÜZBOĞAN - *BUPLEURUM ROTINDIFOLIUM* L.

**Bitkinin istifadə orqanı**: Yarpaq və çiçəkləri (şək.123).

**Kimyəvi tərkibi:** Yarpaqlarının tərkibində flavanoidlər (kversetin, izoramnetin və onun qlikozidləri), rutin, C vitamini, izokverçitrin və izoramnetin 3-rutinozid vardır. Çiçəklərinin və zirvə yarpaqlarının tərkibində saponinlər (6,15-68,2%), efir yağları (0,15%), aşı maddələri (0,63%), piyli yağlar (14,03%), C vitamini (1262,24mq%) və şəkər (31,3%) vardır.

**Fitoterapevtik göstəriş**: Qara ciyər, öd xəstəliklərində ödqovucu və iltihab sorucu təsir vasitəsi kimi işlədilir.

**Əks göstəriş**: Sinir oyanıqlığı, qanın qatılaşması, bitkiyə qarşı həssaslıq.

## BALLICA - *PULMONARIA OFFICINALIS* L.

**Bitkinin istifadə orqanı:** Yarpaqları (şək.124).

**Kimyəvi tərkibi:** Tərkibində aşı maddələri, yumşaldıcı selik, mikroelementlərdən manqan vardır.

**Xalq təbabətində**: Daxili sekresiya vəzilərinin stimullaşdırılmasında, qanyaranmada, ağrıkəsici və yumşaldıcı, ağciyər vərəmində, qanhayxırmada, yuxarı tənəffüs yolları iltihabında, bronxitdə, mədə-bağırsaq xəstəliklərində və dəri yaralarında istifadə edirlər. Cavan gövdə və yarpaqları qıda kimi püre, salat və sup kimi istifadə edilir.

**Fitoterapevtik göstəriş**: Alman, Fransız və Polşa həkimləri ağciyər və sidik yolları xəstəliklərində tətbiq edirlər. Bolqar həkimləri tənəffüs yollarının iltihabında, ağciyər vərəmində, difteriyada, bronxit, astma və sidikyolu xəstəliklərində istifadə edirlər. İltihabsorucu, büzücü, sidikqovucu, qankəsici və yarasağaldıcı xüsusiyyəti vardır. Eyni zamanda tərkibində olan çox miqdarda manqan elementi qanyaranma prosesində, boy inkişafında, $B_1$ vitamininin aktivləşdirilməsində və daxili sekresiya vəzilərinin stimullaşdırılmasında iştirak edir.

**Hazırlanması:** Dəmləmə formasında gündə 2 dəfə 50-80q qəbul edilə bilər.

## ƏTIRŞAH - *GERANIUM ROBERTIANUM* L.

**Bitkinin istifadə orqanı:** Çiçək, yarpaq və gövdələri.

**Kimyəvi tərkibi:** Tərkibində heranin acı maddəsi, aşı maddələr, qətran, selik, xoşagəlməz qoxulu efir yağları vardır.

**Xalq təbabətində**: Dəmləməsi ishal, dizinteriya, böyrək, revmatizm, podaqra xəstəliklərində işlədilir. Yaxşı qankəsici və həlledici olduğundan böyrəkdaşı, öddaşı xəstəliklərində təyin edilir. Bitki döyənəklərin üstünə qoyularaq onların müalicəsində istifadə edilir.

**Fitoterapevtik göstəriş**: Xarici və daxili qanaxmalarda (xüsusən mədə qanaxması) təyin edilir. Mayeli ekstraktı sinir sisteminə oyandırıcı təsir göstərir. İbn-Sina bu bitkinin ilan zəhərinə qarşı antitoksik xassəsi haqqında məlumat vermişdir. Kökləri güclü büzücü xassəyə malikdir.

**Hazırlanması:** 2 çay qaşığı bitkiyə 2 stəkan soyuq suya əlavə edərək, 8 saat gözləmək lazımdır.

**Əks göstəriş**: Yüksək həssaslıq.

## ERKƏK AYIDÖŞƏYI – *DRYOPTERIS FILIX-MAS (L.)* SCHOTT

**Bitkinin istifadə orqanı:** Tibbi məqsədlə kökümsovlarından istifadə olunur (şək.125).

**Kimyəvi tərkibi:** Kökümsovların tərkibində azotsuz zəhərli - floroqlüsin və yağlı turşuları vardır. Bunların cəmi – çiy filisin adlanır. Quba rayonunda yığılmış ayıdöşəyinin kökümsovunda çiy filisinin miqdarı orta hesabla 3,36% olmuşdur və böyük miqdarda təbii ehtiyatı vardır. Dövlət Farmakopiyası (X nəşr) tələb edir ki, kökümsovlarda çiy filisinin miqdarı 1,8%-dən az olmasın. Bundan başqa aspidinol, albaspidin, flavonoidlər, aşılayıcı maddələr, efir yağları, piyli yağlar, qətran, nişasta, şəkər, kül elementi və s. vardır.

**Xalq təbabətində**: Ayıdöşəyi şirəsi yaraları, xoraları müalicə edir. Erkək ayıdöşəyi kökünü dəmləyib vannaya əlavə etdikdə revmatizma ağrılarına, ayaq əzələlərinin yığılıb qıcolmasına çox kömək edir. Hətta, təzə dərilmiş ayıdöşəyinin yarpaqlarından düzəldilmiş döşəkdə yatmaq çox xeyirlidir.

**Fitoterapevtik göstəriş:** Tibbi təcrübədə efirli ekstrakt formasında bilavasitə lentvari qurdların qovulmasında istifadə edilir (enli lentvari, öküz və donuz soliteri). Filisin və aspidinol birbaşa əzələ zəhərləridir. Bu təsir lentvari qurdların əzələlərini iflic edir və onları məhv edib orqanizmdən qovur.

**Əks göstəriş**: Erkək ayıdöşəyi çox zəhərli olduğu üçün ehtiyatlı olmaq lazımdır. Müalicə ancaq həkim təyinatı və müşahidəsi ilə müəyyən sxem üzrə aparılmalıdır. Əgər erkək ayıdöşəyindən zəhərlənmə baş verərsə ürəkbulanma, qusma, başgicəllənmə, başağrısı, tənəffüsün çətinləşməsi, ürək fəaliyyətinin pisləşməsi, sarılıq, qıcolmalar, görmənin zəifləməsi yarana bilər. Bu vaxt ilk yardım və müalicə kimi mədə yuyulur, işlədici duz verilir, vena daxilinə natrium-xlorun izotonik məhlulu, qlükoza yeridilir, istiqac qoyulur, isti vanna edilir, qıcolmalar zamanı - xloralhidratla imalə olunur.

## ÇÖL QATIRQUYRUĞU - *EQUISETUM ARVENSE* L.

**Bitkinin istifadə orqanı**: Dərman məqsədilə bütün yay müddətində toplanmış barsız, yaşıl rəngli gövdəsindən istifadə olunur (şək.126).

**Kimyəvi tərkibi**: Tərkibində akotin turşusu, saponinlər, quzuqulağı və alma turşuları, karotin və C vitamini, aşı maddələri, acı maddələr, karbohidrat, qətran, silisium turşusu, kalsium duzları, flavonoidlər, piyli yağlar vardır. Qatırquyruğu əsasən sidikqovucu və qankəsici təsirə malikdir

**Xalq təbabətində**: Həlimindən və duru ekstraktından sidikqovucu kimi ödemlərdə (qan dövranı pozulması ilə əlaqədar olaraq), sidik kisəsi iltihabında, böyük eksudatlı plevritlərdə, dizenteriyada, revmatizmdə, ağız və udlağın gec sağalan yara və xoralarında, ağ ciyər vərəmində, qurğuşun ilə zəhərlənmədə, ishalda istifadə olunur.

**Əks göstəriş**: Çöl qatırquyruğundan böyrəyin iltihabı xəstəliklərində qəbul etmək olmaz. Çünki bu otun preparatları böyrəkləri qıcıqlandırır.

## GÜCOTU - *AGRIMONIA EUPATORIA* L.

**Bitkinin istifadə orqanı**: Tibbi məqsədlə yerüstü hissəsindən istifadə olunur. Bitki çiçəklənmə dövründə toplanır (şək.127).

**Kimyəvi tərkibi**: Bitkinin bütün hissələrinin tərkibində çoxlu miqdarda aşı maddələr, ətirli efir yağları, K vitamininin izi var.

**Xalq təbabətində**: Qara ciyərin xroniki xəstəliklərinin müalicəsində, revmatizmdə, mədə və bağırsaq, ağız boşluğu və udlaq xəstəliklərində qarqara kimi bəlğəmgətirici qarışıqların tərkibində, ayaq burxulmalarında, dəri yaralarında və bir sıra başqa xəstəliklərdə təpitmədən istifadə olunur.

**Fitoterapevtik göstəriş:** Aptek gücotunun preparatlarından qara ciyərin funksiyasının bərpasında və iltihab əleyhinə vasitə kimi istifadə olunur.

## MAVI SÜSƏN – *IRIS GERMANICA* L.

**Bitkinin istifadə orqanı**: Dərman məqsədilə mavi və sarı süsənin kökümsovundan istifadə olunur.

**Kimyəvi tərkibi**: Mavi süsənin kökümsovunun tərkibində efir yağı, izoflavon qlükozidi, taninlər və nişasta vardır.

**Xalq təbabətində**: Müalicə məqsədilə əsasən iltihab əleyhinə və bəlğəmgətirici kimi, spirtli duru ekstraktından vərəmdə, mədə-bağırsaq sisteminin iltihabında, tənəffüs yollarının katarında, böyrək və sidik yollarının iltihabında, plevritdə, pnevmoniyada istifadə olunur. Sirkədə hazırlanmış ekstraktından dalaq və qara ciyər xəstəliklərində istifadə edilir. Mavi süsən büzücü və bakteriosid təsirə də malikdir.

## DƏRMAN ŞAHTƏRƏSİ – *FUMARIS OFFICINALIS* L.

**Bitkinin istifadə orqanı:** Dərman məqsədilə yerüstü hissələrindən istifadə olunur.

**Kimyəvi tərkibi**: Şahtərənin tərkibində bir neçə zəruri alkaloid (protopin, xolidonin, sanqvinarin və s.), fumar turşusu, yarpaqlarının tərkibində isə 240-370 mq% C vitamini vardır.

**Elmi və xalq təbabətində:** Avitaminozda, mədə bağırsaq xəstəliklərində, köpdə, meteorizmdə, qanazlığında, sarılıqda, qanaxmalarda qankəsici dərman kimi, iştah artırmaq məqsədilə dəmləmə, tinktura və spirtli duru ekstraktından istifadə olunur.

Azərbaycanda yayılan şahtərənin tədarükü və tibbi məqsəd üçün istifadə edilməsi zəruridir.

## QARA ÇÖRƏKOTU - *NIGELLA SATIVA L.*

**Bitkinin istifadə orqanı**: Tibbi məqsədlə toxumlarından istifadə olunur (şək.128).
**Kimyəvi tərkibi**: Toxumlarının tərkibində efir yağı, piyli yağlar, acı və aşı maddələr, E vitamini vardır.
**Xalq təbabətində**: Qara çörəkotu öskürəyi sakitləşdirir, tər və sidik ifrazını artırır, qurdqovucu təsir göstərir. Gül yağı qarışığı ekzemanın müalicəsində istifadə olunur.
**Fitoterapevtik göstəriş:** Tibbdə toxumlarından-pankreatit, xolesistopankreatit, xroniki hepatit, xroniki qastrit, enterokolit və s. xəstəliklərdə tətbiq edilən «Niqedaza» preparatı alınır.

## QITIQOTU – *ARMORACIA RUSTICANA* GAERNT ET. MEY-SCHERB.

**Bitkinin istifadə orqanı**: Dərman məqsədilə xalq təbabətində kökündən istifadə olunur (şək.129).

**Kimyəvi tərkibi**: Kökündə qlikozid – siniqrin, xardal efir yağı, çoxlu C vitamini, enzimmirozin, kalium və kalsium, fitonsidlər, yarpaqlarında isə C vitamini vardır.

**Xalq təbabətində**: Şirəsindən həzmin yaxşılaşmasında, iştahanın artmasında, mədə şirəsinin stimulyasiyasında, sinqa əleyhinə, sidikqovucu, bəlğəmgətirici kimi, revmatizmdə, qulağın irinli ifrazatında, boğaz ağrısında qarqara kimi, gec sağalan irinli yaraların müalicəsində istifadə edilir.

**Əks göstəriş:** Lakin qastritdə, xora xəstəliyində, kolitdə, böyrək və qara ciyərin xəstəliklərində bu bitkidən istifadə etmək olmaz.

## QIRMIZI NAZ – *GENISTA TINCTORIA* L.

**Bitkinin istifadə orqanı:**– Çiçək və toxumlama zamanı bitkinin üst yarpaqları toplanılır.

**Kimyəvi tərkibi:** Tərkibindən alkaloidlər – çitizin, qenistein, metilçitizin, flavonodlərdən isə lyudeolin tapılmışdır.

**Xalq təbabətində**: Skarlatina, məxmərək, mərkəzi sinir sisteminin tonuslandırıcısı kimi və ürək-damar çatmamazlığında istifadə olunur. Bundan başqa böyrək, kəskin və xroniki pielonefrit, sistit xəstəliklərində güclü sidikqovucu və iltihab əleyhinə vasitə kimi tətbiq edilir.

**Fitoterapevtik göstəriş**: Hemorrargik diatezlərdə və skorbutda askorbin turşusu ilə birlikdə istifadə edilir. Asteniya və vegetativ distoniyada tonuslandırıcı kimi də istifadə edilir. Hipotireoz zamanı tireoidinin miqdarını artıra bilir. Qaraciyər xəstəliklərində və hemorroyda işlədicilərin tərkibinə qatılır.

**Hazırlanması:** 1 xörək qaşığı toxum 1 stəkan qaynar suda həll edilir (gündəlik doza).

**Əks göstəriş**: Hamiləlik. Bir çox müəlliflər bitkinin zəhərli olduğunu qeyd edirlər.

## DIŞQURTLAYAN – *VİSNAGA DAİCOİDES =AMMI VISNAQA* LAM.

**Bitkinin istifadə orqanı**: Bütün orqanları.

**Kimyəvi tərkibi**: Meyvələrində (0,4-2,5%), köklərində (0,07%), gövdəsində (0,11% qədər), yarpaqlarında (1,2%qədər), çətirində (0,2-1% qədər) kellin maddəsi vardır. Tərkibi 2-metil-5, 8-demoksi, 6-7 furanoxromondan ibarətdir. Meyvələrində eyni zamanda furanoxromon – visnaqin, kellol qlikozid, ammiol, kellinol, vizaminol, samidin, dihidrosamidin, efir yağı (0,2%), yağ turşusu (20%), visnadin və akaçetin flavanoidi vardır. Kellin spazmolotik təsirə malikdir.

**Xalq təbabətində**: Böyrək və öddaşı xəstəlikləri. Diş əti xəstəliklərində çiy halda zoğları diş dibinə sürülür

**Fitoterapevtik göstəriş**: Bronxial astma, karonar çatmamazlıq, stenokardiya, hipertoniya və difteriya xəstəliklərində işlədilir. Bundan başqa mədə-bağırsaq və sidikçıxarıcı (daş və qumların tökülməsində) kimi spastik təsir göstərir. Bitkidən hazırlanan "*avisvan*" adlı dərman böyrəkdaşı xəstəliyində spazmolotik və diuretik prepatar kimi təyin edilir.

**Əks göstəriş:** Uzun müddət qəbul etmək olmaz.

## QARPIZ - *CITRULLUS LANATUS* L.

**Bitkinin istifadə orqanı**: Ətli hissəsi, qabığı və toxumları.

**Kimyəvi tərkibi:** Qarpızda xüsusi maddələr vardır ki, bunlar bağırsağın peristaltikasını artırır. Bu isə orqanizmdən xolesterinin çıxmasını təmin edir. Qarpızın ətli hissəsi orqanizmdə fol, askorbin turşusunun, tiamin, riboflavin, hətta fruktoza və mikroelementlərin yaranmasında iştirak edir.

**Xalq təbabətində:** Toxumlarından hərarətsalıcı məqsədlə istifadə olunur. Sidikqovucu, ödqovucu, podaqra, iltihab əleyhinə, böyrək xəstəlikləri, piylənmə, sarılıq, artritlərdə ümumimöhkəmləndirici kimi istifadə edilir. Xroniki sidik yolları xəstəliklərində, qanazlığında, şəkərli diabetdə, aterosklerozda və bağırsaq atoniyasında istifadə olunur.

**Fitoterapevtik göstəriş**: Bağırsağın peristaltikasında səmərəli olmaqla bərabər, həm də güclü sidikqovucu təsirə malikdir. Qarpızın güclü diuretik xüsusiyyətinə görə böyrək və sidikyolu xəstəliklərində, şəkərli diabet və qanazlığında müvəffəqiyyətlə istifadə edilir. Ateroskleroz xəstəliyində qarpızın daimi olaraq qəbul edilməsi orqanizmdə yığılan xolesterindən tam azad olunmasına kömək edir. Bağırsaq peristaltikasını artırır, qanda xolesterin mübadiləsini nizama salır.

**Hazırlanması və istifadəsi:** Yaşıl qabıq hissəsi iti bıçaqla nazik doğranaraq üyüdülür. Üyüdülmüş 1 xörək qaşığı paroşoku suda həll edilərək içilir.

Qədim reseptə görə qarpız südü – 1 xörək qaşığı qarpız toxumundan 24 xörək qaşığı soyuq sudan ibarətdir. Toxum suda yaxşı - yaxşı həll edildikdən sonar qızdırmalı xəstələrə hər 2 saatdan bir 3-4 xörək qaşığı verilir. 0,5 stəkan qarpız suyunu gündə 4-6 dəfə bağırsaq iltihabında qəbul etmək faydalıdır. Toxumları qurdqovucu dərmandır. Toxumlarını əzərək südlə qaynadıb içmək uşaqlıq qanaxmalarını kəsir.

## DƏRMAN BADIMCANI - *FUMARIA OFFICINALIS* L.

**Bitkinin istifadə orqanı:** Bitkinin yarpaqları.

**Kimyəvi tərkibi:** Kifayət qədər öyrənilməmişdir. Tərkibində əsasən fumarin, kriptokarpin, aurotoksin və smol vardır.

**Xalq təbabətində:** Bolqar təbabətində sarılıq, üz - dəri səpgiləri, hemorroy, sidik və tərqovucu vasitə kimi istifadə edilir. Qaraciyər və ödyolları xəstəliklərində, spastik qəbizlikdə, mədə yarasında, meteorizmdə spazmolotik və analgetik vasitə kimi geniş istifadə edilir. Qastrit zamanı mədə sekresiyasının artırılmasında, turşuluğun aşağı salınmasında, ağ ciyər vərəmində, xroniki bronxit, bronxoektaziya, miokardit və ürək qüsurunda müalicəvi vasitə kimi işlədilir. Leyşmaniyoz və digər dəri xəstəliklərini müalicə edir.

***Elmi təbabətdə geniş tətbiq edilmir.***

**Hazırlanması:** Məhlulunu hazırlamaq üçün 2 xörək qaşığı bitkini 0,5 litr qaynanmış suda dəmlənələrək (termosda), gündəlik doza qəbul (5-6 q- 3 dəfə) edilməlidir. Spirtli məhlulunu hazırlamaq üçün 10 q bitki 130 ml 70%- li etil spirtində həll edilməlidir. 5-7 gün saxlanılmalıdır. 20-30 damcı gündə 3-4 dəfə yeməkdən 30 dəqiqə əvvəl qəbul edilməlidir. Məlhəmini hazırlamaq üçün 1 xörək qaşığı bitki (paraşok) 50 q vazelində həll edilməlidir. Soyuq yerdə saxlanılmalıdır. Xaricə tətbiq edilir.

## BOSTAN KƏLƏMI - *BRASSICA OLERACEA* L.

**Bitkinin istifadə orqanı**: Yarpaqları, başcığı, kökü və toxumu.

**Kimyəvi tərkibi:** Yarpaqlarının tərkibində vitaminlər (A, B, C), karotin, fol və pantotenat turşuları, K, P, Ca mikroelementləri, azotlu maddələr (1,8%), piy (0,18%), şəkər (1,92%), azotsuz maddələr (3,13%) və su (90%) vardır. Tibb praktikasında eksperimental yolla sübut edilmişdir ki, kələm bitkisinin şirəsində xora əleyhinə U vitamini (latınca «ulcus» xora deməkdir) vardır.

**Xalq təbabətində**: Bir çox ölkələr kələm bitkisindən müxtəlif xəstəliklərin müalicəsidə istifadə edirlər. Kələmin şirəsindən qastrit, mədə və onikibarmaq bağırsaq xorasında, xoralı kolitdə, ağciyər vərəmində (bal ilə birgə), qaraciyər xəstəliklərinin sağaldılmasında tətbiq edirlər.

**Fitoterapevtik göstəriş**: Kökü və başcığı şişəleyhinə dərmandır. Toxumlarının dəmləməsi podaqra, oynaq ağrılarının müalicəsində və sidikqovucu xüsusiyyətinə görə böyrək xəstəliklərində tətbiq edilir. Kələmin təzə yarpaqları irinli yara və xoraların, şişin, süd vəzisinin (mastopatiya) sağaldılmasında işlədilir.

**Hazırlanması:** Təzə hazırlanmış kələm şirəsindən gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir (başlanğıcda 0,5 stəkan, sonradan dozanı artırmaq lazımdır).

Quru kələm şirəsi (Succus Brassicae siccus): 1 çay qaşığı 0,5 stəkanda həll edilib, gündə 3-4 dəfə yeməkdən 1 saat əvvəl qəbul edilir. Kurs müddəti 3-4 həftədir. 3-6 aydan sonra müalicə təkrar oluna bilər.

**Əks göstəriş**: Meteorizm və ishal.

## ADI QARĞIDALI - *ZEA MAYS* L.

**Bitkinin istifadə orqanı:** Gövdəsi və saçaqları.

**Kimyəvi tərkibi:** Saçaqlarında karotinoidlər, K, $B_1$, $B_2$, C, D, E vitaminləri, qlükozidlər (1,15%), yağlar (2,5%) və efirli maddələr (0,12%), saponinlər (3,18%), kitrə (3,8%), inozit, alkoloid (0,05%) sitosterol, kriptoksantin, stiqmasterol, qətran (2,7%), şəkər və acı maddələri vardır.

**Xalq təbabətində**: Xüsusən xroniki qaraciyər xətəliklərində saçaqlarının dəmləməsi uzun müddət qəbul edilir. Bu, orqanizmdə maddələr mübadiləsini nizama salır, artıq mayeni kənarlaşdırır. Qarğıdalı sacaqları sedativ təsrir edir. Qarğıdalı sacaqları piylənmədə - iştahazaldıcı vasitə kimi işlədilir. Maddələr mübadiləsinin aktivləşdiricisi kimi bir sıra ölkələrin xalq təbabətində istifadə edilir.

**Fitoterapevtik göstəriş**: Ödqovucu, sidikqovucu, qanın laxtalanma müddətini və maddələr mübadiləsini normallaşdıran, qara ciyər, xüsusən öddaşı xəstəliyində çox yaxşı səmərə verir. Böyrəkdaşının yaratdığı travmalarda, nefrit, şəkərli diabet və digər xəstəliklərdə yaranan ödemlərdə tətbiq edilir. Qankəsici maddə kimi hipoprotrombineyada müxtəlif tipli qanaxmalarda istifadə edilir. Xolesistit, xolangit, hepatit və qanaxmalarda təyin edilir. Qarğıdalı yağı (gündəlik doza 50-70 q) qanda xolesterini aşağı saldığından aterosklerozun profilaktika və müalicəsində işlədilir. Eyni zamanda dəri xəstəliklərinin müalicəsində effektlidir. Öddaşı və böyrəkdaşı sancılarında olduqca səmərəlidir. Tərkibindəki qlütamin turşusu psixoz, depressiya, epilepsiya, proqressiv əzələ distrofiyası və polimielitdə tətbiq edilir.

**Hazırlanması:** 3 xörək qaşığı qarğıdalı saçağı 2 stəkan qaynar suda 30 dəqiqə dəmlənərək, gündə 3 dəfə yeməkdən 30 dəqiqə əvvəl (gündəlik doza) qəbul edilməlidir.

**Əks göstəriş**: İştahın azlığı, aşağı çəki həddi, yüksək qanlaxtalanma müddəti.

## ZƏYƏRƏK – *LINUM USITATISSIMUM* L.

**Bitkinin istifadə orqanı**: Toxumları.

**Kimyəvi tərkibi:** Toxumlarının tərkibində yağ (40%-ə qədər), A vitamini, karbohidrat, zülal, üzvi turşular, selik (12%-ə qədər), ferment, linamarin qlükozidi vardır.

**Fitoterapevtik göstəriş**: Toxumlarının dəmləməsi iltihabsorucu və yumşaldıcı təsirə malikdir. Yuxarı tənəffüs yollarının iltihabı, quru öskürəkdə yumşaldıcı kimi istifadə edilir. Kəskinləşən qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyində, xroniki qəbizlikdə, düz bağırsaq çatlarında, hemorroyda, sistit, nefrit, sistit və sidik yollarının daş xəstəliyiklərində müvəffəqiyyətlə tətbiq edilir. Bundan başqa zəif yumşaldıcı maddə kimi spastik qəbizlikdə, dietik məhsul kimi qanda xolesterinin miqdarını aşağı salır, ateroskleroz və piylənmədə istifadə olunur. Aterosklerozun profilaktika və müalicəsində linetol (Linetholum), dəri üçün linol (Linolum preparatı) işlədilir. Angina və faringitlərdə isə qarqara kimi istifadə edilir. Yağı yanıq və yaralanmalarda çox yaxşı təsir edir.

**Hazırlanması:** 1-3 çay qaşığı kökümsovu su və ya südlə gündə 2-3 dəfə qaynar suda 15-20 dəqiqə dəmlənərək (termosda), yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir.

**Əks göstəriş:** İshal.

## NANƏ – *MENTHA PIPERITA* L.

**Bitkinin istifadə orqanı:** Yarpaqları.

**Kimyəvi tərkibi:** Xüsusi aromat iyli olmasına səbəb tərkibində efir yağlarının, xüsusən mentolun olmasıdır. Yarpaqlarında efir yağlarının miqdarı 2,75%, çiçəklərində 6% qədər, gövdəsində isə 0,3 % olur. Karotin (40mq%), ursol və olean turşuları, triterpenlər, puleqon, fitonsidlər, hesperidin, flavanoidlər və betain maddələri vardır. Yarpaqlarının tərkibində mentol vardır.

**Fitoterapevtik göstəriş:** Nanə spazmolotik, ağrıkəsici, antiseptik, ödqovucu və yelqovucu xüsusiyyətlidir. Ürək-damar sisteminin stimullaşdırıcı, ağrıkəsici (xüsusən baş ağrıları) olduğu üçün hipertoniya, stenokardiya, revmatizm, diş ağrısı və ateroskleroz xəstəliyinin müalicəsində istifadə edilir. Yuxarı tənəffüs yolları – bronxial astma və bronxoektaziya xəstəliklərinin müalicəsi üçün məsləhət görülür. Öd yolları və bağırsağın diskenziyasında effekt verir. Həzmi və iştahı artırır. Qastrit, xora xəstəliyi, kolit, enterkolit, meteorizm, təngnəfəslik, qusma və ishal xəstəlikliyində tətbiq edilir. Öddaşı, hepatit və xolesistit xəstəliklərində bitki çaylarının tərkibinə daxil edilmişdir. Kartof şirəsinin nanə və boymadərənlə birlikdə qarışığı yanıqların müalicəsində çox yaxşı səmərə verir. Nanəni fasiləsiz qəbul etdikdə orqanizm möhkəmlənir, sakitləşdirici kimi isteriya, halsızlıq, miqren xəstəliklərinə müsbət təsir göstərməklə yanaşı, həm də diuretik təsir göstərir. Xoş ətirli və dadlı olduğu üçün əksər dərman bitkilərin qarışıqlarına daxil edilir. Xaricə vanna kimi tətbiq edilir. Bu damcı, mikustura, tabletka (validol) və karandaş şəklindədir. Yarpaqlarının tərkibində mentol olduğundan stenokardiya, mədə və bağırsaq sancılarında istifadə edilir. Xaricə nevralgiya, diş ağrılarında, antiseptik, ağrıkəsici və iltihabi xüsusiyyətinə görə yuxarı tənəffüs yollarının – bronxit və bronxoektaziya xəstəliklərində məsləhət görülür. Mentolun valerianla qarışığı - validol, parafinlə qarışığı - karandaş şəklində miqrendə, zeleninlə valokardin kimi tibbdə istifadə edilir. Bundan başqa yarpaqları iştahanın artırılmasında, təngənəfəslik və qusmalarda tətbiq edilir. Alman həkimləri mədə xəstəliklərində, meteorizmdə, Avstriya və Bolqar həkimləri yarpaqlarının dəmləmə, bişirmə və yağın-

də-bağırsaq spazmında, meteorizmdə, ishalda, təngnəfəslik və qusmalarda öd və qaraciyər xəstəliklərində (daş, sarılıq, böyrək sancıları) və baş ağrılarında işlədirlər. Vannaların qəbul edilməsini də lazım bilirlər. Təzə və qurumuş yarpaqları sup, salat, tərəvəz və ət məhsulları ilə birlikdə qəbul edilməsi məsləhətdir. Çayların tərkibində ödqovucu, tərqovucu kimi, qida, konditer, və parfümeriya sənayesində diş pastası və tozu kimi geniş istifadə edilir.
**Hazırlanması**: 2 xörək qaşığı bitkini 2 stəkan qaynar suda dəmləyərək (termosda) gündə 3 dəfə hər dəfə yeməkdən 30 dəqiqə əvvəl içmək lazımdır (gündəlik doza). Nanə yağı (Oleum Menthae piperitae). Tərkibində 50% mentol diş praktikasında, daxilə 1-3 damcı şəkərlə (meteorizmdə), mentol (Mentholum) dəri səpkilərində və mialqiyada işlədilir.
**Əks göstəriş**: Arterial hipotenziya.

## VƏLƏMIR – *AVENA SATIVA* L.

**Bitkinin istifadə orqanı**: Bitkinin quru kütləsi və toxumu.
**Kimyəvi tərkibi:** Toxumlarının tərkibində nişasta (60%-ə qədər), zülali maddələr (16%-ə qədər), yağlar (9%-ə qədər), xolin, triqonellin, tirozin, fermentlər və B qrup vitaminlər vardır.
**Xalq təbabətində:** Dəmləməsi sidikqovucu, tərqovucu, hərarətsalıcı və yelqovucu təsir göstərir. Bişirməsi müvazinət aparatını normallaşdırır. Böyrəkdaşı xəstəliyində vələmirin qatı bişirməsini böyrək ətrafına döşədikdə, daşların hərəkətini asanlaşdırır və orqanizmdən xaric olmasına kömək edir.
**Fitoterapevtik göstəriş:** Dəmləməsi tonuslandırıcı, möhkəmləndirici və iştahlandırıcıdır. Xaricə tətbiqinə gəlincə, oynaq xəstəlikləri, radikulit və müxtəlif dəri xəstəliklərində işlədilir.
**Hazırlanması**: 3 xörək qaşığı bitkini 2 stəkan qaynar suda dəmləyərək (termosda) içmək lazımdır (gündəlik doza). Vanna üçün 0,5 kq vələmir dənini 2 l suda 30 dəqiqə ərzində zəif odda qaynatmaq və vanna etmək lazımdır. Suyun temperaturu 37-38 $C^0$ olduqda prosesi daha 10-15 dəqiqə davam etmək lazımdır. Müalicə kursu 15-20 prosedur (həftədə 2-3 vanna) edir.

## ƏKIN CƏFƏRISI - *PETROSELINUM CRİSPUM* (MILL.)A.W.HILL

**Bitkinin istifadə orqanı**: Bitkinin yerüstü orqanları və toxumu.
**Kimyəvi tərkibi:** Cəfərinin özünəməxsus aromat iyli olması onun tərkibində olan efir yağlarının (2-7%) olmasına görədir. Meyvələrinin tərkibində epinin qlükozidi və yağlar vardır. Efir yağlarının tərkibindən apiol, pinen və başqa terpen birləşmələri tapılmışdır
**Fitoterapevtik göstəriş:** Güclü sidikqovucu bitki olduğundan sidik yolu xəstəliklərində, xüsusən böyrək və sidik axarlarının daşlarında, infeksion xəstəliklərində (skarlatina, çiçək) təyin edilir. Cəfərinin dəmləməsi qara ciyər, dispepsiya və meteorizm xəstəliklərində olduqca faydalıdır.
**Hazırlanması**: 1-2 xörək qaşığı bitkini 0,5 l qaynar suda dəmləyərək (termosda), içmək lazımdır (gündəlik doza).
1 çay qaşığı kökü 1stəkan qaynar suda dəmləyərək (termosda), 1 xörək qaşığı gündə 3-4 dəfə içmək lazımdır (gündəlik doza).
**Əks göstəriş**: Hamiləlik.

## BOSTAN ŞÜYÜDÜ - *ANETHUM GRAVEOLENS* L.

**Bitkinin istifadə orqanı**: Yerüstü hissəsi və toxumu.
**Kimyəvi tərkibi**: Bütün orqanlarında efir yağı vardır. Meyvələrində (20%) piyli yağ, qliserid və yağ turşuları, flavanoidlər, keton (60%), dillapiol (30% qədər), fellandren və limonen maddələri vardır. Gövdə və yarpaqlarında 1,5% efir yağı, fellandren, dillapiol, terpinol, dipenten, proazulen və izimiristisinin olduğu təsdiq edilmişdir. Təzə yığılmış şüyüddə flavanoidlər – kversetrin, izoramnetin, kempferol, karotin (64-82 qamm) və C vitamini (135-328mq%) tapılmışdır.
Yarpaqlarında efir yağları (terpen qarışıqları) vardır. Bitki və meyvələrinin tərkibində flavanoidlər, fenxon, anetil, karotin və askorbin turşusu vardır.

**Xalq təbabətində:** Böyrəkdaşı və sidik yolları xəstəliklərində, hipertoniya xəstəliyinin I-II mərhələlərində, davamlı baş ağrıları ilə müşayət olunan aterosklerozda işlədilir. Üyüdülmüş və qovrulmuş toxumları südə qatılaraq qəbul edildikdə südverən qadınların südünü artırır. Yemək zamanı köpmə hallarının yaranmaması üçün kulinariyada xüsusən xiyarın və ondan hazırlanan salatların hazırlanmasında əlverişli sayılır. Eyni zamanda pendir və balıq məhsullarının hazırlanmasında da istifadə edilir.

**Fitoterapevtik göstəriş:** Meyvələrindən anetin (*Anethinum* preparatı) dərmanı hazırlanır ki, bu da bağırsaqların saya əzələlərini qıc edərək spazmı aradan qaldırır. Hipotenziv, sidikqovucu, kardiotonik, spazmolitik, bürüyücü, ödqovucu, öskürəkkəsici və tərqovucu təsir edir. Şüyüd hipertoniya xəstəliyinin başlanğıc stadiyalarında, stenokardiya, nevrozda, zəiflik hallarında yaxşı təsir edir. Bitkinin dəmləməsi uşaq və yeniyetmələrdə damar genişləndirici, bağırsaq sancılarında, meteorizm və qara ciyər xəstəliklərində tətbiq edilir. Kəskin respirator infeksiyalarda dəmləməsi xüsusilə səmərəlidir. Yaxşı öskürəkkəsici və zəif işlədici xüsusiyyəti vardır. Yüksək keyfiyyətli sidikqovucu xüsusiyyətinə görə böyrək və sidik yolları xəstəliklərində istifadə edilir. Südverən qadınların südünü artırır.

**Hazırlanması:** 1 xörək qaşığı bitkinin yerüstü hissəsi və ya toxumu 1,5 stəkan qaynar suda dəmlənərək (termosda) istifadə edilir (gündəlik doza).

1q üyüdülmüş toxum 1,5 stəkan suda həll edərək gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilir.

**Əks göstəriş:** Hamiləlik.

## ADI LOBYA - *PHASEOLUS VULGARIS* L.

**Bitkinin istifadə orqanı**: Meyvələri və meyvə yanlıqları

**Kimyəvi tərkibi:** Meyvələrində bir çox amin turşuları – arqinin, tirozin, leysin, lizin, triptofan, xolin, asparaqin, zülal, mikroelementlər (xrom) və hemisellüloza vardır. Qabığının tərkibində olan flavanoidlər, sidikqovucu maddələr (arqinin) antidiabetik təsir göstərir. Tərkibində karbohidrat, karotin, askorbin turşusu, piridoksin, yağ, fosfor duzları, kalium, manqan ionları vardır.

**Xalq təbabətində:** Meyvələr yerləşən qabıqdan şəkərli diabet və pankreatitdə işlədilir. Bundan başqa revmatizm, assit və böyrək xəstəliklərində tətbiq edilir. Unu ilə hazırlanmış xəmir çiban və frunkulların yumşalaraq deşilməsinə kömək edir. Böyrəkdaşı, nefrit, revmatizm, işas və podaqra xəstəliklərində səmərəli təsir edir. Böyürtkən yarpaqları ilə bərabər qarışığı diabetdə və ekzemada olduqca faydalıdır.

**Fitoterapevtik göstəriş:** Elmi təbabətdə ətraflı öyrənilməmişdir. 1946 cı ildə yağlı və quru ekstraktı hazırlanmışdır. Bu tərkib eksperimental olaraq qanda alimentar hiperqlikemiya yaratmışdır. Bitkinin dəmləməsindən sidikqovucu məqsəd kimi istifadə edərək, daşların həll edilməsində istifadə edilir.

**Hazırlanması:** 1 xörək qaşığı toxumunun quru qabıqlarını 250 ml qaynar suda 3-5 dərirə dəmləyərək (termosda) gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul etmək lazımdır.

20 q tozağacı yarpaqları, 10 q qatırquyruğu, 5,0 q boymadərən, 5,0 q nanə qarışığını 250 ml soyuq suya əlavə edib, sonra zəif odda onu 5 dəqiqə qızdırmaq, gündə 3 dəfə qəbul etmək lazımdır.

**Əks göstəriş:** Bu bitkini qəbul edənlər bilməlidirlər ki, toxumun və xammalın uzunmüddət saxlanılması zəhərlənmə törədə bilər.

## ADI RAZYANA - *FOENICULUM VULGARE* MILL.

**Bitkinin istifadə orqanı:** Toxumları.

**Kimyəvi tərkibi:** Razyananın toxumunda efir yağı (2-6%), zülali maddələr (20% qədər), piylər (18% qədər), şəkər (5% qədər) vardır. Efir yağının tərkibində aseton, fenxon, anis turşusu, anis aldehidi, anis ketonu, kamfen, pinen, metil xavikol, α fellandren, limon və dipenten maddələri tapılmışdır.

**Fitoterapevtik göstəriş:** Müalicə məqsədilə mədə-bağırsağın spazmında, dispepsiya, tərqovucu, yuxarı tənəffüs yolları üçün öskürəkkəsici, laktasiyanı gücləndiricisi kimi istifadə edilir. Ağciyər xəstəliklərində, ödqovucu, tərqovucu və möhkəmləndirici qarışıqların tərkibinə verilir.

Ədviyyəli xüsusiyyətinə görə tərəvəz, ət, göbələk, xiyar məmulatlarının konservləşdirilməsində, qənnadı sənayesi və parfümeriyada istifadə edilir.

**Hazırlanması:** 2 çay qaşığı meyvələrini 200 ml qaynar suda dəmləyərək (termosda) qəbul etmək lazımdır (gündəlik doza).

Aptek preparatı: Razyana yağı (*Oleum Foeniculi*). Meteorizm və öskürəkkəsici dərman kimi 5-10 damcı qəbul edilməlidir.

Razyana suyu (*Aqua Foeniculi*). 1 xörək qaşığı gündə 3-6 dəfə qəbul edilməlidir.

Tərqovucu qarışıq (Species carminvtivae). Tərkibi bərabər hissə razyana, nanə və valeriandan ibarətdir. Meteorizmdə işlədilir. 1 xörək qaşığı 0,5 l qaynar suda dəmləyərək (termosda) qəbul etmək lazımdır (gündəlik doza).

## ÇÖL TURPU - *RAPHANUS SATIVUS* L.

**Bitkinin istifadə orqanı**: Meyvə köklər.

**Kimyəvi tərkibi:** Tərkibində qlükozid və efir yağları vardır. Sokunun tərkibində C vitamini (0,12%), lizosim və güclü bakterisid xüsusiyyəti vardır.

**Xalq təbabətində:** Metobolik artritlərdə, öd və böyrəkdaşı xəstəliklərində sidikqovucu bitki kimi istifadə edilir. Şirəsi orqanizmdən duz və xolesterini çıxarır. Turp şirəsini balla qatdıqda difteriya və bronxit xəstəliyində öskürəkkəsici dərman kimi istifadə edirlər. Təzə soku nevralgiya, işias və radikulit xəstəliklərində yerli təsir vasitəsi kimi tətbiq edilir.

**Fitoterapevtik göstəriş:** Turp tərəvəz kimi çox geniş yayılmışdır. Mədə-bağırsaq sisteminin, xüsusən mədəaltı vəzi sekresiyanı və iştahanı artırır.

**Hazırlanması:** 1 çay qaşığı təzə soku gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl isti halda içmək lazımdır.

Təzə hazırlanmış soku: Bal ilə (1:1 və ya 1:2) 1 desert və ya 1 çay qaşığı gündə 3 dəfə 20-40 dəqiqə yeməkdən sonra içmək məsləhətdir.

**Əks göstəriş**: Qaraciyər, böyrək, mədəaltı vəzi, mədə və onikibarmaq xəstəliyin xora xəstəliyi, diffuz toksiki zob və hamiləlik.

## SARIMSAQ – *ALLIUM SATIVUM* L.

**Bitkinin istifadə orqanı:** Soğanaq və yarpaqları.

**Kimyəvi tərkibi:** Fitonsidlərlə zəngindir. Soğanağının tərkibində allinin qlikozidi (0,3%), allinaza fermenti, allisin disulfid, piroüzüm turşusu, ammiak, yağ (0,06%), fitosterin, azotlu maddələr (6,76%), karotin (37,5-60 qamma), vitamin $B_1$ (0,8 qamm), vitamin $B_2$ (0,16mq%), vitamin C (16,5-33mq%), efir yağı (0,01-0,05%), disulfid, flavanoid, şəkər (10-11%), pentoza (0,8-1,06%),fitin, inulin, azotlu maddələr, kül (1,44%) və yod (0,0094mq%) maddələri vardır.

**Xalq təbabətində:** Sarımsaq tərəvəz və dərman bitkisi kimi xalq təbabətində geniş şəkildə istifadə edilir. Güclü bakterisiddir. Sarımsaq infeksion və temperatura ilə müşayət olunan qrip, angina, dizinteriya və digər xəstəliklərinin profilaktika və müalicəsində geniş tətbiq edilir. Əzmə və sokundan məlhəm, sulu məhlul, soğanaq və yarpaqlarından çətin sağalan yara, angina və zökəm, trixomonad kolit, piodermiya, seboreya və döyənəklərdə istifadə edilir. Hələ 5000 il əvvəl Herodot yazırdı ki, Xeops piramidalarında işləyənlərə bollüca sarımsaq və soğan verilirdi. Sirkəyə salınmış sarımsaqdan yolxucu xəstəliklər, xroniki bronxit, xroniki bağırsaq xəstəlikləri, böyrəkdaşı xəstəliyi, şəkərli diabet, malyariya xəstəliklərində müvəffəqiyyətlə işlədilir.

Qan təzyiqini aşağı salaraq, maddələr mübadiləsini, xüsusən orqanizmdə xolesterini normallaşdırır, hipertoniya və ateroskleroz xəstəliyinin profilaktika və müalicəsində geniş tətbiq edilir. Iştahı artırır, mədə və bağırsağın spazm və sancılarında, meteorizm və xroniki enterkolit xəstəliklərində çox yaxşı təsir edir.

**Fitoterapevtik göstəriş:** Sarımsaq bağırsağın xroniki xəstəliklərində, atoniyada, qəbizliklə bağlı dispepsiyalarda, amöb dizinteriyasında, kolitin bütün formalarında, enteritdə və ishalda olduqca səmərəlidir. Xüsusən bizquyruq, askarid, nematodlarda (1-2 kökümsovu 200 ml su və ya südlə qəbul edilməlidir) düz bağırsaq imalə edilməlidir. Eyni zamanda təzə sarımsaq suyu (10-40 damcı) qəbul edilməlidir. Hipertoniya xəstəliyi, ateroskleroz, kardioskleroz xəstəliklərində spirtli məhlulu qəbul edilir. Sarımsaq diurezi artırır, böyrək və sidik yolları, böyrəkdaşı və prostat vəzinin adenoma xəstəliyində əvəzsiz dərman bitkisidir. İmpotensiyada, istənilən helmintlərin qovulmasında klizma kimi, şişəleyhinə, amenoreyya, avitaminoz və xroniki dəri xəstəliklərində müvəffəqiyyətlə istifadə edilir.

Allilçep (90% spirt) və allilqliçep (sarımsaq və qliserin) yod saxlayıcı maddələrdir ki, ateroskleroz, skelerotik formalı hipertoniya xəstəliyində olduqca faydalıdır.

**Hazırlanması:** Alloxolla (Allocholum) birlikdə qarışıq kimi xroniki hepatit, xolesistit və qəbizliklərdə istifadə edilir. Mədə və bağırsaq sisteminin xəstəliklərində 1-3 dişcik qəbul edilir. Qurd xəstəliklərində 5-6 dişcik 1 stəkan qaynar suda həll edilməlidir.

Xaricə tətbiq etmək üçün 2-3 dişcik sarımsaq 1 stəkan qaynar suda həll edilərək, 40-60 dəqiqə sonra istifadə etmək olar. 5 parça sarımsağı doğrayaraq, üzərinə bir qədər şəkər töküb qarışdırmaq lazımdır. 5 dəqiqə ərzində qaynama temperaturuna qədər qızdırmaq tələb olunur. Bu tərkib öskürməni olduqca tez kəsir.

**Əks göstəriş**: Mədə və bağırsaq sisteminin dərin yaralarında, qaraciyər və böyrəyin funksional pozğunluqlarında ehtiyatlı olmaq lazımdır. Gündə ən çox 1-2 dişcik qəbul etmək olar.

# SOĞAN - *ALLIUM CEPA* L.

**Bitkinin istifadə orqanı:** Yerüstü və yeraltı hissəsi.

**Kimyəvi tərkibi:** Tərkibi əsasən selik, azotlu maddələr, vitaminlər (C, B, A), şəkər (qlükoza, fruktoza, saxaroza, 11% maltoza), flavanoidlər, az miqdarda yod, fitonsid və efir yağlarında ibarətdir.

**Xalq təbabəti:** Soğan və sarımsaq insanı müxtəlif epidemiyalardan, bədxassəli şişlərdən və qripdən qoruyur. Soğanın fitonsidli xüsusiyyəti yuxarı tənəffüs yollarının iltihabı xəstəliklərində, angina, dərinin irinli yaralarında bronxoektaziya xəstəliyində və tüklərin uzanmasında əvəzssiz bitkidir. Soku genekologiyada trixomonoz kolpidlərdə və kandidozlarda istifadə edilir. Antihelment maddə kimi 250 ml məhlulu gecələr 3-4 gün qəbul edilir. Bolqar həkimlərinin məsləhətinə görə gecələr azacıq baş soğan yemək vəzinin hipertrofiyasını müalicə edir.

**Fitoterapevtik göstəriş:** Soğanın tərkibində fitonsid, bakterisid, və antiskleritik maddələr vardır. Bu maddələr mədə-bağırsaq sisteminin saya əzələlərini stimullaşdıraraq, sekretor funksiyasını normallaşdırır. Hipertoniya xəstəliyi, asteniya, ateroskleroz və hipovitaminozlarda tətbiq edilir. Soğan iştahanı artırmaqla, bağırsaq atoniyasında, qəbizlikdə və xroniki enterkolitin müalicəsində istifadə edilir. Qalxanvari vəzinin hipertrofiyasında, şəkərli diabetdə, frunkulyozda, impontensiyada və orqanizmin möhkəmləndirilməsində istifadə edilir.

**Hazırlanması:** Təzə soğan suyu (1 hissə soğan suyu 2 hissə bal) balla birlikdə (1 xörək qaşığı qarışıq) gündə 3-4 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilir.

## SOĞAN – *ALLIUM URSINUM* L.

**Bitkinin istifadə orqanı**: Gövdə, soğanaq.

**Kimyəvi tərkibi**: Soğanağının tərkibində yod olduğu ateroskleroz xəstəliyində əvəzsiz dərmandır. Bundan başqa yarpaq və çiçəklərinin tərkibində allinin qlikozidi, kükürdlü efir yağları, divinil sulfid, propildisulfid maddələri tapılmışdır. Fitonsid və bakterisid xassələrə malik olmaqla, yüksək keyfiyyətli vitaminlər vardır. Soğanağının tərkibində olan efir yağları az öyrənilmişdir. Yığılmış təzə yarpaqlarında 700mq%, soğanağında 100mq%, gövdəsində 16 mq%, çiçəklərində isə 0,59mq% C vitamini olduğu aşkarlanmışdır.

**Xalq təbabətində**: Frunkul və çibanların deşilməsində (20 qram baş soğan 200 qram xamır) və virus xəstəliklərində tətbiq edilir.

Allilsep (*Allilcepum preparatı*) –Yaşıl kütlənin spirtlı məhlulu və qliserin qarışığı.

**Əks göstəriş:** Mədə-bağırsaq traktı sisteminin narahatçılığı, qara ciyər, böyrək xəstəlikləri

## ÇUĞUNDUR - *BETA VULGARIS* L.

**Bitkinin istifadə orqanı**: Meyvəkökləri.

**Kimyəvi tərkibi:** Tərkibində şəkər, rəngləyici maddələr (antosian), üzvi turşular (oksalat, alma və s.), piyli maddələr, C və $B_1$ vitamini, azotlu maddələr vardır. Eyni zamanda betain, ksantin, hipoksantin, adenin, karnin, quanin, qlütamin turşusu, arqinin, asparagin, kalium (33,4 –46,6%), karotin, provitamin A, fol turşusu və azotlu törəmələr tapılmışdır.

**Xalq təbabətində**: Şirəni xəmirlə qarışdırıb (qənd xəmiri) müxtəlif çibanlarda (frunkul, kabunkul) yaranın üzərinə, yetişdirmək və deşmək üçün qoyulur. Eyni zamanda bu məhlul termiki yanıqlarda da tətbiq edilir.

**Fitoterapevtik göstəriş:** Meyvəköklərinin sokunu babasil xəstəliyi zamanı gündə 3 dəfə 2-3 ay ərzində qəbul etmək lazımdır. Balla birlikdə vərəm və hipertoniya xəstəliyində 1 ay qəbul edilir.

**Əks göstəriş**: Qanın normadan artıq olması.

## ISTIOT - *CAPSICUM ANNUUM* L.

**Bitkinin istifadə orqanı**: Meyvələri.

**Kimyəvi tərkibi**: Meyvələrinin tərkibində kapsaisin alkaloidi (0,2%), steoridli saponinlər, yağlar (10% qədər), efir yağları (1,12%), karotinoidlər: piperin, kapsantin (0,4%), kapserubin, zeaksantin, violaksantin, ksantofill, ksantofill epoksid, krirtoksantin, sitroksantin, *b* karotin, neo *b* karotin, *b* karotin epoksid və s. maddələr vardır. Fitonsid xüsusiyyətləri üstünlük təşkil edir. Təzə meyvələrində C (200-384,4%) və B (0,4 qamma) qrup vitaminləri, karotin (1,-23,5%), vardır.

**Xalq təbabətində**: Spirtli məhlulu revmatizm xəstəliyində xaricə tətbiq edilir. Ətli hissəsi ədviyyat kimi işlədilir.

**Hazırlanması**: Spirtli məhlulu gündə 2-3 dəfə 10-20 damcı yeməkdən əvvəl iştahlandırmaq, mədə-bağırsaq traktına stimullaşdırıcı və antibakterial təsir etməklə həm də temperatura hallarında işlədilir.

**Əks göstəriş:** Bitkiyə qarşı yüksək həssaslıq olduqda.

## BALQABAQ – *CUCURBITA PEPO* L.

**Bitkinin istifadə orqanı**: Meyvə və toxumları.

**Kimyəvi tərkibi**: Toxumlarının tərkibini yağ, zülali maddələr, pektin, az miqdarda alkoloid, tirozin, leysin, qlobulin, fitin aminturşuları, nişasta, salisil turşusu, qətranlı maddələr, hormonabənzər maddələr, oksiserotin turşusu, karotinoidlər, selen, xüsusən E, eyni zamanda C və $B_1$ vitaminləri (0,2 mq% qədər) təşkil edirlər. Toxumlarında olan piyli yağların tərkibində linol, palmitin, stearin və olein turşuları vardır. Meyvələrinin tərkibində şəkər (4-11%), azotlu maddələr (1,1%), yağ (0,13%), pektinli maddələr (5,16%), silikat və fosfat turşuları, kalium, kalsium, manqan, dəmir mikroelementləri, karotin (1 q-da 50 qamma), $B_1$ (0,2 qamma), C və $B_2$ vitaminləri (8 mq%) və nikotin turşusu vardır. Böyrək xəstəliklərində, prostatın xoşxassəli şişlərində (I və II stadiyalar) ən azı 2 ay qəbulu səmərəlidir.

**Xalq təbabətində**: Toxumlarının 1:4000 nisbətindəki sulu məhlulu dəyirmi qurdların (parazitlərin) salınmasında istifadə edilir. Balqabaqdan hazırlanmış mürəbbə mədə və onikibarmaq bağırsağın xora xəstəliyində faydalıdır. Bundan başqa qaraciyər xəstəliklərində ödqovucu, nefritdə güclü sidikqovucu təsir edir. Eyni zamanda meyvələrinin soku sidikqovucu, toxumları qurdqovucu təsirə malikdir. Uşaqların gecə sidiyini saxlaya bilmədiyi hallarda əvəzedilməzdir.

**Hazırlanması**: Qurdların salınması üçün toxumlarının qabığı kənar edildikdən sonra içindəki boz-yaşıl kütlə toplanılmalı, sürtərək yuyulmalı su və ya südlə içilməlidir. 3-4 yaşlılarda 75 q, 5-7 yaşlılarda 100 q (10-150 qrama qədər) yeməkdən əvvəl qəbul edilməlidir. 3-4 saat sonra işlədici verilməli, 0,5 saat sonra imalə edilməlidir. Sidikqovucu məqsədlə, gündə 2-3 dəfə 1 xörək qaşığı toxumu dəmləyərək qəbul edilməlidir. Müalicəni 2 həftəyə qədər davam etdirmək lazımdır.

**Əks göstəriş**: Qovrulmamış toxumlarını çox qəbul etmək olmaz.

## XARDAL- *SINAPIS ALBA* L.

**Bitkinin istifadə orqanı**: Toxumları.

**Kimyəvi tərkibi**: Tərkibində sinegrin qlikozidi, 25-40% yağ və nişasta vardır. Tərkibindəki mirozin fermenti isti su mühitində aktivləşərək, sinegrin qlikozidini parçalayaraq, kalsium sulfata, efir yağlarına və qlikozaya parçalayır.

**Xalq təbabətində**: Revmatizmin hər bir formasında müvəffəqiyyətlə istifadə edilir. Qidanın tərkibində mədə şirəsinin ifrazını artıraraq antiseptik və iştahlandırıcı təsir edir.

**Fitoterapevtik göstəriş**: Bronxit, plevrit, nevrit, radikulit, revmatizm xəstəliklərində vanna kimi (2 xörək qaşığı tozu 1 vedrə suda həll edilir) qəbul edilir. Tənəffüsü yaxşılaşdırır, qandövranı fəaliyyətini artırır, bəlğəmi durulaşdırır və çıxmasını asanlaşdırır. Spirtədə ekstraksiya olunmuş bitki xammalıdan alınan maddə xüsusən revmatizmdə çox səmərəlidir.

**Əks göstəriş**: Ağciyər vərəmi və böyrək xəstəliklərinin kəskinləşmə dövrü.

## POMIDOR- *SOLANUM LYCOPERSICUM* L.

**Bitkinin istifadə orqanı**: Meyvələri.

**Kimyəvi tərkibi**: Tərkibində pektin və azotlu maddələr, şəkər, askorbin, limon, alma, oksalat və çaxır turşuları, flavonoidlər, alkaloidlər, tiamin, likopin, riboflavin, karotin, purin və minerallar (xüsusən kalium) vardır.

**Xalq təbabətində**: Həzmi asanlaşdırır, mədə yarasında, arıqlamalarda, böyrəkdaşında və irinli yaralarda istifadə edilir.

**Fitoterapevtik göstəriş**: Tərkibində çoxlu vitaminlər, kalium, dəmir, maqnezium, kobalt, sink vardır. Bu maddələr ürək-damar xəstəlikləri və maddələr mübadiləsi pozğunluqları üçün çox faydalıdır. Eyni zamanda tərkibində yüngül işlədici və bağırsaq peristaltikasını artıran maddələr vardır. Təzə hazırlanmış tomat qan təzyiqini aşağı salır, mikroorqanizmlərin inkişafını ləngidir və qanda xolesterinin miqdarını azaldır.

**Əks göstəriş**: Qan laxtalanması vaxtından tez olan zaman istifadəsi məhdudur.

## ƏKIN KÖKÜ - *DAUCUS SATIVUS* ROEHL.

**Bitkinin istifadə orqanı**: Tibbi məqsədlə kök meyvələrindən və toxumlarından istifadə olunur.

**Kimyəvi tərkibi:** Kök meyvəsinin tərkibində çoxlu miqdarda şəkər, az miqdarda nişasta və pektin maddələri, çoxlu lesitin, sellüloza, digər fosfatidlər, mineral duzlardan kalium duzu, karotin, B qrupu vitaminləri, piridoksin, nikotin və fol turşusu, K, D vitamini vardır. Bundan başqa fitoen, fitofluen, flavonoidlər, antosianidlər, piyli yağlar, efir yağları, kumarin, kül elementləri (1,03 dəmir və s.), sərbəst alma turşusu, mannit və s. vardır.

**Xalq təbabətində**: Yağlı məhlulu (1 ml yağ + 2 mq kök suyu) təpitmə, kompress, emulsiya şəklində çətin sağalan və irinli yaralarda, yanıqlarda, donmalarda və s. işlədilir.

**Fitoterapevtik göstəriş:** Yerkökünün toxumundan alınan «daukarin» preparatı spazmolitik və damargenəldirici təsirə malikdir, «karotonaftalan» məlhəmi dəri xəstəliklərinin müalicəsində işlədilir, təzə halda A və B qrup vitaminlərinin avitaminozunda, görmənin zəifləməsində, göz epitelinin atrofik distrofik dəyişikliyində, tonuslandırıcı, qəbzlikdə, qara ciyər, böyrək, ürəkdamar sistemi xəstəliklərində, mineral mübadilə pozğunluqlarında, yüngül işlədici, sidikqovucu kimi, qanazlığında, orqanizmin ümumi müqavimətini yüksəldiji kimi, həzmi yaxşılaşdırıcı vasitə kimi, ana südü ifrazını artıran, bal və ya şəkərlə qarışığından isə tənəffüs yollarının katarında işlədilir.

## REYHAN - *OCIMUM BASILICUM* L.

**Bitkinin istifadə orqanı**: Yarpaqları
**Kimyəvi tərkibi**: Reyhan bitkisi efir yağları ilə zəngindir. Bundan başqa tannin, saponinlər, aşı maddələri, C, K vitaminləri, üzvi turşular, qətranlı maddələr, flavonoidlər, karotin, xlorofil vardır.
**Xalq təbabətində**: Bu bitkinin tərkibinə daxil olan flavonoidlər, karotin, efir yağları, xlorofil mədə-bağırsaq xəstəliklərində, avitaminozda, qanazlığında əvəzsiz təsirlər göstərir.
Bundan başqa mədənin həzm prosesinin fəaliyyətini artırır, maddələr mübadiləsini yaxşılaşdırır, qanın tərkib hissəsini normal vəziyyətdə saxlayır, böyrək və sidik yollarının iltihabını aradan qaldırır, qaz qovucu, spazmolitik, güclü bakteriosid, qıcolma əleyhinə təsirə malikdir.
**Hazırlanması:** Yarpaqlarından hazırlanmış spirtli, duru ekstrakt qanda protrombinin miqdarını artırır, qanın laxtalanmasını sürətləndirir.

## KARTOF - *SOLANUM TUBEROSUM* L.

**Bitkinin istifadə orqanı:** Dərman məqsədilə yetişmiş kök yumrularından və çiçəklərindən istifadə olunur.
**Kimyəvi tərkibi**: Kartof qabığının tərkibində zəhərli qlikoalkaloid olan solanin vardır. Bu ən çox qabığı yaşıllaşmış kartofda olur.
**Xalq təbabətində**: Təbabətdə vərəmə qarşı, tənəffüs orqanı xəstəliklərində, mədə, on iki barmaq bağırsaq yarasında, mədə turşusunun yüksəlməsində və davamlı başağrılarında, müxtəlif dəri xəstəliklərində, ekzema və I-II dərəcəli dəri yanıqlarında işlədilir.
**Hazırlanması:** 1/2 stəkan çiy kartof suyu-gündə 3 dəfə, yeməkdən 30 dəq. əvvəl və yatmazdan əvvəl qəbul edilməlidir.

## ÇƏLTIK - *ORYZA SATIVA* L.

**Bitkinin istifadə orqanı**: Dəni (toxumu)
**Kimyəvi tərkibi**: Dəninin tərkibində nişasta, $B_1$ vitamini vardır.
**Xalq təbabətində**: Düyü həlimindən müxtəlif qarışıqlarla bronxial astmanın müalicəsində, firni yeməyindən isə möhkəmləndirici və güc bərpaedici vasitə kimi isifadə edilir.
**Elmi təbabətdə:** Düyü nişastasından müxtəlif tozlarda, məlhəmlərdə, pastalarda işlədilir.

## DƏRMAN BƏDRƏNCI - *MELISSA OFFICINALIS* L.

**Bitkinin istifadə orqanı**: Zirvə yarpaqları.
**Kimyəvi tərkibi**: Toxumlarında tünd limon iyi verən efir yağı (20%) vardır (əsas komponentləri- sitral, siranellal, mirsen və heranilol). Bundan başqa selık, qətran, acı və aşı maddələr, askorbin (150mq%), kofein, olein və ursol turşuları vardır.
**Xalq təbabətində**: Qadın xəstəliyində istifadə edilir. Bundan başqa ağır zəhərlənmələrdə təmizləyici imalələrin aparılmasıda əvəzsiz hesab olunur. Dəmləməsi tənəffüs və ürək-damar sistemini nizama salır, arterial qan təzyiqini aşağı salmaqla, sedativ təsir göstərir. Hemorroy qəbizliyi zamanı bədrənc şirəsini qaynar su ilə həll etdikdən sonra imalə etmək olar.
**Fitoterpevtik göstəriş:** Bədrəncdən nevroz, isteriya, miqren, yüksək cinsi aktivlik, halsızlıq, arterial hipertenziya, ateroskleroz, başgicəllənmə və qulaqlarda küy zamanı istifadə edilməsi məsləhət görülür. Mədə-bağırsaq ağrılarında, iştahasızlıqda, xroniki qəbizlikdə, metiorizmdə, qanazlığı və podaqrada tətbiq edilməsi effektlidir.
**Hazırlanması**: 2 xörək qaşığı üyüdülmüş bitkini 2 stəkan qaynar suda dəmləyərək (termosda) içmək lazımdır (gündəlik doza).
**Əks göstəriş**: Arterial hipotenziya.



Şək.1. İnnab-*Ziziphus jujuba*



Şək. 2.Ərik- *Armeniaca vulgaris*



Şək.3. Heyva *Cydonia oblonga*



Şək.4. Zeytun *Olea uropaea*



Şək.5.Badam-*Amygdalus communis*



Şək.6. İydə *Elaeagnus angustifolia* L



Şək.7. Ağ tut – *Morus alba*



Şək.8. Turş albalı *Cerasus austera*



Şək.9. Şərq Küknarı-*Picea oreintalıs*



Şək.10. Ağ söyüd-*Salix alba* L.



Şək.11. Sallaq tozağacı-*Betula pendula*



Şək.12. Ağ tozağacı-*Betula alba*



Şək.13.Adı palıd *Quercus robur*



Şək.14.Yunan qozu-*Juglans regia*



Şək.15. Ağ şabalıd*Aesculus hippocastanum*



Şək.16. Ürəkşəkilli çökə-*Tilia cordata*



Şək.17. Adi ardıc-*Juniperus communis*



Şək.18. Şərq tuyası-*Thuja occidentalis*



Şək.19. Şərq fısdığı-*Fagus orientalis*



Şək.20.Üzüm-*Vitis vinifera*



Şək.21. Nar-*Punica granatum*



Şək.22.Limon-*Citrus limon*



Şək.23. Moruq-*Rubus idaeus*



Şək.24. Bozumtul böyürtkən-*Rubus caesius*



Şək.25. Gənəgərcək-
*Ricinus communis*



Şək.26. Qafqaz quşarmu-
du-*Sorbus caucasigena*



Şək.27. Adi quşarmudu
*Sorbus aucuparia* L.



Şək.28. Qara meyvə-
*Aronia melanocarpa*



Şək.29. Yasəmən-*Syringa vulgaris*



Şək.30. Qara qarağat-
*Ribes nigrum*



Şək.31. Meşə gilası-*Prunus padus*



Şək.32. Çılpaq biyan-*Glycyrrhiza glabra*



Şək.33. Beşyuvalı yemişən-*Crataegus pentagyna*



Şək.34. Qafqaz yemişəni-*Crataegus caucasica*



Şək.35. Çay tikanı-*Hippophae rhamnoides*



Şək.36. Armud-*Pyrus communis*



Şək.37. Əncir-*Ficus carica*



Şək. 38. Zoğal-*Cornus mas*



Şək.39. Zirinc-*Berberis vulgaris*



Şək.40. Adi qaragilə-*Vaccinum myrtillus*



Şək.41. Mərcangilə-*Vaccinum vitis idaea*



Şək.42. Gəndəlaş-*Sambucus nigra*



Şək.43. Aloe (Əzvay) – *Aloe arborescens*



Şək.44. İşlədici murdarça – *Rhamnus cathartic*



Şək.45. Meşə çiyələyi – *Fragaria vesca*



Şək.46. Adi başinağaci– *Viburnum opulus*



Şək.47. Qəhvəyi itburnu- *Rosa cinnamomeae*



Şək.48. Qizilgül– *Rosa damascena.*



Şək.49. Bataqliq mərcani – *Oxycoccus quadripetalus*



Şək.50. Ovalşəkilli murdarça–*Frangula alnus*



Şək.51. Adi ayiqulaği– *Arctostaphylos uva-ursi*



Şək.52. Qara quşüzümü – *Solanum nigrum*



Şək.53. Çin cirlimonu – *Schisandra chinensis*



Şək.54. Böyük pitraq – *Arctium lappa*



Şək.55. Adi kasni –
*Cichorium intybus*



Şək.56. Şərq küncütü –
*Sesamum indicum*



Şək.57.Zaqafqaziya kəkotusu –
*Thymus transcaucasicus*



Şək.58. Kəklikotu –
T*hymus serpyllum*



Şək.59. Aci yovşan –
*Artem is ia absinthium*



Şək.60. Adi yovşan -
*Artemisia vulgaris*



Şək.61. Üzərlik – *Peganum harmala*



Şək.62. Küstüşam – *Bryonia alba*



Şək.63. Çaqa (ağac göbələyi)– *İnonotus obliquus*



Şək.64. Aciliqotu- *Ephedra vulgaris*



Şək.65. Jenşen–*Panax ginseng*



Şək.66. Eleuterokokk – *Eleutherococcus senticocus*





Şək.67. Dərman gülxətmi – *Althaea officinalis*

Şək.68. Gecəvər – A*corus calamus*





Şək.69. Dağ öküzotu – *Arnica montana*

Şək.70. Solmazçiçək - *Helychrysum arenarium*





Şək.71. Dərman valerianı- *Valeriana officinalis*

Şək.72. Dərman qulançarı – *Asparagus officinalis*



Şək.73. Yoncayarpaq menyanta – *Menyanthes trifoliata*



Şək.74. Dəniz kələmi – *Laminaria sacharina*



Şək.75. Minaçiçəyi – *Veronica officinalis*



Şək.76. Qırxbuğum– *Polygonum bistorta*



Şək.77. Subibəri - *Polygonum hydropiper*



Şək.78. Iran qirxbuğumu- *Polygonum persicaria*



Şək.79. Quşdili –
*Polygonum aviculare*



Şək.80. Andız-
*İnula helenium*



Şək.81. Dərman Xəşəmbülü –
*Melilotus officinalis*



Şək.81-a. Tikanlı pıtraq-
*Xanthium spinosum*



Şək. 82. Adi qaraqnıq – *Origanum vulgare*



Şək.83. Dazıotu – *Hypericum perforatum*



Şək.84. Göyçiçək isitməotu – *Centaurea cyanus*



Şək.85. Kiçik isitməotu – *Centaurium minus*



Şək.86. Dərman gülümbahari – *Calendula officinalis*



Şək.87. Yağiotu – *Chamaenerium angustifolium*



Şək.88. Üçyarpaq yonca – *Trifolium pratense*



Şək.89. Dəvədabani – *Tussilago farfara*



Şək.90. Sığırquyruğu – *Verbascum thapsiforme*



Şək.91. Sincanotu – *Sanguisorba officinalis*



Şək.92. Dərman Zəncirotu – *Taraxacum officinale*



Şək.93. Adi quşəppəyi – *Capsella bursa – pastoris*



Şək.94. Bahar xoruzgülü – *Primula veris*



Şək.95. Qaz qaytarma – *Potentilla anserina*



Şək.96. Düz qaytarma – *Convallaria majalis*



Şək.97. May İnciçiçəyi – *Potentilla erecta*



Şək.98. Gəvən – *Astragalus dasyanthus*



Şək.99. Çatılotu- *Euphrasia officinalis*



Şək.100. Toppuztikan-
*Echinops ritro*



Şək.101. Dağtərxunu –
*Tanacetum vulgare*



Şək.102. Böyrək çayi –
*Oorthosiphon stamineus*



Şək.103. Tükcüklü damotu –
*Leonurus quinquelobatus*



Şək.104. Ürək damotu -
*Leonurus cardiata*



Şək.105. Ayriqotu –
*Agropyron repens*





Şək.106. Rəvənd (uşqun)– *Rheum ribes*

Şək.107. Qaya rəvəndi – *Rheum rupestre*





Şək.108. Aptek çobanyastığı – *Matricaria chamomilla*

Şək.109. Sədo – *Ruta graveolens*





Ş ək.110. Üçrəng bənövşə- *Viola tricolor*

Şək.111. Ətirli bənövşə - *Viola odorata*



Şək.112.Üçbarmaq –
–*Equisetum arvense*



Şək.113. Çöl qatirquyruğu
*Bidens tripartita*



Şək.114. Adi mayaotu –
*Humulus lupulus*



Şək.115. Böyük dəmrovotu –
*Chelidonium majus*



Şək.116. Dərman sürvəsi –
*Salvia officinalis*



Şək.117. At əvəliyi –
*Rumex confertus*





Şək.118. Ağ ballibaba ( Dalamaz) – *Lamium album*

Şək.119. Şüvərən – *Sisymbrium officinale*





Şək.120. Boyaqotu – *Coronilla varia*

Şək.121. Aciyonca – *Rubia tinctorum*





Şək.122. Üskükotu – *Digitalis ferruginea*

Şək.123. Öküzboğan – *Bupleurum rotindifolium*



Şək.124. Ballica - *Pulmonaria officinalis*



Şək.125. Erkək ayidöşəyi – *Dryopteris filix-mas*



Şək.126. Çöl qatıirquyruğu – *Equisetum arvense*



Şək.127. Gücotu – *Agrimonia eupatoria*



Şək.128. Qara çörəkotu – *Nigella sativa*



Şək.129. Qitiqotu – *Armoracia rusticana*

# AZƏRBAYCANLILARIN QƏDIM XALQ TƏBABƏTİ MÜALICƏ ÜSULLARI

## Təcrübədə sınanmış seçmə reseptlər

### ANEMIYA (qanazlığı)

- Qəhvəyi itburnu və çiyələk meyvələrinin (hər biri 10 q) üzərinə 1 stəkan qaynanmış su əlavə edib, 15 dəqiqə dəmləmək, soyutmaq, tənzifdən süzmək və gündə 2 dəfə 0,5 stəkan qəbul etmək lazımdır.
- Meşə çiyələyi yarpağını (20 q 1 stəkan qaynanmış suya) çay kimi dəmləyərək, xörək qaşığı ilə gündə 3-5 dəfə qəbul etmək lazımdır.
- Adi quşarmudu və itburnu meyvəsindən (hər biri 25 q bir stəkan qaynadılmış su) çay kimi dəmləyərək, gündə 3-5 dəfə 1 stəkan qəbul etmək lazımdır.
- Çaytikanının meyvə, yarpaq və cavan budaqlarını çay kimi dəmləmək lazımdır.
- Yerkökü, çuğundur və ağ turpun təzə hazırlanmış şirəsi. Gündə 1-2 dəfə 1 çay qaşığı qəbul etmək lazımdır.

### ANGINA (boğaz ağrısı)

- Baş soğanı ət maşınından keçirərək qaba qoyub gündə 3 dəfə 2-3 dəqiqə yaxından nəfəs almaq lazımdır.
- 0,5 çay qaşığı soda, həmin miqdarda duz və 4 damcı yod qaynanmış ılıq suda qarışdırılaraq gündə 2 dəfə qarqara edilir.
- Qaragilə meyvəsinin həlimi (100q meyvə 0,5 litr qaynanmış su) ilə qarqara edilməlidir.
- Gülümbahar dəmləməsi (20 q bitki və 1 stəkan qaynanmış su) ilə qarqara edilməlidir.

- ✓ 1 dilim limonu ağızda saxlamaq və sonra udmaq lazimdir.
- ✓ Alma sirkəsi (1 stəkan suya 1 çay qaşığı alma sirkəsi) ilə qarqara etmək olar.
- ✓ Sol əli boyun ardına yerləşdirmək sağ əlin ovucu ilə boğazı sıxırlar. Prosedura gündə bir neçə dəfə təkrar edilir (İbn-Sina üsulu).
- ✓ Sağ əlin baş barmağının birinci falanqası bükülür və həmin falanqa dişlərin arasına yerləşdirilir. Bu vəziyyətdə başı 8-12 dəfə arxaya çevirmək lazımdır (İbn-Sina üsulu).
- ✓ 1 xörək qaşığı kəndəlaş yarpağı 1 stəkan qaynanmış suda dəmlənilir, 2 xörək qaşığı gündə 5-6 dəfə qəbul edilir.

## ARITMIYA (ürək döyüntüsü)

- ✓ Çobanyastığı çiçəyi, nanə, razyana, valerian kökü və zirə toxumu (hər birindən 1 xörək qaşığı) 0,5 litr suda dəmlənilir. Gündə 1 dəfə axşam 1 stəkan qəbul edilir.
- ✓ Yemişan çiçəyi (20q 200ml suda) dəmlənilərək gündə 4-5 dəfə hər dəfə 100 ml qəbul edilir.

## ARTERIAL HIPERTENZIYA (təzyiq)

- ✓ Çuğundur, yerkökü və qara turp şirəsini (hər biri 1stəkan) 1 ədəd limon şirəsi və 1stəkan bal ilə qarışdırıb, gündə 3 dəfə 1 xörək qaşığı yeməkdən 3 saat sonra 2 ay qəbul etmək lazımdır.
- ✓ 1 stəkan süddə 2 baş sarımsağı yumşalanadək qaynatmalı və süzməli. Gündə 3 dəfə 1 xörək qaşığı 10-15 gün qəbul edilir.
- ✓ 2 çay qaşığı alma sirkəsi 1 stəkan suda həll edilərək qida ilə qəbul edilir.
- ✓ Çuğundur şirəsi və bal (1:1) ilə qarışdıralaraq gündə 4-5 dəfə qəbul edilir.

## ARTRIT

- ✓ 2 çay qaşığı mərcangilə yarpağı 1 stəkan suda zəif odda 10-15 dəqiqə qaynadılır, soyudulur və tənzifdən süzülür. Qarışıq gün ərzində qəbul edilir.
- ✓ Qarağat, mərcangilə və itburnu yarpaqları bərabər hissədə 1 stəkan qaynanmış suda dəmlənilir 2 xörək qaşığı gündə 1 dəfə qəbul edilir.
- ✓ Oynaq ağrılarını azaltmaq üçün 2 stəkan qara turp şirəsinə 1 xörək qaşığı duz, 0,5 stəkan araq və 1 stəkan bal əlavə edərək yaxşıca qarışdırılır. Qarışıq ağrı nahiyyəsinə sarğı kimi qoyulur.

## ARTROZ

- ✓ 2 xörək qaşığı murdarça qabığı, 2 çay qaşığı zəncirotu kökü, 2 çay qaşığı cəfəri bitkisi və 2 çay qaşığı nanə yarpaqları 0,5 litr suda dəmlənilir səhər yeməkdən əvvəl 2 xörək qaşığı qəbul edilir.

## BRONXIAL ASTMA

- ✓ Eyni miqdarda qarışdırılmış kəndalaş yarpağı, bağayarpağı, üçrəng bənövşə yığımından 4 çay qaşığı götürülərək 0,5 litr suda zəif odda 1 saat qaynadılır. Ilıq halda gündə 3 dəfəyə qəbul edilir.
- ✓ Biyan kökü, üçrəng bənövşə (hər biri 1 çay qaşığı) və 4 çay qaşığı kəklikotu suda dəmlənərək gündə 4 dəfəyə qəbul edilir.
- ✓ Biyan kökü (20q 200ml suda) dəmlənərək gündə 3 dəfə 1 il ərzində qəbul edilir.

## ATEROSKLEROZ

- ✓ Boymadərən və zəif dazı (hər biri 1 xörək qaşığı) 1 stəkan suda dəmlənilir və 1 il ərzində qəbul edilir.

- ✓ Yemişan çiçəyi, qatırquyruğu, cəzair bənövşəsi (hər biri 2 xörək qaşığı) və 2 çay qaşığı boymadərən 1 stəkan suda dəmlənilir və 1 il ərzində qəbul edilir.
- ✓ Sarımsaq cövhəri 20 damcı gündə 2-3 dəfə yeməkdən sonra qəbul edilir.
- ✓ Baş soğanın etil spirtində tinkturası 20 damcı gündə 3 dəfə qəbul edilir.
- ✓ 350 q sarımsaq 2 dəfə ət maşınından keçirilərək üzərinə 200 ml spirt əlavə edilərək 9-10 gün qaranlıq, sərin yerdə saxlanılır və süzülür. Gündə 2 dəfə 20 damcı südlə qəbul edilir. Müalicə kursu 5 ildə 1 dəfə aparıla bilər.

## BAĞIRSAQ QURDLARININ (HELMINTOZLAR) QOVULMASI

- ✓ Orta ölçülü 1 baş soğanı xırdalayaraq üzərinə 1 stəkan soyuq su əlavə edərək 10-12 saat saxlayıb süzmək lazımdır. 0,3 stəkan gündə 1 dəfə 7-10 gün qəbul edilir.
- ✓ 1-2 baş sarımsağı xırdalayaraq üzərinə qaynanmış isti süd əlavə edilir və 10-12 saat saxlanılır. Gündə 2 dəfə yeməkdən əvvəl 10-12 gün qəbul edilir.

## BAŞ AĞRISI

- ✓ 2 xörək qaşığı süpürgə kolunun cavan budaqları 0,5 litr qaynar suda dəmlənilir gündə 1 dəfə qəbul edilir.
- ✓ 2 çay qaşığı bal və 2 çay qaşığı alma sirkəsi 1 stəkan suda qarışdırılaraq gündə 1 stəkan olmaqla, 30 gün ərzində qəbul edilir (ingilis vasitəsi).
- ✓ 20 qram arı mumunu (propolis) 100 qram etil spirtində həll edilərək, 40 damcı çörək üzərinə hopduraraq yeyilir (rus vasitəsi).

## BOĞAZ URU (ZOB)

- ✓ Qozun içərisindəki arakəsmə (2 xörək qaşığı xırdalanmış ara qacaq) 1 stəkan etil spirtində 2 gün ərzində saxlanılır. Gündə 1 dəfə 1 çay qaşığı olmaqla südlə qəbul edilir.
- ✓ Biyan kökü (1 xörək qaşığı) və boyaqotunun (2 xörək qaşığı) həlimi. Səhər 1 stəkan qəbul edilir.
- ✓ Itburnu meyvəsinin həlimi. 0,5 stəkan gündə 3 dəfə qəbul edilir.

## BÖYRƏKDAŞI XƏSTƏLIYI

- ✓ 1 çay qaşığı kətan toxumu 1 stəkan suda qaynadılaraq gün ərzində 2 saatdan bir 0,5 stəkan qəbul edilir. Dadı yaxşılaşdırmaq üçün limon şirəsi əlavə etmək olar.
- ✓ Zirə, murdarça qabığı, gülxətmi, nanə yarpağı və sürvə (hər biri 1 xörək qaşığı) 1 stəkan suda dəmlənilir, axşam yatmazdan əvvəl 1 stəkan qəbul edilir.
- ✓ Badrinc (*Melissa officinalis*) yarpağı, nanə yarpağı və çobanyastığı çiçəyi 1 stəkan suda dəmlənilir və gün ərzində qəbul edilir.
- ✓ Dəmrovotu və nanə yarpağı 2 çay qaşığı 1 stəkan suda dəmlənilir və gün ərzində 2 dəfə (səhər və axşam) yeməkdən əvvəl 1 stəkan qəbul edilir.

## BRONXIT (öskürmə)

- ✓ 500 q baş soğan ət maşınından keçirilərək, üzərinə 1 litr su, 50 q bal, 400 q şəkər tozu əlavə edilir. 2 saat ərzində zəif odda qaynadılır və soyudulur. 2 xörək qaşığı gündə 3 dəfə qəbul edilir. Qarışıq hava keçməyən şüşə qabda saxlanılmalıdır.
- ✓ Qara turpu süzgəcdən keçirirərək tənziflə sıxmaq, 1 stəkan şirəyə 400 q bal qatmaq lazımdır. 2 xörək qaşığı günorta yeməkdən qabaq və axşam yatmazdan əvvəl qəbul edilir.

- ✓ 4 hissə və 1 hissə şəkər qarışdırılaraq mayenin yarısı buxarlananadək zəif odda qızdırılır. 1 çay qaşığı gündə 2-4 dəfə qəbul edilir (İtaliya təbabəti).
- ✓ 2 xörək qaşığı qliserin, 1 limon şirəsi və 200 q bal qarışdırılaraq 1 çay qaşığı gündə 2 dəfə qəbul edilir (Polşa təbabəti).
- ✓ 2 baş sarımsaq və 5 limon süzgəcdən keçirilərək üzərinə 1 litr su əlavə edilir. 5 gün saxlanılır, tənzifdən süzülür. 1 xörək qaşığı gündə 2 dəfə yeməkdən 20 dəqiqə əvvəl qəbul edilir (Polşa təbabəti).
- ✓ Payızın sonunda yığılmış moruq kökü (50 q 0,5 litr su) zəif odda qaynadılır, 0,25 stəkan gündə 2-3 dəfə qəbul edilir (Polşa təbabəti).

## VEGETATIV DAMAR DISTONIYASI (damar xəstəliyi)

- ✓ Yemişan, damotu, nanə (hər biri 1 çay qaşığı) 1 stəkan qaynar suda dəmləyərək, tənzifdən süzülür. 1 xörək qaşığı gündə 3 dəfə qəbul edilir. 3 həftə fasilə verdikdən sonra müalicə davam etdirilə bilər.

## VIRUS HEPATITI (qara ciyər xəstəliyi)

- ✓ Pişikotu kökü, yemişan çiçəyi, zərinc qabığı və nanə yarpağı (hər biri 1 xörək qaşığı) 1 stəkan qaynar suda dəmlənilir və gün ərzində 2 dəfə (səhər və axşam) yeməkdən qabaq 1 stəkan qəbul edilir.
- ✓ Solmazçiçəyi, boymadərən, acı yovşan, razyana və nanə yarpağı (hər biri 1 xörək qaşığı) 1 stəkan qaynar suda dəmlənilir və gün ərzində 2 dəfə (səhər və axşam) yeməkdən qabaq 0,5 stəkan qəbul edilir.
- ✓ Quşarmudu və itburnu meyvəsi (hər biri 1 xörək qaşığı) gün ərzində 3 dəfə yeməkdən qabaq 0,5 stəkan qəbul edilir.

## QASTRIT (mədə xəstəliyi)

- ✓ 2-3 kartof təmiz yuyularaq süzgəcdən keçirilir, sıxaraq şirəsi çıxarılır. Hər dəfə təzəsini hazırlamaq lazımdır. Səhər acqarnına 1-2 ay içmək lazımdır.
- ✓ İtburnu toxumu dəmlənilir.
- ✓ Gicəvər kökünün üzərinə qaynadılmış su (1:10) əlavə edilərək, 15 dəqiqə dəmlənilir. Gün ərzində 3 dəfə yeməkdən əvvəl 2 xörək qaşığı qəbul edilir.

## QƏBİZLİK

✓ Qəbizliyi aradan götürmək üçün buğda kəpəyini aşağıdakı kimi qəbul etmək lazımdır.

I. 10-12 gün 1 çay qaşığı kəpəyin üzərinə 1 stəkan qaynar su əlavə edilir. Süzülür, yeməklə gündə 3 dəfə qəbul edilir.

II. İkinci tsikl 2 həftə davam edir və kəpəyin dozası hər qəbulda 2 xörək qaşığına qədər artırılır və gün ərzində 3 dəfə qəbul edilir.

III. Bundan başqa 2 ay müddətində kəpək quru halda 2 çay qaşığı olmaqla gün ərzində 3 dəfə qəbul edilir.

- ✓ Gün ərzində 2 dəfə qara çörək qəbul edilməsi məsləhətdir.
- ✓ 1 xörək qaşığı arpa və ya yulaf toxumu 4 stəkan suda qaynadılır, süzülür və üzərinə 1 xörək qaşığı xörək duzu əlavə edilir və imalə edilir.

## QRİP

- ✓ Ağ söyud qabığı, çobanyastığı və itburnu meyvəsi (hər biri 1 xörək qaşığı) 1 stəkan qaynar suya əlavə edilir, 10 dəqiqə dəmlənilir sonra süzülür, gün ərzində 3 dəfə yeməkdən əvvəl 0,5 stəkan qəbul edilir.
- ✓ Moruq mürəbbəsi ilə limonlu çay tez-tez içilməlidir.
- ✓ Balla isti süd içmək.
- ✓ Sarımsaq suyu eyni həcmli balla qatılaraq yatmazdan qabaq 1 xörək qaşığı qəbul edilir.

- ✓ Soğan şirəsində isladılmış tamponu 10-15 dəqiqə buruna yerləşdirmək.

## DƏRİ XƏSTƏLİKLƏRİ

- ✓ Epidermisin buynyzlaşması və dəri qırışları zamanı:

Parçadan hazırlanmış torbacığın içərisinə 1 stəkan buğda kəpəyi və çovdar unu və 0,5 stəkan sabun qırıntısı yığıb, vannada suyun içərisinə yerləşdirilir. 15 dəqiqə sonra vanna qəbul edilir.

- ✓ Yağlı seborreya və sızanaqlar zamanı:

Ardıc, çobanyastığı, zəif dazı (hər biri 25 q), kəklikotu və nanə yarpağı (hər biri 50 q) torbacığa yığılır və qazana qoyulur. Üzərinə 2 litr su əlavə edib qaynadılır. 30 dəqiqə zəif odda saxlanılır və vannaya süzülür. Həftədə 1 dəfə qəbul etmək kifayətdir.

- ✓ Dərinin «qara nöqtələrini» yulaf kəpəyi ilə təmizləmək olar:

1 stəkan yulaf kəpəyini 1 çay qaşığı çay sodası ilə qarışdırılır. 1 xörək qaşığı sıyıq əmələ gələnə kimi su əlavə edərək qarışdırılır. Sıyıq üzə yaxılır və 5-6 dəqiqə masaj edilir. Həftədə 1 dəfə etmək kifayətdir.

## DİŞ AĞRISI

- ✓ Ağrılı dişə duzla sarımsağın qarışığını qoyaraq, üzərinə pambıq örtmək.
- ✓ Karies dişin içərisinə 10-15 ədəd üzərlik toxumu yerləşdirmək. 25-30 dəqiqəyə ağrı tamamilə kəsilir.
- ✓ Ağrılı dişin tərəfindən biləyin üzərinə (nəbzin üzərinə) sarımsaq qoyaraq bağlamaq.

## ZIYIL

- ✓ Ziyilin üzərinə yovşan dəmləməsi qoyaraq bağlanılır.
- ✓ Sarımsaq və donuz piyinin məlhəmini (hər biri 50 q) ziyilin üzərinə qoyaraq bağlanılır.

## ZÖKƏM

- ✓ Sarımsaq və yerkökü şirəsi qarışdırılıb, hər burun dəliyinə 2-3 damcı salınır.
- ✓ Qıtıqotu (xren) süzgəcdən keçirilir 0,3 stəkan 2 limonun şirəsi ilə qarışdırılır. 0,5 çay qaşığı səhər yeməyindən 20-25 dəqiqə sonra qəbul edilir.

## IMPOTENSIYA

- ✓ Qida rasionunda cəfəri, qoz, 2 yumurta (həftədə 2 dəfə) və balın olması vacibdir.
- ✓ Sutqada 8-10 saat dərin yuxu vacibdir.
- ✓ Həftədə 1 dəfə buxar hamamı (20-30 dəqiqə).
- ✓ Günəş vannaları.
- ✓ Oruc tutmaq və müalicəvi aclıq (ildə 2-3 dəfə 3-7 gün)
- ✓ Çiy tərəvəzlər, turp, çuğundur, cəfəri, soğan, sarımsaq təşkil edən salatlar qəbul edilməlidir.
- ✓ Jenşen tinkturası 20-25 damcı gündə 2-3 dəfə.
- ✓ Ürək dam otu dəmləməsi (15 q 1 stəkan qaynar su) 1 xörək qaşığı axşamlar qəbul edilir.
- ✓ Yarğanotu (0,25 q) dəmlənilir və gündə 4 dəfə qəbul edilir.
- ✓ 100 q çətənə toxumu qovrularaq 1 xörək qaşığı bal ilə qarışdırılaraq gündə 2-3 dəfə qəbul edilir.
- ✓ Ətirşah bitkisinin (1 çay qaşığı) 1 stəkan qaynar suda 10 dəqiqə saxlamaq. Səhər və axşam hər dəfə 1 stəkan qəbul edilir.
- ✓ Səhər və axşam ayaqları isti və soyuq suda (kontrast iqlim) yumaq, sərin duş qəbul etmək.
- ✓ Artıq yemək, spirtli içki, tünd çay və kofe qida rasionundan çıxarılmalıdır.

# AZƏRBAYCANLILARIN UŞAQ XƏSTƏLIKLƏRİNDƏ İSTİFADƏ ETDİKLƏRİ DƏRMAN BITKILƏRI

## AĞ CIYƏR VƏ TƏNƏFFÜS YOLU XƏSTƏLIKLƏRI

Şərq başlıqotu
Kartof
Qara qarağat
Kiçik qızılçətir
Dərman qulançarı
Adi razyana
Sarımsaq
Sıxçiçək sığırquyruğu
Mavi süsən
Meşə üzümü
Ikievli gicitkan
Əkin yerkökü
Adi zirə
Qırmızı çuğundur
Adi dəvədabanı
Meşə əməköməci
At əvəliyi
Şərq fısdığı
Qara kəndəlaş
Dərman gülxətmi
Innab
Bostan kələmi

## ANEMIYA

Şərq alması
Şərq başlıqotu
Bozumtul böyürtkən
Cəfəri
Əncir
At əvəliyi
Ağacaoxşar əzvay
Heyva
Itburnu
Adi kasnı
Ağ tut
Meşə üzümü
Əkin yerkökü
Acı yovşan
Dərman zəncirotu
Adi zirinc
Quşqonmaz
Adi moruq
Dərman şahtərəsi

## ANGINA VƏ TONZILLIT

Adi başınağac
Adi qaraqınıq
Adi qaragilə
Qatıqotu
Limon
Adi nar
Adi palıd
Dərman sincanotu
Dərman sürvəsi
Bozumtul böyürtkən
Aptek çobanyastığı
Qırmızı çuğundur
Zəif dazı
Zaqafqaz kəklikotu
Ağ tut
Meşə üzümü
Adi zirinc
Şərq fısdığı
Qara kəndəlaş
Dərman gülxətmi
Dərman gülünbahar
Aptek gücotu

## ARTRIT

Adi dağtərxunu
Üçbölümlü qanqal
Adi qaragilə
Acı yovşan

## ASTMA

Çəltik
Ağacaoxşar əzvay
Əncir
Turp
Acı yovşan
Adi heyva
Sıxçiçək sığırquyruğu

## AVITAMINOZ VƏ HIPOVITAMINOZ

Bozumtul böyürtkən
Dərman şahtərəsi
Murdarçayabənzər
Cəfəri
Quşqonmaz qarağacyarpaq
Limon
Pomidor
Sarımsaq
Sallaq tozağacı
Turp
Soğan
çaytikanı
At əvəliyi
Qara kəndəlaş
Ikievli gicitkan
Itburnu
Bostan kələmi
Əkin yerkökü
Qara qarağat

## BƏLĞƏMGƏTIRICILƏR

Zaqafqaz kəklikotu
Dərman qulançarı
Sıxçiçək sığırquyruğu
Böyük bağayarpağı
Çılpaq biyan
Qara çörəkotu
Adi dəvədabanı
Dərman zəncirotu
Meşə əməköməci
Bataqlıq gəcəvəri
Ikievli gicitkan
Dərman gülxətmi
Dərman xəşənbülü
Adi qaraqınıq
Qıtıqotu
Adi moruq
Adi razyana
Mavi süsən
Iyli şüyüt
Meşə üzümü
Adi zirinc
Adi ardıc
Adi ərik
Innab
Hündür andız

## BIŞMƏCƏ

Adi şam
Üçbölümlü qanqal
Sancaqvari plaun

## BÖYRƏK XƏSTƏLIKLƏRI

Dərman qulançarı
Mərzə
Adi nar
Reyhan
Büküşlü solmazçiçək
Mavi süsən
Əkin yerkökusü
Hamar yırmıqotu
Dərman zəncirotu
Adi zirə
Adi balqabaq
Gürcü boyaqotu
Cəfəri
Adi dəvədabanı
Əncir
Qara kəndələş
Ikievli gicitkan
Itburnu
Bostan kələmi
Kasnı
Qara qarağat

## BRONXIT

Şərq alması
Adi palıd
Dərman sürvəsi
Turp
Meşə üzümü
Adi heyva
Hündür andız
Şərq başlıqotu
Sıxçiçək sığırquyruğu
Çılpaq biyan
Şərq fısdığı

## ÇIBAN (FRUNKULYOZ)

Böyük bağayarpağı
Bostan kələmi
Adi qaraqınıq
Dərman bülünbaharı
Zəif dazı
Dərman zəncirotu
Aptek çobanyastığı
Dərman xəşənbülü

## DƏRININ IRINLI VƏ MÜXTƏLIF XƏSTƏLIKLƏRI

zəncirotu
Bataqlıq gəcəvəri
Qıtıqotu
Dərman gülünbaharı
Quşqonmaz qarağacyarpaq
Adi palıd
Qaya rəvənd
Dərman xəşənbülü
Adi dağtərxunu
ri dəmrovotu
Adi dəvədabanı
Şərq fısdığı
Büküşlü solmazçiçək
Murdarçayabənzər çaytikanı
Aptek çobanyastığı
Əkin yerkökü
Itburnu
Böyük bağayarpağı
Dərman Sarımsaq
Soğan
Çılpaq biy
Üçbölümlü qanqal
Ağacaoxşar əzvay

## DƏRI YARALANMALARI

Böyük bağayarpağı
Dərman xəşənbülü
Ağacaoxşar əzvay
Ikievli gicitkan
Aptek gücotu
Itburnu
Əncir
Adi nar
Sallaq tozağacı

## DƏMROV

Bozumtul böyürtkən
Murdarçayabənzər çaytikanı
Quşqonmaz qarağacyarpaq
Sıxçiçək sığırquyruğu
Dərman gülünbaharı

## DIATEZ

Üçbölümlü qanqal
Sancaqvari plaun

## DIZENTERIYA

Şərq alması
Şərq başlıqotu
Quşqonmaz qarağacyarpaq
Böyük bağayarpağı
Qafqaz quşarmudu
Dərman sincanotu
Zaqafqaz kəklikotu
Çöl qatırquyruğu
Əncir
Adi kasnı
Sarımsaq
Aşı sumaq
Meşə üzümü
Adi zoğal
At əvəliyi

## DISPEPSIYA

Şərq alması
At əvəliyi
Kiçik qızılçətir
Mərcangilə
Aşı sumaq

## EKZEMA

Çılpaq biyan
Bozumtul böyürtkən
Murdarçayabənzər çaytikanı
Aptek çobanyastığı
Qara çörəkotu
Kartof
Sıxçiçək sığırquyruğu
Sallaq tozağacı
Acı yovşan
Dərman zəncirotu

## ENTEREBIOZ

Sallaq tozağacı
Acı yovşan

## ENUREZ (GECƏ)

Adi qaragilə
Mərcangilə
Hamar yırmıqotu

## EPILEPSIYA

Şərq başlıqotu
Dərman qulançarı
Adi qaraqınıq

## FARINGIT

Zəif dazı
Meşə əməköməci
Aptek gücotu
Şərq fısdığı
Qara kəndəlaş
Adi qaraqınıq
Adi palıd
Meşə üzümü

## GÖY ÖSKÜRƏK

Böyük bağayarpağı
Adi başınağac
Sıxçiçək sığırquyruğu
Şərq başlıqotu
Dərman qulançarı
Çılpaq biyan
Sarımsaq
Turp

## HEMORRARGIK DIATEZ

Çin çayı
Itburnu
Şərq küncütü

## HƏZMI YAXŞILAŞDIRICI

Şərq almsı
Böyük bağayarpağı
Adi boymadərən
Cəfəri
Ağ dalamaz
Adi ərik
Bataqlıq gəçəvəri
Adi kasnı
Zaqavqaz kəklikotu
Üçbölümlü qanqal
Dərman zəncirotu
Kiçik qızılçətir
Dərman qulançarı
Əkilən nanə
Adi nar
Pomidor
Adi razyana
Soğan
Iyli şüyüt
Türp
Meşə üzümü
Əkin yerköküsü
Acı yovşan
Adi zirə
Qatıqotu
Adi zoğal

## XOLESISTIT

Adi dağtərxunu
Zəif dazı
Iri dəmrovotu
Dərman gülümbaharı
Dərman sincanotu
Qara qarağat
Adi qaraqınıq
Adi razyana
Acı yovşan
Itburnu
Adi zirinc

## ISHAL

Şərq alması
Adi boymadərən
Aptek çobanyastığı
Adi dağtərxunu
Dərman sincanotu
Çöl qatırquyruğu
Qarağacyarpaq quşqonmaz
Bataqlıq kəcəvəri
Dərman gülxətmi
Əncir
Ağ dalamaz
At əvəliyi
Mərcangilə
Mərzə
Adi palıd
Aşı sumaq
Meşə üzümü
Adi zoğal

## IŞLƏDICI

Aptek çobanyastığı
Qırmızı çuğundur
Iri dəmrovotu
Ağacaoxşar əzvay
Sıxçiçək sığırquyruğu
Dərman zəncirotu
Qara kəndalaş
Adi razyana
Qara rəvənd
Iyli şüyüt
Əkin yerköküsü
Avropa zeytunu
Qaracayarpaq quşqonmaz
Mərcangilə

## IŞTAHARTIRICI

Adi boymadərən
Bozumtul böyürtkən
Cəfəri
At əvəliyi
Ağacaoxşar əzvay
Bataqlıq kəcəvəri
Adi kasnı
Üçbölümlü qanqal
Dərman şahtərəsi
Dərman zəncirotu
Qara qarağat
Adi qaraqınıq
Kiçik qızılçətir
Adi moruq
Əkilən nanə
Adi nar
Pomidor
Qara rəvənd
Soğan
Aşı sumaq
Turp
Acı yovşan
Adi zirə
Qıtıqotu
Adi mayaotu

## KOLIT

Şərq alması
Böyük bağayarpağı
Dərman gülxətmi
At əvəliyi
Zəif dazı
Heyva

## QARA CIYƏR XƏSTƏLIKLƏRI

Gürcü boyaqotu
Adi dağtərxunu
Dərman qulançarı
Zəif dazı
Aptek gücotu
Dərman gülünbaharı
Büküşlü solmazçiçək
Limon
Mərcangilə
Mərzə
Mavi süsən
Meşə üzümü
Əkin yerköküsü
Acı yovşan

Bostan kələmi
Dərman zəncirotu
Üçbölümlü qanqal
Çətirçiçək qızılçətir
Adi kasnı
Itburnu
Adi zirinc

## QASTRIT

Çılpaq biyan
Adi boymadərən
Aptek çobanyastığı
Zəif dazı
At əvəliyi
Ağacaoxşar əzvay
Dərman gülxətmi
Dərman gülünbaharı
Bostan kələmi
Adi qaragilə
Qara qarağat
Kiçik qızılçətir
Adi mayaotu
Mərcangilə
Əkilən nanə
Acı yovşan

## QƏBZLIK

Adi balqabaq
Ağacaoxşar əzvay
Dərman zəncirotu
Meşə üzümü
Sarımsaq
Əkin yerkökusü

## QICOLMALAR

Aptek çobanyastığı
Sıxçiçək sığırquyruğu
Adi mayaotu
Reyhan

## QIZILCA

Adi başınağac
Qara kəndəlaş

## QIZDIRMASALICI, TƏRQOVUCULAR

Hündür andız
Adi başınağac
Şərq başlıqotu
Bozumtul böyürtkən
Qara çörəkotu
Qara qarağat
Limon
Mərcangilə
Adi moruq
Adi nar

Üçdilimli dağrazyanası
Adi dağtərxunu
Adi dəvədabanı
Dərman sincanotu
Dərman qulançarı
Qarağacyarpaq quşqonmaz
Üçbölümlü qanqal
Adi razyana
Ağ tut
Adi üzərlik
Əncir
Qara kəndəlaş
Adi heyva
Adi kasnı
Meşə üzümü

## QIZIL YEL

Üçbölümlü qanqal
Adi qaraqınıq

## QOTURLUQ

Adi dağtərxunu
Adi şam
Ağ tut
Sallaq qozağacı
Adi üzərlik

## QRIP

Bataqlıq kəcəvəri
Soğan

## QURDQOVUCULAR

Hündür andız
Ekək ayıdöşəyi
Adi balqabaq
Şərq başlıqotu
Qara çörəkotu
Zəif dazı
Əncir
Adi ərik
Ikievli gicitkan
Zaqafqaz kəklikotu
Mərcangilə
Adi nar
Sarımsaq
Büküşlü solmazçiçək
Sallaq qozağacı
Ağ tut
Acı yovşan
Çətirçiçək qızılçətir
Qarağacyarpaq quşqonmaz
Adi mayaotu

## QUSMA ƏLEYHINƏ

Əncir
Limon
Adi moruq
Əkilən nanə
İyli şüyüt

## LARINGIT

Meşə üzümü

## MADDƏLƏR MÜBADILƏSINƏ TƏSIR GÖSTƏRƏNLƏR

Adi ərik
Pomidor
Meşə üzümü

## MALYARIYA

Üçdilimli dağrazyanası
Qara kəndəlaş
Adi kasnı
Dərman zəncirotu
Limon
Aşı sumağı
Adi üzərlik
Adi zirinc
Sarımsaq
*Adi zoğal*

## METEORIZM

Aptek çobanyastığı
Bataqlıq kəcəvəri
Dərman xəşənbülü
Zaqafqaz kəklikotu
Adi qaraqınıq
Kiçik qızılçətir
Dərman şahtərəsi
Mərzə
Əkilən nanə
Adi razyana
Reyhan
Qaya rəvəndi
İyli şüyüt
Acı yovşan
Adi zirə
Adi zoğal

## MƏDƏ-BAĞIRSAQ YOLU XƏSTƏLIKLƏRI

Sıxçiçək sığırquyruğu
Dərman sincanotu
Büküşlü solmazçiçək
Böyük bağayarpağı
Adi balqabaq
Qara qarağat
Mərzə
Adi nar
Pomidor
Adi razyana

Adi başınağac
Bozumtul böyürtkən
Murdarçayabənzər çaytikanı
Qırmızı çuğundur
Adi dağtərxunu
Qafqaz quşarmudu
Dərman zəncirotu
Adi dəvədabanı
Meşə əməkməci
Dərman şahtərəsi
Ikievli gicitkan
Aptek gücotu
Adi heyva
Itburnu
Sarımsaq
Mavi süsən
Adi üzərlik
Acı yovşan
Avropa zeytunu
Zəif dazı
Adi zirə
Adi zirinc
Şərq alması
Hündür andız
At əvəliyi
Adi zoğal
Kartof
Bostan kələmi

## MƏXMƏRƏK

Çin çayı
Kəndəlaş
Ağ tut

## MƏRKƏZİ SISNIR SİSTEMİNİN SAKİTLƏŞDİRİCİLƏRİ

Adi başınağac
Aptek çobanyastığı
Dərman zəncirotu
Tüklü damotu
Beşyuvalı yemişan
Adi mayaotu
Meşə üzümü
Acı yovşan
Ağ dalamaz
Adi kasnı

## ORQANIZM MÖHKƏMLƏNDİRİCİLƏRİ

Başlıqotu
Çəltik
Üçdilimli dağrazyanası
Əkin yerkökü
Əncir
Ağacaoxşar əzvay
Itburnu
Limon
Adi nar
Meşə üzümü
Adi kasnı
Innab
Adi zoğal

## OTIT

Şərq alması

## ÖDQOVUCU

Adi ardıc
Adi balqabaq
Gürcü boyaqotu
Zəif dazı
Iri dəmrovotu
At əvəliyi
Bataqlıq kecəvəri
Adi heyva
Itburnu
Adi kasnı
Kiçik qızılçətir
Əkilən nanə
Qaya rəvəndi
Iyli şüyüt
Sallaq qozağacı
Turp
Meşə üzümü
Dərman
zəncirotu
Adi zirinc

## PIYLƏNMƏ

Şərq alması

## RAXIT

Dərman gülünbaharı
Üçbölümlü qanqal
Adi şam
Meşə üzümü
Adi zirinc

## REVMATIZM

Şərq alması
Dərman qulançarı
Adi ardıc
Erkək ayıdöşəyi
Çöl qatırquyruğu
Aptek çobanyastığı
Zəif dazı
Qara kəndəlaş
Aptek gücotu
Dərman xəşənbülü
Dərman zəncirotu
Adi kasnı
Zaqafqaz kəklikotu
Qıtıqotu
Ağ küstüşam
Mərcangilə
Cəfəri
Adi nar
Sallaq qozağacı
Turp
Ağ tut
Adi üzərlik
Meşə üzümü
Hamar
yrmıqotu
Acı yovşan

Adi qaragilə
Qara qarağat

Adi zirinc
Adi qaraqınıq

## SARILIQ

Adi balqabaq
Dərman şahtərəsi
Dərman zəncirotu
Üçbölümlü qanqal

Limon
Adi kasnı
Dəmrovotu
Adi zirinc

## SISTIT

Dərman qulançarı
Adi dəvədabanı
Hamar yırmıqotu
Dərman zəncirotu
Dərman gülxətmi
Çöl qatırquyruğu

Adi mayaotu
Itburnu
Zəif dazı
Adi zirinc
Ağ dalamaz

## SKARLATINA

Çin çayı
Ağ tut

## STOMATIT

Adi başınağac
Murdarçayabənzər çaytikanı
Dərman gülünbaharı
Dərman sincanotu

Zəif dazı
At əvəliyi
Adi qaragilə
Meşə üzümü

## SPAZMOLITIKLƏR

Adi başınağac
Cəfəri
Aptek çobanyastığı
Qaraqınıq
Adi mayaotu
Mərzə

Əkilən nanə
Reyhan
Iyli şüyüt
Əkin
yerkökusü
Acı yovşan
Adi zirə

## ŞƏKƏRLI DIABET

Şərq alması
Bozumtul böyürtkən
Dərman çəpişotu
Qara kəndəlaş
Ikievli gicitkan
Adi kasnı
Bostan kələmi
Adi qaragilə
Dərman qulançarı
Quşarmudu
Limon
Adi nar
Adi palıd
Sarımsaq
Aşı sumaq
Turp
Meşə üzümü
Adi zirinc
Adi zoğal

## TENIIDOZLAR

Adi balqabaq

## ÜRƏK-QAN-DAMAR SISTEMI XƏSTƏLIKLƏRI

Şərq alması
Adi başınağac
Bozumtul böyürtkən
Dərman çəpişotu
Dərman qulançarı
Dərman gülünbaharı
Beşyuvalı yemişan
Əkilən yerkökisü
Meşə üzümü
Ağ küstüşam
Əncir
Adi ərik
Qara qarağat
Pomidor
Soğan
Iyli şüyüt
Ağ tut
Adi heyva
Adi kasnı
Acı yovşan

## *VƏRƏM*

Adi başınağac
Şərq fıstığı
Ağacaoxşar əzvay
Çılpaq biyan
Bozumtul böyürtkən
Qırmızı çuğundur
Çöl qatırquyruğu
Dərman çincanotu
Zəif dazı
Adi dəvədabanı

## VIRUS HEPATITI

Limon
Itburnu

## YANIQLAR

Böyük bağayarpağı
Bozumtul böyürtkən
Murdarçayabənzər çaytikanı
Ağacaoxşar əzvay
Dərman gülünbaharı
Dərman sincanotu
Dərman zəncirotu
Kartof
Bostan kələmi
Adi palıd
Zəif dazı
Əkin yerkökusü
Itburnu
Avropa zeytunu

## YUXUSUZLUQ

Şərq başlıqotu
Dərman zəncirotu
Zaqafqaz kəklikotu
Ağ dalamaz
Adi mayaotu

## ZƏHƏRLƏNMƏLƏR

Çılpaq biyan
At əvəliyi

## ZIYIL

Dəmrovotu
Dərman gülünbaharı

Stasionar müşahidələr göstərmişdir ki, həmin xəstəliklərdə və profilaktik məqsədlər üçün də yuxarıda göstərilən dərman bitkilərinin istifadəsini aparmaq mümkündür.

Göstərilən reseptlər praktikada sınanmış və etibarlı müalicə effektinə malikdir.

## UŞAQ XƏSTƏLIKLƏRINDƏ ISTIFADƏ OLUNAN DƏRMAN BITKILƏRINƏ AID RESEPTLƏR

1. Rp.: Inf. fol. Urticae dioicae ex 15,0-200,0
D. S. 1x.q. 3-4 dəfə gündə (qan bərpa edici kimi).

2. Rp.: Inf. fl. et fol. Malvae sylvestris ex 10,0 – 100,0
D.S. Qarqara üçün (və ya daxilə xörək qaşığı ilə).

3. Rp.: Infusi corticis Berberi ex 10,0 – 200,0
D.S. Gündə 2-6 dəfə, hər dəfə 1- xörək qaşığı 4. Rp.: Berberini hydrochlorici 0,02
Sacchari albi 0,3
M.f. pulv. D.t.d.№ 12.
D.S. Gündə 3 dəfə, hər dəfə 1 toz qəbul etməli

5. Rp.: Harmini hydrochlorici 0,02
D.t.d. № 10 in tabulettis
S. Hər dəfə 1 tablet qəbul etməli

6. Rp.: Tincturae Menthae piperitae 20,0
D.S. Hər dəfə 5-15 damcı qəbul etməli

7. Rp.: Aquae Menthae piperitae 200,0
D.S. Gündə 3-4 dəfə, hər dəfə 1 x. q.

8. Rp.: Infusi foliorum Salvia ex 20,0 – 200,0
D.S. Qarqara etmək üçün

9. Rp.: Tincturae Allii sativi 15,0
D.S. 10-20 damcı gündə 2 dəfə, yeməkdən 30 dəq. əvvəl süd ilə qəbul etməli (bağırsaq atoniyasında)

10. Rp.: Alli sativi 100,0
D.S. 40 qr sarımsaq 100 qr araqda, bağlı qabda dəmlənir – sonra nanə dəmləməsi əlavə olunur. 10 damcı gündə 2-3 dəfə yeməkdən 30 dəq. əvvəl

11. Rp.: Allilcerpi 50,0
D.S. 15-20 damcı gündə 2-3 dəfə (10-15 gün içməli – bağırsaq atoniyasında).

12. Rp.: Herbae Chelidonii pulveratae
Lanolini
Vaselini aa 10,0
Sol. as. carbonici 0,25 % gtt X
M. f. pasta (Plantasanum)
D.S. Xaricə (dəri vərəmində, ziyillərdə)

13. Rp.: Fructus Carvi 100,0
D.S. 1 xörək qaşığını 1 stəkan suda 5 dəq. qaynatdıqdan sonra, 1 stəkan dəmləməyə 1 xörək qaşığı şəkər tozu töküb, 1 çay qaşığı ilə gündə 5-6 dəfə içməli (köpdə-qazqovucu kimi).

14. Rp.: Inf.herbae Herniariae ex 20,0 – 200,0
D.S. 1 disert qaşığı gündə 3-4 dəfə

15. Rp.: Sirupus Rosae 250,0
D.S. 1 disert qaşığı gündə 3 dəfə (polivitamin kimi)

16. Rp.: Fructus Rosae 100,0
D.S. 1 xörək qaşığı meyvə 2 stəkan qaynar suda, örtülü vəziyyətdə 10 dəq. qaynadılır. Sonra süzülüb 1/2 – 1/4 stəkan gündə 2-3 dəfə içməli (infeksion xəstəliklərdə, polivitamin kimi)

17. Rp.: Fructus Rubi idaei 50,0
D.S. 2 xörək qaşığı quru meyvə 1 stəkan qaynar suda 15-20 dəq. dəmlənilir, süzülür, 1-2 saat ərzində 2-3 stəkan qaynar dəmləmə içilir (tər qovucu kimi)

18. Rp.: T-ae Scutellariae 25,0
D.S. 10-15 damcı gündə 2-3 dəfə yeməkdən 30 dəq. əvvəl (tərqovucu, öskürəyi sakitləşdirici kimi)

19. Rp.: Radicis Rhei 0,3 (0,5)
D.t.d. № 6 in tabulettis
S. Gündə bir dəfə, 1/2 tablet qəbul etməli (10 yaşlı uşaq- işlətmə dərmanı kimi)

20. Rp.: T – rae Rhei amarae spirituosae 50,0
D.S. Bir çay qaşığı güncə 2 dəfə yeməkdən əvvəl (möhkəmləndirici kimi)

21. Rp.: Fructus Sorbi
Fructus Rosae aa 30,0
M.f. species
D.S. 2 çay qaşığı 2 stəkan suda 1 saat dəmlənib, süzülür, şəkər əlavə edib 1/3 stəkandan gündə 3-4 dəfə içməli (hipovitaminozlarda)

22. Rp.: Fructus Sorbi 100,0
D.S. 1 disert qaşığı, 1 stəkan suda çay kimi dəmlənib, 1/3 stəkan gündə 2-3 dəfə içməli (hipovitaminozun profilaktikası üçün)

23. Rp.: Dec. Gemmarum Pini ex 10,0 – 200,0
D.S. 1 des. qaşığı gündə 2-3 dəfə (bəlğəmgətirici, tərqovucu kimi)

24. Rp.: Inf. Gemmarum Pini ex 10,0-100,0
D.S. Tənəffüs yolu xəstəliklərində inqalyasiya üçün

25. Rp.: Tab. herbae Millefolii 0,3
D. t. d. № 20.
S. 1/2 tab. gündə 3 dəfə (qanbərpaedici kimi)

26. Rp.: Inf. herbae Millefolii ex 15,0-200,0
D.S. 1 des. qaşığı gündə x 3 dəfə (həzmi yaxşılaşdırmaq, qanbərpa etmək üçün)

27. Rp.: Fructus Ribis nigri 50,0
D.S. 1 xörək qaşığı 1 stəkan qaynar suda dəmlənir, 1/2 stəkan gündə 1 neçə dəfə içilir (vitaminli içki kimi)

28. Rp.: Dec. fructus Ribis ex 20,0-200,0
D.S. 1/2 xörək qaşığı gündə 3 dəfə (sidikqovucu)

29. Rp.: Fructus Rosae
Fructus Ribis nigri aa 50,0
M.f. species
D.S. 1 xörək qaşığı 1 stəkan qaynar suda dəmlənir, 30 dəq. Gün ərzində 1/2 - 1 stəkan 1 neçə dəfə içilir (iştahartırıcı kimi, vitaminli içki)

30. Rp.: Inf. fruct. Sambuci nigrae ex 18,0-180,0
D.S. 1-2 desert qaşığı gündə 3 dəfə (tərqovucu)

31. Rp.: Florum Sambuci 100,0
D.S. 1 xörək qaşığı 1 stəkan qaynar suda 20 dəq. dəmlənib, süzülür, 1/4 stəkan 3-4 dəfə içilir (tərqovucu, sidikqovucu kimi)

32. Rp.: Inf. flores Chamomillae ex 20,0-200,0
D.S. Desert qaşığı ilə 2/3 dəfə (bağırsaqlarda iltihab zamanı, dermatitlərdə, boğaz, ağız, əsnək qarqarası zamanı)

33. Rp.: Flores Chamomillae 200,0
D.S. 1 xörək qaşığı 1 stəkan qaynar suda dəmlənib, soyudulur. (imalə və qarqara üçün)

34. Rp.: Inf. flores Chamomillae ex 15,0-200,0
D.S. 1 desert qaşığı 2-3 dəfə (enterokolitdə)

35. Rp.: Inf. baccarum Jiniperi ex 10,0-200,0
D.S. 1 xörək qaşığı – gündə 3-4 dəfə (sidikqovucu)

36. Rp.: Foliorum Vaccinium myrtillusi 100,0
D.S. 1 desert qaşıq yarpaq 1 stəkan qaynar suda 30 dəq. dəmlənir, sonra 1 desert qaşıq 3-4 dəfə içilir (sidikqovucu)

37. Rp.: Inf. grandularum Lupuli ex 10,0-200,0
D.S. 1 desert qaşıq gündə 3 dəfə (sistitdə sidikqovucu kimi)

38. Rp.: Inf. grandularum Lupuli ex 10,0 -200,0
D.S. 1 desert qaşığı 2-3 dəfə (sakitləşdirici, yuxugətirici kimi, qıcolma əleyhinə)

39. Rp.: T-rae Plantaginus majoris 30,0
D.S. 15-20 damcı gündə 3-4 dəfə (bəlğəmgətirici kimi)

40. Rp.: Inf. fol. Plantiginis majoris ex 30,0-200,0
D.S. 1-2 desert qaşığı 2 saatdan bir – 10 yaşında (öskürəkdə)

41. Rp.: Succi Plantaginis 500,0
D.S. 1 desert və ya çay qaşığı gündə 3 dəfə yeməkdən 15 dəq. əvvəl (xroniki kolit, qastritdə)

42. Rp.: Inf. rad. Althaeae ex 10,0 – 200,0
D.S. 1 desert qaşığı gündə 3 dəfə (bəlğəmgətirici)

43. Rp.: Tincturae Absinthii 30,0
D.S. 15 damcı yeməkdən 30 dəq. əvvəl (acı maddə kimi)

44. Rp.: Herbae Absinthii
Folii Salviae
Fructus Juniperi aa 30,0
M.D.S. 1 çay qaşığı 1 stəkan qaynar suda dəmlənir, 1/2 stəkan gündə 2 dəfə qəbul edilir (ödqovucu kimi)

45. Rp.: Dec. florum Helichrysi plicatii ex 6,0 (12,0)- 300,0
D.S. 1/2 - 1/3 stəkan gündə 2-3 dəfə (ödqovucu kimi)

46. Rp.: Flamini 0,05
D.t.d. № 20 in tabul.
S. 1/2 - 1/3 tablet gündə 3 dəfə yeməkdən 30 dəq. əvvəl (xroniki xolesistitdə)

47. Rp.: Infusi herbae Fumariae officinalis ex 10,0-15,0-300,0
D.S. Gündə 2-3 dəfə, hər dəfə 1 çay qaşığı, desert qaşığı qəbul etməli (mədə –bağırsaq xəstəliklərində)

48. Rp.: Extracti Fumariae officinalis fluidi 50,0
D.S. Gündə 3 dəfə, hər dəfə 40-50 damcı qəbul etməli (qanazlığında, sarılıqda)

49. Rp.: Decocti foliorum Farfarae ex 15,0-200,0
D.S. 1 çay qaşığı və ya 1 desert qaşığı 2-3 saatdan bir (bəlğəmgətirici kimi)

50. Rp.: Foliorum Farfarae 50,0
D.S. 2 xörək qaşığı 1 stəkan qaynar suda çay kimi dəmlənir, 1 çay qaşığı, 1 desert qaşığı 2-3 saatdan bir içilir (bəlğəmgətirici kimi)

51. Rp.: Extr. Filicis maris aetherei 0,5
D.t.d. № 10 in capsulis gelatinosis
S. 1 kapsuladan 12 yaşdan böyük uşaqlarda hər 20 dəqiqədən bir, 2 %-li çay sodası məhlulu ilə içməli. Axırıncı kapsuladan 20 dəqiqə sonra işlədici duz içməli (lentvari qurdların qovulması)

52. Rp.: Filixani 0,5
D.t.d. № 16 in tabulettis
S. 1 tabletdən hər 5 dəqiqədən bir, axırıncı tabletdən sonra işlədici duz qəbul etmək (lentvari qurdları qovmaq üçün)

53. Rp.: Inf. h. Leonuri ex 20,0-200,0
D.S. 1 desert qaşığı gündə 3 dəfə (sedativ kimi)

54. Rp.:Herbae Leonuri
Folii Menthae
Radicis Valerianae aa 15,0
M.f. species
D.S. 1 çay qaşığı 1 stəkan qaynar suda dəmlənir, 1/3 stəkan gündə 3 dəfə qəbul olunur (sakitləşdirici və spazmalitik təsir edir)

55. Rp.: Olei Sesami 200,0
D.S. Gündə 3 dəfə, hər dəfə 1 çay və ya desert qaşığı qəbul etməli (qanın laxtalanmasını sürətləndirir)

56. Rp.: Chloroformii 5,0
Olei Sesami 25,0
M.D.S. Xaricə sürtmək üçün

57. Rp.: Olei Hyperici 30,0
D.S. Zədələnmiş nahiyəyə sürtməli (yaralarda)

58. Rp.: Tincturae Hyperici 15,0
D.S. Gündə damağa 2-3 dəfə sürtməli və ya 1/2 stəkan suya 20-30 damcı töküb qarqara etməli (stomatitlərdə, anginada, üzdə səpgilər olduqda)

59. Rp.: Dec. h. Hyperici ex 8,0 – 200,0
D.S. 1/3 – 1/4 stəkan gündə 3 dəfə yeməkdən 30 dəq. əvvəl və ya yeməkdən 1 saat sonra (mədə-bağırsaq, qara ciyər xəstəliklərində)

60. Rp.: Florum Calendulae 40,0
D.S. 1,5 çay qaşığı 2 stəkan qaynar suda 15 dəq. dəmlənir, süzülüb gün ərzində üçməli (qastritdə)

61. Rp.: T-rae Calendulae 25,0
D.S. 15-20 damcı gündə 3 dəfə (yaşdan asılı olaraq) və ya xaricə - binti isladıb zədələnmiş nahiyəyə qoyurlar-yanıqda, donmada, yaralarda və s. (iltihab əleyhinə)

62. Rp.: T-rae Calendulae 5,0
Vaselini 25,0
M.f. ung.
D.S. Dərinin zədələnmiş nahiyəsinə sürtməli - yara, xora, dəmrov, yanıq və s. (iltihab əleyhinə)

63. Rp.: Ol. Hippophaeae 100,0
D.S. 1 desert qaşığı 3 dəfə (xora xəstəliyində)

64. Rp.: Inf. herbae Origani ex 15,0 – 200,0
